www.kitabxana.net

Milli Virtual Elektron Kitabxana

**“Çağdaş Azərbaycan poeziyası”: N 12 (53 - 2016)**

# Binnət Eloğlu

# Elin səadəti, ümidi

**(Şeirlər və poemalar)**

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

**YYSQ – 2016**

28.01.2016
Yeni Yazarlar və Sənətçilər Qurumu
www.yysq.org

**www.kitabxana.net**

**Milli Virtual-Elektron Kitabxananın təqdimatında**

Bu e-kitab Yeni Yazarlar və Sənətçilər Qurumunun **"Çağdaş Azərbaycan poeziyası"** ədəbi-kulturoloji layihəsi çərçivəsində təqdim edilir. Elektron kitab N 12 (53 - 2015)

**Kulturoloji layihəni maliyyələşdirən qurum:**

**YYSQ - http://www.yysq.org**

# Binnət Eloğlu

# Elin səadəti, ümidi

**(Şeirlər və poemalar)**

Redaktə və bütün hüquqlar müəllifə məxsusdur.

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

**Bakı, YYSQ – 2016**



DİQQƏT

***Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.***

**BİNNƏT ELOĞLU**

# Elin səadəti, ümidi

**(şeirlər və poemalar)**

**"Elm və təhsil"**
**Bakı – 2015**

**Binnət Eloğlu. Elin səadəti, ümidi. Bak, "Elm və təhsil", 2015, 376**

Binnət Eloğlu (Binnət Dilən oğlu Əhmədov) 1940-cı il iyunun 1-də Tovuzun Düz-Cırdaxan kəndində müəllim ailəsində anadan olub. 1956-cı ildə 7 illik məktəbi əla qiymətlərlə bitirib. 1956-1959-cu illər kolxozda çoban, birinci, dəmir yolunda fəhlə işləyib. 1959-1962-cı illər hərbi xidmətdə olub. 1962-ci ildən Bakıda xarrat, rəssam işləyə-işləyə gecə məktəbini bitirib, 1974-cü ildə M.F.Axundov adına Pedaqoji İnstitutu bitirib. İnstitutda gündüzlər oxuyarkən axşamlar 6 saylı əmək-islah koloniyasında xarratlıqdan dərs keçib. 1974-cü ildən 1991-ci iləd ək Radiozavodda mülkü-müdafiə rəisi, orta məktəbdə müəllim işləyib. 15 yaşından şeirin bütün formalarında lirik və satirik şeirlər və poemalar yazır.

Kitabda Vətənini, millətini canından artıq sevən, elin dərdini, həsrətini öz dərdi, həsrəti, səadətini, ümidini öz səadəti, ümidi sayan şairin ayrı-ayrı vaxtlarda yazdığı, satirik və lirik şeirlərinin, poemalarının az bir hissəsi çap olunmuşdur. Ümid edirik ki, növbəti kitabları bundan da uğurlu olacaq.

# ELİN SƏADƏTİ SƏADƏTİMDİR

## Mayımıztək may olmaz

*Azərbaycan Demokratik Respublikasının*
*80 illiyim ithaf edirəm.*

Vətənimdə tapmışam mən öz səadətimi.
Elə sədaqətimi, ülvi məhəbbətimi,
Bu taya rəğbətimi, o taya həsrətimi
Nə dilim deyə bilər, nə əlim yaza bilər,
Nə rəssam çəkə bilər, nə alim yaza bilər.

Mənə zövq, ilham verir yurdumun hər qarışı,
Hər otu, hər çiçəyi, hər ağacı, hər daşı.
Gözəllik üzə gülür burda hər addımbaşı.
Dünyanın heç bir yeri bu diyara tay olmaz,
Müstəqillik müjdəli mayımıztək may olmaz.

Bülbülləri mat edir şirin, şəkər dilimiz,
Xariqələr yaradır memar, rəssam əlimiz.
Dünyanın hər yerindən füsunkardır elimiz.
Suyumuz, şəfalıdır, havamız səfalıdır,
Oğulumuz-qızımız cəsurdur, vəfalıdır.

Gözüm kimi sevirəm bu eli, bu torpağı,
Gözlərimə tutyadır hər otu, hər yarpağı.
El dərdini çəkməyi, el oduna yanmağı.
Qəhrəman Bağır xandan, Səttar xandan öyrəndim,
Babəkdən, Xətaidən Cavad xandan öyrəndim.

Hər bir dərddən ağırdır, böyükdür həsrət dağı,
Yuxumu əsrə çəkir Dərbənd, Təbriz fərağı.
Millətimi sevməyi, dərdlərini yazmağı,
Fətəlidən, Sabirdən, Cəlildən öyrənmişəm,
Səhhətdən, Şəhriyardan, Xəlildən öyrənmişəm.

Öyünməyə haqqı var şərəfli millətimin,
Binnətəm, el yolunda şəhid vermişik min-min.
Büstünə baş əyirəm, böyük Məhəmməd Əmin,
Sən qurmusan Şərqdə ilk demokratiya dövləti,
İlk dəfə sən vermisən xalqıma hüriyyəti.

***27 may 1989***

## Xoşbəxt o kəsdir ki...

Xoşbəxt o xəstədir loğmanlar onun,
Dərdinə bir çarə araya bildi.
Xoşbəxt o əsgərdir müzəffər oldu,
Yurdunu yağıdan qoruya bildi.
Xoşbəxt o Leylidir hər gün telini,
Məcnunu oxşayıb, daraya bildi.
Xoşbəxt o kəsdir ki, sevdi elini,
Xalqın bir işinə yarıya bildi.

***22.05.1990***

## Qoltuq

*Qoltuqda yaşamaq yaşamamaqdır*
***Xəlil Rza***

Qucaqda qızınasan,
Qucağa sığınasan,
Sığınanda nə ola.
Ancaq sığınmayasan
Yadların qoltuğuna.
Ömürdümü, gündümü
Qoltuqda yaşamaq da?
Vallah, ölüm yaxşıdır
Qoltuqda yaşamaqdan.
Qoltuqda qızınmadıq,
Qoltuğa sığınmadıq.
Bizi öz qoltuğuna
Qoltuq ağacı etdi

Qoltuğuna çəkənlər.

Çiynimizə mindilər
Qoltuq möhtacı etdi
Qoltuğuna çəkənlər...
Yükümüz ağır oldu,
Çiynimiz yağır oldu.
Bizi öz qoltuğuna
Çəkən bizə yad idi.
Qoltuqda kölə idik,
Adımız azad idi.
Özümüzün deyildi
Qoltuğumuz, çiynimiz,
Öz başımız olsa da,
Əsir idi beynimiz.
Hökm eləyib dedilər:
- Unudun özünüzü,
Unudun sözünüzü,
Unudun dininizi,
Unudun dilinizi.
Aldandıq şüarlara,
İnandıq fəsadlara,
Sinəmiz sipər oldu
Döyüşlərdə yadlara.
Bəzən baş daşı oldu
Bizə öz silahımız,
Ya da qoltuq ağacı
Oldu son pənahımız,
Yadlar cəbhədən döndü
Ad-sanla, gülə-gülə,
Biz cəbhədən qayıtdıq
Bədənimizdə güllə,
Qoltuğumuzda çəlik,

Xəstə, şikəst, gözü kor.
Bizə qiymət vermədi,
Barı, sağ ol demədi,
Bizi cəbhəyə zorla

Yola salan gorbagor,
Yenə bizi qoltuğuna
Çəkdi "xilaskar" kimi
Ancaq bir sözümüzü
Eşitmədi kar kimi.

***11.10.1989.***

## Hamı alver eləyir

Sabunçu bazarında
Alver edir çərçilər.
Hər cürə mal çıxarır
Bazara alverçilər.
Tapmazsan belə bazar
Gəzsən bütün dünyanı.
Bu bazarda hər şey var;
Quş südü, can dərmanı,
Köhnə, təzə, xarici;
Köhnə bal, oğurluq mal,
Saxta qızıl, saf inci,
Şınıxdan gəlmiş motal,
Bakıda düzəldilmiş bal.
Burda qumbara, naqan
Satan da var, alan da,
Samaqon da, tiryək də
Sərxoş da, hallanan da...
Bığıburma, kəlpeysər
Həmzələr – fərarilər
Şidırğı alver edir.
Bu biqeyrətlər demir:-

"Qarabağ əldən gedir"...
Hamı alver eləyir,
Cəbhəyə kim gedəcək?
Qarabağı yağıdan
Bəs kim azad edəcək?

***16.10.1989.***

## Yox

*(Bir qaçqının dedikləri)*

Öz elimdə bir qəribəm,
Gedənim yox, gələnim yox.
Nə itirib, axtaranım,
Nə yerimi bilənim yox.
Evimi aldı Vartazar,
Didərginəm, oldum bezar,
Çadırda çəkirəm azar,
Bir çarə eləyənim yox.
Yad yurdumu viran qoyur,
Millətimi giryan qoyur.
Nə gözüm yaşı, quruyur,
Nə rəhm edib silənim yox.
Günüm-qüssə, gecəm-fikir,
Qəm sinəmi çözür-sökür.
Tərsa yerimdə turp əkir,
Ona "rədd ol", deyənim yox.
A Binnət, yad qəsdimizə
Durub, yağı olub bizə.
Tankla gəlir üstümüzə,
Birini əyləyənim yox.

***17.08.1989***

## Yer qalmadı

Yaşımız yerləri tutdu,
Selə-suya yer qalmadı.
Ahımız göyləri tutdu,
Günə, aya yer qalmadı.
Elə başçı oldu manqurt,
Viran oldu, talandı yurd.
Artdı çaqqal, çoxaldı qurd.

Üç toğluya yer qalmadı.
Selə döndü xalqın qanı,
A Binnət, ədalət hanı?
Həmzələr tutdu meydanı,
Koroğluya yer qalmadı.

***14.03.1990.***

## Heyranam hüsnünə

Heyranam hüsnünə, gözəlliyinə
A günəş söhbətli Azərbaycanım,
Həmişə demişəm, deyirəm yenə,
Sənsən yurdum-yuvam, şöhrətim-şanım.
Sənin şad günündə mən şad oluram,
Qəlbindən qəlbimə sevinc süzülür.
Ülvi cəlalından ilham alıram,
Üzündə təbəssüm, şeiriyyat gülür.
Daha şən olursan may ayında sən,
Qoynunda bəzənir dağ-dərə, meşə.
Deməklə, yazmaqla qurtarmaz, Vətən!
Sənin uğurundan, səndən həmişə.
Vurğun-vurğun oldu gözəlliyinə,
Bülbülə bülbüllər heyran qaldılar.
Qurtuluş, azadlıq verməkçün sənə,
Yolunda çoxları şəhid oldular.

Nasirlər, şairlər gəlsin alayla,
Söz açsın hüsnüyün mənzərəsindən,
Kür, Araz əl çalır, göy Xəzər layla,
Kim doyar bu yerin təranəsindən?
Al-əlvan geyirsən sən ilk baharda,
Yazın bayramlıdır, payızın toylu.
Nigar qızlarıntək qızlar var harda?
Mərd oğulların var Koroğlu boylu.
Var olsun qoynunda yaradan-quran,

Dahilər diyarı – Odlar ölkəsi!
Qoy mənə rahatlıq verməsin bir an,
Eşqinlə yaratmaq, yazmaq həvəsi..

***12.07.1970***

## Səhər açılmır, baba

Üzüm haqda qalıb, gözüm üfüqdə
Səhər açılmayır, açılmır, baba.
Canımı dərd alır, ürəyimi qəm,
Səhər açılmayır, açılmır, baba.
Nə səs var, nə səmir, hamı-yuxuda,
Alim də, cahil də hamı-uyğuda.
Zülmət pərdəsini götürmür Xuda,
Səhər açılmayır, açılmır, baba.
Göz yaşım bulanlıq selə dönübdür,
Hər anım bir uzun ilə dönübdür,
Ümidim gözümdə külə dönübdür,
Səhər açılmayır, açılmır, baba.
Ay batıb, ulduzlar qeybə çəkilib,
Dan yerinə qara pərdə çəkilib.
Sabahın ülkəri hara əkilib?
Səhər açılmayır, açılmır, baba.
Qığılcım işarmır ümid külündən.
Ərşə səda çatmır elin ünündən,
Əl üzdüm göylərin təvəkkülündən,
Səhər açılmayır, açılmır, baba.
Bilmirəm nə imiş günahlarımız
Allaha çatmayır niyə ahımız?!
Həm şahımız yatıb, həm Allahımız,
Səhər açılmayır, açılmır, baba.
Biri-birisindən bədxah, uğursuz,
Üstümə bir sarı, bir qara quduz.
Hürüyür. Qalmışam yalqız, yuxusuz,
Səhər açılmayır, açılmır, baba.
Yaş axır, qoymayır qapana gözüm,
Nə qədər səbr edim, nə qədər dözüm?!
Heç kəsi oyatmır harayım, sözüm,

Səhər açılmayır, açılmır, baba.
Nə vaxt ayılacaq yatanlar, Allah,
Olacaq Binnətin halından agah?
Necə olacaqdır halımız Sabah?
Səhər açılmayır, açılmır, baba.

***18.02.1991.***

## Milli məclisdə

Təzə xəbərçün açdım köhnə telegüzgünü,
Milli məclisin canlı göstərilir iş günü,
Açılmır gizli, aşkar mətləblərin düyünü,
Doğru danışan kimdi, yalan danışan kimdi?
Qalmışam mat-məəttəl, kimə inanım indi?

Dinən millət adından danışır öz sözünü,
Mənsəbə çatmaq üçün gözə soxur özünü,
Millət vəkillərinə dikib millət gözünü,
Millət vəkilləri də göz tikib vəzifəyə.
Daha millət vəkili adlanır onlar niyə?

Orda ağız diyəni eşitmir bəzən qulaq,
Düz deyəni susdurur yalan deyən, işə bax.
Cəlili, Qəmküsarı, Sabiri hardan tapaq?

Nə Mirzə Möcüz yoxdu, nə də Üzeyir yoxdur,
İndi mədhiyyə yazan, meyxana deyən çoxdur.

Bilinməyir Vətəni kim istəyir, kim satır,
Hamısı: “Birləşək”, - deyir, hərə bir yana dartır,
Nə araba tərpənir, nə yük mənzilə çatır,
Xərçəng palçığa dartır, balıq suya, qaz göyə.
Belə getsə, Qarabağ qalacaqdır özgəyə,

Bəlkə aralarında maskalı yadlar da var,
Öyrədilmiş casuslar, ögey soyadlar da var,
Satqınları, yadları tapaq, boğaq harda var!
Rədd olsun aramızdan parazitlər, zəlillər!
Qanımıza susayan xunxar bitlər, zəlillər.

Papaqçı papaq tiksin, çəkməçi ayaqqabı,
Hesabdarlıq eləsin kim bilirsə hesabı,

Elə başçı seçməyək boyaqçını, qəssabı.
Zərgərlər zərgər olsun, dülgərlər dülgər olsun.
Xalq kimi sevib seçsə, xalqa o rəhbər olsun.

Qorxuram əlbir ola axmaq ayı, bic tülkü,
Gözümüzü açınca bizə dəyə bizimki,
Dostlar, gəlin birləşək, dağılır vətən mülkü,
Dostlar, əlbir olanda, zəlil olar düşmənlər,
Yetməz öz istəyinə xam xəyala düşənlər.

***26 fevral 1991***

## Ağla, gözlərim, ağla

Ağla, qan ağlayan gözlərim, ağla,
Boşalt ürəyini qan ağlamaqla.
Qalib gəldi haqsız, döyüşdə haqla,
Yağılar sevindi – kamına çatdı,
Bu nə güzərandı, bu nə həyatdı?!

20-si yanvar, şənbə axşamı,
Hər yandan gülləyə tutuldu hamı.
Qətlama  yas tutdu göylərin şamı,
Qatillər Bakıda qırğın yaratdı,
Şəri bir-birinin üstünə atdı.

Elə başçı olan başsız bambılı,
Olmadı millətin halıdan halı.
Kürən daz xallının artdıqca yalı,
“Quraq, tikək”- deyib, vurub dağıtdı
Ara düzəltmədi, aranı qatdı.

Böyüklü-kiçikli el geydi qara,
Xalqımız yas tutdu qətl olanlara...
Haqq tələb edəni çəkdilər dara,
Haqqa meyl edənin haqq səsi batdı,
Məhbəsə günahsız düşənlər artdı.

Tanklar, beteerlər, toplar hay saldı,
Şəhərdə çaxnaşma, ölüm vay saldı.
Sağlar, yaralılar hay-haray saldı,
Haraylar nə şaha, nə Rəbbə çatdı,

Ah-vaydan fələyin qulağı batdı.

Nə satan, nə alan oldu gülləri,
Matəmin əlləri yoldu gülləri,
Vətən bağlarının soldu gülləri,
Şəhid olanların məzarı üstə,
Al qərənfil qoydu hərə bir dəstə.

Ziyarətə gəldi uşaq, gənc, qoca,
Əllərində çiçək, gül xonça-xonça,
Gül-çiçək səpdilər yollar boyunca.
Dağüstü parkına gələnlər artdı,
Binnət ağlar gəldi, ağlar qayıtdı.

***20.01.1990.***

## Görəm o günü

Gülə, sevinələr ağlayan kəslər,
Yaslı ürəklərdən dərd-qəm əkilə!
Sərhədlər sökülə, gömrüklər uça,
Ölkədən-ölkəyə yollar çəkilə.
Dayana sınaqlar, susa silahlar,
Kaş bu dəqiqədən, kaş lap bu andan.
Yanaqları yaşlar, qəlbləri ahlar
Yandırıb-yaxmaya, sevinə insan!
Kaş görəm bir-birinə dost olub insan,
Nə silah, nə əsgər, nə də səngər var.
Hamının bir ola toyu, bayramı,
Görümdə qalmaya bu xoş arzular!

***12.06.1964***

## Küləklər

İki yüz il günəşdən
Düşmədi isti bizə.
Əsdi quzey küləyi,
Sopsoyuq kölgə düşdü
Şimaldan üstümüzə.
Güneydən də bir isti-
Cəhənnəm alovutək,

Səmum küləyi əsdi.
Bizi yandırıb, külə
Döndərməyə tələsdi.
Quzetin ayazından,
Güneyin bürküsündən,
Gözlərimiz qapandı.
Əsarətdə yaşamaq,
Ölümdən də yamandı.
Halımıza yananlar,
Qeydimizə qalanlar,
Getdi gedər-gəlməzə.
Azadlıq, müstəqillik,
Qadağan oldu bizə.

***20.04.1972***

## Qalıb

Bir ildir analar qara,
Bağlaya-bağlaya qalıb.
Gözlər dönüb bulaqlara,
Çağlaya-çağlaya qalıb.
Mərdlərimiz şəhid olub,
Güllərimiz vaxtsız solub,
Saçını qız-gəlin yolub,
Ağlaya-ağlaya qalıb.
Binnət, hələ axşam-səhər,
Ataları boğur qəhər.
Sinəmizi qüssə, kədər
Dağlaya-dağlaya qalıb.

***15.01.1991.***

## Elin səadəti səadətimdir.

Kəsməyir qüzeyin qarı, küləyi,
Qışdır. Xalqımızın işi çətindir.
Dayanmır güneyin qara kələyi
Gəl, a xilaskarım, bizi isindir.
Qüzeydən, güneydən, kəs qara yeli,
Qoru tufanlardan milləti, eli.

Key ayıdan, kəmtər xərdən gileyli,
Baba, millətindir, məmləkətindir.
Çoxalır günbəgün qüzey sazağı,
Ayılar xalqıma kəsilib yağı.
Hədələyir Naxçıvanı, Qazağı,
Güya bu yerlər gic Avanesindir.
Gətirdi yurduma mujik Vartanı,
Ona yurd elədi abad obamı.
Yerevan elədi İravanımı,
Yurdsuza yurd olan səltənətimdir.
Ellə itirmişəm bəxtiyarlığı,
Mənə azadlıqdır el azadlığı.
Mənim şadlığımdır elin şadlığı,
Elin səadəti səadətimdir.
Yada qaldı Göyçəm, həm Göyçə gölüm,
Oymağım, ovlağım, çəmənim, çölüm.
Yada qalan elə bağlandı yolum,
El Binnətsiz, Binnət elsiz yetimdir.

***23.02.1993.***

# Yerin görünür sənin.

*Bizim məktəbin keçmiş şagirdi – Namiq Həmzəyev Todan kəndindən maşınla silah apararkən Buzlaq kəndində ermənilər maşını partladıblar, Deyirlər: - Namiq istəsə qaça bilərdi, o, son nəfəsinə kimi vuruşub, onu vurublar, üstünə benzin töküb yandırıblar. Akstafanın Göyçəli kəndində dəfn olunub. 238 saylı məktəb onun adını daşıyır, məktəbin önündə büstü qoyulub.*

Şagirdimiz, fəxrimiz,
Cəsur, qəhrəman Namiq,
Yenə anım günündə
Büstünün önündəyik.
Bizim qəlbimizdəsən
Keçsə də zaman, Namiq.
Müəllimlərin, dostların
Əllərində gül-çiçək,
Baş əyirlər büstünə.
Hamısı növbə ilə
Səndən danışır yenə.
Anan köks ötürərək,
Deyir: - Fəxrim, vüqarım,
Xəzan olan baharım,

Vətənin bu günündə
Yaşayaydın sən gərək.
Səni qarşılayaydıq,
Başına gül səpərək,
Sən zəfərə dönəndə.
Qəhrəman anasıtək
Fəxr eləyəydim mən də.
Böyük şərəfdir, oğul,
Vətən yolunda ölmək,
Sən çatdın bu şərəfə.
Yağılar yurdumuzu
Yenə alıb hədəfə.
Yenə də səksəkəli
Günləridir Vətənin.
Bu gün ön cərgələrdə
Yerin görünür sənin...
Bir tunc büstün önündə baş əyirəm hər səhər,
Sonra da şeirə dönür ürəyimdən keçənlər.
Namiqin tunc büstüdür baş əydiyim bu heykəl,
Mərdliklə şəhid olub səkkiz il bundan əvvəl.
Onun igidliyinə düşmənlər mat qalıblar,
Todan-Buzlaq yolunda əhatəyə alıblar,
Öldürüb, üstə benzin töküblər, yandırıblar.
O vətənin yolunda yandı səməndər kimi,
Göyçəlidə dəfn oldu qəhrəman əsgər kimi.
Onunla fəxr edirik,
Öyünürük deyirik:
- Bizim şagirdimizdir bizim qəhrəmanımız,
Gəlin, ondan igidlik dərsi alaq hamımız.

***25.09.1999.***

## Məni

Quzeyin acı rüzgarı,
Dolu tökür, döyür məni.
Yay üstümə od yağdırır,
Qış buza bələyir məni.
Oddan köynək geyinmişəm,
Tez yanmışam, gec sönmüşəm.

Fələk, əlçimə dönmüşəm,
Qur cəhrəni, əyir məni.
Üstümə od-alov yağır,
Özüm yorğun, yüküm ağır.
Çiynim qançır, özüm fağır,
Qəm şələsi əyir məni.
Əhdi dandı vəfasızlar,
Sinəm göynər, qəlbim sızlar.
Ikiüzlü həyasızlar,
Daha bəyənməyir məni.
Dilim ahın kösöyüdür,
Sinəm kədər, dərd böyüdür.
Gecə-gündüz qəm üyüdür,
Binnətin can dəyirmanı.

***04.11.1990***

## Azərbaycan

Hərrac bazarına qoyulub, ya Rəbb!
Nə qədər alınıb, satılasıyam?!
Sahibsiz yurd kimi görən neçə yol
Neçə yad ölkəyə qatılasıyam?
Sığmaz dastanlara mənim dərdlərim
Hanı el qeyrətli mərd igidlərim,-
Xətayi qüdrətli mərd igidlərim?
Yenəmi talanıb-çapılasıyam?
Cahana gəlmişəm Günəşlə qoşa.
Şahların tacıtək ayaqdan başa,
Yaquta, zümrüdə, zərə, daş-qaşa,
İnciyə, almaza tutulasıyam.
Qoynuma sığmayır qaçqın, didərgin,
Dövlətim, sərvətim talanır hər gün.
Babək nizəsitək qəzəblə bir gün,
Yadların köksünə atılasıyam.
Darğalıq elədi bəsdir rus mənə,
Ağalıq elədir bəsdir fars mənə,
Ağalıq elədi hər dəyus mənə,
Nə vaxt köləlikdən qurtulasıyam?!

***24.02.1991***

## Azərbaycanam,

## Savalanam, Qafqazam

*(Coğrafiya müəlliminin xahişi ilə*
*Viktorina üçün yazdım.)*

## Azərbaycanam

Odlar ölkəsiyəm – Azərbaycanam,
Cahana günəştək nur salanam mən.
Əlli milyon canda vahid bir canam,
Qoymayın yüz yerə parçalanam mən.
Qoynum laləzərdir, qucağım cənnət,
Məni xoş saata yaradıb xilqət.
Təbrizim qalalı Gəncəmə həsrət,
Qəmi sevincimdən çox olanam mən.
Şöhrətdə günəşdən parlaq ulduzam,
Qışda da gül açan baharam-yazam.
Cahanın tacına parlaq almaram,
Saxsı, qeyləm, sınam-parçalanam mən.
Binnətin sözündə yoxdu bir yalan,
Mənəm yer üzünə bu gün səs salan,
Xətayi hökmüylə ölkələr alan,
Babək qılıncıyla öc alanam mən.

***5 dekabr 1997***

## Savalanam mən

Odlar ölkəsində uca bir dağam,
Bostan ha deyiləm uralanam mən.
Mərdlərimə qala, sığınacağam,
Yadların canına xof salanam mən
Göz yaşım Araztək axar ahımdan,
Göydə ildırımlar çaxar ahımdan,
Qoşqar qardaşımdan, Şahdağ şahımdan
Cinlər ayrı salmış Savalanam mən.
Gündüz gülşənimə günəş nur çilər,
Gecə gülzarıma ay qonaq gələr,
Öpər ayağımı ağ şəlalələr,
Başı buludlardan mən alanam mən.
Nə deyim bəxtimə düşən qismətə,
Dağ da dözə bilməz hücrə-həsrətə.

Binnət mənə həsrət, mən də Binnətə,
Az qalır həsrətdən havalanam mən.

***5 dekabr 1997***

## Qafqazam

Adıma gah Qafqaz, gah Qaf deyirlər
Tarixlər şahidi Qafam-Qafqazam.
Simruq əfsanəli min dastanım var,
Başım açılmır ki, birini yazam.
Mənim göz yaşımdır ağlar bulaqlar,
Sinəmə dağ çəkib işğalçı şahlar.
Sinəmi oyublar amanlar, ahlar.
Gülü vaxtsız solmuş baharam-yazam.
Alvızım, Murğuzdan düşübdür ayrı,
Bağlayıb yolları hicranın qarı,
Ellər tərk eləyib göy yaylaqları,
Yanıb yanıq Kərəm, aşıqsız sazam.
Hüseyn qonaq gəlmir, yoxdu Ələsgər,
Küsüb Şuşa, Laçın, köçüb Kəlbəcər.
Binnət dərdlərimi yardı müxtəsər,
Kafərlər əlində şərə güdazam.

***5 dekabr 1997***

## Bu demokratiyadırmı?

Sənin mersedeslərin,
Ciplərin qoşa-qoşa.
Mənim qaloşum yoxdur.
Sən dollarla gəzirsən
Ciblərin daşa-daşa,
Mənim quruşum yoxdur.
Hər axşam restorandan –
Ziyafətdən gəlirsən
Evimə asa-asa.
Yanında cananların –
Nataşa, Saşa, Maşa.
Biri-birindən gözəl,
Tamaşadır-tamaşa...
Arvad xəstə, uşaqlar
Qalıb ağlaşa-ağlaşa,
Nə dərmana pulum var,

Nə də şora, lavaşa.
İki aydır gecikir,
Qol çəkmirəm maaşa.
Dərd məni əldən salıb,
Az qalır ağlım çaşa.
Bir rəhm eləyən yoxdur
Gözümdən axan yaşa.
Nə başçılar eşitmir,
Nə Allah fəryadımı.
Bu demokratiyadırmı?
Ailəm beş nəfərdir,
Bir aylıq maaşıma
Bir it yaşamaz bir ay.
On beş ailəyə çatar
Bir aylıq daş-başına,
Sən tikdirdiyin saray.
Həyətində bağ, hovuz,
Bağçanda cüt-cüt gəzir
Həm cüyür, həm də tovuz.
Beş metrdən ucadır,
Daşdan hörülmüş barın,
Dəbdəbəli darvazan.
Qəsrini vəsf etməyi,
Bacarmaz nağıl yazan.
Divarları mərmərdən,
Kirəmitlidir damı,
Heyran edir adamı.
Vəzifən, daş-başın var,
Nə istəsən edərsən.
Evinin yanındakı
Kasıb komalarnı da,
Alıb yernə qatarsan,
Ya da orda ev tikib,
Bir milyona satarsan.
Özümə bir komacıq
Tikməyə, vallah, mənim
Yox imkanım-əlacım.
Bilməyirəm əl açım

Qohumamı, yadamı,
Bu demokratiyadırmı?
Tuzların oğulları
Xarici ölkələrdə,
Kef çəkir villalarda,
Təmtəraqlı barlarda.
Lütlərin oğulları
Ya qanlı cəbhədədir,
Ya buz kimi səngərdə,
Həm qışda, həm baharda...
İnstitut qapıları
Pullulara açıqdır,
Pulsuzlara bağlıdı.
Məhkəmədə pullular,
Nüfuzlular haqlıdır.
Günahı olmasa da,
Kasıblar günahlıdır.
Məzlum daim günahkar,
Zalım daim haqlıdır,
Varlı yediyi yağ, bal,
Növ-növ kürü, kabab, aş.
Kasıb çoxdan unudub
Ətin, yağın dadını.
Bu demokratiyadırmı?
Ölkənin varı, malı,
Özəlləşmə adıyla
Dağıdıldı, talandı.
"Vahid" bankda minlərlə
Əmanətçi məzlumun
Hüququ tapdalandı.
Başqa əmanətlər də
Yasaq kitablar kimi
Yandı, oda qalandı.
Əmanəti verilmir
Əmanətçi olanın,
Pulu əlindən çıxıb,
Gözü yaşlı qalanın.
Hüququ tapdananın,

Bir yol çəkilmir adı,
Bu demokratiyadırmı?
Tələbə təqaüdlə
Bir ay dərsə gedəmməz;
İnstitut büfetində
Üç yol nahar edəmməz,
Hər gün gərəkli olan
Üç kitab ala bilməz,
Bir daxmada üççə gün
Kirəkeş qala bilməz,
Üç-dörd litr süd alıb,
Qatıq da çala bilməz.
Heç yerdə, vallah, insan
Belə alçala bilməz,
Heç yerdə "Ura" deyib

Belə alçala bilməz
Bu demokratiyadırmı?
Daha hörmət edilmir
Tələbəyə, müəllimə,
Ziyalıya, alimə.
Kasıbın güclə çatır
Pulu şora, kələmə,
Oxuyana, yazana
Gülür, lağ edir hamı.
Harınlar, müftəxorlar,
Oğrular, haramxorlar
Adam saymır adamı,
Bu demokratiyadırmı? ***10 may 1992***

## Necə dolanım, görən

*(daxili qafiyə)*

Nə mayor, nə gizirəm, nə vəkil, nə vəzirəm,
Nə şaham, nə nazirəm, kim mənə hörmət edər?
Hər əmrə müntəzirəm, dərd əlində əsirəm.
İşsizəm, iş gəzirəm, qapı-qapı-dərbədər.
Nə iş var, nə iş verən, nə bir sifariş verən,

Necə dolanım görən, fikirdəyəm şam-səhər.
Qoltuğumda boş torba, gəzirəm oba-oba.
Ehtiyac qova-qova, edib məni dərdəcər.
Dağılsın bu zamana, fürsət verib yamana,
Gümanım yox gümana, gecəm-qəm, günüm-kədər,
Binnətəm, çox dözmüşəm, ümüddən əl üzmüşəm,
Mən gəzməkdən bezmişəm, məndən bezib küçələr.

***16.03.1989***

## Necə görüm... Qarabağı?

Necə görüm, gəzim mən Qarabağı,
Görməli, gəzməli harası qalır?
Günəş isitməyir daşı, torpağı,
Hələ orda qışın havası qalır.
Yağıya qalalı Qırxqır yaylağı,
Ağlayır, sızlayır İsa bulağı.
Tülküyə verilir şirin oğlağı,
Çaqqala aslanın kahası qalır.
Bəd külək yurduma quzeydən əsir,
Bizi qırıb, məhv etməyə tələsir.
Ayılar, tülkülər bərəni kəsir,
Qabana maralın talası qalır.
Hələ el-obamda tökülür qanlar,
Elindən, evindən qaçır insanlar.
Xankəndindən çoxdan qovulub xanlar,
Yurdlarında kafir tulası qalır.
Sağalmaz yaram var, çəkilməz dərdim,
Dərdimin üstünə dərd yağır hər gün.
Qartalım, tərlanım düşür didərgin,
Quzğuna onların yuvası qalır.
"Yan"lar ov ovlayır ovlaqlarımda,
"Ov"larla kef çəkir yaylaqlarımda...
Dönmə Haykanuşun qulaqlarında,
Natəvan xanımın tanası qalır.
Binnət, qanlı sular hələ durulmur,
Xrınxar "dığa"ların boynu vurulmur,
Haqq-ədalət məhkəməsi qurulmur,
Haqlıyla haqsızın davası qalır.

***30 oktyabr 1993***

## Əvvəl doğulub

Mənim taleyim də görünür buymuş
Möhnətim özümdən əvvəl doğulub.
Ayrılıq cəbrindən zəhərə dönmüş,
Qismətim özümdən əvvəl doğulub.
Əkiz doğulmuşam kədərlə-qəmlə,
Gah qəm həmlə edir, gah kədər həmlə.
Əzabla, ağrıyla, dərdlə, sitəmlə,
Ülfətim özümdən əvvəl doğulub.

Araza dönübdür gözümün yaşı,
Binnəti anlamır hər nadan, naşı.
Yadlar aman vermir görəm qardaşı
Həsrətim özümdən əvvəl doğulub.

***27.05.1968***

## Qaçqınam

*(Bir qaçqının dilindən)*

Evim, elim-obam, xaraba qalıb,
Qaçqınam, neylirsən haralıyam mən?
Döyə-döyə çıxarıblar evimdən,
Təpədən dırnağa yaralıyam mən.
Didərgin ömrümün yoxdur mənası,
Şəhid arvadıyam, itkin anası.
Ələsgərin nakam Səhnəbanısı,
İmanın nisgilli Maralıyam mən.
A Binnət, sorğuna nə cavab verim?
Qardaşdan, bacıdan yoxdur xəbərim.
Qalmağa evim yox, getməyə yerim,
Qohumdan, qonşudan aralıyam mən.

***18.05.1992***

## Bölünmüş xalq

Göylərdə gəzsə də bəzən xəyalım,
Yerin övladıyam, yer Vətənimdir.
Min nemət yetirən ana torpağım,
Sevinci sevincim, qəmin qəmimdir.
Sən mənə əzizsən, ay Ana Vətən!
Aranın aranım, dağın dağımdır,

Təbriz ürəyimdir, Dərbənd canımdır,
Bakı, Gəncə gözüm – nur çırağımdır.
Göydə xəyalımı topa tutmasın,
Yerdə şəhərləri topa tutanlar!
Yox olsun cahanda niyyəti qara,
Təxribat törədib, araqatanlar.
Çatsın cəzasına parazit, faşist,
Ortada kef çəkib, qıraqda gəzən.
Baxın, İraq hara, Amerika hara,
Bağdadı dağıtdı Nyu Yorkda gəzən.
Bəsdir, son qoyulsun qəsbkarlığa,
Bağrına od düşüb, yanmasın yerin.
Ad daşıyandır, yer yaşayanın,
Yadlar, yerlilərə rahatlıq verin.
Bilirəm bölünmüş xalqın dərdini,
Gözüm Koreyadan uzaq olsa da.
Yerdən də, göydən də böyükdü dərdi.
Bölünmüş bir xalqın dərdi dünyada.

***17.12.2010***

## Sən məni

Nadan, həsrətliyəm, könlüm açılmaz,
Tutsan da qızıla, lələ sən məni.
Pərişan könlümün qəmi azalmaz,
Büksən də çiçəyə, gülə sən məni.
Qara, tara düşüb karvanım., köçüm,
Üzüm güləndə də ağlayıb içim.
Hər gün toy olsa da, görməyib heç kim
Gülüb, oynamağa tələsən məni.
Basarkeçər fərağıyla yanmışam,
Göyçə gölnü elin yaşı sanmışam.
Göyçə həsrətiylə alovlanmışam,
Kərəmə tay etmə, Lələ, sən məni.
Yanıram, dənizə girsəm sönmərəm,
Alçağa alçalıb, yada enmərəm.
Ya şəhid olaram, yada enmərəm,

Naşi, tanımırsan hələ sən məni.
Binnətəm, dərdimi hər nadan bilməz,
El dərdi çəkənin üzü heç gülməz.
Qarabağsız bir an könlüm sevinməz
Qələbə çal, xoş hal elə sən məni! ***22.03.1994***

## Ay Vətən

*(daxili qafiyə)*

Qəlbim, könlüm Kəbə sanar, hər an başına dolanır,
Gecə-gündüz səni anır, dilim, ay. Vətən, ay Vətən.
Sənsən mənim qibləm, pirim, daşım-qaşım simuzərim.
İncim, dürrüm, cəvahirim, ləlim, ay Vətən, ay Vətən.
Anam, atam, balam, yarım, yurdum, yuvam, mülküm, varım,
Bağım, bağçam, çəmənzarım, gülüm, ay Vətən, ay Vətən.
Vurulmuşam, vurğununam, heyranınam, Məftununam,
Sevgilimsən, Məcnununam, Leylim, ay Vətən, ay Vətən.
Camalın nurdur, işıqdır, tamaşadır, yaraşıqdır,
Səni sevir, sənə aşıqdir  könlüm, ay Vətən, ay Vətən.
Canım-gözüm, ömrüm, günüm, sən qalib ol, mən öyünüm,
Sənə baxdıqca sevinim, gülüm, ayVətən, ay Vətən.
Mehri, ülfəti hədsizsən, ülvisən, paksan, təmizsən.
Binnətə candan əzizsən, elim, ay Vətən, ay Vətən.

***12.03.1970***

## İzim Azərbaycan torpağındadır

Ay Vətən! Mən sənə elə aşiqəm,
Adın nəğmə kimi dodağımdadır.
Xəzansız bağında ötən bülbüləm,
Yerim hər gülünün budağındadır.
Eşqinlə döyünür sinəmdə ürək,
Qəlbimdə arzusan, könlümdə dilək.
Başına dolannam pərvanələrtək,
Meylim günəş nurlu çırağındadır.
Sənsən həyatımın cahı-cəlalı,
Həm istiqbalısan, həm istiqlalı.
Şərəfim, şöhrətim ulduzlu, aylı

Ucalan üçrəngli bayrağındadır.
Bilirəm, xalqımın hürriyyəti də;
Oğlumun, qızımın səadəti də,
Elimin, obamın aqibəti də,
Ay Vətən, işıqlı sabahındadır.
Elə sevirəm ki, Azərbaycanı ,
Verməram, versələr bütün dünyanı.
Müzəffər xalqımın hünər dastanı
Tarixin zər xətli varağındadır.
Sənsən eşqim, andım, sevgimin ilki,
Əbədi var olsun bu eşq, bu sevgi!
Binnətəm,öyünüb, fəxr edirəm ki,
İzim Azərbaycan torpağındadır.

***27 may 1975***

## Qarabağım talan olub

Yurdumun bir tərəfi, dörd ildir ki, talan olub.
Quzeydən bəd yel əsib, Qarabağım talan olub.
Ayının hər tələsi, hər cələsi, hər toru var,
Düşən tora, cələyə, ya tələyə nalan olub.
Kasıb ata-analar xar olub evlad yanında,
Bir günlük çörək üçün alçağa alçalan olub.
Yaltaqlar, karyeristlər hamıdan qabaqda durub,
Yalançı vədəbazın nitqinə əlçalan olub.
Seçkidən qabaq çoxu Qarabağı allam deyir,
Seçilənin heyif ki, verdiyi vəd yalan olub.
El dərdi yuxusunu ərşə çəkibdir Binnətin,
Bədxahlar deyir: - Bu da el qeydinə qalan olub.

***24.06.91***

## Vətən

Eşqinlə, sevginlə ötən bülbüləm,
Bağçamsan, çiçəyim, gülümsən, Vətən.
Sənə vurulmuşam, sənə mailəm
Məcnunam, sevgilim –Leylimsən, Vətən.
Sənsən candan əziz dövlətim, varım,
Dağımda qarımsan, bağmda barım.
Qayğıkeş anamsan, vəfalı yarım,
Yurdumsan, yuvamsan, elimsən, Vətən.

Dilindir, sözündür şəkərim, balım,
Adım, şan-şöhrətim, cahi-cəlalım.
Amalım, istəyim, arzum, iqbalım,
Həyatımsan, ömrüm günümsən, Vətən.
A parlaq Günəşim, nurlu çırağım,
Qışda qışlağımsan, yayda yaylağım.
Varlığım, sağlığım, bəxtiyarlığım,
Ata yurdum, ana dilimsən, Vətən.
Günəşli gündüzüm, al səhərimsən,
Könlümə ruh verən ilham pərimsən.
Xəzinəm, dəfinəm, simuzərimsən.
Binnətəm, almazım, ləlimsən, Vətən

***28 may 1970***

## Bəşər azad olsun, xalqım şad olsun!

Hələ davam edir zalıma qarşı,
Məzlumun azadlıq mübarizəsi.
Çox qulun qanına qarışıb yaşı,
Bağlanıb ağızı, çıxmayıb səsi.
Hər zaman qərəzkar hakimlər, rüşvət
Xar edib ədalət məhkəməsini.
Suçsuzlar dinləyib qəlbimdə möhnət,
Haqsızlığın acı qəhqəhəsini.
Özünü düşünüb zülmkar şahlar,
Talanıb yüzlərlə obalar-ellər.
Ərşə tüstü kimi ucalıb ahlar,
Çıxarılıb gözlər kəsilib əllər.
Tamahkar işğalçı hökmdarların
Ölkələr zəbt etmək olub niyyəti.
Sezarlar hökmiylə Spartakların
Çarmıxda quşlara yem olub əti.
Çox günahsız qanlar, axıb cahanda,
Çingizlər, Teymurilər içdi, doymadı.

Keyxosrov boğuldu tökdüyü qanda,
Dastanlara düşdü Tomrisin adı.
Dövran min illərlə cahandarlara

Verdi şan-şöhrəti, gücü-qüdrəti
Ədalət gəzəni çəkdirər dara,
Soyuldu dərisi, kəsildi  əti
Azadlıq yolunda can verənlərin
Çoxunun əliylə qəbri qazıldı,
Nə baş daşı oldu düçsuz ölənin,
Nə sinə daşına adı yazıldı...
Min doqquz yüz səksən səkkizinci il,
Yenə quduzlaşdı azğın daşnaklar.
Quzeydən yurduma əsdi qara yel,
Bizə düşmən oldu nankor "qardaşlar"
Yenə Qarabağda qırğın, fəlakət
Törətdi erməni növfaşistləri.
Yurdumda törətdi dava, təxribat
Daşnaqların cara "sadiq" itləri.
Göy kimi gurladıq, şimşək tək çaxdıq.
Tökdük kor gözünü mütləqiyyətin.
Zülmü, haqsızlığı yandırdıq-yaxdıq.
Dağıtdıq mülkünü məhrumiyyətin.
Özümüzün olsun öz  Xankəndimiz
Xilas edək nankor ermənilərdən!
Heç vaxt əyilmərik yağılara biz,
Daşnaklar tarixi oxusun hərdən.
Qoy Naqasakini, Xirosımonu,
Xocalını bir də dağıtmasınlar.
Qoruyaq həm yeri, həm asimanı,
Sabaha ümidlə baxsın insanlar!
Dərd, taun nəfəsli "Mnitmen", "Titan"
Raketləri qıraq əllərimizlə.
Qoy bizi andıqca gələcək insan,
Öyünsün xeyirhax əməlimizlə!

Hərbi sınaqlardan qoy azad olsun
Yerin altı, üstü, hava da, su da,
Bəşər azad olsun, xalqın şad olsun,
Qalmasın gözündə bir arzusu da!

***26.02.1994***

## Çox dözmüşük əzablara

Azadlığa, istiqlala
Qovuşuruq təzə-təzə.
Çox dözmüşük əzablara
Müstəqillik gəzə-gəzə.
Özmüzə məhbəs hörmüşük,
Evmizi qəfəs görmüşük.
Yetmiş il ömür sürmüşük,
Cəfalara dözə-dözə.
Üç növbəli işə getdik,
Yayda yandıq, qışda sitdik.
Dərdimizi dastan etdik,
Tərsdən xəlvət yaza-yaza.
Guya hər arzuya çatdıq,
Sovetlər himni yaratdıq.
Yadlara heykəl ucaltdıq,
Canımızı üzə-üzə.
Gah yurdumuzdan qovulduq,
Gah sürgündə öldük, qaldıq.
Gah da yüz-yüz şəhid olduq
Qanımızda üzə-üzə.
Binnət, çox quduzlaşdılar
Qırmızı papaq basdılar.
Məhv etməyə çalışdılar
Bizi tankla əzə-əzə.

*22.02.1990*

## Kimi

Ay Vətən, başına dolannam, zəvvar
Kəbəmin başına dolanan kimi,
Özümü sanaram xoşbəxt, bəxtiyar
Yolunda can qoysam Cavad xan kimi.
Sənsiz ərşə çıxar fəğanım, ünüm,
Bir an üzüm gülməz, açılmaz eynim.

Harda oluramsa sənədir yönüm,
Günəbaxan günə boylanan kimi.
Sənsən Mədinəm də, Məkkəm də mənim,
Müqəddəs Kəbəm də, qibləm də mənim,
Sənsən ilk pənahım aləmdə mənim,
Sənə sığınmışam mən balan kimi.
Əsirlər üstünə qara yel kimi,
Çökürlər sinənə əzrayıl kimi,
Qəmim Arazlaşıb, axır sel kimi,
Ağır dərdlərin var Savalan kimi.
Yada göz dağıdır varın, sərvətin,
Gözəllik yurdusan sən təbiətin.
Gözünə nur verdin oğlun Binnətin,
Günəş yer üzünə nur salan kimi.

***29 yanvar 1991***

## Qalıb

Qəlbimdə yanvarın qarı,
Ərimiyib yaya qalıb.
Həsrət qollarım uzalı,
Bu taydan o taya qalıb.
Gəlir uşaq, qoca, xəstə-
İnsan seli dəstə-dəstə
Şəhidlərin qəbri üstdə
Güllər taya-taya qalıb.

Binnətdən küsməsin yarı,
Yoxdu varı, iqtidarı.
Elin varı, ixtiyarı,
Dazbaş-ağlı zaya qalıb.

***20.01.1991***

## Ağsu dolaylarında

Ay şofer, asta sür, insafın olsun,
Bu yerin dağına, düzünə baxım,
Dinləyim səsini dağda kəkliyin,

Düzdə ceyranların izinə baxım.
Doyunca seyr edim qoy bu diyarı,
Məhşurdur bu yerin heyvası, narı.
Gəl, bu dolayları asta en barı,
Qoy burdan Ağsunun özünə baxım.
Bir sözümü var, yerə salma, yaxşımı,
Harda bulaq görsən, saxla maşını.
Torpağa hörmətlə əyib başımı,
Buzlu bulaqların gözünə baxım.
Binnət istəməz ki, bir könül sına,
Ürək tab eləməz can yanğısına.
Əylə,bu gözəlin qal qayğısına,
Mən də qaynı kimi sözünə baxım.

***25.09.1973***

## Mövzum vətən, mahnım ana...

Yüz il yazsam gecə-gündüz,
Mövzum vətən olacaqdır,
Mahnım-ana.
Vətən eşqi günəş kimi
Yoluma nur salacaqdır,
Gözüm Vətən olacaqdır,
Canım-ana.
Ana yurdun cəlalına
Baxıb ilham alacağam
Dönə-dönə.
Bu eşq ilə yüz yaşda da
Olsam, cavan olacağam,
Dostlar, yenə.
Vədə sadiq qalacağam-
Qəlbim vətən olacaqdır,
Canım-ana.

***20.10.1972***

## Hələ

Gecədir, ulduz az, ay da görünmür,
Qar yağır, şaxtadır, ayazdır hələ.

Quzeyin bəd yeli tuğyan eləyir,
Nə qış yeni girib, nə yazdır hələ.
Yurdumdan çəkilmir quzeyin qışı,
Yenə də dəbdədir köhnə vərdişi.
Bizə zülm etməkdir peşəsi, işi
Gücü var, hər işi tarazdır hələ.
Qar ilə örtülüb hər yol, hər küçə,
Səhər açılmayır, uzanar gecə.
Ya Rəbb! Sabahımız olacaq necə?
Gecə göyə qara atlazdır hələ.
Nə vaxt çəkiləcək bu qara pərdə?
Nə vaxt parlayacaq günəş göylərdə?
Səhər olacaqmı görəsən bir də?
Səhərə ümid də çox azdır hələ.
Rədd olsun qarlı qış, yox olsun zülmət!
Yaz gəlsin, gün çıxsın, gülsün təbiət.
Vurğundur bahara, günəşə Binnət,
Bahar, Günəş, arzu-murazdır hələ.

***28 yanvar 1991***

## Vətən dərdimi

Dağ daşıya bilməz, dərə götürməz,
Dağlanmış sinəmdə bitən dərdimi.
Dərdli aşıqlardır, xanəndələrdir
Hüznlə, kədərlə ötən dərdimi.
Sevincim qəm olub, şadlığım qəhər,
Dövran bada verdi ömrümü hədər,
Yediyim qüssədir, içdiyim qəhər,
Anlamaz hər yoldan ötən dərdimi.
Bir gül də, çiçək də vaxtsız solmasın,
Heç kimin həsrətdən gözü dolmasın!
Amandır, heç kəsə nəsib olmasın
Tapın, mənə verin itən dərdimi.
Binnətəm, ummaram yaddan kərəm mən,
Dərbənd, Görüş deyib dərd çəkərəm mən.
Dünyada heç dərdə dəyişmərəm mən
Təbriz həsrətimi, Vətən dərdimi.

***19.06.1989***

## Yağımı tanıyıram mən

Gözüm yaxşı görür, ağlım da kəsir,
Dostumu, yağımı tanıyıram mən.
Məni üşütdükcə xəzri küləyi,
Guzeyi qarğayır, qınayıram mən.
Qarabağ dərdliyəm, tapılmır çarəm,
Kafirlər dincliyimi eləyib haram.
Sağalmır yanvarda aldığım yaram,
Şeirimlə yaramı sarıyıram mən.
Torpağımı tanklar ilə əkirlər,
Məscidimi toplar ilə sökürlər.
Yurduma minalı çəpər çəkirlər,
Əl vursam qanımı yalayıram mən.
Binnətəm, gülməyir pərişan üzüm.
BMT-yə çatmır, mənim haqq sözüm.
El qeyrəti çəkən axtarır gözüm,
Xalqa bir xilaskar arayıram mən.

***29.07.1991***

## Mənim

Görən bu dünyada nədir günahım,
Qəm-qada çəkilmir başımdan mənim?
Tanklarla dağılıb aranım, dağım,
Araz yaranıbdır yaşımdan mənim.
Başımıza güllə yağdı yanvarda,
Hoyunuza çatan olmadı darda.
Xocalım dağıldı qarda, boranda,
Yazım ağır oldu qışımdan mənim.
Binnətəm naləmi eşitmir karlar,
Yanıram, tüstümü görməyir korlar.
Elə hala salıb məni nankorlar,
Bəzən adım çıxır huşumdan mənim.

***27.02.1992***

## Sən ülvisən, müqəddəssən

Ana Vətən, sənsən mənə candan əziz cahanda,

Səyyar xəyal qucağından uzaqlaşmaz bir an da,
Həm vəfalı sevgilimsən, həm sayğılı anamsan,
Həm evimsən, Vətənimsən, həm füsunkar dünyamsan.
Ata kimi qayğıkeşsən, ana kimi mehriban,
Qardaştək darda dayaqsan, bacıtək candan yanan.
Abi-həyat havasıdır bağ-bağçanda əsən meh.
Səhər-səhər güllərin yanağına qonan şeh,
Elə bil ki, zər üstünə şəfəq salan almazdır,

***

Çəmənzarın çiçəklidir, çiçəklərin solmazdır.
Sən ülvisən, müqəddəssən, suyun safdır, havan təmiz,
Camalıyın şöləsindən işıq alır gözlərimiz.
Pozulmasın milyard illər cah-cəlalın, təmtərağın
Günəşlə yanaşı dursun aylı, ulduzlu bayrağın!
Sənin ülvi məhəbbətin ürəyimdə məskən salıb,
Şair təbim, rəssam qəlbim calalından ilham alıb.
Adın gəzir dodaqlarda ən gözəl təranə kimi,
Dolanıram başına mən, çırağa pərvanə kimi.
Şəninə yazdığım hər söz, könüllərdə məskən salıb,
Səni görən hər müsafir təntənənə heyran qalıb.
Xəqanitək, Nizamitək mədh eləyə biləm səni,
Nə mədhiyyə, nə mərsiyə yazammıram əhv et məni.
Mən Binnətəm, tərifini hər şeirimdə yaza-yaza
İstəyirəm şöhrətini qaldıram aya, ulduza.

***26 may 1988.***

# Ağladım

*(Müəllim yoldaşım Ziyad müəllimin oğlu*
*Müşfiq həkimin dilindən)*

Yaşına çatmadım, İsmayıl əmi,
Göz yaşlarım oldu ümman, ağladım.
Bizi bir-birimizdən aralı saldı,
Sızlada-sızlada zaman ağladım.

Vardı düz ilqarın, düz etiqadın,
Bir an dilimizdən düşməzdi adın.
Sındırdın belini atam Ziyadın,

Elədin qəddini kaman, ağladım.
Talandı Göyçəmiz, Qayabaşımız,
Göyçə gölü oldu qanlı yasımız.
Qarışıbdır yasa, vaya başımız,

Ərşə çıxıb ah-vay, aman, ağladım.
Qaçqın, köçkün, didərginik hamımız,
“Yeraz” olub, ünvanımız, namımız,
Dağılıb evimiz, sönüb şamımız,
Pozulub səliqə-səhman, ağladım.
Pərən-pərən düşüb dərbədər olduq,
Nəsibi, qisməti qəm-qəhər olduq,
Dərd çəkməkdən dəli, dərdəcər olduq,
Tapılmadı bizə dərman, ağladım.
Gavur bizi qaçqın saldı, dözmədik,
Yurdumuz yağıya qaldı, dözmədik.
Əcəl səni birdən aldı, dözmədik,
Oldu qohum-qonşu giryan, ağladım.
Qırılır çadırda qaçqının çoxu,
Ağlar gözümüzdən çəkilib yuxu.
Bizi dara çəkir fəlakət, qorxu,
Zəlzələ, qasırğa, tufan, ağladım.
Daşdan-daşa dəyir başımız hələ,
Daş-qalaq olunur yaxşımız hələ,
Kəndxuda seçilir naşımız hələ,
Olur elin malı talan, ağladım.
İndi də od vurur yurduma yağı,
Yandırır məscidi, qəbiristanlığı.
Ay Binnət, sağalmır sinəmin dağı,
Yoxdur çara qılan loğman, ağladım.

***11.07.2006.***

## Dərdimizi hamı bilir

Dərdimizi hamı bilir,
Eldən gizli saxlasaq da.
Həsrət bizdən əl çəkməyir,
Biz həsrəti dağlasaq da.
Dadanıbdır darımıza,
Yağı girib aramıza.
Çarə yoxdu yaramıza,
Yüz min dərman bağlasaq da.
Binnətəm, olsaq da haqlı;
Sən o tayda qəlbi dağlı,
Mən bu tayda qəlbi ahlı,

Rəhm etmirlər ağlasaq da.

***12.04.1966.***

## Köçkün, qaçqın, didərginəm

*(Bir qaçqının dilindən)*

Neyləyirsən haralıyam?
Yüz yerindən yaralıyam.
Yurdum-viran, sinəm dağlı,
Gözüm-yaşlı, yolum-bağlı,
Saya gəlməz dərdim çoxdur,

Nə evim, nə elim yoxdur.
Sığışmıram yerə, göyə,
Söyə-söyə, döyə-döyə
Qovubdular öz elimdən.
Didərginəm, qaçqınam mən...
Orda güllü yaylaqlarım,
Sərin sulu bulaqlarım,
Bağım, bağçam, barım qalıb,
Evim, malım, varım qalıb.
Orda balım, arım qaldı,
Nəyim vardı gavur aldı.
Xalılarımı aldılar,
Corabsız yola saldılar.
İtirdim bacı-qardaşı,
Qohumu, yarı-yoldaşı,
Qurumur gözümün yaşı
Kimi Yeraz, kimi köçkün,
Kimi yurdsuz, kimi qaçqın,
Kimi deyir didərginəm,
Ah çəkməkdən yanır sinəm...
Aynabəndli evim vardı,
Abad obam, elim vardı.
Yada qaldı Göyçəm mənim,
Göy yaylağım, göy çəmənim.
Ağlar mənəm, nalan mənəm,
Yurdu yada qalan mənəm,
Köçkün, qaçqın, didərginəm.

***21.02.1992.***

## Bir həsrətim var

Odlar Ölkəsinə-Azərbaycana,
Mənim günəş boyda məhəbbətim var.
Təsviri sığışmaz şeirə, dastana,
Səfalı füsunkar məmləkətim var.
Mən həm bu taylıyam, həm də o taylı,
Həm həsrət paylıyam, həm sevinc paylı.
Gerbim, bayrağım var ulduzlu, aylı.
Himnli, qüdrətli səltənətim var.
Qoymurlar keçməyə üstən Arazın,
O tayı görməkdir arzum-murazım.
Millətlər oxusun hər dildə yazın,
Mənim BMT-yə şikayətim var.
Əsdi üstümüzə güzey boranı,
Araz sərhəd oldu, kəsdi aranı.
Kim böldü bölünməz Azərbaycanı,
Ona həm kinim var, həm nifrətim var.
Yaşasın Səttarxan kimi el mərdi,
Ayrılıq qəddimi yaya döndərdi.
Binnətəm bəxtimə düşüb el dərdi.
Təbriz, Dərbənd boyda bir həsrətim var.

***25.04.1992.***

## Sevdim vətən torpağını

Vətənini sevməyənin, könül evi viranədir.
Könlüm, ruhum Azərbaycan torpağına pərvanədir.
Odlar yurdu eşqim, andım, şərəfim, şöhrətim, adım.
Öz yurduma vurulmuşam, yad bir elə vurulmadım.
Yurdum, hüsnün-bir tamaşa, gözəlliksən başdan-başa,
Yer üzünün bəzəyisən, bu dünya durduqca yaşa!
Sevdim Vətən torpağını, ay ulduzlu bayrağını,
Heç bir külək söndürməsin, yurdumuzun çırağını.
Gözəl Vətən, sənsən anam, çırağımsan, pərvanənəm,
Sən Leylisən, sevgilimsən, Məcnununam, divanənəm.
Ana vətən, nə gözəlsən, gözəllikdən xalq oldun sən,
Alqış böyük cəlalına, camalına vuruldum mən.
Dağın uca, dərən dərin, havan ılıq, suyun sərin,
Gecən aylı, günün nurlu, məskənisən ağ günlərin.

Cahanla əkizdir yaşın, müqəddəsdir hər qarışın,
Səni candan sevənlərə, əzizdir torpağın, daşın.
Dünyaya şöhrət yarandın, tarixə şərəfdir adın.
Ana ülfətli yurdusan həm doğmanın, həm də yadın.
Qucağına sığmır varın, aşıb-daşır bağda varın,
Başdan-başa gülüstansan, məskənisən ilk baharın.
Qara qızlın seltək axır, düşməni yandırır yaxır,
Yüksəlişin ildırımtək düşmənin başında çaxır.
Sən mehriban diyarımsan, atam, anam, dildarımsan,
Şərəfim, şöhrətim, şanım, əyilməyən vüqarımsan.
Vətən, sənsən ülviyyətim, eşqim, sevgim, məhəbbətim,
Eşqin ilə yuva qurur, könüllərdə şeiriyyətim.
Binnətəm, könül sazımsan, mətləbimsən, murazımsan.
Eşqinlə coşan Kürümsən, Xəzərimsən, Arazımsan.

***12.06.1992***

## Araz günahsızdır

Çaylar nə qan tökür, nə ara vurur,
Nə fərman yazırlar, nə hökm edirlər.
Yerin qucağında min illərdir ki,
Hərəsi bir səmtə axıb gedirlər.
Dağlardan güc alan, kükrəyib daşan
Çay da bəndə düşür, bəzən ram olur.
Hansı çayın üstə körpü çatılsa,
O çayın üstündə toy-bayram olur.
Yazıq o çaya ki, daş körpüsünün
Üstünü ot basıb, altını mamır.
Vaxtilə karvanlar keçən körpüdən,
İndi on ildə bir adam adlamır.
Nə vətən böləndi, nə sərhəd qoyan,
Günahkar sayırlar Arazı bəzən.
Qanlı əllərilə şah ilə çarın
Oğurluq mal kimi bölünüb Vətən.

***17.08.1965***

## Qurban olum

Laləzar çəmənimə,
Çölümə qurban olum.
Ətirli çiçəyimə,
Gülümə qurban olum.
Baharıma, yazıma,
Kamanıma, sazıma,
Əlifbama, yazıma,
Dilimə qurban olum.
Ocağıma, oduma,
Mətin, qalıb oduma,
Torpağıma, yurduma,
Elimə qurban olum.
Müqəddəsim elimdir,
Şan-şöhrətim dilimdir,
Vətən mənim Leylimdir,
Leylimə qurban olum.
Mən Binnətəm, kəndimə,
Gəncəmə, Mərəndimə,
Təbrizmə, Dərbəndimə,
Meilimə qurban olum.

***5.02.1972.***

## Dərdin alım

Elin eşqi ilə ötən
Bir bülbüləm, dərdin alım.
Abad, azad ola Vətən!
Deyəm, güləm, dərdin alım.
Öz elimə pərvanəyəm,
Elsiz heç kiməm, heç nəyəm,
Elim ilə şəlaləyəm,
Coşğun seləm dərdin alım.
Nə Kərəməm, nə Lələyəm,
Nə Tanrıyam, nə fələyəm,
Yara nərgizəm, laləyəm,
Qızılgüləm dərdin alım.

Binnətəm, bayram gələndə,
Yolum düşür doğma kəndə.
Azad Təbrizə, Dərbəndə
Gedəm-gələm, dərdin alım.

***23.03.1970.***

## Hər şey bölündü

Qarabağ uğrunda mərdlər döyüşdü,
Kimə şöhrət düşdü, kimə ahuzar,
Kiməsə bu qoltuq ağacı düşdü,
Kiməsə hardasa naməlim məzar.
Vətənə məhəbbət, sevgi sınandı,
Müharibə sınaq məhəki oldu,
Mərdlər şəhid oldu-qana boyandı,
Çoxunun baş daşı tüfəngi oldu.
İmkan tapan kimi azdı, qudurdu
Erməninin rusa "sadiq" itləri.
Beş il xeyirlə şər üz-üzə durdu,
Qan içdi erməni parazitləri.
Talandı, dağıldı abad obalar,
Onlarla şəhərə, yüz-yüz kəndlərə,
Dəmir körpülərə, beton bəndlərə
Beş dolu kimi yağdı bombalar.
Köçkün itkin olan bir milyon insan
Evindən, elindən şaxtada, qarda.
Çoxları can verdi həsrət, pərişan
Soyuq vaqonlarda, nəm çadırlarda.
Həm mərdlər itirdik, həm Qarabağı,
Ocaqlar qaraldı, çıraqlar keçdi,
Ata-ana, qardaş, ər ayrılığı
Bizim gəlinlərin payına düşdü.

***16.09.1993.***

## Anam Azərbaycan

Anam Azərbaycan – Odlar ölkəsi,
Qucağıyın bağı – bağçası xoşdu.
Coşqun çayların aslan nərəsi,
Buz bulaqların yaylası xoşdu.

Aranın lətifdir, yaylağın sərin,
Böyük Vurğunların, Nizamilərin,
Şəninə yazdığı hər bir əsərin
Hikməti böyükdür, mənası xoşdu.
Çoxları pay umub sənin varından,
Aranda barından, dağda qarından,
Baxmağa Misirin ehramlarından
Tovuzda Koroğlu qalası xoşdu.
Doğma vətənimsən – elim –obamsan,
Ata ocağımsan, suyum, havamsan.
Ana qucağımsan, yurdum yuvamsan,
Hər kəsə öz yurdu yuvası, xoşdu.
Bərdəni, Gəncəni, gördüm, oldum şad,
Hüsnünə bəzəkdir, Şahbuz, Ordubad
Bakı şən, Şəki şən, Lənkəran abad.
Qoynuyun hər eli-obası xoşdu.
Doymaram hüsnünü mən tamaşadan,
Necə doyum Hacıkənddən, Şuşadan?
İnsanı yüz ildən artıq yaşadan
Əsriyin, Qəçrəşin havası xoşdu.
Seyr etdim uzağı, gördüm yaxını,
Gah Qazağı gəzdim, gah Şamaxını,
Ruhuma doğmadır Kürünü axını,
Xəzərinsə şıltaq dalğası xoşdu.
Sənsən mahnı, şeir, muğam diyarı,
Sənə layiq şeir yazaydım barı,
Ağsuyun, Göyçayın heyvası, narı,
Qubanın, Xaçmazın alması xoşdu.
Sənin şan-şöhrətin yaşadır məni,
Tükənməz ülfətin yaşadır məni.
Böyük məhəbbətin yaşadır məni,
Başımda eşqinin sevdası xoşdu.
İlləri bəd keçmiş keçən çağının,
Məlhəmi tapıldı möhnət dağının.
Gözəl Qarabağın, Kür qırağının
İndi hər qızının libası xoşdu.
Cahanın zinəti, bəzəyisən sən.
Səni yer üzünə dəyişmərəm mən.

Mənə yad ellərin hər meşəsindən
Tuqay meşəsinin talası xoşdu.
Dünyaya bir şöhrət  yaranmısan sən,
Bəşərə səadət yaranmısan sən.
Ədalət, mərhəmət yaranmısan sən,
Qurduğun qardaşlıq dünyası xoşdu.
Könlüm ilham alır hər diyarından,
Novruz təntənəli ilk baharından.
Qoca Himalayın bəyaz qarından
Çalmalı dağının çalması xoşdu.
Mənə ilham verən hər bir nemətdən
Hər zövqdən, səfadan, hər səadətdən,
Dövlətdən, sərvətdən, şandan-şöhrətdən,
Vətənin müstəqil olması xoşdu.
Binnətəm zövq aldım hər gülzarından
Dağından, düzündən, laləzarından
Mənə yad ellərin çəmənzarından
Ağdağın bir otu, alası xoşdu.

***1 iyun 1970***

## Lənət

Həyat elə füsunkardır, ondan doyana lənət,
Bu sən həyata ucuz qiymət qoyana lənət!
Sevirəm vətənimizi, millətimin haqqında
Yalan, iftira böhtan, şayə yayana lənət!

Azadlıq uğurunda ölməyə haqqım çatar
Kim ki, zülmə baş əyə, dözə, dayana, lənət!
Yurdumun hər qarışı mənə candan əzizdir
Torpağıma göz tikib, torpaq umana lənət!
Yurdumu  iki bölüb, araya sərhəd çəkən,
Milyonlarla Binnəti həsrət qoyana lənət!

***21.09.1965***

## Xalqımız bayramlaşanda

Hər bayram xalqımız bayramlaşanda,
Az qalır sevincdən kükrəyim, coşam,
Nə ola sevdalı bu gənc yaşımda
Araztək çağlayam, Kür kimi daşam.

Güləndə istərəm günəştək güləm.
Bir nur olam, göydən yerə töküləm,
Çoxdan bir diləklə çalsam da qələm,
Mən hələ cavanam yorulmamışam.
Ay Vətən, məftunam gözəlliyinə,
Bağına, bağçana, çəmənliyinə,
Dağəna, dərənə, düzənliyinə,
Tək bir gözəlinə vurulmamışam.
Vətən, kainatdan böyük dünyamsan,
Pərvanənəm, gündən şəfəqli şamsan,
Kiçik bir oğlunam, əziz anamsan,
Bir gün də qoynundan ayrılmamışam.
Yurduma sevgidir ürəyimdəki,
Ona məhəbbətdir sevgimin ilki.
Binnətəm , bu ülvi, möhtəşəm sevgi
Mənə ilham verir hər səhər-axşam.

***19.03.1963***

# Ay Vətən, yolunda ölərəm

"Ay Vətən yolunda ölərəm sənin",
Deyənlər çox olub, ölən az olub.
Millətin, torpağın, ana Vətənin
Qədir-qiymətini bilən az olub.
Mitinqdə, iclasda, məclisdə, toyda
Elin qeyrətini "çəkənlər" çoxdur.
Yoğun boyunlar var Koroğlu boyda
Yüzündə bir Həmzə qeyrəti yoxdur.
Kimi möhlət alıb, xəstədir guya,
Kimi qeydiyyatdan çıxıb, qaçıbdır.
Kiminin gəliri gəlməyir saya,
Hər tində sex açıb, dükan açıbdır.
Çoxunun adları Xətai, Babək,
Bir tülküdən qorxan Əhmədi ancaq.
Asandır öyünüb, "kişiyəm", demək,
Kişitək el dərdi çəkmədi ancaq.
Verdik Xocalını, Laçını yada,

Şuşa çiliklәndi topsuz, tüfәngsiz
Niyә yaşayırıq, niyә dünyada,
Nә vaxt ölәcәyik el yolunda biz?
Nәbitәk oğullar, Hәcәrtәk qızlar
Vuruşar cәbhәdә әlindә silah.
Pulgir hәkimlәr var, komissarlar var
Saxta sәnәd verib, pul yığır ancaq.
Fağır-füqәradır, kasıb-kusubdur
Cәbhәdә yağıyla üz-üzә duran.
"Komandir" döşünә medal asıbdır,
"Sağ ol" da almayır bәzәn tank vuran...
Görür öz işini varlının pulu,
Oğlu-Ankarada, özü komersant,
Sәpir xәzәl kimi haram pulları,
Restoran bağladır, qurur toy-büsat.
Gülür harın-harın әlindә qәdәh,
Bütün mәclislәrdә yeri başdadır.
Piyli dodağında ucalır qәh-qәh,
Mәxfi arvadı var, qızı yaşdadır.

Ay Vәtәn, әsirgә sәxavәtini,
Qәdrini bilmәyәn bu nankorlardan.
Mәnsәbә qul edәn lәyaqәtini –
Vicdanı karlardan, qәlbi korlardan.

***25.02.1992***

## Xoşbәxtlәr ölkәsi quraq

Ana yurdumuzda aylar, fәsillәr
Xoş keçә, şәn keçә, bәxtiyar keçә!
Müstәqil ölkәmdә azad nәsillәr,
Hәr gün bir bayramlıq libası seçә!
Gәlә sorağımız ulduzdan, aydan.
Uğurla yar ola sәfәrlәrimiz!
Dürr yığaq, nur yığaq dәnizdәn, çaydan
Dastana sığmaya zәfәrlәrimiz!
Qәmi, ehtiyacı qovaq sürgünә,

Zülmün küməsini vurub uçuraq.
Bir bayraq altında çıxaq ağ günə
Bütöv, şən xoşbəxtlər ölkəsi quraq.
Şəhid oğulların, mərd babaların,
Büst qoyaq, gül əkək məzarı üstə.
Alaq qabağını dərdin, azarın,
Nə kasıb olmasın, nə də ki, xəstə.
Sülhə tərəfdarıq, deyirik: - Aləm
Qurtarsın kədərdən, möhnətdən, yasdan.
Ağılla, zəhmətlə, çəkiclə qələm
Ev tiksin, bağ salsın, yaratsın dastan.
Ehtiyacsız, abad bir ölkə quraq
Qoynunda insanlar bəxtiyar olsun
Bizə kəc baxanı gözündən vuraq
Bizə xor baxanlar zəlil, xar olsun!

***11.07.1993***

## Rahat yatmadım

Həsrətlə, möhnətlə əkiz doğuldum,
Ahım çatan yerə əlim çatmadı.

Zülmə, əsarətlə tablaşmaq üçün
Allah niyə məni daş yaratmadı.
Yadlara yurd oldu yurdum, yaylağım,
Yağılara qaldı bostanım, bağım,
Qarnı ac, əyni lüt uşaqlıq çağım
Ayaqda top oldu, top oynatmadı.
Vaxt məni tayımdan-tuşumdan seçdi,
Gəncliyim ehtiyac içində keçdi –
Çöllərdə əkində-biçində keçdi,
Barı, bircə-gecə rahat yatmadım.
Gənclik gəlib-keçdi bilmirəm necə,
Əzabla, ağrıyla yol keçə-keçə.
İşə gündüz getdim, məktəbə gecə.
Tale məni hardan-hara atmadı.
Gah işimi dəyişdim, gah iş yerimi,

Bilmədim mənsəbçün alım-verimi.
Çap edə bilmədim şeirlərimi,
Kimə üz tutdumsa ipə yatmadı.
İstəyirdim olam şair, ya rəssam.
Sanırdım azalar dərdimi yazsam.
Binnətəm, olmadı, barı, bir masam.
Bəzən bir kitaba pulum çatmadı.

***09.08.1991***

## Dözə bilmədim

Yenə gəldim, gördüm, a dağlar sizi,
Otuz illik hicrə dözə bilmədim.
Güllü, çiyələkli güneylərnizi
Heyif ki, doyunca gəzə bilmədim.
Yelli gədik, Qızıl qaya, Alçalı
Necə idi, eləcə də var yenə.
Yağlı dərə, Beşikkeçməz şaxtalı
Quzeyində saxlayıbdı qar yenə.
Bizim yurdda indi başqa binə var,
Yaylağımız binəlidi yenə də.
Çox təəssüf olammadım, a dostlar,
Vurğun kimi hər çadırlı binədə.
At belində çəndə azdım quzeydə,
Duman çiskin göz açmağa qoymadı.
Nəğmə dedi bulaqlar da, Tərs çay da.
Şeir deyib, söz açmağa qoymadı.

***Ermənistan Çaykənd***
***05.07.1978***

## BMT, ATƏT kar olub

Qarabağsız dərdə düçar olmuşam,
Yaralı qəlbimə köksüm dar olub.
İtib Cıdır düzüm, sınıbdı Şuşam,
Füzulim, Qubadlım tar-mar olub.
Barbarlar laçını xaraba edib,

Xaçının üstündə “dasnı çors” gedib,
Sosu, Əsgəranı dağıdıb-didib,
Beş ildi göz yaşım axır-car olub.
Xocalım üstündə od qalanıbdı,
Ağdamım, Ağdərəm tapdalanıbdı.
Zəngilanım, Xocavəndim yanıbdı,
Soltan bəyin ana yurdu xar olub.
Xankəndin üstündən getmir qaranlıq,
Çöküb Kəlbəcərin üstə dumanlıq.
Göz yaşım çörəymə olub yavanlıq,
Yediyim-içməyim zəhrimar olub.
Gördü ağlar gözüm dərdlər, sitəmlər,
Sinəmə köz kimi töküldü qəmlər.
Əsir düşüb Qarabağlı sənəmlər,
Başımız aşağı, üzmüz qara olub.
Əsir düşənləri qırıb, çatırlar,
Ürəyini, böyrəyni söküb, satırlar.
Daşnaqlar aranı elə qatırlar
Başımıza külli-aləm dar olub.
Desəm: “Alaq” məni lağa qoyurlar,
Nə alırlar, nə almağa qoyurlar.
Xankəndə vandalı ağa qoyurlar,
Görməyir BMT, ATƏT kor olub.
Binnətəm, nə qədər yanım-tökülüm?
Şirim tələsinə düşüb tülkünün.
Dözəmmirəm, Qasım bəyin mülkünün
Sahibi bir dəyyus Vartazar olub. ***03 noyabr 1993***

# NƏZİRƏLƏR, ŞEİRLƏŞMƏLƏR, PARODİYALAR

## Olmur

***Rasim Kərimli***

Çağlamaq eşqiylə coşur ürəyim,
Hər yanı bənd alıb çağlamaq olmur.

Qeyrətsiz deyirlər ağlayan kəsə,
Dərd deşir sinəmi ağlamaq olmur.
Alçaqlar ucalıb, ucalar enib,
Məhəbbət məhv olub, sədaqət sönüb.
Hamı ac aslana, ac qurda dönüb,
Heç kimə etibar bağlamaq olmur.
Qanqaldan qiymətsiz olub qızılgül,
Sərçənin əlinə su tökür bülbül.
Bu dərddən od tutub alışır könül,
Haqsızı haqq ilə dağlamaq olmur.
Köpəklər qurdlarla aşnalıq qatıb,
Sürünü dəyərə-dəyməzə satıb.
Tülkülər, çaqqallar o qədər artıb,
Bir toyuq, bir cücə saxlamaq olmur.
Rasim öz piltəsi əridər şamı,
Saxlasa qabığı saxlar badamı.
Qammazlar bir kökə salır adamı,
Əllicə yaşı da haqlamaq olmur.

***8.12.1973***

# Olmaz

*(Dostum Rasim Kərimlinin "Olmaz" şeirinə cavab)*

Rasim, quzey yeli belə sərt əssə,
Hər yanı bənd kəssə, çağlamaq olmaz.
Elin qeyrətini çəkən bir kəsə,
Düşmən qabağında ağlamaq olmaz.
Haqq gəzən zindanda suçsuz yatırsa,
“Yoldaşlar” bir-birini qırıb, çatırsa,
Qardaş-qardaşını yada satırsa,
Dosta da etibar bağlamaq olmaz.
Elə əzab olar başçı səhv etsə,
Hiyləyə aldansa, fitnəyə getsə...
Zəmini çəyirtkə, dolu məhv etsə,
Xırman açıb, taxıl tığlamaq olmaz.
Çalağan çoxalıb, tülkü artanda;
Siçovul, ley hindən cücə dartanda,
Hinin keşiyində duran yatanda,
Nə toyuq, nə cücə saxlamaq olmaz.

Binnətəm, ömrümüz keçdi savaşda,
Bizim halımıza ağlayar daş da.
Qardaş, bu qovğada, dava-dalaşda
Heç otuz yaşı da haqlamaq olmaz.

***24.12.1973***

## Ceyran

*(Aşıq Nəcəfə nəzirə)*

Bəsdi, məndən az kənar gəz,
A gözləri qara Ceyran.
Belə fürsət ələ düşməz
Tələsirsən hara, Ceyran?

Açma giley dəftərini,
Başa qaxma səhvlərimi.
Kəmənd edib zülflərini
Çəkmə məni dara, Ceyran.

Meylini hara salmısan?
Hansı gülzara salmısan?
Məni azara salmısan,
Tez ol, elə çarə, Ceyran.

Mən Binnətəm, ol qonağım,
Sənə qurban, bağçam, bağım.
Sənsiz mənim rahatlığım
Əldən çıxıb cara, Ceyran.

***21.12.1972***

## Qocalmışam

*(Müşkülü şair Həsənə cavab)*

Yar yolunda çox düşmüşəm
Oda-közə, qocalmışam.
Vəfasız unudub məni,
Gəlmir bizə, qocalmışam.

Məni oda yaxa-yaxa,
Getdi, qaldım baxa-baxa.
Göz yaşımda axa-axa,
Üzə-üzə qocalmışam

Binnətəm, ah-vaydır işim,

Yox gəlirim, yüksəlişim.
Məcnun kimi necə düşüm,
Çölə-düzə? Qocalmışam.

***2.03.2001***

## Qardaş

***Səlim Sinədəftər***

Bu zamanın “of”larından,
Gileyliyəm düzü, qardaş.
Haqqın hiylə xoflarından
Pərdələnib üzü, qardaş.
Dünya kimi durdu mətin
Necə sənin söz sənətin.
Tufanlarda ədalətin
Bükülmədi dizi, qardaş.
Səlim kimi olma yatqın
Zəhməti çox, haqq batqın
Nə yaltağıq, nə də satqın
Kim bəyənər bizi, qardaş.

***18 avqust 1971***

## Qardaş

***(Səlim Sinədəftərə cavab)***

Hər dövrdə canavardan
Gileylənib quzu, qardaş.
Yoxsulların, məzlumların
Gülməyibdir üzü, qardaş.
Nə vaxt əyri düz yozulub,
Qəmim qəlbimə köz olub.
Hər vaxt «düzlük» sözü olub,
Olmayıbdır özü, qardaş.
Çox vaxt əyib düzü əyri,
Zindan olub düzün yeri.
Dünya yaranandan bəri,
Rüşvət alır qazı, qardaş.
Haqq qədrini adil bilər,

Adil olan düzlük dilər.
Öz dövründən Xəqanilər
Olmayıbdır razı, qardaş.
Yalan sözü yox Binnətin,
Bu dünya düzələr çətin.
Haqsızlıqdan ədalətin
Bükülübdür dizi, qardaş.

***29.09.1971***

## Kimidir

*Səlim sinədəftər*

Duyğusuz adama şeir söyləmək,
Gövhəri nadana satmaq kimidir.
Dostun arxasınca giley eyləmək,
Zəhəri zülala qatmaq kimidir.
Yaxşı bil, atalar deməmiş hədər
Doğru söz hər şeydən uzaq yol gedər,
Bir könülə dəymək, məhşərə qədər
Min dəfə günaha batmaq kimidir.
Gəlim, bu sözlərin həqiqətdir bax,
Nəzər sal dünyanın gərdişinə bax,
Altuna, şöhrətə, vara aldanmaq,
Manın qoynunda yatmaq kimidir.

## Kimidir

***(Dostum Səlim sinədəftərə cavab)***

Dostum, anlamaza şeir oxumaq,
Qışda bazarda buz satmaq kimidir.
Alimin, dahinin sözündən çıxmaq
Baha alıb, ucuz satmaq kimidir.
Şeirin mənasını qanmaz hər axmaq,
Dəyməz keyliyini başına qaxmaq.
Düşmənin, bədhaxın sözünə baxmaq,
Özünü alova atmaq kimidir.
Çətindir şeiriyyat məbədi qurmaq,
İlhamla, zəhmətlə, olar yaratmaq.

Şeir aləmində şan-şöhrət tapmaq,
Xəzinə, dəfinə tapmaq kimidir.
Sözbazlar edərlər şairə, şeirə tağ,
Sözə qiymət verər sərraflar ancaq.
Binnət, eldə yaxşı adla ucalmaq,
Bütün arzulara çatmaq kimidir.

***26.11.1980.***

## Daha

***Həsən Mülkülüyə nəzirə***

Günbəgündən əqlim itir,
Mən dolduqca yaşa daha.
Kim nə deyir eşitmirəm,
Düşməyirəm başa daha.
Ağrı ki qalxır belimdən,
Bir az qorxuram ölümdən,
Cavanlıq gedib əlimdən,
Bədən dönüb daşa daha.
Belə deyildim əzəldən,
Hey yazırdım qəzəllərdən,
Ayrılmışam gözəllərdən,
Gəzəmmirəm qoşa daha.
Bir zaman bənzərdim nərə,
Bir söz deyir indi hərə,
Yaramıram xeyrə-şərə,
Qoyan yoxdu işə-daha.
Nələr gördüm mən yaşımdan,
Alışıram ataşımdan.
Biryolluq keçib başımdan,
Öturublar "döşə" daha.

## Daha

*(Şair Həsən Mülkülüyə cavab)*

Ömrün payızı keçibdir,
Qovuşmuşam qışa daha.
Saqqala qırov düşübdür,
Qar yağıbdır başa daha.

Bu yaşımda gedim hara?
Qolda güc yox, cibdə para.
Gah dalıram xəyallara,
Gah gedirəm huşa daha.
Əvvəlkitək qazanmıram,
İşsizliyə dözəmmirəm.
Gözəlləmə yazammıram,
Şeirim gəlmir xoşa daha.
Oxlov qırılır üstümdə,
Arvad dava salır gündə.
Onun xətrinə dəyəndə,
Mənə dəyir maşa daha.
Üzü haqda səhər, axşam,
Haqdan ədalət ummuşam.
İşsizlikdən tay olmuşam
Keyə, ağlı çaşa daha.
Binnətəm, qocayam deyə,
Heç kəs saymır, durmur yiyə.
Qoymayırlar vəzifəyə,
Buyurmurlar işə daha.

***15.09.2011***

## Alışıbdır bədənim

***daxili qafiyə, qəzəl***
***(M.Füzuliyə nəzirə)***

Alışıbdır bədənim, yoxdur dadıma yetənim,
Zülm edir zülm edənim-günümü qara edənim.
Canım almaq istər yar, verməsəm zülm ilə alar,
Almağa haqqı da var, barışa, barı, küsənim.
Məni odlara salıb, fərağı canımı alıb,
Görəsən harda qalıb, gəlmədi küsüb-gedənim?
Nə danışıb gülürəm, nə də durub-dincəlirəm,
Nə yerini bilirəm, nə yoxdur yol göstərənim.
Gözlərim yolda qalıb, ahu-fəğanım çoxalıb,
Həsrətindən saralıb-soldu , gülüm, yasəmənim.
Tökür töksün qanımı, söndürsün ölgün şamımı,

Alır-alsın canımı, biryolluq bu can üzənim.
Qəlbim şadlıq diləyir, bir az rahatlıq diləyir,
Mənə də zülm eləyir, özünə də zülmə dözənim.

Binnətəm, mən də belə bir Məcnunam, mənim Leylim
Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim.

***18.07.1980***

## Qucağında

*("El yaddaşı dinəndə" kitabında səh.47)*

Bala kimi bağrına bas
Gəlim sənin qucağında
Dinc durmasa burnuma vur
Əlim sənin qucağında
Geri dönə cavan vaxtım
Bir oyana yatan baxtım
Kef damaqda keçə vaxtım
İlim sənin qucağında
Həsən qanıb işdərini,
Gəl küsdürmə müşdərini,
Hərdən əmsin döşlərini
Dilim sənin qucağında.

## Qucağında

*(Mülkülü şair Həsənə nəzirə)*

Dərdi, qəmi unuduram,
Gülüm, sənin qucağında.
Bayram edər, fərəhlənər,
Könlüm sənin qucağında.
Yanaqların lalə kimi,
Zülflərin şəlalə kimi,
Qoy sığınım bala kimi,
Olum sənin qucağında.
Sənsiz zəhər olar payım,
Ərşə çıxar ahım, vayım.
Başa çata günüm, ayım,
İlim sənin qucağında

Səni görən yolu çaşar,
Binnət kimi ağlı çaşar.
Xəstə olsam, yaxşılaşar
Halım sənin qucağında.

## O kəndi sən, bu kəndi mən

*Səlim Sinədəftər*

Möhtac edək bir tavaya
O kəndi sən, bu kəndi mən!
Külünü sovuraq havaya,
O kəndi sən, bu kəndi mən!
Od püskürək, qan yalayaq,
Cümləsin oda qalayaq,
Canavartək parçalayaq,
O kəndi sən, bu kəndi mən!
Əl ayağın əstələdək,
Ölüm himni bəstələdək,
Sağlarını xəstələdək,
O kəndi sən, bu kəndi mən!
Gün də yüz min al eyləyək,
Fitnə quraq qal eyləyək,
Düşmənini lal eyləyək,
O kəndi sən, bu kəndi mən!
Rəsul, Səlim bir söz ilə,
Oynamayaq, od, köz ilə,
Gəl ağladaq min göz ilə,
O kəndi sən, bu kəndi mən!

***14 noyabr 1968***

## O kəndi sən, bu kəndi mən

***(Səlim Sinədəftərə cavab)***

Katta olaq, qaztək yolaq,
O kəndi sən, bu kəndi mən!
Yoraq, əldən, haldan salaq,
O kəndi sən, bu kəndi mən!
Əvvəl "Tovariş"i görək
O nə buyursa "yest", deyək.
O istəyəntək eləyək,

O kəndi sən, bu kəndi mən!
Qapısını bağlar qoyaq,
Sinəsinə dağlar qoyaq,
Xudayartək ağlar qoyaq,
O kəndi sən, bu kəndi mən!
Dövran sürək, qıraq-çataq,
Hər arzuya kama çataq,
Bakıya köçməmiş sataq,
O kəndi sən, bu kəndi mən!
Rəsul, Səlim, Binnət hər an,
Deyirlər: - Sizdə yox vicdan,
Guya eləmişik viran
O kəndi sən, bu kəndi mən!

***16 dekabr 1968***

## Qrimlənibdir

*"Görürsənmi oğrun baxan gözəli"*
*Aşıq Ələsgər*

Görürsənmi ənlik yaxan "gözəli"?
Artist kimi necə qrimlənibdir.
Sanki dodaqları bəhməzə batıb,
Elə bil üzünə un ələnibdir.
Nə deyəsən belə bəd rəng yaxana?
Çoxdur rəngsazlığına qusur, bəhanə.;
Boya yaxıb qaşa, üzə, dəhanə,
Gözləri həddən çox sürmələnibdir.
Hər gündə bir rəngə salır başını;
Uzadır kirpiyini, yolur qaşını,
Gözlərinin tökə-tökə yaşını
Hər qulağın iki yerdən dəlibdir.

Binnətin görəli pozulub halı,
Üzündə beş-altı döyülmə xalı.
Əvvəllər çox gözəl idi camalı,
İndi boyalardan ləkələnibdir.

***22.05.1960.***

# Ölürəm

*(X.B.Natavana bənzətmə-parodiya)*

Xəstəyəm, qızdırmayır canımı yorğan, ölürəm.
Həkim, mənə ya iynə vur, ya da ver dərman, ölürəm.
Titrəmədən gecələr yatmayıram sübhə kimi,
Sübhədək soyuq məni edir imtahan, ölürəm .
Çatmayır harayıma, büzüşüb yorğana Qafar,
Soyuqdan kürəyim qatıb, ovmayır Sənan, ölürəm.
Partlayıb qazanxana, isinməyir palatalar.
Donubdur, yoldaş həkim, bədənimdə qan, ölürəm.
Qalmışam kir içində, qaşınır, gicişir canım.
Möhtacam soyuq suya, işləmir kran, ölürəm.
Yuxu getmir gözümə, darışıb gövdəmə birə,
Doluşur yorğanıma gecə tarakan, ölürəm.
Mətbəxdə qaynar su yox, hardan alım, içim çayı?
"Peç" sönüb, termos sınıb, qalmışam giryan, ölürəm.
Artıbdır xəstəliyim, Binnətəm, kimə yalvarım?
Necə qaçıb qurtarım canımı burdan, ölürəm.
Amandır, "Kirpi" lələ, özün mənə əlac elə,
Sənsiz lazımlı yerə çatmaz bu fəğan, ölürəm.

***Qeyd:*** *"Kirpi" jurnalı çap etmədi.*
*Dedi: - Bizdə belə xəstəxana yoxdur.*
*Əslində xəstəxanalar bundan da bərbad idi. Ancaq şöhrətli şairlərin bundan da zəif yazılarını çap edirdilər.*

***14.01.1984***

# Yoxdur

*(B.Vahabzadə "Dan ulduzu kitabı səh.115")*

Yenə bağlar o bağlardı, fəqət bağda gülüm yoxdur,
Gülüm yoxdur bu dünyada ayım yoxdur, günüm yoxdur
Zaman dönməz öz hökmündən,.. Biz ayrıldıq tez ayrıldıq.
Dilim bar verməz, ay dostlar deyim ki, sevgilim yoxdur.
Çiçəklərdən, küləklərdən mən allam ətrini yarın,
Dilək ölməz, ürək ölməz sevənlərçin ölüm yoxdur.

Gülüm, əğyar qılıncıyla sevərkən ayrı düşdük biz
Bu həsrətdən, bu möhnətdən daha müdhiş zülüm yoxdur.
Sevib yandım, külək qalxdı külüm sovruldu əflakə
Məni gəzmə bu dünyada, odum söndü, külüm yoxdur.
Ağac yansa fəğan eylər, deyər öz dərdini aşkar,
Deməkçün dərdimi yarə, bəmim varsa, zilim yoxdur.
Səninlə Bəxtiyaram mən, ayım sənsən, ilim sənsən
Bu dünyada mənim sənsiz ayım yoxdur, ilim yoxdur.

***1961***

## Vardır

*(B. Vahabzadəyə nəzirə -cavab)*

Yenə bağlar o bağlardır, nə əlində əlim vardır,
Nə başında çiçək tacım, nə yaxanda gülüm vardır.
Zaman dönə öz hökmündən! Biz birləşək, tez birləşək!
Oxqay deyib ürək dolu deyim ki, sevgilim vardır.
Bir yaz mehi gülzarından yetirə ətrini, yarım!
Arzu sönməz, könül susmaz, fəqət qafil ölüm vardır.
Gülüm, hicran sona çata, nəsib ola vüsal bizə!
Əlim çatmır, ünüm yetmir, deyəm ki, nisgilim vardır.
Həsrətindən alovlandım, şöləmdən qızardı göylər,
Mən bir eşqin günəşiyəm, nə tüstüm, nə külüm vardır.
Bülbül fəğan ilə eylər öz dərdini gülə izhar,
Dinlə məni, bir rübabam, bəmim vardır, zilim vardır.
Binnətəm, bəxtiyaram mən, görməsəm də bu gün səni,
Şükür! Sənin ilə keçmiş ayım vardır, ilim vardır.

***9.09.1963.***

## Dostunu yıxmaq üçün

*(Hüseyn Arifə nəzirə)*

Narı budaqdan üzmə,
Ovcunda sıxmaq üçün.
Çiçəyi şaxdan üzmə,
Bircə yol baxmaq üçün.
Namərdlərə yol olma;
Gədələrə qul olma,
Ucuz, qara pul olma,
Bazara çıxmaq üçün.
Samana xəlbir olma,

Yamanla dilbir olma.
Düşmənlə əlbir olma,
Dostunu yıxmaq üçün.

Çox tufan görüb Binnət,
Çəkib əzab əziyyət.
Dünya qanana möhnət,
Ləzzətdir oxumaq üçün.

***13.10.1999***

## Deyil

*Haqq sözümü, a heyvərə,*
*Sən eşitmə, mən deyəcəm.*
*Hüseyn Arif*

Hər sevəndə vəfa olmaz
Hər "can" deyən canan deyil.
Hər xəstəyə şəfa olmaz,
Hər həkim dərd alan deyil.

Öz xeyrini güdür hərə,
Sinə gərib kürsülərə,
Haqq söz demə heyvərəyə,
Eşitsə də qanan deyil.

Haqqam deyir haqqı əyən,
Xalqı soyam, haram yeyən,
Hər "elə yanıram", - deyən
Binnət kimi yanan deyil.

***20.02.2001***

## Sənnən

*(Həsən Mülkülüyə cavab)*

Usanmaram, yüz il, mələk,
Otursam diz-dizə sənnən
Dayan, bir az deyək gülək
A söhbəti məzə, sənnən.

Səfalı yaylaqda olaq,
Hamıdan uzaqda olaq,
Qış-isti otaqda olaq,
Yay gedək dənizə sənnən.

Ətirlisən bənövşədən,

Nə görən var nə eşidən,
Gəzdiyimiz göy meşədən
Qoşa çıxaq düzə sənnən.

Kənar gəzmə, mina gərdən,
Eləmə ağlımı sərdən,
Binnətə rəhm elə hərdən
Qonaq gedək sizə sənnən.

***23.03.1986***

## Dağlar

***(Aşıq Şəmşirə cavab)***

Məni sizdən yağı aralı salıb,
Ayrılığa məhkum olmuşam, dağlar!
Əlim sizə sarı uzalı qalıb,
Həsrətdən saçımı yolmuşam, dağlar!

Hanı qoynunuzda gəzdiyim çağlar?
Sinəmə dağ üstən çəkilib dağlar.
Dilim ağı deyər, qəlbim qan ağlar,
Bahar buludu tək dolmuşam, dağlar!

Göz yaşım car olub sellərin kimi,
Xəstəyəm dərdimin yoxdur həkimi.
Vaxtsız xəzan vurmuş güllərin kimi
Binnətəm, saralıb-solmuşam, dağlar!

***20.05.2001***

## Bizik

***(Mikayıl Azaflıya cavab)***

*Çərxi zəmanəni görmə günahkar,*
*Yıxılan özümüz, yıxan özümüz.*

***M.Azaflı***

Nə vaxt günahkardır, nə çərxi fələk,
Yıxılan da bizik, yıxan da bizik.
Saxta qanunların məngənəsində
Sıxılan da bizik, sıxan da bizik.

Hakim salmayırsa haqqı yadına,
Çatmayırsa günahsızın dadına,
Yalanın böhtanın, şərin oduna,
Yaxılan da bizik, yaxan da bizik.

Hamı çalır-çapır, nə bəhsəbəhsdir?

İnsanı xar edən vara həvəsdir.
Dünya dərəbəylik, həyat kabusdur,
Qorxudan da bizik, qorxan da bizik.
Haqq tələb edənlər döyülür tində,
Biabır olurlar elin içində.
İşinə haqsızlıq məhkəməsində,
Baxılan da bizik, baxan da bizik.
Mərhəmət eləmir qardaş-qardaşa,
Pullunu, zorlunu çəkirlər başa.
Binnətəm, talei şüşətək daşa,
Çaxılan da bizik, çaxan da bizik.

***03.06.1989***

## Dağlar

*Dillərinə düyün düşsün*
*Dillənmirsən niyə, dağlar?*
*Poladoğlu*

Qarğama, a şair, dinib danışmaz,
Yoxdur həmsöhbəti, lal olub dağlar.
Düşmənə baş əyməz, yada bac verməz,
Hicran karvanına yol olub olub dağlar.
Daha qucağında köçməyir ellər,
Dərmir güllərini türfə gözəllər.
Ağlar gözlərindən car olub sellər,
Elin əzabından halı olub dağlar.
Yoxdur gediş-gəliş bağlanıb yolu,
Binnətin qoynunda qalıbdır qolu.
On ildir başına yağır qar, dolu.
Ağarıb çaqqalı çal olub, dağlar.

***05.06.1998***

## Şairəm

***(Hüseyn Arifə cavab)***

Mən çoxundan çox oxuyan, az yazan,
Çox dinləyən, az danışan şairəm.

Haqq dinəndə mən susuram lal kimi,
Haqq susanda seltək coşan şairəm.
Yetər mənə öz sevincim, öz qəmim,
Öz duyğulu, öz qayğılı aləmim.
Nə yazırsa doğru yazır qələmim,
Gah nəşəli, gah pərişan şairəm.
Gah Dilqəmtək umu-küsü saxlaram,
Gah Kərəmtək, «yar-yar» deyib, ağlaram.
Gah Sabirtək zalımları dağlaram,
Gah Vurğuntək aşıb-daşan sevirəm.
Çox dərdim var, bilməyən çox, bilən az,
Bu zamanda gülməyən çox, gülən az.

Kimə yayam, kimə payız, kimə yaz,
Kimə qıştək tufanlaşan şairəm.
Kimə qənddir, kimə şəkər sözlərim,
Kimə baldır, kimə zəhər sözlərim.
Yamanları dara çəkər sözlərim,
Yaxşılara mahnı qoşan şairəm.
Haqq gəzəndə bədxah mənə şər atır,
Haqq işimə çoxu hələ pəl qatır.
Yeni səsim yatanları oyadır,
Xəlil kimi ululaşan şairəm.
Nə zaman güldürdü, nə tale məni,
Kimi sayır sakit əsən meh məni.
Kimi sayır kiçik şəbnəm-şeh məni,
Kimi deyir ümmanlaşan şairəm.
Amalım aydındır ilk səhər kimi,
Ağ gün arzularam, görsəm hər kimi.
Binnətəm, tufanlar, küləklər kimi,
Şeri bəndlər, sədlər aşan şairəm.

***14.11.1990***

## Sal qaya tək ömür sürdüm

***(Hüseyn Arifə nəzirə)***

Sal qaya tək ömür sürdüm,
Yağış, dolu döyə-döyə.
Çoxlarıtək ucalmadım
Alçağa baş əyə-əyə.
Ah çəkməkdən dilim yanıb;
Dərd yazmaqdan əlim yanıb,
Dövran məni çox sınayıb,
Xətrimə dəyə-dəyə.
Nə qədər yanıb-tökülüm?
Belə keçir ömrüm-günüm.
Çoxlarıtək ahım-ünüm
Yayılmayıb yerə-göyə.
Gecə keçsə dan sökülər,
Günəş doğar, nur tökülər,
Bədxahlar üzümə gülər,
Ürəyində söyə-söyə.
Sevmədim nə boş söhbəti,
Nə giley, nə qeybəti.
Yarıtmaz yordu Binnəti,
"Get, sabah gəl", - deyə-deyə.

***26.08.1989***

## Olaydı

***(Hüseyn Arifə nəzirə)***

Sən öz istəyinə yetdin, mənim də
Arzuma yetdiyim günlər olaydı!
Səni görmək üçün erkən oyanıb,
Dərsə tələsdiyim günlər olaydı!
Bilmədin nə idi sənə yazdığım,
Özümə yük oldu yazıb-pozduğum.
Görəndə çaşdığım, yolu azdığım,
Sərxoştək getdiyim günlər olaydı!
Məndən soruşardın bilməsən nəyi,
Can-başla edərdim sənə hər şeyi.
Rəsm dəftərinə şəkil çəkməyi,

Sənə öyrətdiyim günlər olaydı!
Hələ öyünürəm təmiz eşqimlə,
Danışıb gülməzdim sənsiz heç kimlə
Nəğmə dərslərində sənin eşqinlə,
Bülbültək ötdüyüm günlər olaydı!
Yaşım olmasa da on beş-on altı,
Duyub, dərk edirdim eşqi, həyatı.
Evinizin önündə hərdən boz atı
Çapıb – səyirtdiyim günlər olaydı!

Bilmədin dərdimi, halımı sorub.
Sanma ki, əzabın Binnəti yorub.
Səni görmək üçün doqqazda durub,
Soyuqda sitdiyim günlər olaydı!

***27.07.1986***

## Lağ eləyir

**(*Rəsul Qovlarlıya cavab*)**

Gərdişə bax, zamana bax,
Sail şaha lağ eləyir.
Qızıl quşa, kor yapalaq,
Ala qarğa lağ eləyir.
Rişxənd edir qızıla mis,
Səxavətli mərdə xəsis.
Düzə əyri, yaxşıya, pis
Təpə dağa lağ eləyir.
Saymayır ona yananı,
Bəd övladda vicdan hanı?
Nankorlar ata-ananı,
Qoyur lağa, lağ eləyir.
Fərari vətənpərvərə,
Aciz tənbəl hünərvərə,
Tülkü şirə, ulaq nərə,
Filə bağa lağ eləyir.
Binnət, çalış elə yara,
El dərdinə elə çara.
Eldə qəlbi, üzü qara

Üzü ağa lağ eləyir.

***16.4.1960***

## Yad əldədir yüyənimiz

***(Rəsul Qovlarlıya cavab)***

Sağ olmasın saya gəlməz
Xətrimizə dəyənimiz.
Yoxdur bir dərd  bilən kəsə,
Dərdimizi deyənimiz.
Yoxdur arxa duranımız,
Halımızı soranımız,
Saysızda qan soranımız,
Ətimizi yeyənimiz
Göydən yerə dərd uzanır,
Namərd vurur, mərd uzanır.
Mollamız yaxşı qazanır,
Bir də ölü yuyanımız
Nicat verən yoxdu xalqa,
Bir rəyyətik "durak" ağa.
Dinməyə qoymayır, qağa,
Ağzımıza döyənimiz
Qardaş deyib öyünmüşük
"Malades"nə söyünmüşük
Xırman atına dönmüşük
Yad əldədir yüyənimiz
Binnət pisləşir halımız
Çoxaldıqca papkalımız,
Qalstuklu  sapkalımız,
Panaması ləyənimiz

***17.2.1972***

## Ay Rəsul

***(Rəsul Qovlyarlıya cavab)***

Harda tor atsalar suya torçular,
Balıqlar qorxurlar orda, ay, Rəsul.
Xırda balıqları udan laxalar,
Bir gün can verəcək torda, ay, Rəsul.
Nə vaxt işim bir kəmtərə düşübdür
Saymayıbdır, sözüm tora düşübdür.

Sanki nərin işi xəzə düşübdür
Bunu görür duyur kor da, ay, Rəsul.
Əmrli, fərmanlı sərt “qağalar”ı,
Məhbəsli-zindanı pərt “qağalar”ı,
Canımıza azar, dərd “qağalar”ı
Tapacaq azar da, çor da ay, Rəsul.
Haqqın, ədalətin vaxtı çatanda,
Bədxahlar qalacaq ayaq altında.
Quldurun gəmisi suda batanda,
İmdad eləməyir zor da, ay, Rəsul.
Binnətəm, hər şeyin olar bir həddi,
Bədniyyət kəslərin niyyəti bəddi.
Diriykən düzəlməz qozbelin qəddi,
Düzəlsə düzələr gorda, ay, Rəsul.

***18.09.1968***

## Başımı

***(Həsən Mülkülüyə nəzirə cavab, zarafatla)***

Həsən əmi, qohumunla evlənib,
Səhv edib, salmışam tora başımı.
Sinəmə qor, gözümə kül ələyib,
Yer tapmıram qoyam ora başımı.
Fələk onu mənə cəfa göndərib,
Məni yasa, onu kefə göndərib.
O mənə gələndən dəfə döndərib
Oxlov ilə vura-vura başımı.
“Gəl”, - deyəndə yanına tez getməsəm;
“Get”, - deyəndə qorxub, fərar etməsəm,
Qabı yuyub, qumla, küllə sürtməsəm,
Az qalır kəfgirlə yara başımı.
Sürtməklə getməyir qazanın hisi,
Mənə nəsib olub cəzanın pisi.
Qapazla, yumruqla soyumur hirsi,
Sıxır qoltuğunda sonra başımı
Məni qəm bəhrinə qərq eləyibdi,
Həyatımı kədər, dərd eləyibdi
Dəli, dığ, dəngəsər, dəng eləyibdi
Deyinməklə yora-yora başımı.

Heydən salıb, yerdən qalxa bilmirəm
Zəhmindən üzünə baxa bilmirəm
Binnətəm, əmrindən çıxa bilmirəm
Qorxuram divara vura başımı.

***1.07.1985***

## Bizim kişi

***(Bir arvadın dilindən, Həsən Müşkülüyə nəzirə)***

Qohumdan, qonşudan, eldən ayıbdı,
Çox dedim, eşitdi az bizim kişi.
Gəzmədiyi ərli, dul qoymayıbdı,
İndi də axtarır qız bizim kişi.

Yazıram halımı bilsin şəhər, kənd
Coşanda təhqirə qoymayır bir hədd.
Başıma dar olur yer, göy, dörd cəhət
Mənə ağardanda göz bizim kişi.

Yazda seyrə çıxır elə-obaya,
Payızda gah yasa gedir, gah toya,
Qışda pərçimlənir isti sobaya,
Evdə tapılmayır yaz bizim kişi.

Çox yarı göyçəklə olubdur kirvə,
Arvadlar bəsləyib, dönübdür divə.
İçib, yolu azıb, gələndə evə,
Qalmaqal törədir tez bizim kişi.

Günüəri sulayıblar aşını,
Vurulublar başına ocaq daşını,
Yolubdular saqqalını, başını,
Olub seyrəksaqqal, daz bizim kişi.

Heç kim ona .............. bir gündən artıq,
Mən dözüb .................. ona arvadlıq.
Gecələr .................... rahatlıq,
Yeyir axşamacan ............. bizim kişi.

Sərxoş olur başı dəyir dirəyə,
Evə gətirirlər qoyub xərəyə.
A Binnət, baxmayır çaya-çörəyə,
Yeyəndə vurmasa "yüz" bizim kişi.

***14.08.1966***

## Ərim... mənnən... dolanmır

***(Bir arvadın dilindən, Hüseyn Bozalqanlıya nəzirə)***

Heç bilmirəm necə dözüm dolanım?
Ərim ölmüş mənnən yaxşı dolanmır.
Nə qədər odlanım, oda qalanım?
Evdə ocaq yanmır, çömçə bulanmır.
Elə bil işləsə çıxacaq canı,
Sarımsaq bürüyüb bağı bağçanı.
Ot-alaf basıbdı həyat-bacanı,
Mən yoluram, o dəryazla çalammır.
Payız girib nə odun var, nə kömür,
Qışda dama yağan qarı kürümür.
Yaz olanda, evdə bir gün görünmür,
Yay olanda qardalımız sulanmır.
Oxumayır, dar düşünür, dar bilir;
Soruşmağı, öyrənməyi ar bilir.
Qohum verən payı, pulu var bilir,
Qazanmayır, əli, cibi pullanmır.
Nə şairi, nə alimi bəyənir;
Nə sənəti, nə də elmi bəyənir,
Quru bəydir, özü dəblə geyinir,
İldə mənə bir cüt corab alammır.
Yekə-yekə siyasətdən danışır,
Sədaqətdən, məhəbbətdən danışır,
Qanacaqdan, mərifətdən danışır,
Özü bir mərifətli adam olammır.

A Binnət, əlindən heç bir şey gəlmir
Tay-tuşuna baxıb, utanmır, ölmür,
Sabahnı düşünmür, xeyrini bilmir,
Qohum-qonşu onu başa salammır.

***16.07.1962***

## Ola

***(Aşıq Nəcəfə nəzirə)***

Eləsinə vurulasan, sevəsən

Ağlı, gözəlliyi eldə car ola!
İstəsə, canını qurban verəsən,
Qılıqlı, məzəli, xoşrəftar ola!
Səni məst eləyə xumar baxışı,
Cilvələnib evdən nazla çıxışı,
Gülüb-danışmağı, qəmzəsi yaxşı,
Əndamı, ağuşu füsunkar ola!
Dəhanı qənd ola, ləbləri şəkər,
Günəş camalına küsənə ülkər,
Gözəlliyinə, "əhsən" deyə mələklər,
Onu xəlq edənə minnətdar ola!
Nə deyəndə hər sözünə can deyə,
Hüsnünə hurilər səcdə eləyə,
Həsrəti aşiqi xəstə eləyə,
Vüsalı dərdinə şəfakar ola!
Baldan şirin ola sözü-söhbəti,
Sənə ilham verə mehri, ülfəti.
Binnət sevən kimi sevə Binnəti,
Nazlı, Nəzakətli, işvəkar ola!

***26.08.1964***

## Qadasın aldığım

***(Aşıq Nəcəfə nəzirə)***

Haçan gəlsən pişvazına çıxaram
Əllərimdə gül, qadasın aldığım.
Can-baş ilə hər sözünə baxaram,
Ömrüm boyu bil, qadasın aldığım.
Unutmaram ilqarımı, əhdimi.
Qələm yaza bilməz sədaqətimi
Sənə olan ülvi məhəbbətimi.
Deyə bilməz dil, qadasın aldığım.
Sənsən mənim ümid yerim, həyanım,
Səndən başqa yox heç kimə gümanım,
Yubanma gəl, hər dəqiqəm, hər anım,
Sənsiz olur il, qadasın aldığım.
Həftələrlə qalma gedəndə kəndə,
Zəng elə, qarşına çıxım gələndə,
Binnət ilə danışanda, güləndə
Şirin danış, gül, qadasın aldığım.

***23.09.1976***

# Ay baba

***(Həsən Müşkülüyə cavab)***

Bil ki bu zamanın sənə sazını,
“Öyrədərlər”, “çaldırarlar”, ay baba.
Çəkəmməsən harınların nazını,
Ahını ərşə qaldırarlar, ay baba.

Yerinə yetir tapşırılan hər işi,
Lap olsa da fil işi, ya nər işi,
Nə olsun ki, o qadındı, sən kişi,
Səni ona yoldurarlar, ay baba.

Dara düşsən Rəbbi çağır köməyə,
Dərd bilməzə dəyməz dərdi deməyə.
Dadananlar müftə, haram yeməyə
Sənə xaşıl çaldırarlar, ay baba.

Gör kimnən düşürsən bəhsə düşəndə,
İşin avand olmaz tərsə düşəndə.
“Papkalı”, “Şapkalı” nəsə düşəndə,
Gönünü də aldırarlar, ay baba.

Heç qoymazlar səni içəri keçməyə,
Yaxşısını, yamanını seçməyə.
Cəhd etmə boslara xalat biçməyə,
Qol-qıçını sındırarlar, ay baba.

Daha xoş xəyala dala bilməzsən,
Binnəttək haqqını ala bilməzsən,
Quzğunları tora sala bilməzsən,
Səni tora saldırarlar, ay baba.

***24.08.1968***

# Öldürmə

*Dərdim çoxdur, dindirməyin, hazarat,*
*Məni bir alagöz Ceyran öldürər.*

*Aşıq Ələsgər*

Səni suçlu sayar, qınayar hamı,
Olmuşam hüsnünə heyran, öldürmə.
Aşkarda al, sən alanda canımı,
Hamı görsün, məni pünhan öldürmə.

Sənin əlindədir mənim həyatım,

Varlığım, sağlığım, müqəddəratım.
Aman ver, mətləbə, murada çatım,
Səni istəyəni cavan öldürmə.
Mənə qıyma əlim sənə çatmamış,
Qanımdan keç əlin qana batmamış.
Muradıma, vüsalına çatmamış,
Eyləmə qanıma qəltan, öldürmə.
Azdırsa verdiyin kədər, qəm mənə,
Artır əzabımı, ver sitəm mənə.
Binnətəm, ölüncə sadiqəm sənə,
Sadiq aşiqini, canan, öldürmə.

***26.06.1966***

# Düşdü

***(Rəsul Qovlarlıya cavab)***

Dedilər: - Müfəttiş gəlir,
Çox kürklərə bizə düşdü.
Boslar, tuzlar tələsdilər,
Bəzisi təndirə düşdü.
Bazanı etdilər təftiş,
Rəisi yoldu müfəttiş,
Montyora kəsildi iş,
Qarovulçu şərə düşdü.
Neçə dəfə görmüşəm mən,
Zəlil oldu zülm edən.
Çox qudurub, göylə gedən,
Qəza vurdu yerə düşdü.
Mərdi sıxdı, əzdi zaman,
Bu dərd məni üzdü hər an,
Süd gölündə üzdü yaman,
Yaxşı çirkə kirə düşdü.
Qınamasın key Binnəti,
Gəzir xalqa səadəti.
Unutdular ədaləti,
Nərin payı xərə düşdü.

***2.07.1966***

# Zarafat eləyir

***(Rəsul Qovlarlıya cavab)***

Bic haramxor yeyib, dönüb
Filə, zarafat eləyir.
Harınlaşıb, hücum edir
Kələ, zarafat eləyir.
İblistək min dona girir,
Dərd üstünə dərd gətirir.
Ziyankardır, ziyan verir
Elə, zarafat eləyir.
Sərxoş olur ara qatır,
Küfr edir, günaha batır.
Ata-anasını atır
Çölə, zarafat eləyir.
Evdən satır, şərab alır,
Tiryək çəkir, çöldə qalır.
Uşağı qocanı salır
Ələ, zarafat eləyir.
Artan kimi pulu, varı
Binnət, saymır dostu, yarı.
Tamam atıb abrı, arı
Selə, zarafat eləyir.

***3.05.1966***

## Bir hikmətə tuş oldum

***(Bağlama – Aşıq Ələsgər)***

Bu günlərdə bir hikmətə tuş oldum,
Adı-sanı hər aləmdə deyilir,
Şəriət ətini haram buyurub,
Halal olan sümükləri yeyilir.
Müdam ayağından kəsilməz abı,
Abını kəsəndə heç olmaz tabı,
Çox əziz yaradıb kərəm sahabı;
Toxmağınan təpəsinə döyülür.
Ələsgər ərz eylər, ariflər qana,
Üç ayda, dörd aya o gəlir cana.
Lətifdir xörəyi, qarışır qana,
Dərmanı var cəsədində yayılır.

## Tuş olduğum hikmətə,

*(Bağlamanın açması –Binnət Eloğlu.)*

Sənin tuş olduğun hikmətə, ustad,
Həm çəltik, həm də düyü deyilir,
Düyünün qabığı yeyilməz heç vaxt.
Düyü çəltik sümüyüdür, yeyilir.
Çəltik zəmisinin kəsilməz suyu,
Susuz çəltiklərin uzanmaz boyu.
Dibçəkdə qabıqdan ayrılar düyü,
Toxmaqla çəltiyin başına döyülür.

Binnət hazır olur hər imtahana,
Üç-dörd aya gəlir çəltiklər cana.
Düyü xörəyinin xeyri var qana,
Dərmanı var, canımıza yayılır.

***25.08.1972***

## Yaxşıdır

*(Rəsul Qovlarlıya cavab)*

Rəhmsiz gədədən aman, mərhəmət
Diləməkdən, diləməmək yaxşıdır.
Yamana yaxşılıq, namərdə hörmət,
Eləməkdən, eləməmək yaxşıdır.
Zülmə düşsün xalqıma zülm edəni,
Odda yansın, külə dönsün bədəni.
Haqqa tərəf doğru yolla gedəni,
Əyləməkdən, əyləməmək yaxşıdır.
Daim öyrənməyə can atdı Binnət,
Bildi, sonra yazdı-yaratdı Binnət.
Qanmaq istəməyən keyə nəsihət
Söyləməkdən, söyləməkmək yaxşıdır.

***19.01.1963***

# İTHAFLAR

## Əsil Vətəndaşlara

*Elimizin əsil vətəndaşları – Qənirə*
*Xanım Paşayevaya, Qəzənfər bəy Paşayevə,*

*Ramiz bəy Zeynalova hörmətlə.*

Mədhiyyə yazammıram. Mədh edə biləm sizi –
Elimin Qənirəsi, Qəzənfəri, Ramizi!
Məhəbbətlə bağrıma basıb, hər birinizi,
Sizə uğur diləyir, deyirəm:– Çox sağ olun!
Tanrı sizə yar olsun, siz elə dayaq olun!

Olsa da lap Xəqani, Nizami məharətim,
Sizi mədh eləməyə çatmaz şövqim, qüdrətim.
Sizinki qədər ola elə xeyrim, xidmətim!
Xariqələr yaradaraq, elimiz abad olsun!
Vətənimiz firavan, millətimiz şad olsun!

Biriniz ərzim yayır, yerin hər ölkəsinə,
Diplomantlar mat qalır onun hər kəlməsinə.
Biriniz ucalıbdır fəzilət zirvəsinə,
Şöhrəti şəfəq salır bütün türk dünyasına
Ya Rəb! Onu bənzədim dahilərin hansına?!

Biriniz layiq olub ən mötəbər rütbəyə,
Belə şərəfli rütbə nəsib olmur hər bəyə.
Çatasınız ən şanlı, ən ali mərtəbəyə!
Yüksələsiz daha da şan-şöhrətli məqama!
Layiqsiniz ən böyük hörmətə, ehtirama.

Siz fədakar, xeyirxah övladısız elimin;
Hünəriylə dağ yaran Fərhadısız elimin,
Pənahı, ümidgahı, imdadısız elimin
Haqq Sizə pənah olsun, daim üzüağ olun!
Dünyanın möhnətindən, qəmindən uzaq olun!

Binnətəm, elimizdə qala bir izim təki,
Mən də xeyir verəydim elimə sizin təki!
Yurdumun hər kəndində arzu eləyirəm ki,
Bir Qənirə, bir Ramiz, bir Qəzənfər ola kaş!
Hər oğul-qız sizintək ola əsil vətəndaş!

***20.06.2010***

## Ələsgər

Göyçə gülzarından Göyçə gülünü,
Göyçə gözəlinə dərdi Ələsgər.
Göyçə toylarında sinəsində saz,
Vəsf etdi göyçəli mərdi Ələsgər.

Qəlbində haqq oldu, sözündə düzlük,
Nə paxıllıq bildi, nə iki üzlük.
Nəməri gah corab oldu, gah yüzlük,
El gözündə yüksələrdi Ələsgər.
El ondan razıydı, o eldən razı,
Xoş söhbəti vardı, şirin avazı.
Solaxay çalardı sədəfli sazı,
Qovardı qəlblərdən dərdi Ələsgər.
Söz qoşdu nə qədər incəbelliyə -
Müşkünaza, Güləndama, Telliyə.
Anaxanım nənə küsməsin deyə,
Onun da tərifini verdi Ələsgər.
On iki şagirdli bir ustad idi,
Ellə qəmlənərdi, ellə şad idi.
O dosta dost idi, yada yad idi,
Dost hayına tələsərdi Ələsgər.
Yüz ildir ki, dildə gəzir usta adı,
Binnətə də deyələr ki, "ustadı."
Bütün aşıqların kamil ustadı,
Ələsgərdir, Ələsgərdir, Ələsgər.

***16.07.2010***

## Mənə Quran oxumağı öyrədən Hüseyn Xocaya

Müəllimin, mürşidim, Hüseyn Xoca,
Səni uca etsin ucadan uca!
Bar versin saldığın bu bağ, bu bağça,
Ansınlar adını dünya durduqca!
Dilinə gəlməsin nə ah, nə aman,
Yaradan yar olsun sənə hər zaman!
Nur verdin görməyən gözlərimizə,
Haqqın haqq yolunu göstərdin bizə.

Haqqa tapındırsın bizi bu haqq, yol,
Haqqın haqq yolunda, amanında ol!

Sənin səyin ilə İnşallah Binnət
Müqəddəs Kəbəni edər ziyarət...
Bir gün Türkiyəyə düşə güzarım,
Gəzə İstanbulda mənimlə yarım.
Gələm evinizə qardaşın kimi,
Həmkarın, həmdəmin, sirdaşın kimi...
Yağılardan azad ola Qarabağ,
Bizi bu əzabdan qurtara Allah!
Bitə bu qan-qada, bu fitnə-fəsad,
Yaşaya xalqımız quş kimi azad.
Xalqımız olmaya heç nəyə möhtac,
Sınağa çəkməyə bizi ehtiyac.
Daha dərd olmaya ayrılıq bizə,
Gedəm, gələm, Ankaraya, Təbrizə.
Nola aramızda sərhəd olmaya,
Binnət dostlarına həsrət qalmaya!

***18.06.1992***

## Qaxlı dostum Süleymana

Salam, a mehriban dostum, həmdəmim,
Bayramın mübarək, gözlərin aydın!
Bu bayram günündə Tanrı eşqinə
Ya mən orda, ya sən burda olaydın.
Bilmirəm necədir güzəranımız,
Yol-uzaq, vaxtım-az, gələ bilmirəm.
Sizintək dostlara həsrət qalalı,
Bir ürək dolusu deyib-gülmürəm...
Sizin armud ağacını sulamaq,
Biz də nəsib olacaqmı görəsən?
Sizə gəlmək, Qaxı görmək muradım,
Gözümdəmi qalacaqdı görəsən?
İdris müəllim, Zahid həkim sazdımı?
Saat dayı sizə gəlib, gedirmi?
Muxtar dayı müalicə oldumu?
Dava-dərman ona xeyir verirmi?
Yenə dəcəl Nərgiz sizi incidir?

Şirin dillə onu yola gətirin.
Əli dayı, Asya bacı necədir?
Hamısına salamımı yetirin.
Məndən salam deyin sizə gələndə
Qəmər bacı, uşaqları yoldaşı,
Sizin salamları bizə çatdırdı
Bizə gəldi Oruc ilə qardaşı,
Ömrüm boyu unutmaram, a dostlar,
Mən sizinlə keçirdiyim hər günü,
Hələ dadı damağımdan getməyib
Sizin ləziz hingilinin, sühünün.
Sizin kimi sədaqətli dostlara,
Sözüm çoxdur, vaxtım yoxdur çox yazım.
Şükür gördüm, yük olmadı qəlbimə
Balakəni, Qaxı görmək murazım.

***01.01.1972***

## Həm müxbir, həm əsgər oldun
## *(Cəbhədə şəhid olmuş Milli Qəhrəman Salatın Əsgərovanın əziz xatirəsinə)*

Gələndə şəhidlər xiyabanına,
Çoxu köks oturub küsənir sənə.
Canı fəda etdin Azərbaycana,
Layiqli vətəndaş oldun Vətənə.
Məskənin illərlə cəbhələr oldu,
Bitdi döyüşlərdə ömrünün yazı,
Həm ana, həm müxbir, həm əsgər oldun.
Səntək ola elin hər oğlu, qızı!
Poladtək sınsan da sən əyilmədin,
Dönmədin əhdindən, sədaqətindən.
Səni sağlığında görə bilmədim,
İndi məzarına baş əyirəm mən.
Bacım, şəhid oldun Vətən yolunda,
Alqış sənin kimi yaşayanlara!
Halaldır yaşamaq Odlar Yurdunda
Qəlbində el eşqi daşıyanlara.

***12 oktyabr 1993***

## Professor Bəybala Abbasova

***(xəstəxanada)***

Ey böyük Loğmanı Azərbaycanın,
Yayılsın aləmə şöhrətin-şanın!
Arzu eləyirəm sənin heç zaman,
Dilinə gəlməsin nə ah, nə aman.
Qapını açmasın nə qəm, nə kədər,
Ömründən bir an da keçməsin hədər.
Başın uca olsun, hörmətin artıq,
Hər yana yayılıb şöhrətin artıq.
Şəfasız xəstəyə, şəfa verənsən.
Özünə əziyyət, cəfa verənsən,
Elə yayılıbdır şöhrətin elə,
Tərifin sığmayır ağıza, dilə.
Sənin dərgahına kim gəlib, haçan
Köməksiz qalmayıb sənə əl açan.
Kim ki dərd əlindən düşür kəməndə,
Həyata qayıdar sənin sayəndə.
Səndən nə qədər ki, dərs alanlar var,
Sənə oxşamağa çalışır onlar.
Nə yaltaq deyiləm, nə də ki, məddah,
Doğru sözlərimə şahiddir Allah.
Mən nə Nizamiyəm nə də ki, Vurğun,
Söz tapa bilmirəm şəninə uyğun.
Qorxuram az ola verdiyim qiymət,
Səni mədh etməyə acizdir Binnət.
Nola məzarından qalxa bu saat,
Verə qiymətini böyük Hipokrat!
Qurtardım bu şeiri dizimin üstə,
Yerin əbədidir gözümün üstə.

***15.12.1984***

## Professor Bəybala Abbasova

**(II şeir)**

Sən ey Şəfasıza şəfa bəxş edən,
Xeyirxah kəslərin yoluyla gedən,
Ey mərhəmət kanı, səxavət kanı,

Odlar ölkəsinin böyük loğmanı,
Şəfa ver, nicat ver gəl bu gücsüzə,
Əqlinlə, elminlə göstər möcüzə.
Yenə dar günümdə sən ol həyanım,
Səndən başqasına gəlmir gümanım.
Bu böyük şəhərdə hayıma çata,
Mənə nə qardaş var, nə də ki, ata.
Mənə öz canını eləyər fəda
Bir qoca anam var, uzaqdır o da.
Yolumda bir dəfə çəkmisən cəfa,
Gəl bu şəfasıza bir də ver şəfa.
Hər dəfə əlimə dəyəndə əlin,
Gözümdə ucalır böyük heykəlin.
Gecəni yatmayıb qalsam da ayıq,
Söz tapa bilmədim adına layiq.
Şükür, böyük ada yetişmisən sən,
Hələ öz dərdimin katibiyəm mən.
Səndən söz açmağa qüdrətim çatar,
Fəqət çap etməzlər, nə mənası var.
Nə məşhur adım var, nə də şöhrətim,
Nə çapxanalarda qədir-qiymətim.
Yazıb pozduqlarım özümə yükdür,
Hamının dərdindən dərdim böyükdür.
Çap etsəm adına layiq bir dastan,
Binnətəm sevinib, çıxardım yasdan. ***16.10.1986***

## Şahbaza, uşaqlara
***(onlar kənddə olanda)***

Salam, a əzizim, a cismi sərim,
A hüri qılmanım, mələyim, pərim.
Əgər əhvalımı bilmək istəsən
Sizsiz mənasızdır keçən günlərim.
Nə hazır xörək var, nə dəmlənmiş çay,
Nabatım, noğulum, balım, şəkərim.
Gecəm gecə deyil, gündüzüm gündüz,
Günəşim, ulduzum, ayım, ülkərim,
Necədir evimin nuru, şənliyi,
Mənə "Ata", - deyən nur didələrim?

Bir an da yadımdan çıxmayırsınız,
A ömür yoldaşım, a körpələrim.
Səbr edin, hicranın ömrü az olar,
Bilirsiz doğrudur mənim sözlərim.
Gecə də, gündüz də hey səhər-axşam
Siz gedən yollara baxır gözlərim.
Sizsiz üzüm gülmür, sevinməyirəm,
Dinclik bilməyirəm, ay əzizlərim.
Bu məktubu sizə evdən yazıram,
Ağrıyıb eləmir daha heç yerim.
Burdakı qohumlar sağ-salamatdır,
Orda olanlardan yoxdur xəbərim.
Məktub da yazmıram, nadürüstlərə,
Heyifdir kağızım, vaxtım, qələmim.
Nankora, namərdə, paxıla, pisə
Azardır, bəladır mənim hünərim.
Məni kor görmədi, kar eşitmədi,
Bədxah bazarında qəlp çıxdı zərim.
Yazıb yaratdığım özümə yükdür,
Ötmür məclislərdə xanəndələrim.

Gərək bundan sonra elə yazam ki,
Zərbi-məsəl ola dürr kəlmələrim.
Cəm ola başıma hər səhər-axşam,
Sözlərimə aşiq pərvanələrim.
Bir az imkan olsa elə yazaram,
Əldən-ələ keçər zərtək əsərim.
Memarlıq eləsən ecazkar kimi.
Daşa da ruh verər qadir əllərim.
Rəssamlıq eləsəm Rəfail kimi,
Yüz illər keçsə də solmaz rənglərim.
Məni belə qadir yaradıb Allah,
Bir gün çap olacaq şah əsərlərim.
Bir az hünərindən danışdı Binnət,
Deməyin goplayır atamız, ərim.

***10 avqust 1992***

## Salamlaşma

***(Şagirdlərimin xahişi ilə)***

*Qartallar deyir*

Yarış meydanında xoş gördük sizi
A bizi sınağa çəkən, şahinlər
Qalib olacağıq, qələbəmizi
Bayram edəcəkdir Vətən, şahinlər

Bu yarış meydanı, bu biz, bu da siz,
Sınaqdan qaçana dünya dar olsun.
Münsiflik eləsin, müəllimlərimiz,
Nə bizə nə sizə havadar olsun.

Kamal zəfər çalsın, elmin nuruyla,
Hünər meydanında qələbə çalaq.
Analar öyünsün övladlarıyla
Biz Vətənə layiq vətəndaş olaq!

***14 mart 1996***

## Şahinlər deyir

Xoş gəlmişsiniz hamınız,
Gözəl olsun hər anınız!
Göylər olsun məkanınız,
A Qartallar, a Qartallar!

Göylər olmasın işıqsız,
Yerlər gülsüz, yaraşıqsız!
Səmamıza yaraşıqsız,
A Qartallar, a Qartallar!

Azad olun, qanad çalın,
Quzğunları vurub salın.
Yağılardan qisas alın,
A Qartallar, a Qartallar!

***14 mart 1996***

## Ədalət

*(Aşıq Ədalət Nəsibova)*

Kərəmi alova salar, yandırar
Ədaləti unudanda Ədalət.
Keşişi ocağa qalar, yandırar,
Ədaləti unudanda Ədalət.

Haray salıb, gədikləri bağladar,

Durnaların qatarını saxladar,
Dinləyəni için-için ağladar,
Ədaləti unudanda Ədalət.
Nalə çəkər sinəsində qara saz,
Pərdələrdə tüğyan edər qar, ayaz.
Əslinin bəxtinə düşər qara yaz,
Ədaləti unudanda Ədalət.
Dilqəmi çalanda Dilqəmə dönər ,
Kərəmi çalanda Kərəmə dönər.
Gah zilə ucalar, gah bəmə enər,
Ədaləti unudanda Ədalət.

Simlər nalə çəkər, pərdələr yanar,
Təzəni alışar, saz alovlanar.
Gah göydən od tökər, gah da qırov, qar,
Ədaləti unudanda Ədalət.
Danışanda ölçər - biçər hər sözü,
Ruhani çalanda kövrələr özü.
Yanıq kərəmilə yandırar bizi,
Ədaləti unudanda Ədalət.
Binnət çarə tapmaz nicat umanda,
İnsaf olmaz insafa göz yumanda.
Lələ köçər, izi itər dumanda,
Ədaləti unudanda Ədalət.

***24.12.1965***

## Gördüm

*(Namiq Həmzəyevin şəhid olmasının*
*7-ci ilində anma mərasimində*
*Ata-ana həm şad, həm qəmli idi)*

Şad gündə pərişan, bəxtdən küsülü,
Gülə-gülə bir yas saxlayan gördüm.
Ana bənövşətək boynu bükülü,
Atanı lalətək bağrı qan gördüm.
Güvəndiyi oğlu əcəl tez alıb,
Atanın əlləri qoynunda qalıb.

Qəmi ayağının altına salıb,
Oynaya-oynaya çığnayan gördüm.
Bir şəklin önünə qoyulub güllər,
Şadlıqdan uzaqdır qəmli könüllər.
Bu anım günündə bir gözü gülər,
Bir gözü buludtək ağlayan gördüm.
Məclisə gah fərəh, gah qəm tökülür,
Gah qəm yas saxlayır, gah fərəh gülür.
Gah kuzə ağlayır, gah qədəh gülür,
Qəhəri gülüşlə dağlayan gördüm.

A Binnət, əkizdir fərəhlə qəhər,
Bu gün bir camdadır zülalla zəhər.
Bir üzündə sevinc, birində kədər.
Matəmi şadlığa bağlayan gördüm.

***25.12.1999***

## Oğlum Arifə

Oğlum, rahat yatasan,
Qalxıb hoya çatasan!
Tez böyü, bir də görüm,
Mən baba, sən atasan!
Yazı yazmağa tələs,
Oxumağa et həvəs,
Çatar hər arzusuna
Öyrənməyi sevən kəs
Anana yaxşı oğul
Bacılarına qardaş ol,
Binnətə kömək, pənah,
Vətənə vətəndaş ol.

***22.04.1989***

## Yaşayacaqsan

*(S.Vurğunun poeziya günləri ərəfəsində)*

Bir qərinə əvvəl Azərbaycanı
Bir matəm sarsıtdı – Vurğunsuz qaldıq.
Dedilər: - "Ən yaxşı şeir yazanın
Ömrü başa çatdı" – Vurğunsuz qaldıq.
Hər yana yayıldı bu qara xəbər:

“Dayandı bir ürək, durdu bir qələm”.
Əlləri qoynunda yas tutdu bəşər -
Gözləri yaş yaxdı, ürəkləri qəm.
Bakıda, günəşli bir yaz səhəri
Susdu bir rübabın şirin avazı.
Ağladı yurdumun xanəndələri,
Aşığın köynəkdən çıxmadı sazı.

Hüseynin, Osmanın gülmədi üzü,
Yas libası geydi Rahim, Süleyman.
Dahi bir şairin tükəndi sözü,
Ən böyük oğlunu itirdi zaman.
Qələm dostların da, oxucular da,
Yasını saxladı bir nəfər kimi.
Aşıqtək gəzdiyin hər bir diyarda
Səndən söhbət açar görsəm hər kimi.
Aranda izin var, dağda izin var.
Səyyah tək gəzərdin çölü-çəməni.
Cahanda ölməyən min bir sözün var,
Hansı şeir dostu unudar səni?!
Muğan səni anır, Mil səni anır,
Şirvan cəlalına şeir gözləyir.
Manya qəbrin üstə qəmli dayanır,
Sarvan cəlalına şeir gözləyir.
Gürcülər şeirini əzbər oxuyur,
Sənandan ucadır orda hörmətin.
Xalqlar türbən üstə gül, çiçək qoyur,
Ellərin dilindən düşmür söhbətin.
Talıstan, Dəlidağ, Göy-göl, Qarabağ,
Quba, Mingəçevir unutmaz səni...
Xalqa oğul oldun, şeriyyata şah,
Şair, cahan sevir, unutmaz səni.
Fəxri xiyabanda-güllər içində
Yatsan da, məskənin ürəklərdədir.
Məzarın olsa da tüllər içində,

Nəbzin şeir yazan biləklərdədir.
Qəbrinə baş əymək olubdur peşəm
Alqış insanlığın sədaqətinə!
Sənə oxşamaqçün az gəlməmişəm
Müqəddəs türbənin ziyarətinə.
Sazının üstündə bircə sim qalıb,
Qatarının üstə bir dolu giliz.

Demə bizi ölüm aralı salıb,
Hər il yubileyini keçiririk biz.
Müqəddəs qoyunda əbədiyyətin
Ölməz, əbədisən, daimi sağsan.
Böyük ürəyində bəşəriyyətin
Neçə ki, həyat var yaşayacaqsan!

***22.05.1981***

## Mənə elə saz düzəlt

***(Saz ustası Xuduya)***

Kamil usta, mənə elə saz düzəlt,
Səsi şaqrar ola, hüsnü-tamaşa.
Məclisə saz ola, mənzilə-zinət,
Çalınanda müdrik kimi danışa.
Nə böyük olmaya, nə də ki bala,
Zildə də, bəmdə də hər hava çala.
Sinəsində hər simi bir ün sala,
Naləsində ah - naləyə qarışa.
Yüz il keçə, pozulmaya pərdəsi,
Orkestrtək ifa edə hər səsi.
Avazına məftun edə hər kəsi,
Nəvasında həsrətlilər qovuşa.
Nə pərdəsi, nə simi az olmaya,
Nə yöndəmsiz, nə nataraz olmaya.
Nə heç kimdə belə bir saz olmaya,
Əsl bəxşiş ola dosta, tanışa.
Atmayalar evdə küncə-bucağa,
Körpə kimi rahat yata qucağa.

Toxunanda Binnət dönə ocağa,
Kərəm kimi alovlana-alışa.

***02.05.1985***

# Saz ustası Xuduya

Aldım məktubunu, şükür Allaha!
Köçdü ürəyimdən intizar daha.
Artdı gözlərimin nuru, işığı,
Güldü mənzilimin yar-yaraşığı.
Tərk etdi ruhumu narahatlığım,
Qayıtdı özümə öz rahatlığım.
Çəkdi karvanını qəlbimdən ələm.
Cavaba tələsdi Əlimdə qələm.
Sözlər misralaşdı, düzəldi şeir,
- Salam, usta Xudu, hər vaxtın xeyir.
Bizi yad etmisən, usta çox sağ ol.
Eldə başıuca, üzü də ağ ol.
Dədə Qorqud kimi uzun ömür sür,
Heç kim sənətində tapmasın qüsur.
Açsın qapısını sənə ağ günlər.
Bəxtinə yar olsun toylar, düyünlər!
Sənə hər işində bəxtin yar olsun,
Möcüzə yaradan əlin var olsun.
Səni çox görməsin elə yaradan,
Eliylə var olsun elə yaradan!
Mən nə Nizamiyəm, nə də Füzuli,
Yanında gödəkdir şeirimin dili.
İşinə qiyməti sərraflar verə,
Adını şairlər salalar şeirə.
Qiymətini verməyə acizdir Binnət,
Qorxur ki, ar ola verdiyi qiymət.

***9.06.1985***

# Ola

***(Saz ustası Xuduya)***

Hər işi verələr öz ustasına,
Mətləb hasil ola – iş taraz ola.
Paxıl sənətkarın əlləri sına,
Nataraz işinə müştəri az ola.
Sınaqda seçilər yamandan yaxşı,

Öyməyə özünü hər nadan, naşı.
Qapazlana axmaq ustanın başı,
O qədər vuralar payəndaz ola.
Elin şöhrətidir yaxşı sənətkar,
Yaxşı ad qazanmaz naşı sənətkar.
Ağladar, güldürər daşı sənətkar,
İmkanı çox ola, canı sağ ola.
Usta Xudu, bədnəzərdən uzaq ol,
El içində başıuca, üzüağ ol.
Hər çalanda desin: - Usta, çox sağ ol!
Binnətə bir saz bağla ki, saz ola.

***26.05.1985***

## Oğul

***(Oğlum Arifə)***

Bu sirli aləmə sən göz açalı,
Yenicə olubdur altı il, oğul.
Yenicə yeriyib yüyürürsən sən,
Yenicə açırsan hələ dil, oğul.
İndidən hər şeyə yaxşı nəzər sal,
Bilmədiklərini soruş, xəbər al.
Qurddan qurd törəyər, çaqqaldan çaqqal,
Nərdən nər, şirdən şir, fildən fil, oğul.
Bağban olsan, yaxşı qulluq et bağa,
Bağçada güllərə, bostanda tağa.
Fələk riyakara, bicə, yaltağa,
Min sifət veribdir, min bir dil, oğul.
Həkim olsan, xəstələrə ver şəfa,
Hakim olsan, əyil haqqa, insafa.
Hər kim olsan, el yolunda çək cəfa,
Onda uca tutar səni el, oğul.
Atan sənə yaxşı məsləhət edər,
Məsləhətə baxsan, işin düz gedər.
Binnətəm, bir anın getməsin hədər,
Vaxtının qədrini yaxşı bil, oğul.

***22.04.1991***

# Ay aşıq

***(Qaynıma aşıq Firdovsiyə)***

Ay aşıq, saz deyil hər simli taxta,
Seçib saz alasan, saz alanda da.
Oxuyanda aşıq Mirzətək oxu,
Ədalət kimi çal, saz çalanda da.

Zövq versin məclisə sazın avazı,
Gül açsın hər xalın,hər gülün yazı.
Dil açsın hər simi, elə çal sazı
«Çox sağ ol»- desinlər, az çalanda da.

Çağlasın Binnətin təbi elə çal,
Heç kim danışmağa tapmasın macal,
Eldə Ələsgərtək, Hüseyntək ucal,
İncimə nəmərin az olanda da.

***05.07.1986***

# Olsun

***(Toy günü yengəm Sədaqətə)***

Ayağın səyalı olsun, ay gəlin,
Başın uca olsun, canın sağ olsun!
Anamı özünə ana say, gəlin,
Atamın yanında üzün ağ olsun.

Həm bizə gəlin ol, həm də bacı,
Sən ol hamımızın başının tacı.
Nə var düşkünü ol nə şöhrət acı,
Səndən azar, ağrı, qəm uzaq olsun!

Xeyir duasını dinlə Binnətin,
Ən xoşbəxt gəlni ol bəşəriyyətin.
Ağgün payın olsun, xoş gün qismətin,
Necə ki, ömrün var kefin çağ olsun!

# Qardaşım – Qoşqarın toyunda

***(Qardaşım Yolçuya)***

Əlinə xına qoy, ay ana, sən də,
Atam da bu toyda oynaya gərək
Beş bacım əl-ələ süzüb-səkəndə
Fərəhdən sinəmə sığmayır ürək
Məlahət, Sədaqət, İlqar, Afət də
Yanıma yığılsın mən oynayanda.
Toyunda oynasın bəy də, gəlin də,
Bu gün oynamasa sonra nə fayda?...
A fəxrim, güvəncim, hardasan harda?
Gəl, ver məclisə yaraşıq, qardaş!
Bütün el deyir ki, toyda-mağarda,
Oynamaq bir sənə yaraşır, qardaş.
Məclisin başında yerin boş qalıb,
Yerinə bir əvəz seçilməyibdir,
Fələk səni bizdən aralı salıb,
Nüfuzun zərrəcə kiçilməyibdir.
Qardaş, fələk bizi ayıra bilməz,
Həmişə, hər yerdə qəlbimizdəsən.
Sənsiz bircə an da üzümüz gülməz,
Canımızı verrik sənə, istəsən.
Yerin boş qalsa da, yurdun boş deyil,
Gözümün nurudur hər bir övladın.
Sən harda olsan da, qardaş yəqin bil,
Binnətin dilindən düşməyir adın.

# Ay xala

***(Minə xalanın əziz xatirəsinə)***

Bizə elə ağır yük qoyubsan ki,
Yüz min fil yığılsa çəkməz, ay xala!
Sinəmizə elə dərd çəkibsən ki,
Düşmən düşməninə çəkməz, ay xala!
Qəddimizi yumaq kimi bükmüsən,
Qəlbimizi ilmə-ilmə sökmüsən.
Gözümüzdən yaşı elə tökmüsən,
Göylər belə yağış tökməz, ay xala!

Nə şan-şöhrət, nə də dövlət acıydın,
Anama, dayıma ana, bacıydın,
Bizim başımıza şahlıq tacıydın,
Sanırdım taxtımız çökməz, ay xala!
Gedibsən əlimdən gedib şahlığım,
Pozulub bostanım, talanıb bağım.
Dağılıb sarayım, uçubdur tağım,
Bir kimsə rəhm edib tikməz, ay xala!
Bizi elə yaxdın, od belə yaxmaz,
Yaşımız sel oldu, sel belə axmaz,
Binnət ölənəcən yadından çıxmaz
Sənin bişirdiyin bəhməz, ay xala!

***10.09.2002***

## Bayram hədiyyəsi

*(Əziz dostum professor Kamil Abbasova Novruz bayramında "Sirlər xəzinəsin"i bağışladım)*

Bayram töhfəsi kimi bağışlayıram, buyur!
Bu bəxşişdə, əziz dost xəzinələr uyuyur.
Sirlər xəzinəsidir bu ərməğanın adı.
Onu zövqlə yaradıb şairlərin ustadı.
Simuzərlə doludur bu möhtəşəm xəzinə,
Yazan qızıl işlədib mürəkkəb əvəzinə.
Hər misranı bəzəyib zövqlə, zərlə, gövhərlə,
Hər beytə bəzək verib dürdən gözəl sözlərlə
Hər dastanı yaradıb rəssam məharətilə,
Bu kitabın tərifi sığmaz ağıza-dilə.
Bundan gözəl bir əsər görməyib bəşəriyyət,
Nizamiylə ucalıb, şöhrətlənib, şeiriyyət.
– Dostum, arzulayıram sənə sağ can, səadət
Səni yüz yaşın da təbrik eləsin Binnət!
Desin: - Mübarək olsun, dostum, Novruz bayramın
Toy-bayram kimi keçsin hər saatın, hər anın!

***19.03.2011***

## Məclislərə yaraşıqdın

*(daxili qafiyə)*

*(Aşıq xanların əziz xatirəsinə, xatirə gecəsində)*

Xatirinə yığılıbdır, aşıq, bura yığılanlar,

Qəm içində, yaş içində qəlbi ahla sıxılanlar.
Kimə deyək dərdimizi? Boğur bizi qəm dənizi.
Hıçqırmağa qoymur bizi, qəlbimizə axan qanlar.
Məclislərə yaraşıqdın, xoş avazlı bir aşiqdin,
Sən elə, el sənə aşiqdi, deyir səni tanıyanlar.
Yetər bizi kövrəltdiyin, ağlatdığın, inlətdiyin,
Sızlatdığın, göynətdiyin, əldən düşüb ağlayanlar.
Hərə sevib, bir yar seçir, məclis qurur, yeyir, içir,
Bir ildir ki, sənsiz keçir təntənələr, toylar, şanlar.
Kimə deyim dərdim yazsın, dərdim çoxdur,
deyim hansın?
Saza necə qulaq assın, aşiqə yas saxlayanlar?!
Sazındakı tellər susub, simlərdən təzanə küsüb,
Şəklinin yanında asıb sazını, şəklə baxanlar.
Övladların pərişandır, yarının qəlbi şan-şandır,
Kim sənintək danışardı, bilir, yaxşı danışanlar.
“Maralım eyy”, deyə-deyə, məclisə baş əyə-əyə,
Arada bir Zülfiyyəyə, eyləyərdin şux eyhamlar.
Çoxu özünü aşiq sanır, nə yandırır, nə də yanır,
Səni gəzir, səni anır, toyda, şanda darıxanlar.
Kərəm kimi inləyərdin, Dilqəm kimi göynəyərdin,
Binnəti məftun edərdin, saza-sözə, Aşıq xanlar.

***23.11.2010***

## İltimas

*(Hörmətli Millət Vəkili Qənirə xanım Paşayevaya)*

Elimin, xalqımın xeyirxah qızı,
Hünərdə Tomrisə tay, qoçaq qızı,
Əl üzüb göylərin təvəkkülündən,
Yerdə dərgahına üz tutmuşam mən.
Bu qoca çağımda sən ol həyanım,
Səndən başqasına yoxdur gümanım...
Kimin ki, əlində olsa ixtiyar,

Xalqına xidmətlə olar bəxtiyar.
Hamı köçəcəkdir belədir qayda,
Yaxşıdan yaxşı ad qalar dünyada.
Mərhəmət gözlənməz xisləti pisdən.
Pislik eləyən kəs pisdir iblisdən.
Yaxşılar yamanlıq etməz bir kəsə,
Yaxşılıq bir adət ola hər kəsə!
Tutan yaxşılığın xətrini uca,
Xeyirxah sayılar dünya durduqca,
Necə ki, səndə var ixtiyar, fürsət,
Sənə əl aça göstər səxavət.
Hər kim pənahsıza eləsə imdad,
Həm savab qazanar, həm də yaxşı ad.
Arxalıya arxa durmağa nə var,
Arxasızlara ol arxa, havadar.
Kim olsa xeyirxah, vicdanı təmiz,
Olar vətənində hamıdan əziz.
Sənə bu sözlərim nəsihət deyil,
Səndən kömək üçün iltimasdır bil...
İsrarla tələb et Milli Məclisdə,
Soyumuzla tanınaq hər yerdə biz də.
Elə sonluq seçək soyadımıza,
Bir atribut olsun o xalqımıza.
Hərə öz soyadını yazmasın bir cür,
Müxtəlif soy sonu gülünc görünür,
Sənə bu bu işində tanrı yar olsun!
Qəzənfər, Nizami havadar olsun!
İnanır, güvənir sizlərə Binnət,
Xalqın xeyri üçün eləyir minnət.

***14.06.2010***

## Gedək

*(Vüsal Şüküroğluna)*

Ayrılıq məni yordu,
İntizarda qovurdu,
O yaylağı, o yurdu
Bir də görməyə gedək.

Yelli gədyə qalxmağa;
Çuxuryurda baxmağa,
Yar telinə taxmağa,
Çiçək dərməyə gedək.
Murğuzun ətəyindən,
Gülündən, çiçəyindən,
Güllərin göyçəyindən,
Çələng hörməyə gedək.
Cantəpə yaylasına,
Armudlu talasına,
Gölkəndin qayasına
Salam verməyə gedək.
Beşik keçməzə qalxaq,
Ordan Çaykəndə baxaq,
Molla yurduna çıxaq,
Kabab yeməyə gedək.
Alçalıdan keçməyə,
Dəymiş alça seçməyə,
Muncuqludan içməyə
Su götürməyə gedək.

Binnət dözmür fərağa;
Həsrət qalıb yaylağa,
Xəstəyə qar yığmağa,
Bal gətirməyə gedək.

***Ermənistan Çaykənd***
***28.09.1989***

## 50 yaşın mübarək

*(M.F.Axundov adına APİ-nun müəllimi*
*Qulam müəllimin 50 illik yubileyinə)*

50 yaşın mübarək,
50 il də ömür elə!

50 il də, müəllim,
Gərəksən, xalqa elə
50 yerdən teleqram,
Təbrik məktubu gəlib.
Onları Sizi sevən
Tələbələrin göndərib.
50 illik bir ömrü
Şərəflə vurdun başa.
50 yol təbrik edək,
Əllicə il də yaşa.
50 ildən sonra da
Yazdığım bir əsəri,
Əziz bir tövhətək Sizə
Bağışlaya biləydim.
Yüz illik yubileyinə
Gəlib, əziz müəllim,
50 tələbən ilə
Alqışlaya biləydim!

***13.02.1973***

## Şahbaz xanıma

*(Həyat yoldaşım Şahbaz xanım*
*Çəmbərək xəstəxanasında müalicə olanda)*

Xətiri, hörməti göylərdən uca;
Ömrümə bəzəyə, başıma taca,
Evimin nuruna, gur işığına,
Ömür sarayımın yaraşığına,
Etibarlı ömür-gün yoldaşıma,
Könül həmdəmimə, can sirdaşıma,
Dilimin əzbəri, xətri əzizə,
Sevgisi ülviyə, eşqi təmizə,

Ruhuma bahara, ömrümə yaza,
Şeirimə mənaya, mahnıma saza,
Gözümdə anamtək əziz olana,
Amalı istəyi təmiz olana,
Qəlbimin ən incə telindən salam,
Şahbaza, Binnətin dilindən salam.

***

Sən anmayanda lal olur dilim,
Salam, ay Şahbazım, hər vaxtın xeyir!
Dedim məktub yazım sənə, sevgilim,
Sözlər misralaşdı, düzəldi şeir
Gülüm, olmamışdım bir gün də sənsiz,
İndi neçə vaxtdır səni gəzirəm.
Deyirdim: - Yaşamaz sevən sevənsiz,
Məəttəl qalmışam, necə dözürəm.
Darıxma əzizim, beş-altı günə,
Yanına gələcəm, səbr elə bir az.
Bir yerdə olarıq səninlə yenə,
Qadası, hicranın ömrü çox olmaz.
Qəm çəkmə, gül, sevin, əhvalı şad ol.
Dilində qəlbi açan nəğmələr olsun!

A üzügülərim, könlü abad ol,
Tanrım ömrün boyu sənə yar olsun.
Sənin xatirinə dözüb həsrətə,
Şirin vüsalına qovuşacağam.
Yolunda dözmüşəm hər əziyyətə,
Dözürəm, dözəcəm necə ki, sağam.

***29 avqust 1978***

## Səmimi məktub

*(Şahbaz xanım Çəmbərək xəstəxanasından yazıb)*

Əziz mehribanım can sirdaşıma,
Ömrümün, günümün yol yoldaşına,
Salam göndərirəm Göyçə elindən,

Qəlbimin ən incə, zərif telindən.
Salam, ay sevgilim, söylə necəsən,
Söylə mənsizliyim üzürmü səni.
Aldım məktubunu şad etdi məni,
Bir az da kövrəltdi, ağlatdı məni.

## Sən mənimsən

*(Şahbaz davam edir)*

Sən mənim canım, ciyərim,
Döyünən ürəyimsən.
Sən mənim duzum, çörəyim,
Aldığım nəfəsimsən,
sən mənimsən.
Sən mənim fikrim, xəyalım,
Axşamım, şəhərimsən,
Sən mənim baharım-yazım,
Bağımsan, çəmənimsən,
sən mənimsən.

Sən mənim arzum, amalım,
Sevgim, məhəbbətimsən.
Sən mənim cahı-cəlalım,
Bəxtim, səadətimsən,
sən mənimsən.

***8 sentyabr 1978, Çəmbərək***

## Bacım Zeynəbə

*(Bacım Zeynəb göz xəstəxanasında yatanda)*

Ağlama, dağlama sinəmi, bacı,
Döz, gül yanağına qan bələnibsə.
Başını uca tut, başımın tacı,
Başına od yağıb, qor ələnibsə.
Heç kəs ağlamaqla arzuya yetməz,

Çərx geri dönəndə, bəxt hoya yetməz.
Min loğman yığılsa, bir çarə etməz.
Bir bəla üstünə göydən enibsə.
Əl açıb göylərə, müqəddəslərə,
Allaha yalvarma havayı yerə.
Qardaşa, bacıya, övlada, ərə
Ağlayıb, dağ basma, bəxtin dönübsə
Binnət hər qəminə qoy ortaq olsun,
Oğlun, qızın artıb min budaq olsun!
Ömrün uzun olsun, sağ göz sağ olsun,
Sol gözün əbədi nuru sönübsə.

***16 mart 1974***

## Anama

Harda qaldın, ana, gəlib çıxmadın?
Azarlıyam, ay calandı ayıma.
Köks ötürüb, həsəd ilə baxıram,
Deyib-gülən yaşıdıma-tayıma.
Yoxdu bir eşidib, mətləb düzəldən.
Gözləməkdən əldən getdi göz əldən.

Mən beləyəm. Nə edim ki, əzəldən
Azar, ağrı, həsrət düşüb payıma.
Gələndə nə alma, nə nar gətirmə,
Nə yağ, nə bal, nə bir nübar gətirmə,
Nə bir kəsdən giley-güzar gətirmə
Nə deyəsən gönü daşdan qayıma?!
Bir kəs yoxdu arxa dura, saxlaya
Qızlarımı, ya özümü yoxlaya,
Pis gündənsə, ölüm məni haqlaya,
Düşmənlərim sevinərlər vayıma!
Ay mənə süd verib, layla çalanım,
Dünyaya gətirib, dərdə salanım,
Mən Binnətəm, a başına dolanım!
Səndən başqa yetən olmaz hayıma.

***24.10.1984***

## Ana, yadımdadır

*(Anam – Sineyvər xanıma)*

Ana, yadımdadır, biz ayrılanda
Dalımca su atıb, ağlamısan da.
O əziz, o şirin, o çətin anda
Ağlasan da olmur, ağlamasan da.

Onda demisən də, ana, qəlbindən
Bilirəm çox şeylər gəlib-gedibdir.
Onda sifətində oxuduğum qəm,
Onda ürəyimi dəlib-keçibdir.

Onda vidalaşdıq istər-istəməz,
Qəlbi həyəcanlı, üzü kədərli.
Bəlkə də bu halı yazmağa dəyməz,
Ayrıldıq söhbəti, sözü kədərli.

Beləcə ayrıldıq biz, ana-bala,
Tapşırdın: “Məktub yaz, özünü gözlə”
Dönə-dönə dedin: “Uğurlar ola!”
Məni yola saldın min şirin sözlə.

Dedin: “Nə intizar, nə də ki, qəm çək,
Oğul, qəm çəkənin ömrü az olur.
Ürəyə qonaqlar gah qəm, gah istək,
Bu gedir o gəlir qurtarmaz olur”.

Gəldim, işə girdim, mənzil də aldım,
Qonağım da oldun bir aya yaxın.
Hörmətlə, izzətlə yola da saldım,
Yenə ayrılanda ucaldı ahın.

Boyuma yalvarıb yenə də məni,
Titrək əllərinlə bağrına basdın,
Qoynuna sığınıb dinlədim səni,
Yenə sən yalvardın, mən qulaq asdım.

Nələr çəkmədiniz, analar, nələr
Siz ərə, oğula həsrət qalanda?
Dərdə necə dözdü yazıq nənələr
Oğlunu cəbhəyə yola salanda?!

***4.08.1964***

## Ülvi dərsə gedir

(*Qardaşım oğlu Ülviyə zarafatla*)

Hər səhər dərsə gedir
Ülvi dərsdən qalmayır,
Elə "çalışqandır" ki,
Arıq üç də almayır.

Çoxdan itib, bilməyir
Karandaşı hardadır.
Bilmir kitab-dəftəri
Evin harasındadır.

Qələmi, gündəliyi
Bir yandadır hərəsi
Oyadır yatanları
Hər gün Ülvinin səsi:

– Ana çantam hardadır?
Əmək papkam hardadır?
Bacı, qələmim hanı?
Tapın, verin çantamı!

***11.01.1993***

## Bacım Zeynəbə

*(mərsiyyə)*

Fələyin gülməsin üzü, qara geysin göylər sənsiz,
Qap qara qəlbində ötsün, qan ağlasın neylər sənsiz.
Günəşlə ay salamına, ulduzlar səcdənə gəlsin,
Mələklər ziyarətinə hər gün dönə-dönə gəlsin.
Hürülər müntəzir olsun hüzurunda axşam-səhər,
Əbədiyyət dünyasında firavan ol, şən-gülümsər.
Özün cənnətdə baqi ol, ruhun göylərə yüksəlsin,

Qonaq gəlsə öz evinə ruhun xeyirliyə gəlsin.
Üç oğluyun, bir qızıyın hərəsi min budaq olsun,
Qoy onlardan törəyənlər hərəsi bir oymaq olsun.
Behiştin gen qapıları üzünə taybatay olsun,
Gündüzlər həmdəmin günəş, gecələr ulduz, ay olsun.
Bu dünyadan  cavan getdin, orda əbədi cavan ol,
Bu dünyada cəfa çəkdin, o dünyada firavan ol,
Nuş elə abu-kövsərdən "yandım" – dedim bu dünyada,
Bu dünyadan nakam getdin, yet kamına o dünyada.
Bacısızlıq nədir, yəqin bundan sonra biləcəyəm,
Gözlə yolunu Binnətin, sənə qonaq gələcəyəm,
Heç bilmirəm onda məni sənsiz kimlər ağlayacaq,
Kim sənə qonaq gətirib, kim yasımı saxlayacaq?

***19 yanvar 1990-cı il Mülkülü kəndi***

## Bacım Zeynəbə

***(bacımın dilindən)***

Ağlaya bilmədim mən iki gözlə,
İki gözünüzlə ağlayın məni.
Yandırın qəlbləri, ağı söyləyin
Ağlar sözümüzlə, ağlayın məni.
Necə ki, axtarır sevən-sevəni,
Dolanıb səhranı, gəzib çəməni,
Nə qədər gəzsəniz görməzsiz məni,
Heç vaxt özünüzlə, ağlayın məni.
Binnət , xeyri yoxdu bu ofun, ahın.
Qayıdan deyiləm, yola ha baxın.
İstər özünüzü yandırın-yaxın,
Yanar közümüzlə ağlayın məni.

***18 yanvar 1990***

## Yaxşı müəllimlər

Yaxşı müəllimlər! Böyük adınız

Məşhur mahnı kimi dillərdə gəzər,
Özümü bəxtiyar sanardım əgər,
Adınıza layiq yazsam biz əsər.
Müəllim! Bu böyük, şərəfli adın
Daim baş əyirəm qarşısında mən.
Bəzən də təəssüf edirəm, fəqət.
Müəllim çağrılır indi hər yetən.
Əziz müəllimlər, elə edin ki,
Nüfuzdan düşməsin müəllim adı.
Müəllim diplomu aldı çoxları,
Oğru-əyri oldu, müəllim olmadı.
Böyük müəllimlər, nur saldınız siz
Həyat yollarına daim millətin.
Sizin sayənizdə kamala çatdı
Dahi oğulları bəşəriyyətin.
Ulu müəllimlər, amalınız pak,
İlk xeyirxahsız sənət oğlunun,

Siz qələm verdiniz qadir əlinə,
Cəlilin, Sabirin, Səməd Vurğunun.
Sevin, pis müəllim, bilirdim, kəsdin,
Asan başa gəldi dünən qələbən.
Utan, bu yazdığım şeiri kürsüdən
Əzbər söyləyəcək sabah tələbən.
Müəllim adıyla, təəssüf hələ,
Haqq danan da var, rüşvət alan da.
Neçə ki, qərəzli "müəllimlər" var,
Dünyada olacaq şər də, yalan da.

***25 dekabr 1973***

## Çoxundan şərafətlisən

***(Eloğlum-Xeyriyyəçi Namazəli Məmmədova ithaf)***

Zeynalabdin kimi mərd xeyriyyəçi,
Hatəm kimi comərd, səxavətlisən.

Əliboş qayıtmır qapıma gələn,
Tanrıtək kərəmli, kəramətlisən.
Hamıya açıqdır hərdəm dərgahın,
Sayəndə əhdinə çatır yad, yaxın.
Bir ümidgahısan eldə Allahın,
Həzrət Əli təki mərhəmətlisən.
Qanesən, gözün də, könlün də toxdur,
Heç kimdən bir umun, təmənnan yoxdur.
Səndən imkanlılar mahalda çoxdur,
Amma, sən çoxundan şərafətlisən.
Mənimtək sevirsən öz millətini,
Güneyli-quzeyli məmləkətini...
Qəribtək çəkirəm Xoy həsrətini
Deyirlər: - Eloğlu, el həsrətlisən.
Şəhid elədilər min-min mərdimi
Beş poema etdim elin dərdini.
A həmdəmim, kimə dedim dərdimi,
***O dedi: - A Binnət, lap mən dərdlisən.*** *10.10.2014*

## Səfurə nəvəm

*(nəvəm Səfurəyə ithaf)*

Ananın sevincidir
Mənim Səfurə nəvəm.
Ataya saf incidir
Mənim Səfurə nəvəm.
Dili baldı, şəkərdi,
Çiçəkdən təzə-tərdi.
Gündü, Aydı, Ülkərdi,
Mənim Səfurə nəvəm.
Nənəsi nəvəsiylə
Danışır həvəs ilə.
Adaşdı nənəsiylə
Mənim Səfurə nəvəm.
Bir günahsız mələkdi,

Ən ətirli çiçəkdi.
Çiçəkdən də qəşəngdi
Mənim Səfurə nəvəm.
Binnət babasıgilə
Gəlir anası ilə.
Tək gələ bilmir hələ
Mənim Səfurə nəvəm.

***16.07.2013***

## Hüseyn nəvəm

*(Nəvəm Hüseynə ithaf)*

Nəvələrin şahısan,
Əziz Hüseyn nəvəm.
Babayın pənahısan,
Əziz Hüseyn nəvəm.
Xoş gəlibsən cahana,
Yurdun Azərbaycana!
Böyü, ata-anana
Çatsın köməyin, nəvəm.
Qayğısız böyü, boy at,
Elin imdadına çat.
Büsat, xariqə yarat,
Bax, sevin, öyün, nəvəm!
Rəb sənə haqq yol aça,
Şanın eli dolaşa!
Sevinəsən gül aça
Arzun, diləyin, nəvəm!
Elə danış, elə din,
Binət baban sevinsin.
Səninlə fəxr eləsin
Dayınla əmin, nəvəm.

***12.10.2013***

## Babanla yarış, nəvəm

*(Nəvəm Ümidə ithaf)*

Bir yaşın tamam oldu,
Ayaq aç, danış, nəvəm.
Səni təbrik eləyir
Qohum, dost-tanış, nəvəm.
Tez böyü, ərsəyə çat,
Sənə yar olsun həyat!
Oxu, öyrən, yaz-yarat,
Babanla yarış, nəvəm.
Gözlərimə çıraq ol,
Mənə arxa-dayaq ol!
Ucal, eldə üzüağ ol,
El üçün çalış, nəvəm.
Sev elini-oymağını,
Aranını-dağını.
Ölkəni, torpağını
Gəz qarış-qarış, nəvəm.
Ata-anan, baban-nənən
Şənlənir, sən də şənlən.
Binnət fəxr etsin sənlə,
Eləsin alqış, nəvəm.

*17.07.2015*

## Bir ildi

(*Qardaşım Yolçunun vəfatının I-ci ilində*)
Bədəndən ruh kimi, candan can kimi
Qardaşdan ayrılıb qardaş bir ildi.
Bir kəsim yoxdur ki, deyəm dərdimi,
Sirdaşdan ayrılıb sirdaş bir ildi.
Əsil qardaş idik əsil soy idik,
Biri-birimizə arxa, hoy idik.
Bir ocaq, bir çıraq, bir aloy idik,
Atəşdən ayrılıb atəş bir ildi.
Yaş ötür, dağımı duman, qar alıb,
Qərənfilim solub, laləm saralıb.
Ayım tutulubdur, günüm qaralıb,

Günəşdən ayrılıb Günəş bir ildi.
Eldə də qəribdi insan sirdaşsız,
Qanadsız bir quşdur qardaş-qardaşsız.
Gedər-gəlməz olur yollar yoldaşsız,
Yoldaşdan ayrılıb yoldaş bir ildi.
Bir ildi alışıb, yanıb-sönmüşəm,
Qara geyinmişəm, göy bürünmüşəm.
Binnətəm, qardaşsız daşa dönmüşəm,
Bir daşdan ayrılıb bir daş bir ildi.

***17.04.2001***

## Elimizin sevimli aşığı Gülara xanım Azaflının mənə bağışladığı "Görüşərik yenə biz" kitabındakı şeirlərə nəzirələr, cavablar və özünə ithaflar

### Xanım

***("Dönərmi heç" – səhifə 14-ə cavab)***

Eşq oduna yanmayana,
"Yan", - deməklə yanmaz, xanım.
Səni sevib, anmayana,
"An", - deməklə anmaz, xanım.
Yanma sənə yanmayana,
Yan əhdini danmayana.
Göz-qaş, eyham qanmayana,
"Qan", - deməklə qanmaz, xanım.
Binnət kimi düşmə dərdə.
Xain çıxan anda, əhdə -
Səndən üzü dönən gədə
"Dön", - deməklə dönməz, xanım.

***10.04.2015***

## Ağlama sən

***(“Ağlaram mən” səh 15-ə cavab)***

Hər bir dərdin dərmanı var,
A dildadə, ağlama sən.
Döz, özünün, dostlarıyın
Sinəsini dağlama sən.
Yan sənə candan yanana,
Səni hörmətlə anana.
Əhdi, ilqarı danana
Ümidini bağlama sən.
Binnət uymaz səfasıza,
Çarə gəzər şəfasıza.
Naşükürə, vəfasıza
Qəlbində yer saxlama sən.

***10.0.2015***

## Gecələr

*("Gecələr" səh 36-ya nəzirə)*

Sənsiz sel kimi olur
Göz yaşım car gecələr.
Tökülür gözümə kül,
Yerimə gor gecələr.
Həsrətdən üzüm solur,
Əlim saçımı yolur.
Hardasan, dünya olur
Başıma dar gecələr?
Dərdliyəm, mükəddərəm,
Zalım, səndə yox kərəm.
Sübhə kimi edirəm
Mən ahu-zar gecələr.
Binnət, kim yalqız olur;
Yoldaşsız, yarsız olur,

Döşəyi sal buz olur,
Yorğanı qar gecələr.

***10.05.2015***

## Əzizim

*("Əzizim" - səh 75-ə cavab)*

Sevmədən, candərdi evlənir çoxu,
Sevən sevdiyindən dönməz, əzizim.
Aşiqin qəlbində məhəbbət odu,
Qiyamət qopsa da, sönməz, əzizim.
Sevən sevdiyini heç vaxt unutmaz;
Yarsız fəğan edər, dincəlməz, yatmaz,
Yar oduna yanar, yarını atmaz,
Yarından bir əvəz ummaz, əzizim.
Sevgidir Binnətin qəlbinə işıq,
Sevgiyə şeiriylə verir yaraşıq.
Eşqin zirvəsinə ucalan aşiq
Heç zaman alçağa enməz, əzizim.

***10.05.2015***

## Olar

*("Daha bir kimsəni gözləmirəm mən"*
*səh 76-ya cavab)*

Üzmə ümidini, qınama bəxti,
Bağlama qapını, gələnin olar.
Ovsanata düşər etdiyin hörmət,
Sənin də qədrini bilənin olar.
Qəm üstə kökləmə könül sazını,
Təkliyə öyrətmə özün-özünü.
Tanımasın hicran yaşı gözünü,
Ağlasan, yaşını silənin olar.

Güvən qəlbindəki saf məhəbbətə,
İnan düz ilqara, düz sədaqətə.
Aldanma ötəri məğlubiyyətə,
Qələbə axırda gülənin olar.
Binnəttək dərd çəkmə, fikirdən daşın,
Kefə, ziyafətə qarışsın başın.
Sevincdən, fərəhdən axa göz yaşın,
Yoxsa, yas əbədi həmdəmin olar.

***11.05.2015***

## Gülara

*(təcnis)*

***Gülara Azaflıya ithaf***

Bəsdi dərd çəkdiyin, həsrət çəkdiyin,
İndən belə zövq al, sevin Gülara.
Yetər dərdli bülbül kimi ötdüyün,
Üzün gülsün, danış ara, gül ara.
Yas tutma ataya, bacı-qardaşa,
Təsir etməz yas ölənə, qar daşa.
Aşıq odur yarçun dağı qarda aşa
Qış olsa da yara çiçək, gül ara.
Qədirbilməz vəfasızdan uzaq gəz,
Bir vəfalı, xoşədalı, üzüağ gəz.
El içində başı uca, üzüağ gəz.
Yaslı gəzsən, hamı sənə gülər, a.
Binnətəm, çal, oxu, qərq olma yaşa.
Şənlən, məhəl qoyma şöhrətə, yaşa.
Tək qalma, bir səni sevənlə yaşa,
Bülbülsən, özünə layiq gül ara.

***11.05.2015***

## *Gülara sarı*
***(təcnis)***

***Gülara Azaflıya ithaf***

Bülbülsən, sevdiyin gülünü qoru,
Ona yaxın qoyma, Gülara, sarı.
Sevimli gülünü güləndamına
İpək tellərinə, Gülara, sarı.

Cavidan qızından, bəxtindən yarı,
Şadlığın, qismətin olmasın yarı,
Görəndə əhdinə vəfasız yarı,
Dola barmağına, Gülara, sarı.

Yoxdu Qaçaq Nəbi, igid Dəli Alı,
Binnət, el gözəlini igid-dəli alı.
Mən əsmər sevirəm, “igid” dəli alı,
Gicin xoşna gəlir, Gülara, sarıl.

***12.05.2015***

## Küsməyə dəyməz
***(“Küsürəm" şeirinə cavab)***

Tale nə dostundur, nə də qohumun,
Tanrı verən bəxdən küsməyə dəyməz.
Səadət hər kəsin öz əlindəsə,
Mübariz ol, Haqdan küsməyə dəyməz.

Hər quş özü qurur öz yuvasını,
Heç kəs başqasının tutmur yasını.
Qışda tapammasan yaz havasını,
Ruzigardan, vaxtdan küsməyə dəyməz.

Sözündə bir yalan yoxdu Binnətin,
Hər müdrik kəlamı haqdı Binnətin.
Haqq gəzir, bədxahı çoxdu Binnətin
Paxıldan, bədxahdan küsməyə dəyməz.

***13.05.2015.***

## Gülara yağı
***(təcnis)***

***Gülara Azaflıya ithaf***
Mən də sənin kimi çox yedirmişəm
Bədxaha, bədhaqqa, Gülara, yağı.
Sevib, inandığım əhdini dandı
Bir az yer tutanda, Gülara, ayağı.
Hər zülmət gecənin olur sonu dan.
Dərdin varsa, dərdbilməzdən onu dan.
Qədirbilməz, nankor, əhdi unudan
Niyə oldu bizə, Gülara, yağı?
Mahnı qoşaq, tərif yazaq şad elə
Tanrı, bundan belə bizi şad elə!
Həm bəxtiyar elə, həm dilşad elə,
Qıyma Binnət ilə Gülaraya ağı!

*14.05.2015*

## Yat, ay Xanım, gecələr
***("Ağlayıram, yatmıram ki, gecələr” səh 68-ə cavab)***

Dərdə dava olmaz ağlamaq ilə,
Ağlamaynan, yat, ay xanım, gecələr,
Hər yara sağalmaz dağlamaq ilə,
Dağlamaynan, yat, ay xanım, gecələr.
Dərdin çoxdu, ağır sayım hansını?
Sorğun çoxdu, cavablayım hansını?
Ata-ana, qardaş-bacı yasını
Saxlamaynan, yat, ay xanım, gecələr.
Fələk kimin aşına su qatmayıb?
Bədhaqlarda kimin haqqı batmayıb?
Şamaman dərim vaxtı çatmayıb,
Tağlamaynan, yat, ay xanım, gecələr.

“Yar” demə qədrini bilməyən yara,
“Əzizim” də demə o biilqara
Bəsdi, qara geyib, başına qara
Bağlamaynan, yat, ay xanım, gecələr.
Qəmin xəncərini alıb dəstinə,
Binnətəm, canıyın durma qəsdinə.
Dərd közünü gen sinəyin üstünə
Tığlamaynan, yat, ay xanım, gecələr.

## Gərəksən, xanım

***("Nəyimə gərəkdir bu dünya mənim"***

***Səh 122-yə cavab)***

Ömrünü şərəflə yaşaya bilsən,
Xoşbəxt aşiqlərtək sevsən, sevilsən,
Kiminsə könlünü oxşaya bilsən,
O bəxtəvər kəsə gərəksən, xanım.
Kim sənlə danışıb, gülmək istəsə;
Dərdinə bir dəva bulmaq istəsə,
Sevincini sənlə bölmək istəsə,
Qəminə şəriksə, gərəksən, xanım.
Qəlbindən qüssəni atmağı bilsən;
Kimləsə ixtilat qatmağı bilsən,
Kiminsə dadına çatmağı bilsən,
Dərdindən xəstəsə, gərəksən, xanım.
Kim sənin qeydinə qalmaq istəsə;
Kim sənə meylini salmaq istəsə;
Kim sənə qəlb dostu olmaq istəsə,
Məhəbbət bəsləsə, gərəksən, xanım.
Sənə mayıl olan qəhətha deyil,
Sənə meyil edənə sən də et meyil.

Zövq al, xoş vüsalın ləzzətini bil,
Sən hələ kiməsə gərəksən xanım.
A şirin avazla oxuyan bülbül,
Eşqinlə süslənir hər çiçək, hər gül,
Elin aşığısan, ellə sevin, gül,
El səni istəsə, gərəksən xanım.

Gülara, yerinə yetsin hər arzun,
Binnətə təb verir şirin avazın.
Sən elə-obaya, sədəfli sazın
Sinəyin üstəsə, gərəksən xanım.

*15.05.2015*

## Gülara yazdı

(təcnis)

***Gülara Azaflıya ithaf***

Qış çıxa, yaz gələ, deyəm ərk elə:
- Oxu bülbül kimi, Gülara, yazdı.
Gül, sevin, fərəhlən, istədiyinlə
Çal-oyna, çiçək dər, gül ara, yazdı.
Dərdliydi, dərd qatdı dərdinə yağı.
Yanar hara dəysə dərdin ayağı.
Çarə tapa bilmə dərdinə, yağı!
Sən şaxtalı qışsan, Gülara yazdı.
Bizə hökmü yazan quzeydə yazdı.
Dərdsizə güney də, quzey də yazdı.
Hürriyyət günəşli quzeydə yazdı,
Hələ də güneydə, Gülara, ayazdı.
Fələk zülalına qatdı ağını,
Qıymadı aşığa bəxtin ağını.
Ən qəmli şeiri, dərdli ağını
Ən çox yas saxlayan Gülara yazdı.
Bülbültək ötəndə o toyda, şanda,
Binnət, gözəl olur o toy da, şan da.

Hər çalıb-oxuyub, aşıb-daşanda
Can qurban eləsən Gülaraya azdı.

*16.05.2015*

# MÜXTƏLİF MÖVZU VƏ JANRLARDA YAZILMIŞ ŞEİRLƏR

## Sən, mən

Sən başqa təblisən, mən başqa təbli,
Sən var, şöhrət sevdin, mən şeir sənət.
Əvvəl uşaq olduq, sonra məktəbli,
Getdikcə dəyişdi bizi təbiət.

Mən kiçik arzuma yetişmək üçün
Min bir çətinliyə mübtəla oldum.
Sən böyük arzuna yetişmək üçün,
Ancaq aradabir xəyala daldın.

Unutdun andını, sədaqətini,
Şan-şöhrət dalınca dörd nala çapdın,
Uydun var-dövlətə, səadətini.
Məndən varlıların cibində tapdın.

Mən əzab çəkəndə sən ləzzət çəkdin,
Tale sevindirdi güldürdü səni,
Vəfasız, buydumu ilqarın əhdin,
Keyi xoşbəxt etdin, unutdun məni.

Qəmli şeirlərim dillərə düşdü,
Sanma ki, zərrəcə buna şadam mən.
Hələ də bilmirəm bu necə işdi
Sən mənə doğmasan, sənə yadam mən.

***4.05.1973***

## Qadın

Sən ey məni öz hüsnünə,

Məftun edən ali varlıq.
Əvvəl səndən diləmişəm
Həyatıma bəxtiyarlıq.
Düşündürməz məni göyün
Görünməyən mələkləri.
Gördüyümə inanmışam,
Ağlım kəsən gündən bəri.
Mən heç nəyə bənzətmərəm
Sənin ülvi varlığını,
Səndən gözəl, səndən qəşəng,
Səndən nəcib varlıq hanı?
İnciməsin məndən, səni
Gül-çiçəyə bənzədənlər.
Gah marala, gah, tərlana
Gah mələyə bənzədənlər.
Sənsiz dünya məzarsanlıq,
Sənsiz ömür mənasızdır,
Sən həyatın övladısan,
Sənsiz həyat anasızdır.
Sən anasan, sevgilisən,
Sevinc, ülfət, məhəbbətsən,
Sən hər qəlbə həyat eşqi,
Sən hər evə səadətsən.

***28.9.1964***

## Yaradıb

*(Qəzəl)*

Əhsən səni xalq edən yaradanın zövqünə,
Sevgilim, əndamını kağızdan ağ yaradıb.
Qüdrətin qələmiylə zinət verib hüsnünə,
Gül çöhrə, açıq alın, ayna qabaq yaradıb.
Camalına heyrandır, bağ-bağça, çəmən, gülzar,
Qucağını gülüstan, qoynunu bağ yaradıb.
Ağappaq çiçəklərdən bəmbəyaz geniş sinə,
Ən ətirli güllərdən rahat qucaq yaradıb.

Lalənin yanağından incə, gözəl, ətirli,
Qızılgül ləçəyindən zərif yanaq yaradıb.
Hüsnünün şöləsində fırlanıb can verirəm,
Məni sənə pərvanə, səni çıraq yaradıb.
Şəkəri, qəndi, balı şərbət ilə yoğurub,
Sənə baldan dil-ağız, şəkər dodaq yaradıb.

Dünyanın hər sevinci, şadlığı sənin olsun,
Qəminə, kədərinə məni ortaq yaradıb
Könlünün xoş vaxtında, əlinin boş vaxtında,
İncə bel, mina gərdan, büllür buxaq yaradıb.
Ay gözəllər gözəli, barı, varmı xəbərin?
Bu biçarə Binnəti sənə müştaq yaradıb.

***10.11.1978***

## Əhdini dandın

Dedim: -Sirdaş olaq, mehriban olaq
Dünyanın ən sadiq sevənləri tək
İki hərf yazdın, bir üstəgələk
Altından qol çəkdin gülümsəyərək.
İndi qələm tutan barmaqlarımla
Sənin saçlarını daradım onda
Bəxtimi, eşqimi, səadətimi,
Sənin gözlərində aradım onda.
Sonra da ömrümün xoşbəxt anları,
Hər saat könlümü muştuluqladı.
Sənə rast olalı qoy bilsin aləm,
Ucaldı gözümdə bir eşqin adı.
Görüşə də gəldin açıq-aşkara,
Dostdan yaxın olduq, doğmadan əziz.
İmkan olmayanda görüşməsək də,
Ayrılıq duymadı ürəklərimiz.
Mən sənə deyərdim: “Ömrüm, həyatım”.
Sən mənə deyərdin: “Taleyim, baxtım”
Toydan bir gün əvvəl əhdini danıb,
Bəs niyə kiminsə sözünə baxdın?

***12.06.1970***

## Olmaz

Vətənə çox şeir yazar şairlər,
Hər şeir yazandan vətəndaş olmaz.
Dostun dost yeri var, qardaşın qardaş,
Dost olar, adama yad qardaş olmaz.
Böyüklük ummasın özünü öyən,
Zalıma yaranan, məzlumu söyən.
El dərdi çəkməyən, döşünə döyən,
Başa çəkilsə də, eldə baş olmaz.
Ay Binnət, uzaq ol üzə durandan,
Namərddən, nankordan, tələ qurandan.
Paxıldan, çuğuldan, ara vurandan
Nə qohum, nə qonşu, nə yoldaş olmaz.

***12.04.1961***

## Elə sanma ki...

Sanma bir nazından incidiyimçün
Aramız dəyəcək, savaşacağıq.
Yox! yox! Biz ən xoşbəxt sevənlər kimi
Sevgi vadisində qovuşacağıq.
Sən elə sanma ki, hicranın əli,
Kəsə yolumuzu, ayıra bizi.
Vüsal ən çox xeyirxah bir əməl kimi,
Səadət edəcək nəsibimizi.
Duyub gileyimi, elə sanma ki,
Nazını çəkməkdən yorulacağam.
Ay mənim eşqimə biganə, hələ
Mən sənə təzədən vurulacağam.

***9.07.1963***

## Müəllim, əl saxla

Müəllim, əl saxla bu kəndçi qızın,
Bir ana qəlbi ilə göz yaşına bax.
Bir sualı çaşıb, qiymət yaz getsin,

Fəqət nə əvəz um, nə başına qax.
Sənin qələmindən asılıdır, bil,
Onun gələcəyi, onun həyatı,
Bir cansız rəqəmlə həll olur bəzən,
Bir canlı insanın müqəddəratı.
Nə yaltaqlıq bilir, nə gözə girmək,
Onun gözlərindən oxunur qəlbi.
Həcərtək məğrurdur kəssən yalvarmaz
Bir yolluq tərk edər ali məktəbi.
Müəllim olmaqdır onun arzusu
Gör bir nə müqəddəs, xoş niyyəti var.
Bir dərsi az bilir, ixtisasına
Onun günəş boyda məhəbbəti var.
Böyük bir həvəslə oxuyur hər gün,
Şaiqi, Russonu, Makarenkonu.
Müəllim, fikirləş, neçə körpəni,
Savadsız qoyarsan kəsməklə onu.
Yaltağı, kütbaşı, tapşırılmışı,
Haqlısan qovdursan, haqlısan kəssən.
Yaxşı tələbəyə "iki" yazmaqla,
Sən yaxşı müəllim ola bilməzsən.
Bir yaxşı fikirləş, sənindir onun,
Məğlubiyyəti də, qələbəsi də.
Çaşıb imtahanda "iki" alarmı,
Yaxşı müəllimin tələbəsi də?
Çaşdırıb kəsərsən əlaçını da,
Kəsməklə, qovmaqla fəqət iş aşmır.
Sən ki, müəllimsən, cəllad deyilsən,
Müəllim sözünə kəsmək yaraşmır.
İstəsən məni də kəsə bilərsən,
Məlumdur az bilir səndən tələbən.
Sənə şərəf deyil məni kəsməyin,
Çünki hamı bilir tələbənəm mən.
Yaxşı müəllimi, yaxşı həkimi,
Müqəddəs saymışam körpəliyimdən.
Sabir müəllimin, Nəriman həkimin,
Daim baş əyirəm heykəlinə mən.

***12.01.1973***

## Qəlbimi sındırıbsan

Məclisində bilmədən,
Əlimdə yerə saldım
Sındırdım bir camını.
Mənə məzəmmət edib,
Sən güldürdün hamını.
Neçə yol bilə-bilə
Qəlbimi sındırıbsan,
Sanki büllur qədəhi
Daş divara vurubsan.
Nə məzəmmət etmişəm,
Nə də gileylənmişəm.
Sevənlər arasında,
Olan işdir, demişəm.
Sınmış əşyanı evdən
Eşiyə tullayıbsan.
Çilik-çilik etdiyin –
Sındırdığın qəlbimi
Salamatmı sayırsan?
Yanında saxlayırsan.

***9.09.2015***

## Olmaz

*(Ustadnamə, oğlum Arifə)*

Oğul, dostlarını dar gündə sına,
Qərəzli dostlarda düz ilqar olmaz.
Nankor dostlar çatmaz darda dadına,
Hər üzə güləndə etibar olmaz
Elm, sənət öyrən, əməkdən qorxma;
Zəhmətkeş ol, zəhmət çəkməkdən qorxma,
Cəfa çək, səfa sür, zəhmətdən qorxma,
Bəxtə bel bağlayan bəxtiyar olmaz.
Heç kəsi nə incit, nə xətrinə dəy...
Başa çəkilsə də gədə olmaz bəy.
Elin qədrini bil, sən elə baş əy,

El qədri bilməyən eldə var olmaz.
Ustadla toylara gedib-gəlməyən;
Ustad bilgisindən bəhrələnməyən,
Saz, qədrini, söz qədrini bilməyən,
Yüz il saz gəzdirsə sənətkar olmaz.
Binnət, qədrini bil hər keçən anın;
Çalış nəbzini tut, vaxtın-zamanın,
Əl tut imkansıza, varsa imkanın
Həmişə əlində ixtiyar olmaz.

***24.04.2000***

## İmkan var hələ

Hər saat görsəm də sənə həsrətəm,
Sənə həm yaxınam, həm uzağam mən,
Bu utancaqlıqla könlümü sənə
Bilmirəm heç necə açacağam mən
Hər səni görəndə bilmirəm nədən,
Təpiyir dodağım, quruyur dilim.
Arabir üzünü görməyəndə mən,
Dünyada hər şeydən soyuyur əlim.
Gəl duraq üz-üzə, baxaq göz-gözə,
Bir də düşən deyil bu fürsət ələ.
Qoy həsət aparsın paxıllar bizə,
Gəl gülək, sevinək, imkan var hələ.

***16.07.1964***

## Elə

*(Oğlum Arifə)*

Oğul, yaxşılara yaxşılıq elə,
Yamanlıq eləsən, yamana elə,
Bir canın var, bir gün gedər əlindən
Onu el başına pərvanə elə.
El dərdinə alış, el oduna yan,
Eli sev, eli duy, hər vaxt eli an,
Əgər öz canını eləsən qurban,
Elə, yurda candan yanana elə.

Binnətəm, qəlbinə yük etmə kini,
Hamıya hörmət et əzizin kimi,
Seçmə nə irqini, nə millətini,
İnsan ol, hörməti insana elə.

***27.08.1996***

## Yeridir

Səmalar qartalların, tərlanların yeridir,
Ormanlar pələnglərin, aslanların yeridir,
Səhralar əqrəblərin, ilanların yeridir,
Dəryalar tufanların, tayfunların yeridir.
Tanrının hökmü ilə hərənin öz yeri var,
Əyrinin əyri yeri, düzün də düz yeri var,
Vətənə sipər olan sinəmdə köz yeri var,
Qəlbim yurd həsrətiylə yananların yeridir.
Ət qiymətinə satır sümüyü də baqqallar,
Qurdlarla əlbir olub, gödən yırtır çaqqallar.
İmkanlını mədh edib, ənam alır məddahlar,
Ön cərgə yalandan əl çalanların yeridir.
Düzələsi işimiz minnətlə düzəlirsə,
Bir anlıq iş çox uzun müddətə düzəlirsə,
Tapşırıqla, rüşvətlə, "hörmətlə" düzəlirsə,
Məmurluq qabırğası qalınların yeridir.
Ar olsun arabanı bataqlıqda qoyana!
Araba zığdan çıxmaz, hərə dartsa bir yana.
Nola qəflətdən balıq, ördək, xərçəng oyana,
Ürəyim mətləbimi qananların yeridir.
Gözümüz düz görəndə qanlı olub yaşımız,
Sözümüz düz olanda zəhər olub aşımız.
Binnətəm, düz deyəndə bəla çəkib başımız,
Dünya yaltaq, riyakar olanların yeridir.

***18 iyun 1989***

## Sənsiz

*(Qəzəl-daxili qafiyə)*

Yandırar hicran məni, döndərər külə sənsiz,

Dərmərəm yasəməni, baxmaram gülə sənsiz.
And olsun vicdanıma, dözmərəm hicranına,
El yatmaz fəqanıma, çəkərəm nalə sənsiz.
Ahımdan Günəş sönər, fələyin taxtı çönər,
Gülüm, göz yaşım dönər çağlayan selə sənsiz.
İstəyimə yetmərəm, gülüb şadlıq etmərəm,
Nə Tovuza getmərəm, nə anangilə sənsiz.
Sənsiz bir gül dərmərəm, güldən çələng hörmərəm,
Bil ki, könül vermərəm hər şirindilə sənsiz.
Dövran sürək qoşa, yar, vuraq ömrü başa, yar,
Sən sevinclə yaşa, yar, qəm mənə gələ sənsiz.
Binnət səninlə seyrə çıxıb, gül dərə-dərə,
Könül açan bir yerə getməyib hələ sənsiz.

***15.01.1977***

## Sənsizəm-sənsizəm

Qəlbinə dəyməsin, səndən xəbərsiz
Səndən gah küsürəm, gah barışıram.
Səndən ayrılanda elə bilirəm,
Bütün yer üzüylə vidalaşıram.
Əgər eşitməsəm bir gün səsini,
Yaşamaq gözümdə boş səsə dönür,
Barı, sürətini bir gün görməsəm,
Dünya gözlərimdə məhbəsə dönür.
Of! Nə qədər yazım sənsizliyimdən,
Bəs deyilmi səndən-sənə gileyim?
Ya qurtar qəlbimi hicran əlindən,
Ya hədsiz olacaq yenə gileyim.
Çoxdandır qəlbimi yandırır-yaxır.
Bir ayrıyıq qəmi, bir vusal qəmi,
Nə qədər demişəm eşitməmisən,
Sənsizəm, sənsizəm, deyim yenəmi? ***12.09.77***

## A bəxti açılan

Ay bəxti açılan, bəxtəvər afət,
Bu gün kəndinizə düşdü güzarım,
Fəqət, evinizə gedə bilmədim,

Evi viran olsun mərdimazarın.
Gözüm yolda qaldı, qulağım səsdə,
Nə ananı gördüm, nə də bacını
Sən kənddə yox idin, kimə deyəydim,
Dərdimi, sözümü, ehtiyacımı?
Hələ süpürgələr silə bilməyib,
Dostumun evindən ayaq izini.
Vüsal anlarının şahidi kimi,
Ziyarət elədim bayaq izini.

***18.10.1972***

## Yenə bayram gəlir

Yenə bayram gəlir, təbrik eləyib,
Əllərini sıxa bilməyəcəyəm.
Bir dəstə çiçəklə mən istəsəm də,
Görüşünə çıxa  bilməyəcəyəm.
Kəsəcək yolumu utancaqlığım,
Yenə səni görə bilməyəcəyəm.
Bir hədiyyə kimi qəlbimi sabah,
Yenə sənə verə bilməyəcəyəm.
Özüm də bilmirəm hələ nə qədər,
Həsrət qalacaqdır əlinə əlim.
De nəyi bəhanə edim, qadası,
Mən səni görməyə nə təhər gəlim?!
Gələ bilməyəcəm, sabah səni də,
Buraxmayacaqdır bayıra anan,
Görüşmək istəsən, sən harda olsan
Ünvansız taparam mən səni inan.

***18.06.1963***

## Unudanda öləcəyəm

Gülüm, həsrətinlə, sənsizliyinlə,
Dincliyim də gedib, rahatlığım da.
Mübtəla edibsən məni min dərdə,
Ömrümün sevdalı bu gənc çağında.
Pak sevgi elə bir zərif güldür ki,
Yüz xəzan görsə də saralmır, solmur.
Hər şeyi unutmaq olar, qadası,

Tək könül sevəni unutmaq olmur.
Gözümdə surətin, dilimdə adın,
Könlümdə xatirən yaşayacaqdır.
Eşqinin yükünü mən qocalsam da,
Qəlbim cavan qalıb daşıyacaqdır.
Sədaqət naminə son nəfəsdə də,
Sənin dərgahına gələcəyəm mən.
Sənin məhəbbətin yaşadır məni,
Səni unudanda öləcəyəm mən.

***15.06.1981***

## Təzə il

Qədəmləri uğurlu
Gəl, təzə il, təzə il.
Üzü günəşdən nurlu
Gəl, təzə il, təzə il.
Gəl, sənin gəlişini
Arzulayır yer üzü.
Gəl yeni müjdələrlə
Sevindir qəlbimizi.
Gəl, açıb qollarımı,
Bağrıma basım səni.
Mübarək gəlişinlə
Bəzə ana Vətəni!
Bəşərə şadlıq gətir,
Ağ gün, abadlıq gətir.
Göyə günəşli səma,
Yerə rahatlıq gətir
Qocalara xoş əhval
Körpələrə qar gətir.
Xəbis ürəklərə də.
Sən xoş arzular gətir.
Ayağı sayalı ol,
Ağ gün gətir ellərə.
Ruzu bərəkət gətir
Əkib becərənlərə
Qolumuza güc gətir,

Yolumuza nur gətir.
Qurub yaradanla
Yüksəliş, uğur gətir.
Gəl, yox elə cahandan
Ədavəti, silahı.
Gəl, sülhün, ədalətin
Ol dayağı, pənahı.
Dost olsun, qardaş olsun
Bir-birinə insanlar.
Yer üzünə sülh gətir,
Axmasın nahaq qanlar.
Qədəmləri uğurlu
Gəl, təzə il, təzə il.
Üzü günəşdən nurlu
Gəl, təzə il, təzə il. ***31 dekabr 1979 (İmpuss)***

## Payızda

Külək əsər, yarpaqlar düşər,
Çılpaq qalar ağaclar.
Tütək susar, naxır köçər
Fikrə dalar yamaclar.
Kənddən-kəndə gedən yolda,
Gediş-gəliş azalar,
Gecə yenə ilə dönər,
Günün ömrü qısalar.
Boz buludun köynəyindən
Arabir yağış yağar.
Susar nəğməli bulaqlar,
Buzdan buz eynək taxar.
Döngələrdə, dalanlarda
Külək qurd tək ulayar.
Xəzan yeli azğınlaşıb,
Bağ-bağçanı talayar.
Qırov düşüb sərt olsa da
Səhərlərin ayazı,

Toylu, şanlı, bayramlıdır
Azərbaycan payızı.

***"İmpulss" qəzeti, 14 noyabr 1980-ci il***

## Qışda

Hər tərəf ağ geyinir
Yenə gəlin sayağı.
Uşaqların üşüyür
Yenə əli-ayağı.
Ağ gümüş körpü düşür
Yenə çayların üstə.
Qar yolun üstə düşür,
İz düşür qarın üstə.
Ayaz pəncərələrdə
Yenə tablolar qurur.
Hər şüşəyə hər gecə
Yeni bir bəzək vurur.
Ağarır pambıq kimi
Kolun-kosun yarpağı.
Təbiət ağ yorğana
Bükür ana torpağı.

***18 dekabr 1973***

## Payız

Soyuqdur "gəl-gəl", - demir
İndi insana bağlar.
İxtiyar qocalar tək
Xəyaldadır yamaclar.
Gəlin kimi ağ örpək
Çəkib hüsnünə dağlar.
Küləklərə "xərc" verib
Libasını ağaclar.
Örüşlərdən seyrəlib
Naxırçıların səsi.

Qışlaqlardan yüksəlir
Tək-tək ocaq tüstüsü.
Buğlanır bulaqların
İndi buz dodaqları.
Ovuclara ilişir
Əzgilin budaqları.
Yenə kənd yollarında
Gediş-gəliş azalıb.
Yolçulara müntəzir
Yollar Binnətsiz qalıb.

***"İmpluss" 7 dekabr 1979***

## Şairin ağzını bağlamayalar

*(Ustadnamə)*

Məclisdə Mirzətək bir aşiq ola,
Pis aşığı toya çağırmayalar.
Nə cavanlar yersiz şuluqluq sala,
Nə də ki, uşaqlar ağlamayalar.
Axşamdan sübhədək uzana şənlik,
Düşməyə araya mənəm-mənəmlik,
Pulla ölçülməyə mərifət, mənlik,
Kasıbın qəlbini damğalayalar.
Pişvazına çıxıb, qoluna girib,
Şəninə tost deyib, şərab uçurub,
Nadanı hörmətlə başa keçirib,
Alimi doqqazda saxlamayalar.
Bilər öz yerini zatı ulular,
Abrını gözləyər üzüsulular.
Həddindən çox içib araqqulular,
Yıxılıb, sürünüb oynamayalar.
Deməyin ki, Binnət arından keçib,
Ağzına gələni danışır, içib
O içmir. Məddahı tamada keçib
Şairin ağzını bağlamayalar.

***7.03.1964***

## Qorx

*(Ustadnamə)*

Meşədə yem gəzən aslandan qorun
Səhrada ilanın çalmağından qorx.
Gen gündə "dostunam", - deyən nankorun,
Dar gündə düşmənin olmağından qorx.
Dost-tanış çox olar dövlətin bolsa,
Qohum da çoxalar, varın çoxalsa.
Mərd bir xata etməz yüz əli olsa,
Namərdin qurumuş barmağından qorx.
Sözü qanana de, səni anlaya,
Xəsisdən pay umma, arsızdan həya.
Çomaq bağışlama dəliqanlıya,
Çomağı başına vurmağından qorx.
Elə xor baxanın yoluyla getmə,
El səni qınayar, qəbahət etmə,
Elinə, evinə xəyanət etmə,
Elin təhnizindən, qınağından qorx.
Binnət el yolunda varından keçsə,
İnciməz, hər şeyin axırı heçsə.

Yaxşı qohum-qonşu köçməyə, köçsə
Yurdunda yamanın qalmağından qorx.

***16.07.1969***

## Əl

Əl var kol-kos əkər, əl var gül-çiçək,
Əllər müxtəlifdir barmaqlar kimi.
Əl var qabarlı, sərt, əl var pambıqtək,
Əl var od kimidir, əl var qar kimi.
Əl var salam versən dondurar səni,
Əl var isinərsən hərarətindən.
Əl var bir üzüyə satar Vətəni,
Əl var səni satmaz, kəssən ətindən.
Əl var elə nadir inci yaradar,
Baxıb, seyr etməkdən doya bilməzsən.
Əl var hər biclikdə bir barmağı var,
Neçə barmağı var, saya bilməzsən.
Əl ölüm hökmü də yazar, şeir də,

Sadağa da verər, rüşvət də alar.
Bəşərə ziyan da verər, xeyir də
Sülhə qol da çəkər, dava da salar.
Əllərin o qədər əməlləri var,
Əsla mümkün deyil onları saymaq.
Əl var köhnələrdən təzə yaradar,
Əl var təzəni də eləyər yamaq.
Atalar inciyib-küsməsin məndən,
Analara düşür işin çətini.
Yüz yaz günəşinə dəyişmərəm mən,
Bir ana əlinin hərarətini.

***09.03.1960***

## Məclisdə

*(Ustadnamə)*

*Qaynım Firdovsinin toyunda*

Məclisdə bir kamil, aşıq oxuya,
Gah da söz verələr şeir yazana.
Alqış öz yerini bilən kəslərə,
Lənət ara qatıb, məclis pozana.
Danışanda bal qatasan sözə sən,
Kəlmələri inci kimi düzəsən.
Desələr: «Bir oyna!», elə süzəsən,
Hər yandan üstünə yüzlük uzana.
Nadan insaf edə, susa lal kimi,
Yerli-yersiz böyürməyə mal kimi.
Oğul odur, sözü ola bal kimi,
Hər sözünə «bərəkallah» qazana.
Sağlar etdiyini xəstə edə bilməz,
Dosta yamanlığı dost edə bilməz.
İçmir, Binnəti mey məst edə bilməz,
İstər məclis sübhə kimi uzana.

***12.02.1970***

## Duaçıyam taleyə

*(Qəzəl)*

Bədnəzərdən qorxuram ki, sənə bədnəzər dəyə,
Xoş nəzərindən qorxuram, məni Məcnun eləyə.
Bədnəzərlər kor olsunlar, ya sənə baxmasınlar!
Səni görməsinlər deyə yalvarıram fələyə.

Gülüm, gözümdə gözəllər gözəlindən gözəlsən,
Nə hürüyə dəyişmərəm səni, nə də mələyə.
Mənə xoşdur məhəbbətin cəfası da, gözəlim,
Könlüm sənə vurulalı duaçıyam taleyə.
Canım da səninlə çıxır , sən çıxanda küçəyə,
Qısqanıram tellərinlə məzələnən küləyə.
Min naz ilə çəməndə gəz, gül-çiçəklər sevinsin,
Təşrifin təsəlli versin bənövşəyə, laləyə.
Qoy öpsün qədəmlərini, nərgizlər, şehtökənlər,
Hər çiçək yalvarsın sənə; “- əvvəl məni dər”, - deyə!
Binnətin qəlbi güldən də, çiçəkdən də incədir,
İnsaf et, qəlbini üzmə, naz eləyə-eləyə.

***08.03.1976***

## Dünyanın

Yaxşı günü şadlıq, sevinc, fərəhdi,
Yaman günü ahuzardı dünyanın.
Məzlumlar becərdi, zalımlar yedi,
Zəlilər qanını sordu dünyanın.
Rüşvətsiz, bəxşişsiz bir iş düzəlmir,
Pulgir, müfəttişsiz bir iş düzəlmir.
Düzgün işləyənin işi düz gəlmir,
Ədalət gəzəni xardı dünyanın.
Hər kəsə böyükdür özünün dərdi,
Həyat kimə sevinc, kimə kədərdi.
Hamı can deyərdi, can eşidərdi
Qayğısız günləri vardı dünyanın.
Ara qarışıbdır, işlər düz getmir,
Şah gədəni, gədə şahı eşitmir.
Fəryadı, fəğanı, ahı eşitmir
Elə bil qulağı kardı dünyanın.
Gül-çiçək açılmır, bu necə yazdı?
Borandı, şaxtadı, qardı, ayazdı.
Yüz il daş daşısa, zəhmət yormazdı,
Binnəti dərdləri yordu dünyanın.

***27.04.1989***

## Ağəndam...kimi

*(Anaforalı şeir)*

Ağəndama ağ yaraşır
Ağ gülə ağ ləçək kimi.
Ağəndam xoş ətir saçır
Ağ ləçəkli çiçək kimi.

Ağəndam ağ gülə bənzər,
Ağəndam ağ gülü üzər.
Ağəndam naz ilə gəzər
Ağ qayada kəklik kimi.

Ağəndamlı ağdan ağdır,
Ağəndamlı sazdır-çağdır,
Ağəndamlı ağappaqdır,
Ağappaq göbələk kimi.

Ağ qoynu bahar kimidir,
Ağ buxağı qar kimidir.
Ağ pistanı, nar kimdir,
Ağ üzü çiçəyək kimi.

Ağcasan, ağsan gözəlim,
Ağ eləmə yaxın gəlim.
Ağ sinəndə gəzsin əlim,
Ağ güldə kəpənək kimi.

Ağəndam, qoşulaq qaçaq,
Ağ günlərə ağuş açaq.
Ağ qollarnı aç, sarmaşaq,
Ağəndamlılım, tənək kimi.

Ağəndama Binnət deyib:
Ağəndamda olmaz eyib.
Ağəndam ağappaq geyib.
Ağ əndamlı mələk kimi.

***7.09.1966***

## Nə var ki?

*(Ustadnamə)*

Bir canın var, kişi kimi ömür elə,
Gədə kimi dolanmağa nə var ki?

Sən qartal ol, əngəllikdə dövr elə,
Yapalaqtək boylanmağa nə var ki?
Sirr vermə hər yada, hər ilqarsıza,
Varın çoxalanda gülmə varsıza.
Namussuza, qeyrətsizə, arsıza,
Orda-burda yallanmağa nə var ki?
Güvənmə gücünə dövlətin, malın,
Var da kara gəlməz, yoxsa kamalın.
Milyonun da olsa, çatmırsa ağlın,
Müflis olub yaranmağa nə var ki?
Binnət, nurun varsa elə çıraq ol,
Əlsizə əl, ayaqsıza ayaq ol.
Köməksizə, arxasıza dayaq ol
Arxalıya yaranmağa nə var ki?

***05.11.1982***

## Altım zindan, üstüm çəkic

Altım zindan üstüm çəkic,
Mən kürədən zindan üstə
Çıxardılmış bir dəmirəm.
Məni qızdırıb döyəndən,
Gürzlə, çəkiclə əyəndən
Heç mərhəmət diləmirəm.
Kürədə oda dönürəm,
Zindan üstə döyülürəm,
Çəkic ilə əyilirəm,
Dilim yoxdur, çıxmır səsim.
Bu kürədən, çəkic altdan
Məni azad eləyəsi
Yox bir kəsim.
Deyin, kürədə yandığım,
Çəkic, gürz altda qaldığım,
Döyüldüyüm, əzildiyim,
Əyildiyim bəs deyilmi?
Döyüldükcə, əzildikcə
Məndən çıxan qığılcımlar,
Aman, uman səs deyilmi?

***12.08.1981***

## Yadımdan çıxıb

Yetməzmi o taya məhlul baxdığım,
O tay həsrətiylə yasa batdığım?
Evdən gülərüzlə çölə çıxdığım,
Evə şən gəldiyim yadımdan çıxıb.
Nə vaxtacan dözüm hicrə-həsrətə?
Nə vaxt çıxacağıq biz hürriyyətə?
On beş yaşdan dözdüm ağır zəhmətə,
Bir yol dincəldiyim yadımdan çıxıb.
Çəkdim cəfasını nakam bir eşqin,
Çatmadım vüsala, tapmadım təskin,
Hələ də yaxamdan əl çəkmir pis gün,
Oynayıb, güldüyüm yadımdan çıxıb.
Şəhid elədilər yar yoldaşımı,
Yanvarda tökdülər gözdən yaşımı,
Ah-vahla keçirdim 50 yaşımı,
Binnətəm, bildiyim yadımdan çıxıb.

***01.06.1990***

## Mən neyləyirəm?

*(Qəzəl)*

Sənsiz, ey gül, çəməni, gülşəni mən neyləyirəm?
Meysiz bomboş qədəhi, şüşəni mən neyləyirəm?
Olmuşam məst görəli, məsti-xumar gözlərini,
Gülüm, nazsız-ədasız, işvəni mən neyləyirəm?
Bircə yol baxmaq ilə canımı aldın, gözəlim,
Daha de əzraili, düşməni mən neyləyirəm?
Məni Məcnun eləyib çöllərə saldın bihudə,
Məskənim çölsə, rahat güşəni  mən neyləyirəm?
Sadiq olsan əhdinə, eşqin ilə dağ çaparam.
Dişimlə, dırnağımla tişəni mən neyləyirəm?
Binnətəm, ömrüm boyu qoy şəninə nəğmə qoşum,
Əzizim, bundan qeyri peşəni mən neyləyirəm?

***10.07.1979***

## Gəl barışaq

Deyirlər, bir sözüm xətrinə dəyib,
Qəlbinə dəymişəm, bağışla məni.
Duyub gileyini günahkar kimi,
Xəcalət çəkirəm görəndə səni.

Oh! Nələr çəkmədi yazıq sevənlər
Paxıldan, xəbisdən, aravurandan.
Təmiz eşqimizə min ləkə vurdu
Hər hissiz, duyğusuz, dilbilməz nadan.

Məni min əzabdan azad edirsən,
Bircə yol üzümə gülümsəyərək.
Bütün bu aləmdən söz açsam da mən,
Eşqindən almışam ilhamı, mələk.

Uyma uydurmaya, bədxah deyənə,
Böhtandır, fitnədir, şərdir hər sözü.
Bir atalar sözü deyim unutma:
“Paxılın yaxşılıq götürməz gözü”.

Küsmə, gəl barışaq, mehriban olaq,
Yaşayaq bir canda iki ürəktək.
Bir eşqə and içək, ilqar bağlayaq.
Bəxt bizə yar olsun gülümsəyərək.

Son qoyaq bu könül möhlətinə gəl,
Açsın qapısını səadət bizə.
Dünən aramızı vuran bədəməl
Qoy sabah küsənsin taleyimizə.

Həyat gülzarından gəl qoşa keçək,
Dərək həm gülünü, həm laləsini.
Ömrün sağlığına gəl birgə içək
Gəncliyin ən şirin piyaləsini.

***27.05.1981***

## Bir gün açılacaq

*(Ustadnamə)*

Bir gün açılacaq, geci-tezi var,
Sirr ürəkdə qalmaz saxlamaq ilə.
Çox yerində deyib müdrik atalar
“Dərdə dava olmaz ağlamaq ilə”.

Nadan yüz yaşda da kamala dolmaz,
Vaxtı yetişməmiş bir gül də solmaz.

Dünyadan gedəni saxlamaq olmaz
Yolunu, izini bağlamaq ilə.
Binnət, dəlilikdir dəlinin işi,
Heç vaxt ağıllanmaz inan, a kişi.
Bağlayıb dirəyə, qızdırıb şişi
Dəlinin başını dağlamaq ilə.

***19.04.1963***

## Yaxşılar azdı

*(təcnis)*

Hamı gözəl gəzir, yaxşı axtarır,
Heyif ki, gözəllər, yaxşılar azdı.
Qızlara verilən adlar içində,
Çoxdandı Gözəllər, Yaxşılar azdı.
Xınanı yaxırlar qadınlar başa.
Nadan gec anlayır, gec düşür başa.
İmkanlı gədəni çəkirlər başa,
Hələ qədir-qiymət yaxşılara azdı.
Dərdim arta-arta yaman çoxaldı,
Dərd çəkmək vaxtımı yaman çox aldı.
Yamanlıq çoxaldı, yaman çoxaldı,
Nə vaxt ki, yolunu yaxşılar azdı.
Binnət, çut çəkilər yaxşı adla nan,
Bəzən yaxşı olmaz yaxşı adlanan.
Çoxdur fəxri adla yaxşı adlanan
Heyif ki, onların yaxşıları azdı.

***4.06.1964***

## Sən məni, mən səni

Xeyir-dua verdi ata-anamız,
Nə yaxşı sən məni, mən səni sevdim.
Sevirik, xoş keçir hər bir anımız,
Nə yaxşı sən məni, mən səni sevdim.
Bəxt bizə yar oldu bəxtiyar olduq,
Biri-birimizə elə vurulduq,
Dünyada ən xoşbəxt sevənlər olduq.

Nə yaxşı sən məni, mən səni sevdim.
Sən məni ömrüyün mənası sandın,
Mən səni ömrümün dünyası sandım.
Mən xoşbəxt olmazdım sən olmasaydın,
Nə yaxşı sən məni, mən səni sevdim.
Sənsən mənim canım, ruhum, nəfəsim,
Mənəm sənin eşqin, zövqün, həvəsin.
Sən mənim, mən sənin ən əziz kəsin,
Nə yaxşı sən məni, mən səni sevdim.
Bizə nəsib olub ağ gün, azadlıq,
Sən mənə fərəhsən, mən sənə şadlıq.
Birlikdə qüssədən, qəmdən azadıq,
Nə yaxşı sən məni, mən səni sevdim
Sən mənim cismimsən, mən sənin canın,
Sən mənim şərəfim, mən sənin şanın.
Xoşbəxt kəsləriyik biz bu dünyanın,
Nə yaxşı sən məni, mən səni sevdim.
Mənə ilham verir saf məhəbbətin,
Duruşun, gülüşün, sözün, söhbətin.
Varlığı, şadlığı sənsən Binnətin,
Nə yaxşı sən məni, mən səni sevdim.

***22.03.2013***

## Sən olmayanda

Uğur olsun! Hara getsən tez qayıt,
Evim boş görünür sən olmayanda.
Hicrinə dözmürəm, harayıma çat,
Sanki çıram sönür sən olmayanda.
Sən necə dözürsən mən olmayanda?
Qoyma həsrətinin oduna yanım,
Qoyma gözü yolda məlul dayanım.
Dözəmmirəm, sənsiz keçən hər anım
Aya, ilə dönür sən olmayanda,
Sən necə dözürsən mən olmayanda?
Sənsiz buzxanadır yerim, yatağım,
Qəmdir, qəmxanadır evim, otağım.

Binnət Eloğluyam aranım, dağım
Dumana bürünür sən olmayanda.
Sən necə dözürsən mən olmayanda?

***24.03.2013***

## Şair haqq axtarır

Hələ öz kitabım çap olunmayıb,
Yazıb-pozduqlarım özümə yükdür.
Şairə, şeirə hörmət qalmayıb,
İndi şairlərin dərdi böyükdür
Kefli kefindədir, yaslı yasında,
Ağlayan ağlayır, gülən də gülür.
Allahın bu xeyir-şər dünyasında
Şair millət  xoşbəxt olanlar gülür.
Çəkər xalqın, yurdun dərdini hər an,
Nə şöhrət axtarır, nə sərvət gəzər
Xəyalı pəjmürdə, halı pərişan,
Şair haqq axtara, ədalət gəzər.
Binnətəm, xəbislik, dargözlük bilməz,
Hamıya, xoşbəxtlik, dinclik arzular.
Xalqına baş əyər, şaha baş əyməz,
Kimin ki, bir azca şairliyi var.

***7.03.2003***

## Sayıldım müqəssir

Bir dəmir parçasıydım,
Kürədə qızdırdılar,
Zindanın üstə döyüb,
Çəkiclə, gürzlə döyüb
Bir zəncir düzəltdilər,
Kiminsə qollarını,
Qandallamaqdan ötrü,
Kiminsə ayağını,
Buxovlamaqdan ötrü,
Bağlandım neçəsinin
Ayağına, qoluna,
Çoxdandır halqalarım

Bu əsir olanların
Əl-ayağını kəsir.
Onların qollarında
Yada ayaqlarında
Özüm də oldum əsir.
Mənim günahım nədir?
Bir zəncir olmaq üçün
Həm yandım, həm döyüldüm,
Həm sayıldım müqəssir.

***14.12.1981***

## Əhvalımı bilənim-yox

*(Qəzəl-daxili qafiyə)*

Dilim deyir, əlim yazır, oxuyub dinləyənim yox.
Dərdindən olmuşam bezar, bir çarə eyləyənim yox.
Eşqindən Məcnun olmuşam, həsrətindən nun olmuşam.
Saz alıb cünun olmuşam, bir təbibə deyənim yox.
İnam, arzu şamı sönüb, tale məndən elə dönüb,
Eynim yaşı selə dönüb, siləmmirəm, silənim yox.
Az qalır Kərəmtək yanam, pərvanə kimi odlanam,
Həsrətindən sərgərdanam, məkanım yox, Vətənim yox.
Pozulmazdı əhdim, andım, aşiqliyi şərəf sandım,
Öz oduma özüm yandım, imdadıma yetənim yox.
İstər xalqı mənə güldür, güldürübsən, yenə güldür,
İstər yaşat, istər öldür, canım sənindir mənim yox.
Dərdə dərman edənim yox, tənə, rişxənd edənim çox,
Nə yanına gedənim yox, nə yanından gələnim yox.
Heç kim qınamasın məni, sevmişəm, sevirəm səni,
Kölgəmdir izləyən səni, nəfəsim yox, bədənim yox.
Binnət fəda olsun sənə, sən dönük çıxdın əhdinə,
Sinəmə dağ çəkən, sənə məzənnət eləyənim yox.

***12.06.1965***

## Olmaya

Alimlərin məclisində cahil, nadan olmaya!
Söz deyə, söz eşidəsən, sözdə nöqsan olmaya.

Alim, şair danışanda dəhanından dürr səpər,
Əbləhlərə söz deməyə fürsət, imkan olmaya!
Hər kəlmənə «əhsən» deyə söz sərrafı olanlar,
Bədxahlar insafı atıb, haqqı danan olmaya!
Insanlar deyib-gülməyə bir yerə cəm olurlar,
Əhli-ürfan məclisində məclis pozan olmaya!
Ölsün paxıl, xain, xəbis, dargöz, nankor, yaramaz,
Yaxşılara nə kəf gələn, nə tor quran olmaya!
Haqlıya arxa duralar, haqsız yana-yaxıla,
Haqsızlara yaltaqlanıb, qahmar çıxan olmaya!
Əllaf, dabbaq, dəllal, çərçi susa alim yanında,
Ləl-cəvahir bazarında cında yığan olmaya.
Onun-bunun hesabına yeyib, içib öyünən,
Qarınqulu, qabyalayan, ələ baxan olmaya!
Alimlərdən dərs almışam, nadan getsin dərs alsın,
Kəmsavadın paxıllıqdan qəlbi şan-şan olmaya.
Özü kimi nadan sayır hələ çox nadan məni,
Məni adam adam sayır, o pərişan olmaya!
Binnətəm, hər sözüm haqdır, şəkkak nöqsan gəzməsin,
İnsansa bir sənət tapa, eyib axtaran olmaya.

***13.02.1963***

## Qarşında

A güləndam, sultan da,
Kral da, bəy də xan da,
Boyun əyər qarşında.
Fateh də, Cahangir də,
Sərkərdə də, gizir də,
İtaət edər sənə.
Hər hökmünə, əmrinə
Ləbbeyk deyər qarşında.
Bağça-bağ, çəmən, çiçək,
Gülər üzünü görcək,
Sevincdən ətir saçar,
Coşar, qol qanad açar,
Yallı gedər qarşında.
Səni qızılgül bilər,

Cuşa gələr bülbüllər,
Nəğmə deyər qarşında.
Sən hər seyrə çıxanda,
Camalına baxanda,
Şərgi deyər bulaqlar,
Şəlalələr əl açar.
Hüsnünə "əhsən" deyər
Günəşli, aylı göylər,
Gülüm, yerə alçalar,
"Sən şahənşahsan", - deyər,
Təzim edər qarşında.
A gözəllər gözəli,
Söz-söhbəti məzəli,
Bu camal ki, səndə var,
Bu kamal ki, səndə var,
Lap bu qoca yaşında,
Binnət müntəzir durar
Axşam-sabah qarşında.

***17.02.2010***

## Dolanıram başına

Gülüm, məlahətli, könül oxşayan
Səsini dinlərəm musiqi kimi,
Sənin şux gülüşün, şirin söhbətin
Qəlbimdən yox edir kədəri, qəmi.
Sənin camalına günəş demədim,
Mən səni yandırıb-yaxan saymadım.
Bircə təmənnam var, könül həmdəmim,
Xoşbəxt olun həm sən, hə üç övladın!
Göylərdən təvəkkül, axirətdən cənnət;
Dostdan qaygı, ülfət, yaddan mərhəmət,
Taledən şan-şöhrət diləmişəm.
Tək səndən umuram, vəfa, məhəbbət.
Mən nəyə bənzədim səni, özün de,
Sənsiz, ömrüm-günüm, həyatım nədir?
Gəl, öz gəlişinlə sevindir məni,

Sənsiz könül evim bir viranədir.
Mən rəssam olsaydım, elə çəkərdim
Ay həsəd çəkərdi qaşına sənin.
Sən günəş olsaydın mən yer olardım,
Hər gün dolanardım başına sənin.

***11.07.1977***

## Yazdığım şeiri oxu

Mən sənə ömrüm boyu
Minnətdar ollam, yəqin,
Barı, yadına düşsəm,
Məni ansa ürəyin.
Zövqün tər güllərindən
Bir buket düzəldərək,
Təqdim edirəm, qoxu.
İlhamın jaləsindən
Mürəkkəb düzəldərək,
Yazdığım şeiri oxu.
Gözlərimin önündə
Cırıb küləyə vermə,
Ya mənə xoş cavab ver,
Ya nəhs cavab göndərmə.
Mən yaxşı bilirəm ki,
Nə Nizami deyiləm,
Nə Bayron, nə də Puşkin.
Binnətəm, şair edib
Məni sənin saf eşqin.
Mənə ilham ruh verən
Bir elə məhəbbətdir,
Bir də, əzizim, sənsən.

***29.03.1963***

## Məni sevsən

Şeirimi bəxşiş kimi
Təqdim edirəm, buyur.
Ya yadigartək saxla,

Ya yanımda oxu, cır.
Almasan, oxumasan,
Sanaram yazdıqlarım.
Bu misralar hədərdi,
Hər qəlbdən keçənləri
Hamı yaza bilsəydi,
Hər sevən öz eşqini
Asan bəyan edərdi.
Mən səni sevdiyimtək
Binnəti sevsən, canan.
Eşqin ilə hamını
Heyran edərdim inan.

***9.04.63***

## A üzüdönmüş

De necə cəlladsan, necə hakimsən?
Alırsan canımı bir fərmanla sən.
Xaraba qoyursan könül evimi,
Tufansan, alovsan, atəşsən nəsən?
Qiyamətmi qopar, odmu tökülər,
Barı, iki sətir mənə yazanda.
Sənin tale hər an üzünə gülür,
Mənsə qəm çəkirəm ömrüm yazında.
Unudub ilqarı, etibarı sən,
Dövlətə susadın, vara alçaldın.
Vuruldun şöhrətə, dandın əhdini,
Gözündə məhəbbət, sevgi alçaldı.
Gözüm yolda qaldı, səbrim tükəndi,
Cavab qayıtmadı bir sətir səndən.
Hal-əlval olmazmı, a üzüdönmüş,
Ayda-ildə bir yol sevən-sevəndən?

***2.08.1997***

## Son ayrılıq

Yadındamı son ayrılıq?
Nə sən dindin, nə də mən.
Qəlbimizdən keçənləri

Nə sən dedin nə də mən.
İndi məni həsrət boğur,
Keçir günlər, həftələr.
Bilməyirsən sənsiz burda
Nələr çəkirəm, nələr.
Bir-birimizdən xəbərsizik,
Qınamasın eşidən.
Ayrılanda ünvanmızı
Nə sən dedin, nə də mən.

## Fəhlə əlləri

Sizə minnətdaram, ay fəhlələrin
Həm çəkic, həm qələm tutan əlləri.
Sındırın əlini, tökün gözünü
Sizin haqqınıza göz tikənlərin.
Bu xoşbəxt günlərdə kömək diləyib,
Heç kəsin önündə alçalmazdınız.
Hər yalan vədəli vədəbazlara
Siz ön cərgələrdən əl çalmadınız.
Siz ev də tikdiniz, yol da çəkdiniz,
Min zinət verdiniz ana torpağa.
Baxıb qurduğunuz xariqələrə,
Dönür ürəyimiz fərəhdən dağa.
Vətənin üstünü duman alanda,
Siz silah tutdunuz, səngər qazandınız.
Süngüylə Reyxstaqın divarlarına
İri hərflərlə zəfər yazdınız.
Sizə ona görə minnətdaram ki,
Siz bəd əməllərə alışmadınız.
Yaxşılıq etdiniz dosta həmişə,
Düşmənlə əbədi barışmadınız.
Sizin qabar oldu mükafatınız
Şöhrət ummadınız, şan ummadınız
Bir yol alın təri silməyən əllə
Babarlı yazıldı bəzən adınız.

***22.04.1959***

## Ünvanım

Harda olduğumu soruşsan, gülüm,
Həsrətlə vüsalın arasındayam.
Elə pərişanam sənin qəminlə,
Bilmirəm dünyanın harasındayam.
Könlümdə min arzu – min dürlü istək,
Böyük əməllərin sevdasındayam.
Bu böyük şəhərdə, elə bil sənsiz,
Dünyanın kimsəsiz adasındayam.
Soruşsan da sağ ol, soruşmasan da,
Nəyinə lazımdır haradayam mən?
Mən harda yaşasam ürəyimdəsən,
Sən harda yaşasan oradayam mən.

***27.04.1963***

## Təsadüfi sevgi

Əvvəl rastlaşdırdı təsadüf bizi,
Səni tanımadan sənə vuruldum.
Sonra da ayırdı təsadüf bizi,
Səni sevdiyimə peşman oldum.
Elə ilk gündəcə "sevirəm", - dedik,
Mən sevdim, nə bilim sən də sevdinmi?
Səadət naminə lap and da içdik,
Bəs niyə sonradan dandın əhdini?
Elçilər qayıtdı xoş xəbər ilə,
Gizli görüşdən də çəkinmədik biz.
Bir yol anana da demişdin hələ,
"Özüm gedəcəyəm, siz verməsəniz".
Tələbəliyimi başıma qaxdın,
Uydun bir həkimin şan-şöhrətinə.
O da səni yaman yandırıb-yaxdı,
Uymadı təsadüf məhəbbətinə.
Qəlbində zərrəcə olsa məhəbbət,
Düşməzdin şan, şöhrət, var həvəsinə.
Ay hissiz, duyğusuz, niyə təbiət

Sənə ürək verib daş əvəzinə?!

***21.21.1965***

## Rəssam olsaydım

Rəssam olsaydım əgər,
Əsla olmazdı dərdim.
Mən sənin sürətini
Güllərdən zərif, incə,
Bahardan xoş çəkərdim.
A şan-şöhrətə uyan,
Etibarı unudan,
Səni daş-qaş içində,
Məni qan-yaş içində,
Sənin gözündə gülüş,
Sənin üzündə öpüş,
Mənim üzümdə kədər,
Gözümdə yaş çəkərdim.
Səni bir Leyli kimi,
Məzəli, meyli kimi,
Məni Məcnun tək dərdli,
Səndən gileyli kimi,
Sənin hüsnünü qəşəng,
Sənin ruhunu buztək,
Qəlbini daş çəkərdim.

***16.3.1961***

## Könlümə kənd düşübdür

Çoxdandır şəhərdəyəm, yolum uzun, vaxtım az
Yadıma uşaqlığım, könlümə kənd düşübdür.
İşdəyəm, məktəbdəyəm buraxıb getmək olmaz,
Bəlkə də ayrılıqdan saçıma dən düşübdür.
Yadıma uşaqlığım, könlümə kənd düşübdür.
Uşaqlığım keçibdir baş açıq, ayaq yalın,
Ötüb-keçən günləri unutmaq asan deyil.
Müharibə illəri yeni kəsirdi ağlım,
Fəqət dünən görmüşəm o günləri elə bil.
Ötüb keçən günləri unutmaq asan deyil.

Anam işdə olardı, az görərdim üzünü,
Atam cəbhədəydi mən beş yaşlı olanda.
Unutmaram nənəmin, babamın bu sözünü:
“Olmasın müharibə, müharibə salan da”
Atam cəbhədə idi mən 5 yaşlı olanda.

Bir dəfə də keçməyib, bir dəfə də ad günüm,
İndiki körpələr tək hədiyyə görməmişəm.
Yazıq uşaqlığımı anıb, necə öyünüm?
Çöldən pencər yığmışam, mən çiçək dərməmişəm.
İndiki körpələr tək hədiyyə görməmişəm.

Şəhərlər də indiki şəhərə bənzəmirdi,
Kənd də abad deyildi, indiki kəndlər kimi.
Səhərlər də indiki səhərə bənzəmirdi.
Hava da barıtlıydı, ağırdı dərdlər kimi,
Kənd də abad deyildi, indiki kəndlər kimi.

Məktəbə də yollandım bir vaxt çiynimdə çanta,
Atam gəldi, aranda, yaylaqda keçdi günüm.
Dərsə getdim atamın əlindən tuta-tuta
Barı, o xoş günləri yada salım, öyünüm.
Atam gəldi, aranda, yaylaqda keçdi günüm.

Könlümə kənd düşübdür işıqlı, yaraşıqlı.
Könlümə kənd düşübdür axarlı-baxarlı kənd
İnsanları mehriban, məclisləri aşıqlı,
Bağçalı-bağlı, abad, sürülü, naxırlı kənd,
Könlümə kənd düşübdür axarlı-baxarlı kənd.

***10.09.1964***

## Sən elə gözəlsən

Sən elə gözəlsən, dilbər, hüsnünün
Rəsmini çəkməyə acizdir qələm.
Uzaqda olanda məndən bircə gün
Sıxır məngənətək məni qüssə-qəm.

Səni mədh etməyə çatmır qüdrətim,
Sənə olan ülvi məhəbbətimi,
Eşqimi, sevgimi, sədaqətimi
Sözlə ərz eləmək çətindir çətin.

"Sevirəm" deməyə, yazmağa nə var,
Dastanlara sığmaz əsl məhəbbət.
Allahtək əlimdə olsa ixtiyar,
Səni əbədi gənc saxlardım, əlbət.
Qoru bədnəzərdən güləndamını,
Fələk aldığını geri qaytarmaz.
İlahi sözlərlə mahcamalını
Yüz il təriflәsəm yenə qurtarmaz.
Sənə layiq deyil bu yazdıqlarım,
Kasıb misralardır, cızmaqaradır.
Binnətəm, vəsfinə, nazlı dildarım,
Söz tapa bilmirəm, üzüm qaradır.

***3.09.1975***

## Vyetnam Qalib gələcəkdir

Yenə Vyetnam torpağında
Ağ çiçəklər al boyanır.
Yad çəkmələr tapdağında
Daş çatlayır, torpaq yanır.
Ölüm orda hökm eləyir,
Tutub qara bayrağını.
Həyat orda faciələr
Tamamlayır varağını.
Kədər sarmış sifətləri,
İntizarlı baxışları.
Tükənməyir anaların,
Bacıların göz yaşları.
Ölür Vyetnam körpələri
Dil açmamış yatağında.
Dul analar yas saxlayır,
Oğlunun toy otağında.
Baxışlar lal, gözlər sönük,
Ölüm gəzir sifətlərdə.
Gözəllərin gül üzünü
Qəm bürüyür pərdə-pərdə.
Baxışlarda qara geyib,

Bayram edir şadlanır qəm.
Qara geymiş gəlinlər də
Silahlanıb deyir ki, mən
Vyetnamın sahibiyəm.

Tez söndürün, ey insanlar!
Od içində yanır Vyetnam.
Arzuların odu sönmüş,
Yanır ümid, yanır inam

Meşə yanır,
Tarla yanır,
Şəhər yanır,
Kənd talanır.
Hər tərəfi su olsa da,
Vyetnam yanır, alovlanır.
Vyetnam yanır, vyetnamlının
Yaralanmış qəlbi kimi.
Vyetnam al-qan içindədir
Süngülərlə vyetnamlının
Paralanmış qəlbi kimi.
Vyetnama hücum çəkmiş
Toplar, tanklar, təyyarələr,
Şəhidlərə yas saxlayır
Göy üzündə səyyarələr.
Vyetnamlının al qanından
Axar çaylar al boyanar,
Dəhşətə bax axar çayın
Sağı yanır, solu yanır,
Qaçqınlara mənzil olur
Orda düyü anbarları.
Tarlaları əkir-biçir,
Amerikanın bombaları.
Mən əminəm Vyetnamın
Hünər dolu zəfərinə.
Bax bu gündən söz qoymuşam
Vyetnamın al səhərinə.

Vyetnamlının çöhrəsində
Yenə sevinc güləcəkdir.
Dost ellərin köməyilə
Vyetnam qalib gələcəkdir.

***12.03.1961***

## Yer üzünün Vətəndaşıyam

Şər, xata çəkilə yerin üzündən,
Silah götürməyə heç kim bu gündən.
Azad nəfəs ala göy də, torpaq da,
Vaxtsız saralmaya bircə yarpaq da.
Ağzını yumalar şər söyləyənin,
Bu arzum yerinə yetəydi mənim.
Köçəydi dərd çəkmiş ürəklərdən ah,
Məktub daşıyaydı raketlər ancaq.
Hələ də tökülür günahsız qanlar,
Boğulur qanında hələ insanlar.
Ölüm kölgə salır həyatın üstə,
Sınaqlar torpağı eləyib xəstə.
Batır top səsindən Şərqin qulağı,
Çirkin əməlindən utanmır yağı.
Yenə narahatdır Sakit okean,
Torpaq ey yerinə yenə içir qan.
Dağıdır Sayqonu, Hanoyu yağı,
Çəkir Uzaq Şərqin qəlbinə dağı.
Evlər viran olur, məktəblər zindan,
Rədd olmur uzağa yad uzaq Çindən...
Kiçik bir oğluyam, böyük dünyanın,
Mənim ilk dərdimdir dərdi cahanın.
Mənimdir Təbriz də, Naqasaki də,
Odlar ölkəsinin qəlbi Bakı da.
Xəyalım baş alıb, gəzir aləmi,
Gah sevinc, gah kədər olur həmdəmi.
Hökmranlıq edir hələ cəlladlar,
Hələ yerliləri incidir yadlar,

Misiri, Vyetnamı topa tuturlar.
Elə bil arzumu topa tuturlar.
Sevinc də görmüşəm həyatda nə qəm?!
Mən öz taleyimdən küsən deyiləm.
Şükür, nə acizəm, nə də naşıyam,
Ürəyim genişdir, istəyim böyük.
Bütün yer üzünün vətəndaşıyam.

***16.03.1961***

# SATİRALAR, HƏCVLƏR

## Hanı?

Hamı bir-birinə edir yamanlıq,
Abır-həya hanı, mərifət hanı?
Yoxsa insanlıqdan çıxıb insanlıq,
Xeyirxahlıq hanı, səxavət hanı?!
Şiri tora salır tülkülük edən,
Qartala hökm edir qarğa zirvədən.
Kar olub, kor olub haqq, divan nədən,
Qanun-qayda hanı, ədalət hanı?!
İşləyən az olur, işləməyən çox,
Əkən, biçən acdır, hazır yeyən tox.
Millətin halına candan yanan yox,
İnsaf, mürvət hanı, mərhəmət hanı?!
Vardan-yoxdan salıb xalqı bahalıq,
Manata satılır iki şahalıq.
Ət, yağ talonladır, tapılmır balıq,
Xalqa qayğı hanı, kəramət hanı?!
İmtahanı rüşvət verənlər verir,
Vəzifəyə pulu kalanlar girir.
Məzlumlar işləyir, zalımlar yeyir,
Sorma - ruzi hanı, bərəkət hanı?!
Binnət, hər sözünü demə aşkara,
Aşkarlıqda gizli çəkərlər dara,
Qısnayırlar, dırmanmağa divara

Səndə o güc hanı, o qüdrət hanı?

***01.02.1987***

## Qatarda

Rayona gedirdim... Kupede bir qız,
Bir gəlin də vardı. Qatar dayandı.
Bir nataraz gəldi Biləcəridə,
Gördüm kefi kökdü – içmiş adamdı.
İlk dəfə bu oldu gözümə dəyən
Çəkməsi dikdaban, papağı ləyən.
Ürəyimdə dedim: "Artistdir geyən,
Kefə baxacağam, yaxşı məqamdı".
Bığ saqqala, saqqal bığa qarışıb,
"Meymun otur", - deyəm az qala çaşıb.
O gülür, danışır hamı yatışıb,
Sanki bu güc təkdi, kupe hamamdı.
Gəyirir, işqırır tox donuz kimi,
Susmayır tülküdən qaçan qaz kimi.
Siqarı his verir parovoz kimi,
Bu nadan toşdan toş, ayıdan xamdı.
Abırı unudub, həyanı atdı,
Gəlinə göz vurdu, qıza söz atdı.
Nə qoydu biz yataq, nə özü yatdı,
Bu haramzadəyə dinclik haramdı.
Dedim: "Nə hay-küydü, dincələk qoysan.?"
Dedi: "Bir söz də de, canından doysan".
Binnətə kömək ol, ay Allah, hoysan.
Əl onun, əldəki mənim yaxamdı.

***6.03.1984.***

## Ax...Ax..!

*(M.Ə Sabirə nəzirə)*

*Ax!... Necə kef çəkməli əyyam idi,*
*Katib idim, bacanağım "zam" idi!*

Bizdə idi hər nə ki, var ixtiyar,
Yaşayırdıq qəmdən uzaq bəxtiyar.
Peyda olub indi Anar, Bəxtiyar,
Sabir, Əbülfəz bəy, Nemət, Etibar.

Onda ki, bunlar hələ cavan idi,
Ax!... Necə kef çəkməli əyyam idi!

Kimdə nə cürət var idi danışa,
Arxa idi dosta, yara, tanışa.
Şüar bəzərdi eli başdan-başa:
"Əziz atamız, səni min il yaşa!"
Millət onun hər sözünə ram idi,
Ax!... Necə kef çəkməli əyyam idi!

Rəhbərimiz döysə, söysə susardıq,
Haqq deyənin ağzına daş basardıq,
"Xalq düşməni" sayıb dardan asardıq,
El qeyrəti çəkənləri pusardıq.
Söndürərdik kim ki, elə şam idi.
Ax!... Necə kef çəkməli əyyam idi!

Gizli-aşkar eli çapıb talardıq,
Eli satıb bir "malades" alardıq.
İclaslarda susardıq, əl çalardıq,
Ucalmaqçün alçağa alçalardıq.
Amalımız – hökmə ehtiram idi,
Ax!... Necə kef çəkməli əyyam idi!

Dillənənin dərisini soyardıq,
Sürgün edərdik, qanına boyardıq.
Hər tində bir yada heykəl qoyardıq,
Kim ona kəc baxsa, gözün oyardıq.
Özü –məhbus, əyalı bədnam idi,
Ax!... Necə kef çəkməli əyyam idi!

Yaxamıza orden, medal düzərdik,
Eldə azğın qoçu kimi gəzərdik,
Sonyaları, Maşaları, bəzərdik
Kurortlarda süd gölündə üzərdik.
Sağıcıya qatıq, süd haram idi,
Ax!... Necə kef çəkməli əyyam idi!

İndi min-min yığılırlar meydana,
Lənət oxurlar bizə, Vəziryana.

Gah bizə öküz deyirlər, gah dana,
Bənzədirlər gah da cinə, şeytana.
Dünənəcən çoxları avam idi,
Ax!... Necə kef çəkməli əyyam idi!

Qəzəbimdən çatlayıram az qala,
Düşündükcə düşürəm haldan hala.
Hardan endi başımıza bu bəla?
Ax, keçən günlər, qayıdasız dala!..
Katib idim, bacanağım zam idi,
Ax!... Necə kef çəkməli əyyam idi!

***14 dekabr 1989***

## Partiya şairi

Nədh etdin kommunist partiyasını,
A məddah, hər gecə şeirlər yazdın.
Hər səhər partiya biletini sən,
Öpüb, balan kimi bağrına basdın.
Kitablar çap etdin, vəzifə aldın,
Hər gün partiyanı mədh edə-edə.
Ən məddah bir saray şairi oldun,
Şair mənliyini məhv edə-edə.
Bir az şairlikdə istedadın var,
Nə yazdın, çap oldu, efirə getdi.
Partiya kürsülü böyük salonlar,
Səni alqışlara, gülə qərq etdi.
Hamı hörmət ilə anardı səni,
Gözə girmək üçün xalqı da andın.
Bol-bol vəsf elədin hərdən Vətəni,
Bol-bol da qonorar, mükafat aldın.
Kürsüdən "el" dedin, evindəsə sən,
Dedin: "Elin dərdi mənəmi qalıb?"
Üzdə kədərləndin el önündə sən,
Evdə yasdan çıxdın "beş ulduz"alıb.
Bir vaxtlar mitinqdə, telegüzgüdə,
Söyürdün özündən uzaqdakını .
Xalqı eşitməyən özününküydü,
Günahkar saymadın Bakıdakını.
Səni alqışladı meydandakılar,

“Millətim! Vətənim! Xalqım!”- dedikcə.
Kitabın çap oldu növbədənkənar,
Mərkəzi komitəyə gedib-gəldikcə.
Oğlun isə girdi, qızın məktəbə,
Daha mitinqlərdə coşub-daşmadın.
İşlərin sahmana düşürmüş demə,
Mitinqdə, efirdə ağız açmadın.

Heç vaxt uduzmayır sənin kimilər,
Nə suda islanır, nə odda yanır.
Xalqı qırğına da göndərə bilər,
Xalq ölümə gedər, osa yayınar.
Sizin səhvləriniz birmi, ikimi?
Siz nə etdinizsə səhv elədiniz.
Əqrəb anasını məhv edən kimi
Öz partiyanızı məhv elədiniz.
Tiran başçıları mədh edə-edə,
Allah elədiniz, biz də inandıq.
Bizə zülm edənə etdiniz səcdə,
Siz ənam aldınız, biz odda yandıq.
Xalq dedi: - Məhv olsun belə partiya,
Ona qulluq edən kommunistlər də.
Rədd olsun hökumət, versin istefa,
MK-da hökm edən bic iblislər də.!
40 il ürəyinin başında gəzən
Partbileti atdın onda çoxutək.
Sonra bilet aldın nə yollasa sən
Xalqa, partiyaya kələk gələrək.
Bilmədik şairsən yoxsa ki, artist,
Harda aş oldusa, orda baş oldun.
Mərkəzi komitədə sadiq kommunist,
Xalq içində sadiq vətəndaş oldun.
Girdin qılığına Xalq cəbhəsinin,
Tez həm üzvi, həm də şairi oldun.
Partiyadan çıxıb az hissəsini
Tərk eləmiş-qaçmış fərari oldun.
Necə inandılar bilmirəm sənə?!
Yox, yox, sən şairsən tez inandılar.

Çox şeir yazıbsan xalqa, Vətənə,
Səni elə, xalqa sadiq sandılar.
Bir az Xalq cəbhəsi büdrəyən kimi,
Başqa partiyanın üzvü olubsan.

Balıqlar dəryada böyüyən kimi,
Sən də partiyada yaşa dolubsan.
Kimə xeyir verib, arxa durubsan.
Səndən hansı yetim bir manat alıb?
Deyirlər rayonda saray qurubsan,
Görən heyran olub, baxan mat qalıb.
Uşaqlar da qoşar Vətənə şeir,
Vətənə nə tərif yazsam yaraşar.
Vətənə söz qoşub, görmüsən xeyir,
Sən də ona xeyr verməyi başar!

***14.09.1990***

## Ləqəb gəzən təbsizlərə

O qədər mənasız yazı yazan var,
Deyir ki, şairəm, ləqəb axtarır.
Bəzən hər şairdən bir söz yazanlar
Şerimi çap edin, - deyib, baş yarır.
Bir də görürsən ki, kükrəyib biri,
Yarpaq tək titrəyir əlində vərəq,
Bir aya yazdığı zəif bir şeiri
Oxuyur şairi yamsılayaraq.
Çığırır, bağırır, atır əl-qolun.
Hərdən də əlini köksünə qoyur.
Hüsnündən söv açır qanqalın, kolun
Şer məclisində meydan oxuyur.
Onu dinlədikcə yadıma düşür
Sövsüz bir aşıqın “neylimbalamı”.
Tənqid eləyəndə inciyir küsür
Bir də rast gələndə almır salamı.
Bəzən bəyənməyir klassikləri,
Bəzən də “Nizami babamdır”, - deyir.
Dörd sətri alt-alta yazandan, bəri

Şer dərnəyinə daha gəlməyir.
Dəftəri bəzəkli, qələmi rəng-rəng,
Söz qoşur rastına düşən "gözələ"
4 misralıq şeri çap olunan tək
Oxuyur yüz yerdə, verir yüz ələ.
Necə ləqəb verim bu ləqəbsizə
Gah "Coşqun", gah "Daşqın", gah "Miskin" olur.
Xoş gəlir gündə bir ləqəb təbsizə
Gah "Xoşgün", gah "Düşgün", gah "Küsgün" olur.

***21.08.1964***

## Pisin, xəbisin şəkli

***(Həcv)***

Ay yetənə tənə edən, özündən razı nadan,
Sən xudpəsənd doğulmusan, a yaramaz, anadan.
Yaxşı əməl, xeyirxahlıq, saxə səndən uzaqdır,
Qəlbin qaranlıq zindandır, ruhun orda dustaqdır.
Ucalana tor qurursan, səni üzür küdurət,
Üzünə güldüyün kəsdən dalda edərsən qeybət.
Mənliyini də satarsan, pula, çinə, rütbəyə,
Utanmırsan, öyünürsən «mən də kişiyəm»-deyə.
Çox döşünə döyə-döyə dəm vurarsan qeyrətdən,
Gözlərin bərələ qalır sözlərinə heyrətdən.
Sıxır səni xəbisliyin, ruhun yatır daş kimi,
Əl tutmursan bir kimsəyə dost kimi, yoldaş kimi.
Hər özündən ucaları əskik saydın özündən,
Təkəbbürlük edə-edə düşdün elin gözündən.
Qəlbiqara el içində qapqaradır üzün də,
Utanmırsan, qızarmırsan, həya yoxdur üzündə.
Hər bir sözün zəhərlidir, kimə desən zəhərlər,
Riyakarsan, bədrəftarsan, kəmfürsətsən, ay kəmtər.
Kimə baxsan, nəyə baxsan, onu əyri görürsən,
Of nə pissən, nə xəbissən, Binnətə də hürürsən.
Bu sən, bu da mənim sənə yazdığım «tərifnamə»,
Bədheybət, şəklini çəkdim. «Mənə oxşamır»-demə.

***03.11.2010***

## Badəpərəstin şəkli

Dünən çəkib qurtarmışam şəklini bir xəbisin,
Görüb eybəcər şəklini, xəcalətdən ərisin.
İndi gəl çəkim rəsmini, a badəpərəst iblis,
Karikaturana baxıb, gör o, pisdir, ya sən pis.
Oturmağa halın yoxdur, mey aparıb başını,
Adam olmazsan, atmasan əyyaşlığın daşını,
Gecə-gündüz içə-içə yarpaq kimi əsirsən.
Sərxoşluğun girdabında qolu bağlı əsirsən.
Əlinə pul keçən kimi içib yolda qalırsan.
Evə sərxoş gələndə də, evə dava salırsan.
Adı-sanı, kişiliyi çox içməkdə görürsən,
Arvad-uşaq üz döndərib, rəzil həyat sürürsən.
Gödənini güdə-güdə atdın namus-arını,
Meyə verdin qəpik-qəpik yığdığın pullarını.
Sənə - "içmə", deyəndə də inciyirsən Binnətdən,
Nə tay-tuşdan utanırsan, nə tənqiddən, töhmətdən.
Əldə, evdə nəyin varsa, qurban verdin tamaha,
Qarınqulu, alkaş, sənə sözüm qalmadı daha.

***04.11.2010***

## Yoxdur

*(Həcv)*

Gəl çəkim şəklini, baxıb, yerə gir,
Utan, öl, özündən xəbərin yoxdur.
Özünü çox öymə, döşünə döymə,
Mənliyin qalmayıb, vüqarın yoxdur.
Yanarsan çəkdiyim şəklinə baxsan,
Tülküdən tülküsən, itdən alçaqsan.
Sən elə yaltaqsan, elə yaltaqsan
Nə qeyrətin yoxdur, nə arın yoxdur.
Bundan ona, ondan buna deyənsən,
Qurda hörmət, kala lağ eyləyənsən.
Sini yalayansan, artıq yeyənsən,
Tulasan, bir insan rəftarın yoxdur.
Xəyanət edərsən qardaşına da;
Övladlarına da, yoldaşına da;
Qohumlarına da sirdaşına da,
Dosta sədaqətin, ilqarın yoxdur.

Silahı tullayıb, qaçdın səngərdən.
Utanmadın şəhid olan əsgərdən.
Qalib olmaz fəraridən, kəmtərdən,
Qorxaqsan, əfəlsən, kirdarın yoxdur.
Qovarsan saili qapına gəlsə,
Binnətəm, xəbissən, deyirəm kəsə.
Tay tapılmaz sənin kimi nakəsə,
Elə nadürüstsən oxşarın yoxdur.

***10.03.1993***

## Yaltaq, karyerist

*(Həcv)*

Yaltaq, mənsəbpərəst, vicdanı qara,
Alçalar şöhrətə ,satılar vara.
Məzlumu dilindən çəkdilər dara,
Zalımı təriflər, öyər-öyəndə.
Gah yüngül görünər, gah da ki, ağır,
Üzündən, gözündən şeytanlıq yağır.
Fağıra zalımdı, zalıma fağır,
Özündən fağırı döyər-döyəndə.
Qırx ilin dostunu satar bir anda,
Danar vicdanını, deyər yalan da.
Varlının könlünü alar-alanda,
Kasıbın xətrinə dəyər-dəyəndə.
Haramlıqla yığıb, kalan varıdır,
Evi bir xarici mal anbarıdır,
İçdiyi-xaricin zəhrimarıdır,
Xarici soxalar geyər-geyəndə.
Düz sözdən kar olar, haqq işdən xəstə,
Əl tutmaz, lap ondan qışda qar istə.
Çörək haram olsun mənsəbpərəstə!
Vətən çörəyini yeyər-yeyəndə.
Abadlıq sevməyir bu kor yapalaq,
Xaraba küncündə olur kefi çağ,
Xeyirxah kəslərə vurar badalaq,
Ovand işimizi əyər-əyəndə.
Qıraqda dayanar, aranı qatar,

Alçala-alçala mənsəbə çatar,
Binnət, imkan versən, vətəni satar,
Millətim, vətənim deyər deyəndə.

***24.07.1967***

## Yavaş-yavaş

*(Həcv daxili qafiyə)*

Bic tülkü axmaq ayıdan "Prikaz" alar yavaş-yavaş.
Qudurar, yaxın qonşunu çapar-talar  yavaş-yavaş.
Xatayanlar, bəlayanlar: - boşqab dibi yalayanlar;
Qurda quyruq buluyanlar rüsvay olar  yavaş-yavaş.
Silahlandı qurumsaqlar-alçaqdan olan alçaqlar.
Əlbir oldu yapalaqlar, yarasalar yavaş-yavaş.
Seçməyən yolun düzünü, azar yolunu, izini.
Bədnam, xar olar, özünü gözdən salar yavaş-yavaş.
Başımızı yoza-yoza qızındılar odumuza,
Dadandılar yurdumuza napakyanlar yavaş-yavaş.
Binnət, çox-çox müqtədiri yandırdılar diri-diri.
Tülkülər birləşər, şiri tora salar yavaş-yavaş.

***30.01.1990***

## Yaltaq

Ağzın əyilibdir yaltaqlanmaqdan.
Demə ki, ağzımı əyirsən, yaltaq.
Hər quyruq bulayıb, yaltaqlandıqca
Sən mənim xətrimə dəyirsən, yaltaq.
Üzün bülöv kimi, qəlbin daş kimi,
Şırmanmaq sevirsən Alabaş kimi.
Üzümə gülürsən dost, sirdaş kimi,
Arxamca da böhtan deyirsən, yaltaq.
Heç bir əməlindən baş açmaz-fələk,
Qılığın-təmənna, ülfətin-kələk.
Roldan-rola girən aktyorlartək,
Hər saat bir libas geyirsən, yaltaq.

***26.02.1963***

## Boynuxaltalı cəllad

Öl, a əli baltalı,
Boynuxaltalı cəllad!
Xalq adından danışma,
Xalqa yadsan, xalqa yad.
Olub beynin, ürəyin,
Şər işə müstəmləkə.
Qəlbin qaradan-qara,
Vicdanın ləkə-ləkə.
Necə ki, sənin o bəd,
Bayquş nəfəsin gəlir,
Təhlükəsən, təhlükə.
Əlində imkan olsa,
Günəşi söndürərsən,
Kor yarpaq, dünyanı
Zülmətə döndərərsən.
Bütün bəşəriyyətə
Yas donu geydirərsən.
Azadlıq sevənlərə,
Vətən, xalq sevənlərə,
Ölüm hökmü verərsən.

***18.03.1990***

## Seçdiyimiz cin çıxır

Nə kabus bizdən əl çəkir,
Nə yuxumuz çin çıxır.
Bizə nə gecə ay doğur,
Nə də gündüz gün çıxır.
Gecə-gündüz işləyirik,
Ruzumuz çətin çıxır.
Əməldə quzğun olanlar,
Söz də göyərçin çıxır.
Yetimi atalı döyür,
Günahkar yetim çıxır.
Deyirik: “Şuşa bizimdir”,

Sahibi ərtün çıxır.
Ucalar bədnam olurlar,
Alçaqlar üstün çıxır.
Seçəndə mələk seçirik,
Seçdiyimiz cin çıxır.
Görəndə bu haqsızlığı
Başımdan tüstüm çıxır.

***28.05.1989***

## Yaltağa

Ay mənə öyüd verən, özü üyüdə möhtac,
“Belə demə, belə de” - deyən hər kəlməbaşı.
Demə nəyinə gərək, kimlər toxdur, kimlər ac,
Yazma ki, qalmayıbdır yurdun daş üstə daşı.
Deyirsən: - Kim olsa da hökmdarı təriflə,
Müxalifəti qına, iqtidarı təriflə.
İş yerində müdiri, evdə yarı təriflə,
Hamı sevir tərifi, hamı sevir alqışı.
- Düzlükdən dəm vurursan, əyriliyin bəllidir,
Qanunlardan danışır kim ki, bəd əməllidir.
Hələ yalanın, gopun özünə təsəllidir,
Hələ özünü alim, məni sanırsan naşı.
“Sabak”ovlar, ityanlar yolu, izi bağlayıb.
Haqq-ədalət gəzənlər həmişə qan ağlayıb.
Kimə qucaq açmışıq, sinəmizi dağlayıb.
Ərşə çıxır acların, qaçqınların qarğışı.
Xalqa dağ basan da var, el qeydinə qalan da,
Aşkarlıqdır, rüşvəti verən də var, alan da.
İndi həddini aşır şər-böhtan da, yalan da,
Şərə, böhtana salır bəzən qardaş-qardaşı.
Hələ çox mələk donlu iblislər var həyatda,
Bir gün məlum olacaq kimliyi hesabatda.
Öz yerini tapacaq bir gün haqq da, nahaq da,
Axır qalib gələcək bil ki, yamana yaxşı.
Ədalətdən danışır ədaləti unudan,
Ədalət, divan tapmır qan ağlayan, qan udan.

Yaltaqlıq elədiyin bəsdir, bəsdir, bir utan.
Bəsdir, neçə ildir ki, yağır tərif yağışı.
Düz deyənin dilini kəsirlər neçə ildir,
Haqlılar qorxusundan əsirlər neçə ildir.
Xankəndində zarıyır əsirlər neçə ildir?
Bakıda tüğyan edir sərvət yığmaq yarışı. ***27.03.1991***

## Hay-küyçü

Kürsüyə qalxdı,
Salona baxdı.
Bir az su içib,
Eynəyi taxdı.

Açdı kağızı,
Açıldı ağzı.
Şeirtək oxudu
Zəif bir yazı.

Əzbərləmişdi,
Hazır gəlmişdi.
Zalım kürsüdə
Qaldıqca şişdi.

Göz-qaş oynatdı,
Əl-qolun atdı.
Yalandan coşub,
Çim tərə batdı.

Cod səsi uca,
Sözü balaca.
Şeirin adı,
"Gözü balaca" ***24.12.1958***

## Qardaş

Yüz il nə dedilər susduq, dinmədik,
Lal olduq kiriyə-kiriyə, qardaş.
Azadlıq, rahatlıq nədir bilmədik,
Çal olduq kiriyə-kiriyə qardaş.
Sordu qanımız qana hərislər,
Birədən, gənədən, zəlidən pislər.
Şirə tələ qurdu tülkü Ovaneslər
Ov olduq Andronik kərəyə, qardaş
"Prikaz" ilə yatdıq, durduq, "yaşadıq",
Özümüzə zindan qurduq – "yaşadıq".
"Tovarisə" beldə kərpic daşıdıq,
Bizi döndərdilər xərəyə, qardaş.

Düz görənin gözlərini oydular,
Düz deyəni xalq düşməni saydılar,
İnsafı unudub “naloq” qoydular
Xoruza, toyuğa, fərəyə, qardaş
Hələ də bu qışın görünmür sonu,
Əriməyir buzu, açılmır donu.
Min nəfərdən yaxşı yaşayır onu,
Çoxları pul tapmır çörəyə, qardaş
Binnətə gülməsin ağlı dayazlar,
Müəllimi, alimi lağa qoymazlar.
Tülkünü hinlərə darğa qoymazlar,
Qurdum çoban olmaz sürüyə, qardaş.

***16.01.1991***

## Kişinin

Sözlərim dəyməsin dönük qəlbinə,
Özündən xəbərsiz olan kişinin.
Mənim yazdığımı könül ahına,
Vicdan əzabına alan kişinin.
Kənddə evi qalıb kişisiz, ərsiz,
Şəhərdə bir dula uyub ər sərsiz.

Namusu, qeyrəti unudub fərsiz,
Yoxdur bir yadına salan kişinin.
Azalıb ağılı, artdıqca yaşı,
Kefə, ziyafətə qarışıb başı.
Azalıbdır ağlı artdıqca maaşı,
Gəliri olalı kalan kişinin.
Yetməz harayına ad da, şöhrət də,
Göynəyər həsrətdə, qovrular dərddə.
Arvadı, uşağı, anası kənddə,
Mənzili Bakıda olan kişinin.
Beş qəpik göndərməz sanki dardadır,
Üç körpə uşağı qapılardadır.
Görəsən namusu, arı hardadır,
Gündə bir xəyala dalan kişinin?!

Əsla günahsızdır arvad biçarə,
İnandı böhtana, fitnəyə, şərə,
Bir böhtan uydurdu hərə gic ərə,
Dağıtdı evini yalan kişinin.

***27.05.1991***

## Yenə

Mələk libasında şeytan,
Mərdi alıb, satır yenə.
Canı çoxdan düşüb heydən,
Aralığı qatır yenə.
Yetmişi keçibdir yaşı,
Əsir əl-ayağı, başı,
Başına dəyəsi daşı
Başqasına atır yenə.
Dostlarını sata-sata,
İstəyir mənsəbə çata.
Min günaha bata-bata,
İstəyinə çatır yenə.

Kələk gəlir, tələ qurur,
Böhtan yayır, ara vurur.
Şər atana şahid durur,
O, günaha batır yenə.
Halı yox danışa-dinə,
Binnətə çəp baxır yenə.
Narahatdır bədəninə
Yaman düşüb şatır yenə.

***12.02.1963***

## Atır-tutur zaman bizi

***(daxili qafiyə)***

Atır-tutur zaman bizi, təlatümdə qayıq kimi,
Dövran udur yaxşımızı hələ naqqa balıq kimi.
Bulanıbdır duru sular, qaçıb qazlar, köçüb qular,
Boş yurdlarda bayquş ular qurd uladan soyuq kimi.

Ayı alıb Dəlidağı, Şuşada kef çəkir yağı,
Düşmənlərə Qarabağı vermişik muştuluq kimi.
Düz deyəni qınamışıq, bunu yüz yol sınamışıq.
Daz tülküyə inanmışıq, boğur bizi toyuq kimi.
Sirdir fələyin oyunu, təftiş edir qurd oyunu.
Çaqqalın donmur boyunu, qarnı şişib tuluq kimi
Əyri qoyub qoyan himi, tülküyə tapşırıb hini.
Kalanımız kötük kimi, nalanımız çubuq kimi.
Binnət, qanun gəzmə hədər, mitinq, tətil etsən əgər,
Başına dubinka dəyər, yeri qalar oyuq kimi.

***28.06.1990***

## Olalı

***(daxili qafiyə)***

Yaman günə qalıb millət, zalımlarda zor olalı.
Canımızda yoxdur taqət, yediyimiz şor olalı.
Süd tapıb içə bilmirik, yağ olur necə bilmirik,
Düşməni seçə bilmirik, gözümüzdə tor olalı.

Ayağa qalxa bilmirik, düşməni yıxa bilmirik.
Bir yana çıxa bilmirik, bələdçimiz kor olalı.
Hay salıram el oyanmır, dediyimi ayı qanmır.
Qaz kəsilib, işıq yanmır, elin günü qara olalı.
Gədə edir kəndə bəylik, nə maaş var nə gündəlik.
Kənd olubdur dərəbəylik, hətta haramxor olalı.
Ölü kimidir dirimiz, şəfa eləmir pirimiz.
Haqqı unudub şirimiz, tülküyə qahmar olalı.
Binnət sarvan çaşıb izi, gırdan düşüb haqqın dizi.
Eşitməyir SİTA bizi, qulaqları kar olalı.

***29.01.1990***

## Ölməyin təsəllidir

İçin özünə bəlli,
Çölün elə bəllidir.
Hər sözün böhtan, yalan,
Hər işin cəncəllidir.

Hamı bilir, ay iblis,
Sən zalımsan, el müflis.
Əməllərin pisdən pis,
Qəlbin cin əməllidir.
Binnətəm köçür elim,
Az qalır qəmdən ölüm.
Qalmağın xalqa zülüm,
Ölməyin təsəllidir.

***16.03.1990***

## Var

Öyünməkdə, vəd verməkdə
Harda bizim tayımız var?
Qışdan ayazlı qışımız,
Yaydan isti yerimiz var.
Yadlar kəsib yolu-izi,
Qaçqın, köçkün edir bizi.

Nə dazbaş eşidir bizi.
Nə kirdarlı dayımız var,
Yada qalır kəndlərimiz,
Boğur bizi qəhərimiz.
Nə qənddandan şəkərimiz,
Nə çaydanda çayımız var.
Əldən gedib Şuşa, Laçın,
Armud tapmır xəstə qaçqın,
Hər armud olan ağacın,
Başında bir ayımız var.
Yurdu yada verə-verə,
Sığınmışıq yad ellərə.
Bölünmüşük əlli yerə,
Əlli milyon sayımız var.
Binnət, bizik həriflənən,
Başı daşdan-daşa dəyən.
Kənddə hər gün təriflənən,

Bir ağıldan zayımız var.

***25 may 1992***

## Qoyurlar

İndi baxan yoxdur qanun-qaydaya,
Quldurю mahala darğa qoyurlar.
Vəzifə verirlər ağıldan zaya,
Alimi, müəllimi lağa qoyurlar.

İşdən çıxarırlar kim bilir işi,
Nəzərə alınmır fəhmi, vərdişi.
Elə bil hər kənddə yoxdur bir kişi,
Hər kəndə bir yadı ağa qoyurlar.

İpək gətirirlər Şəkiyə Çindən,
Çoxları bic olub şeytandan, cindən.
Dovşanı çıxarıb qaçış xəttindən,
Yerinə çanaqlı bağa qoyurlar.

Tərs qanan hər şeyi tərsinə salıb,
A Binnət, ədalət-haqq harda qalıb?
Varımı, yoxumu əlimdən alıb,
Ovcuma beş-altı qorğa qoyurlar.

***18.02.1991***

## Gileyçilərə

Bizi yazanların şair ömründən,
Yaman çoxalıblar giley-güzarı.
Bu giley yazanın kaş ki, yüzündən,
Biri əsil şair oleydi, barı.

Birində sadəlik, təvazökarlıq,
Yaman ucuzlaşıb saxtalaşıbdır,
Birinə prospekt eləyir darlıq,
Üç şeiri çıxalı ağlı çaşıbdır.

Şeir allahlığı keçir qəlbindən,
Şeirə bəndəlik etməyənlərin.
Füzuli qəzəli çıxır cibindən,

Füzuli yolu ilə getməyənlərin.
Şairi, şeiri salıb hörmətdən,
Şair cərgəsinə yamaq olanlar.
Nahaq pay umurlar əbədiyyətdən,
Beş-on zəif şerə daldalananlar.
Bu günün şairi çağırılsa da,
Sabahın şairi sayılmaz onlar.
Gecələr sübhədək oyaq qalsa da,
Elə bərk yatıblar ayılmaz onlar.
Yox Nəsimi kimi, Xəqani kimi,
Haqqın qapısının xalqa açanı.
Nə də Sabir kimi, Şirvani kimi,
Yanar satirası atəş saçanı.

Çoxu güclə seçir ağdan-qaranı,
Yaylaqdan aranı, yaydan baharı,
Hər alt-alta yazan beş-on misranı
Ayıbdır, "şairəm", -deməsin, barı.

***17.03.1962***

## Yazır

Həzər bəzi yazanlardan,
Xalqa böhtan, tələ yazır.
Özünə dinclik axtarır,
Aləmə vəlvələ yazır.
Gündüz yazır, gecə yazır,
Heç bilmirəm necə yazır.
Aldığını cücə yazır,
Verdiyini kələ yazır.
Gündə dondan-dona girər,
Yazdığından xata törər.
Verəndə bir çəngə verər,
Yazanda on şələ yazır.

Yüyürənə kəmənd atar,
Yıxılanı ucuz satar.
Ömrü boyu ara qatar,
Bir yol keçməz ələ, yazır.
Tükdən-tükü seçər gözü,
Öz eybini görməz özü.
Binnət, sevmir, doğru sözü,
Böhtan yazan hələ yazır.

***24.03.1962***

## Qarışıbdır başımız

Arta-arta dağa dönüb dərdimiz,
Axa-axa Araz olub yaşımız.
Dağım-dağım dağıdılıb yurdumuz,
Parçalanıb torpağımız, daşımız.

Yad dağıtdı Xocalını, Xaçını,
Sayan yoxdur didərgini, qaçqını.
Unutmuşuq Kəlbəcəri, Laçını.
Çal-çağıra qarışıbdır başımız.
Boğur bizi qəzəbimiz, hirsimiz,
Yağmalanır abidəmiz, irsimiz.
Mədh olunur, təriflənir pisimiz,
Rüsvay olur, lənətlənir yaxşımız.
Zövq alırıq zülümkarı öyməkdən,
Müxəlfəti tənqid edib, söyməkdən.
Pisə-Yaxşı, yaxşıya “Pis” deməkdən,
Zay olubdur ağılımız, huşumuz.
Qarabağı salan yoxdur yadına,
Didərginin çatan yoxdur dadına.
Binnət kimi quruların oduna,
Hələ yanır, külə dönür yasımız

***20.04.1991***

## Çoxaldı

Nə dedim, başıma dəyən zopa-çomaq çoxaldı?!
Niyə gözümə uzanan bıçaq, barmaq çoxaldı?!

Nə yazdım, qələmi qırıb, yazdığımı cırdılar,
Nə etdim ki, mənə tənə, təhniz, qınaq çoxaldı?!
Neylədim ki, məni döyüb, söyüb rüsvay edirlər,
Kürəyimə dəyən təpik, çubuq, sallaq çoxaldı?!
El bilir kimdir kəndxuda, kimdir onu mədh edən,
Mənə nə quyruqbulayan, məddah, yaltaq, çoxaldı?!
Deyirlər: - sailxanaya dönüb Bakı şəhrimiz,
Tində,dalanda dilənən arvad-uşaq çoxaldı.
Deyirlər ki, baş əydikcə yerə düşdü papaqlar,
Əyilməyən baş kəsildi, başsız papaq çoxaldı.
Danışırlar: -Məmləkətdə tüğyan edir kasıblıq,
Aclıq, azar, qaçqın, işsiz, evsiz, çılpaq çoxaldı.

Gördüyümü danışıram, bildiyimi yazıram,
Neyləyim böhtançı, haqqı danan, bədxah çoxaldı?!
Dediyimi, yazdığımı xalq məndən yaxşı bilir,
Bilmirəm bəs niyə mənə irad, danlaq çoxaldı?!
Binnətəm, aylıq maaşım çatmır şora-çörəyə
Pencəyimdə, şalvarımda yırtıq-yamaq çoxaldı?!

***24.06.90***

## Adam ol, Allaha bax

*(paxıla)*

Əqrəb, ilan yuvasıdır, paxıl, kinli gözlərin,
Başdan-başa yalan, böhtan iftiradır sözlərin.
Paxıllıqdan qurumusan, bir sümüksən, bir dəri,
Xeyirxahlar bədxahdan da pisdir səndən ötəri.
Gövdən yekə görünsə də, için boşdur təbiltək.
Aləmdə üzün qaradır sənin qara qəlbintək.
Boş kasadır baş yerinə gəzdirdiyin balqabaq,
Sürünürsən ona-buna vura-vura badalaq.
Nə elmdən xəbərin var, nə sənətdən payın var,
Həm xəbissən, həm bədhaqsan, həm yaltaq, həm riyakar.
Ağır durub, ağır qalxıb alimsayaq gəzsən də,
Nə istedad, nə insanlıq, nə də savad var səndə.

Ona-buna nəzakətin qərəzlidir, saxtadır,
Qəlbində qış covlan edir, nəfəsin sərt şaxtadır.
Nahaq yerdən yaxşılara tez-tez tələ qurursan,
Vicdanını danıb muzdla sən şahid də durursan.
Saman altda su yeridib çox evləri yıxmısan,
Bulanlıqda balıq tutub, sudan quru çıxmısan.
Nə millətə, nə Vətənə zərrəcə yox səmərin,
Ona-buna tor qurmağı öyrənibdir əllərin,
Şeytana papış tikərsən, hər biclikdə əlin var,
Əməlbazsan, sehrbazsan, cadun var, əməlin var.
Xeyir işdən xoşun gəlməz, günaha bata-bata,
İblis kimi yaşayırsan aranı qata-qata.

Bundan-ona, ondan-buna məkrli söz deyirsən,
Zalımlara yaltaqlanıb, məzlumları döyürsən,
Min dilin var, min sifətin, gah zalımsan, gah fağır,
Kabus kimi öz-gözündən cinlik, şeytanlıq yağır.
Yetməzmi pislik etdiyin, adam ol, Allaha bax?!
Bəsdir iblislik etdiyin, adam ol, Allaha bax!
Ya insan ol, insanlarla insan kimi yaşa sən,
Ya şeytan ol, şeytanlarla şeytan kimi yaşa sən.
Bilirəm ki, hürüyürsən dalımca axşam sabah,
Binnətdən nə istəyirsən al, əl çək, Allaha bax.

***26.07.1963***

## Bəs deyilmi?

*(daxili qafiyə)*

Daz div, elin ürəyini üzdürdüyün bəs deyilmi?!
Sinəmizə odu-közü düzdürdüyün bəs deyilmi?!
Sən şahənşah olan gündən, göylər bezib ahdan, ündən.
Yaşımızı gözümüzdəm, süzdürdüyün bəs deyilmi?!
Dərdlərimiz sığmır dilə, zülm edirsən suçuz elə.
Sümüyümüzü zopa ilə əzdirdiyin bəs deyilmi?!
Nə çay yoxdur evdə, nə qənd, çörəyimiz qəm,
suyumuz dərd.
Sail edib bizi kənd-kənd gəzdirdiyin bəs deyilmi?!
Öldü dostum, sirdaşım da, boğuluram göz yaşımda.

Xalqı qanlı göz yaşında üzdürdüyün bəs deyilmi?!
Yıxdın, yaxdın məmləkəti, giryan elədin Binnəti.
Yazıq, zavallı milləti bezdirdiyin bəs deyilmi?!

***24.01.1990***

## Riyakar

*(Həcv)*

Deyirsən ki, müdir nə desə haqdır,
Ürəyi təmizdir, vicdanı pakdır,
Ona şəkk eləmək böyük günahdır.

Necə ki, işlədir, yaltaqlanırsan,
Ona mədh yazıb, məddahlanırsan.

O işdən çıxantək gözündən düşür,
Ondan üzün dönür, rəyin dəyişir.
A sənin üzünü yusun mürdəşir.
Onu bu günəcən tərifləyirdin,
Qarşına çıxanda baş da əyirdin.

Şöhrətli kəslərə qahmar çıxansan,
Qəmxarı olansan, qəmxar çıxansan,
Sanki, a riyakar, günəbaxansan.
Şefin harda olsa, ora baxırsan,
İşdən çıxsa, ona qara yaxırsan.

İşdən çıxsa dersən: - Zayın zayıdır,
Özündən əvvəlki zayın tayıdır.
Maymaqdı, əfəldi, kütdür, ayıdır.
Bügünkü müdirsə sudan da safdı,
Ürəyi təmizdi, vicdanı pakdı.

İşdən çıxanları söyə bilirsən,
Vəzifə alanı öyə bilirsən,
Günahsız quzunu döyə bilirsən.
Qurda yaranırsan qurd xislətinlə,
Bicsən buqələmun xasiyyətinlə.

Şefin sözünə «Can», «bəli» - deyirsən,
Şefi qınayana «dəli» - deyirsən,
«Zəhərdir Binnətin dili», deyirsən.
Niyə zəhərləmir səni bəs dilim?
Niyə səni eldən aparmır ölüm?

***15.03.1976***

## Səni

*(Həcv)*

Altı sifətin var sənin zər kimi,
Kimi altı görür, kimi bir səni.
Hərəyə bir təhər görünür üzün,
Altı üz də təmin eləmir səni.
Fağıra zalımsan, zalıma fağır.
Evində yüngülsən, məclisdə ağır.
Üzündən, gözündən şeytanlıq yağır,
Utan sifətindən, yerə gir səni.
Zəhərli ilantək haçadır dilin,
Qapqaradır qəlbin, əyridir əlin.
Şeytan əməlidir hər bir əməlin,
Hansı İblis əkib, bilinmir səni.
Binnət yaxşı bilir, sən nə zibilsən,
Gözə görünməzsən eybini bilsən.
Elə natarazsan, elə qozbelsən,
Nə qəlib düzəldər, nə qəbir səni.

***12.11.1990***

## Ay Həkim

Ay Həkim, iynədən bezmişəm daha,
Ağrım artıb, varmı başqa dərmanın?
Verdiyin kinədən bezmişəm daha,
Sağalmağa söylə varmı gümanım?
Otaq soyuq, yorğan nazik, can əzik,

Döşək nazik, yastıq nazik, ağ üzük,
Xalat –nimdaş, pijama tağ-tağ süzük,
Pencək gödək, yer süpürür tumanım.
İşıq yanmır, yananda da az yanır,
İsti su yox, soyuq su da nazlanır,
Palatada nə buğ var, nə qaz yanır,
Sübhə kimi cırıldayır divanım.

Ac qurd kimi yel ulayır otaqda,
Binnət kimə gileylənsin o haqda?
Qıvrıldıqca ilan kimi yataqda,
Az qalır qarnıma girə dabanım.
Sağalmağa söylə varmı gümanım?

***27.02.84***

## Sənə haram olsun

Ağla, göz yaşın olsun
Çörəyinə yavanlıq.
Yurdun yağıya qalıb,
Evin olub viranlıq.
Əsgərliyə getmədin,
Qaç öz canını qurtar.
Qalma Azərbaycanda,
Get rusa donuz otar.
Kefdən qalma, gündə bir
Nataşaya tansa get.
Öz dinini də unut,
Öz dilini də unut.
Heç yadına da salma,
Arvadın Tükəzbanı.
Nə oğlunu qızını,
Nə də qoca ananı.
Güvəndiyin o qamət,
Boy sənə haram olsun.
Qardaşın şəhid oldu,

Ay sənə haram olsun!

***13.02.1991***

## Materialların qeybəti

*(Satirik qələmlə)*

Taxta, şalban, sement, kubik, qum ilə
Eylədilər qeybəti him-cim ilə.

Başladı tərifə şalban qamətin,
Dedi: icraçı bilir tək qiymətim.
Az qala kubumu sata həştada,
Kim ev tikirsə gəlirəm mən dada.
Canlıca zorbacalarım satılır,
Çürüklərim tikintiyə atılır.
Buna dözə bilməyib dil açdı daş:
Eyləmə tərif özünü, a yoldaş!
Hasar, qaraj evlər iki mərtəbə,
Carhovuzla hamam minibdi dəbə.
Sənin ancaq sağlamların satılır,
Səndən dirək olur, çatlı çatılır.
Bəsdi mənimlə çənə vurma hədər!
Hər kubikim bil ki, manata gedər.
Şam taxtası sözə başladı qəti,
Söylədi: asta eləyin qeybəti.
Ancaq məndən olur döşəmə, tavan,
Qapı, pəncərə, aynabənd, taxt, divan.
Tikintiyə çox az düşür güzarım,
İdarədə altdan olur bazarım.
İstədi ki, bircə kəlmə deyə qum,
Sement aman vermədi söylədi: “Yum!
Maşının on beş manata satılır,
Bir tonuma səndən 5 ton qatılır.
Varam deyib özünü soxma gözə,
Mənim bir tonumu alırlar yüzə.
Ay içi daşlı, bilməyirsən məyər,

İcraçıya mənim çox xeyrim dəyər.”

***“Elektron” qəzeti, 26.03.1981***

## Tazıya dönüb

Daşbaşa rüşvətə qarışdı başı,
Müdriklik eləyə bilmədi yaxşı.
Yernə müdirliyə girən qardaşı,
Keçən əsrdəki qazıya dönüb.
Həm gəncə təpinir, həm ağsaqqal,
Böyüklə, kiçiklə getməyir yola.
Qarnı önə süzüb, peysəri dala,
Üzü qıpqırmızı pazıya dönüb.
Binnətəm, görəli qalmışam çaşbaş,
Çoxdan müdriklikdən qovulan qardaş
Əlindən çıxalı vəzifə, daşbaş,
Elə arıqlayıb, tazıya dönüb.

***14 may 1970***

## Sərxoş qəpiyə dəymir

İçib, yıxılmışdı sərxoş səkiyə,
Güman qalmışdı bircə qəpiyə.
Əlindən düşmüşdü o da yanına,
Yox idi sərxoşun yanan halına.
Axşamadək orda qaldı, oldu xar.
Kürəni süpürdü qoca dalandar.
Sərxoşun yanında yerə əyildi,
Götürdü qəpiyi, qənimət bildi.
Yoldan keçənlərin söylədi biri:
-Zibillikdi sərxoş olanın yeri.
İçib, küçələrdə uzanan nakəş,
Zibilliyə düşən qəpiyə dəyməz.

***11.06.1964***

# Mən belə sürücüyəm

Nolsun, məni gözləyir yollarda sərnişinlər?
Nolsun, motorum sazdır, qaydasındadır şinlər?
Mənə nə, uşaq ağlar, mənə nə, xəstə inlər?

İstəyir söyə-söyə yüz dəfə "sür", -deyələr
Mən belə sürücüyəm, - İstəyərəm sürərəm,
istəmərəm sürmərəm.
Kimə nə dəxili, hərdən maşurutdan çıxaram,
Ya daşbasa gedərəm, ya futbola baxaram?
Müfəttişlə, təftişlə, talonla yoxdur aram,
Yüz məzəmmət edələr eşitmərəm, mən karam.
Mən belə sürücüyəm, - istəyərəm sürərəm,
istəmərəm sürmərəm.
Yüz yazalar-pozalar ərizəni-ərizə üstdən,
Hər şikayət, felyeton salmaz məni həvəsdən.
Zərrəcə çəkinmirəm "zavqardan", nə rəisdən,
Öz kefimə şoferəm, qorxum yoxdur heç kəsdən.
Mən belə sürücüyəm, - istəyərəm sürərəm,
istəmərəm sürmərəm.
İlk gündən dispetçerlə sazlamışam aranı,
Sevməyirəm marşrut, qrafik axtaranı.
Gözləyəni dondurur çox da qışın boranı,
Vecimə də almaram hər ağzını yoranı.
Mən belə sürücüyəm, - istəyərəm sürərəm,
istəmərəm sürmərəm.
Nə olsun ki, gecikir işçilər iş yerinə?!
Nə olsun ki, yazırlar, hər gündə iş yerimə?!
Nə olsun töhmət təpir gündə müdir dərimə?!
Nə olsun adım düşür satirikin şeirinə?!
Mən belə sürücüyəm, - istəyərəm sürərəm,
istəmərəm sürmərəm.
Dedim: -Vicdanın olsa, xalqa əzab verməzsən,

"Prava"nı alarlar daha maşın sürməzsən,
Elə yerə salarlar, heç sərnişin görməzsən,
Elə hala salarlar, bir də heç vaxt deməzsən;
- Mən belə sürücüyəm, - istəyərəm sürərəm,
istəmərəm sürmərəm.

***25.5.1976***

## Həccə soraqla gedirik

Təzə əsrə yenə biz təzə yamaqla gedirik,
Azmışıq haqq yolunu, Həccə soraqla gedirik,
Peyklərlə səfər edir əcnəbilər yerdən aya,
Biz hələ eldən-elə atla-ulaqla gedirik.
Hər yalan danışana saatlarla əl çalırıq,
Hər doğru danışanın üstə çomaqla gedirik.
Kimimiz muzdur olub, kimimizdə iş gəzməyə,
Hər səhər ac qarına, yalın ayaqla gedirik.
Çoxları ağzı dolu tərəqqidən dəm vururlar,
Sürünüb ilan kimi hələ torpaqla gedirik.
Yadlara yardım üçün əl açırıq, yalvarırıq,
Dilənib dolanmağa arvad-uşaqla gedirik.
Kolxozu bərbad edib kombayn, traktor qoymadıq,
Əkinə, zəmiyə biz xışla, oraqla gedirik.
Qazımız, işığımız bilməyirik harda yanır,
Biz təzək yandırırıq, hisli çıraqla gedirik.
Şuşanı Vartan alıb, İvan ona qahmar olub,
Fransız kimidir ki, biz sülhə Şirakla gedirik.?!
Eşidən yoxdur bizi, Binnət, deyək dərdimizi,
Çaşmışıq, yolu-izi üzdəniraqla gedirik.

***10.06.1991***

## Qeybət edənsən

*(Həcv)*

A gədə, öyünmə gədə atanla,
Atan da gədəydi, sən də gədəsən.

Gorbagor olaydın sən də atanla,
A səni atandan dərin gedəsən!
Zatın da xarabdır sənin, a bədzat,
Nə dost xeyir görüb sizdən nə də yad.
Çox da kişilənmə, qeybətcil arvad,
Arvadlardan artıq qeybət edənsən.

Yoxdur bir dəyyusca abırın, həyan,
Biclikdən, zinadan tutulub məyan.
Bir kəsin üstünə düşməyib sayən,
Özün əksiklərin kölgəsindəsən.
Bir yetim yaşını qurutmayıbsan,
Bir yardım umanı yarıtmayıbsan.
Ömrün gödək olsun, əl tutmayıbsan,
Bir dosta, qohuma ömründə sən.
Sınadım dar gündə sədaqətini,
Binnətə mehrini, məhəbbətini,
Bezdim dinləməkdən mən qeybətini
Nə zəngin lazımdır mənə, nə də sən..

***29.08.1982***

## Xəbərsiz getdi

Bir bədxah yetənə böhtan, şər atdı,
Abırdan, həyadan xəbərsiz getdi.
Alçala-alçala mənsəbə çatdı,
Məsləkdən, qayədən xəbərsiz getdi.
Ondan-buna dedi, bundanda-ona,
İblis kimi girdi o, dondan-dona.
Ömrünü mənasız yetirdi sona,
Bu nadan dünyadan xəbərsiz getdi.
Ona tələ qurdu, buna tor qurdu,
Çuğulluq da etdi, üzə də durdu

Altdan su yeritdi, evlər uçurdu.
Dostdan, aşınadan xəbərsiz getdi.
Zorluya baş əydi, beli əyildi,
Kölə bir ömrü qənimət bildi.
Nə hörmət anladı, nə qiymət bildi,
Elmdən, ziyadan xəbərsiz getdi.

Binnət, qırıq idi gədənin zatı,
Bezdirmişdi tamam eli-elatı.
Yad ölkədə öldü bu alaçatı,
Gora el-obadan xəbərsiz getdi.

***16.11.1961***

## Korun oğlu Rövşən

Bir mehtər öz oğlunun,
Adını Rövşən qoydu.
Rövşən də böyüyəntək,
Oğru oldu, yoldan keçən
Arvad-uşağı soydu.
Çoxunun mənzilini,
Yorğan-döşəksiz qoydu,
Çoxlarının hinində,
Toyuq-cücə qoymadı.
Yoldan keçənləri də,
Rahat keçə qoymadı.
Rövşən çox günah etdi.
Günah tutdu mehtəri.
Mehtərin gözlərini,
Vurub çıxartdı biri.
Bu mehtərin oğluna
Koroğlu demədilər.
Ona eldə gah korun

Oğlu Rövşən dedilər,
Gah da o dələduza
Oğru Rövşən dedilər.

## A zalım oğlu

Söyürlər, dinməyirsən,
Döyürlər, dinməyirsən,
Əyirlər, dinməyirsən,
Dinsən, a zalım oğlu.

Yetənə əyilərsən,
Koğaya dönmüsən sən.
Adamlıqdan, qeyrətdən
Kəmsən, a zalım oğlu.
Alçağa əyilirsən,
Utanıb ölməyirsən.
Özün də bilməyirsən
Kimsən, a zalım oğlu
Riyakarsan, xəbissən,
Of sən nə pissən, nə pissən.
Binnət deyir: - İblissən,
Cinsən, a zalım oğlu.

***03.02.1962***

## A Bədhaqq kişi

*(Müəllim yoldaşımla soyuqda bir xeyir-şər evinin üstünə üç gün şifer vurduq.Bizə iş gördürən haqqımızın dörddə birini də vermədi)*

Şadlıq evi tikirsiz, divar, tavan hazırdır,
Eləyibsiniz işi yarı, a bədhaqq kişi.
Reykalar zorla çatdı, güclə çatan şiferin
Yarsı ağ oldu, yarsı sarı, a bədhaqq kişi.
Nə işıq çəkibsiniz, nə su xətti, nə qaz var,
Şadlıq evi deyilən bir tavan var, dörd divar.

Qurtarmağa tələsin, soyuyamış havalar,
Gəlir qışın ayazı, qarı, a bədhaqq kişi.
İşlədik canla-başla, bir kişi zay görmədik,
Heç səndən qayğı, kömək bir haqqı-say görmədik,
Üç gündə bir stəkanı nə su, nə çay görmədik,
Haqqımızı yaxşı ver, barı, a bədhaqq kişi.
Haqq danışmaq düşmədi nə yoldaşımın, nə sənin
Yadınıza. Verəcək kim haqqımı bəs mənim?
Ədaləti unudub, haqqı-muzdu kəsənin,
Yağıya-yada qalar varı, a bədhaqq kişi.

Xarrat gözüm görürdü bu işlərin sonunu,
Xəyyat əlim düz biçir, düz tikir söz donunu,
Dinməzdim haqqımızın kəssən yüzdən onunu,
Olsaydı meylin haqqa sarı, a bədhaqq kişi.
Qurtaraq söz-söhbəti, uzanmasın davamı,
İnsaf et, sayma bizi avamların avamı.
Qiyamətə saxlasaq sənnən mənim davamı
Yaxar səni cəhənnəm narı, a bədhaqq kişi.
Binnətəm, düzgünlükdür sözlərin düzü, safı,
Unutmaynan sən də gəl ədaləti, insafı,
Kim cığallıq eləyib, danışa haqqı-hesabı,
Bayramda ərsiz qalsın yarı, a bədhaqq kişi

***12.10.1996***

## Bədhaqq kişi

Səni adam saymasaq, danışıb iş tutardıq,
Sandıq ki, bizi adam sayasan, bədhaqq kişi.
Vicdanla, canla-başla işi görüb qurtardıq,
Dedik ki, özün qiymət qoyasan, bədzat kişi.
Derdin ki, xeyirxahlıq yaxşılıqdır vərdişin,
Bədhaqlara əzabı haqdır çərxi-gərdişin.
Ağsaqqalsan, bilirsən qiymətini hər işin,
Bilmirdin haqqımızı guya sən, bədhaqq kişi.?
Olmayıb haqqı danıb, haqq yolundan azdığım.

Bədhaqla nə dostluğum olub, nə də sazdığım,
Xoşuna gəlmədimi yoxsa dünən yazdığım?
Gərəkdir haqverməzə söyəsən, bədhaqq kişi.
Gəlsən elə yaymayaq bu sövdanın sirrini.
İnsafı kim unutsa haqq kəssin kəndirini.
Gəl ödə haqqımızın, barı, üçdən birini,
Döndərmə xeyrimizi suya sən, bədhaqq kişi.
Hələ də kələk gələn, sənintək baş yozan var,
Cənnət var, cəhənnəm var, xeyri-şəri yazan var.

İnsaf, mürvət, doğruluq, ədalət var, mizan var,
Rəbb qoymaz haqqımızı yeyəsən, bədhaqq kişi.
Dərəbəylik ha deyil, var ədalət, məhkəmə,
Gəl düşməyək get-gələ olmasın mühakimə.
Nə mən şikayət edim, nə sən yalvar hakimə.
Zənn etmə ədaləti əyəsən, bədhaqq kişi.
Kaftarsan-ağsaqqalsan, çəkişməyək gəl sənnən,
Nə mən səndən inciyim, nə də sən inci məndən.
Haqq alacaq haqqımı, bilirəm haqq kəsəndən,
Haqq yolunu azırsan niyə sən, bədhaqq kişi?
Şadlıq evdir dedik: "dəlin haqq danışmayaq,
Abır-həya gözləyək, baş-ayaq danışmayaq"
Binnətəm, gəl söhbətə son qoyaq, danışmayaq.
Həcv sənə təsir etmir deyəsən, bədhaqq kişi.
Babisən, nə sünni, nə şiəsən, bədhaqq kişi. ***13.10.1996***

## Yazıram gördüyüm kimi

Görüb, duyduğumu, eşitdiyimi
Yazım, çap etdirim, oxusun hamı.
Hər şeyi yazıram gördüyüm kimi,
Bədhaqlar cırsa da hərdən yaxamı.
Çətindir ayırmaq yaxşını pisdən,
Görsəm də ağı-ağ, qaranı-qara.
Elə yaramaz var pisdir iblisdən,
İstəsə adamı hörər divara.

Sözdə bir mələkdir, əməldə-şeytan,
Pambıqla baş kəsər bu usta cəllad.
Çıxammazdıq uçmuş damların altdan,
Şükür verilməyib bu "nərə" qanad!
Kimdən asılısa quyruq bulayır,
Ondan asılıya endirər yumruq.
Koxaya pay verir, kəndi talayır,
Ulağa baş olur, tulaya quyruq.

Xoş gündə dost olur, bəd gündə yağı,
Yasda gözü ağlar, ürəyi gülər,
Dondan-dona girər artist sayağı,
Zalımtək öldürər, məzlumtək ölər,
Tulatək yaltaqdır, qurd kimi zalım.
Düz sözdə naşıdır, yalanda usta.
Cəlili, Sabiri mən hardan alım?
Fəndbaz at oynadır bu basabasda.
Alçala-alçala ucalmaq üçün,
Yer tutur, əl çalar ön cərgələrdən.
Kiçik bir vəzifə, pul almaq üçün,
Dosta da xəyanət eləyir hərdən.
Harada aş olsa orda baş olur,
İstəyir hər yerdə çəkilsin adı.
Evində natiqlik edən bu malbaş
Heç zaman məclisdə natiq olmadı.
Anbaan dəyişir bu buqələmun,
Sabitlik bilməyir heç vaxt küləktək,
Sifəti bir deyil bu cin oğlunun,
Oğulsan, bu teyfin gəl, şəklini çək.

***9.08.1962***

## Çəkərəm

*(Bir bədhaqqın portretini çəkdim,*
*məni get-gələ saldı)*

Mən şəkil çəkənəm, əgər istəsəm,
İnsanı bir az da insan çəkərəm.

Ədalət hakimi bir az da adil,
Loğmanı bir az da loğman çəkərəm.
İstəsəm təpəni bir az da balaca,
Dağı özündən də bir az da uca,
İxtiyar qocanı bir az da qoca,
Cavanı bir az da cavan çəkərəm.

Düzəldə bilərəm çəp gözü, qaşı.
Naşını çəkərəm bir az da naşı,
Yaxşını çəkərəm bir az da yaxşı,
Yamanı bir az da yaman çəkərəm.
Cananı çəkərəm canandan canan,
Mənə əhsən deyər sənəti qanan.
Nadanı çəkərəm bir az da nadan,
Qananı bir az da qanan çəkərəm.
Günəştək nur salar zər şəkli çəksəm,
Nərdən nər görünər nər şəkli çəksəm,
Binnətəm, bu qanmaz xər şəkli çəksəm.
Belinə bir az da palan çəkərəm.

***9.07.2001***

## Bizə nağıl danışırlar

Bizə nağıl danışırlar, özümüzün
Sözümüz yox, danışmağa dilimiz yox
Taleyə bax, qismətə bax, aman Allah!
Dərdimiz çox, ağlamağa gözümüz yox.
Bəylik edən bəyimiz çox, səyimiz çox
Əyrimiz çox, içində bir düzümüz yox.
Neçə yerdə evlimiz çox, evsiz ölən
Ölümüz çox, kəfənliyə bezimiz yox.
Dolaşıbdır başdan kələf, ədalətə,
Haqqa tərəf yolumuz yox, izimiz yox
Pinəçiyik, binəmiz yox, dilənçiyik,
Pinəçiyik, iynəmiz yox, bizimiz yox.
İş axtaran qulumuz çox, pulumuz yox,

Unumuz-yox, dənimiz yox, dərzimiz yox.
Hərdən mitinqə çıxırıq, haqq-ədalət
Axtarırıq. Haqdan başqa ərzimiz yox.
İblislərdə nə insaf yox, nə mürvət yox,
Qazanırıq bəzimiz çox, bəzimiz yox.

İstəyirik Qarabağı əsarətdən,
Yadlar azad eləsinlər, özümüz yox.
Bəsdir dözdük zəlalətə, ya azadlıq,
Ya da ölüm. Əsarətə dözümmüz yox.
Binnət, millət qalıb darda neçə ildir,
Rayonlarda işığımız, qazımız yox.

***2.05.1990***

## Qoyurlar

Dövrə bax, aşığı, toyçunu toya,
Bəzən qoymayırlar, bəzən qoyurlar.
Məclisdə müəllimi, müəllimәni,
Stola qab-qaşıq düzən qoyurlar.
Saymırlar iş gəzən pulsuz həkimi,
Sayırlar iş kəsən pullu hakimi.
Dolayıb "Lənkəran vəziri" kimi,
Alimin başına qazan qoyurlar.
Hər kəsin öz dərdi, öz mərəzi var,
Hərənin çiləində bir tərəzi var.
Xalqla darğaların nə qərəzi var?
Hər gündə bir ölçü, mizan qoyurlar.
Polisə, hakimə inam azalıb,
Ay Allah, gör mahal nə günə qalıb?
Qarət olunmuşu məhbəsə salıb,
Oğrunu itiyi gəzən qoyurlar
Binnət, pullu qonaq çağırır çoxu,
Başa keçirirlər pullunu, toxu,
Tuza yalvarırlar: - Bir şeir oxu,
Şairi siyahı yazan qoyurlar.

***19.09.1991***

## Paxıl

*(Həcv )*

Özünü yandıracaq, paxıl, paxıllıq odu,
Ağacı öz içindən yeyər ağacın qurdu.
Qəlbi qara, riyakar, paxıl kəs rahat olmaz,
Paxıldan yaxşı övlad, nə də yaxşı ad qalmaz.
Paxıllığın qurd kimi qəlbini yeyəcəkdir,
Dargözlüyün özünü bədnam eləyəcəkdir.
Öz boyuna görə qaz, özgəyə quyu qazsan,
Öz qazdığın quyuya özün yıxılacaqsan.
Özünə yük etmisən paxıllıq şələsini,
Sən özünə qurmusan pisliyin tələsini.
Kimi sənə "gözüdar", kimi də "paxıl"- deyir,
Nacinsliyin hər yerdə səni xəcil eləyir.
Üzün qara, qəlbin daş, gölə qələm düzənsən,
Comərdə lağ eləyən, mərdə ağız büzənsən.
Yaxşılıq etməyibsən sən ömründə bir kəsə,
Havadarsan, yoldaşsan çuğula, bicə, pisə
Xeyrin dəyməyibdir nə qohuma, nə yada,
İblistək yaşayırsan günaha bata-bata.
Qəlbində xərçəng kimi kök salıbdır paxıllıq,
Kimsəyə yoxdur səndə nə mərhəmət, nə qılıq.
Bu bəd sifətin ilə girirsən dondan-dona,
Binnət məəttəl qalıb, bədzat, sənin oynuna.

***16.03.1964***

## Satıcı və alıcı

*(M.Ə.Sabirə nəzirə)*

- Görmə altdan alanları! – Görmərəm.
- Girmə sən arxa qapıdan! – Girmərəm.

- Keçmə daxildən bu yana! – Keçmərəm.
- Salma nəzər tərəziyə, arşına.
- Bacarmaram, corab hörmə başıma.
Bu satdığın, bu aldığın, bu da fakt.

Bu vəzifəm, bu vəsiqəm, bu da akt.
Çoxlarının qaraltmısan qanını.
İndi oğulsan qurtar öz canını.

***“Elektron” qəzeti, 28.03.1981***

## Uşaq və tuz

Dərsə gedən bir uşaq
Düşdü məktəbdən qaçaq.
Oldu cahil, heyvərə,
Meyl elədi alverə.
Əlində bir dəsdə gül
Bazarda ötdü dil-dil.
Ay gül alan, gül alan,
Təkcə bu dəsdi qalan.
Haqq vermədi bir kərə
Ona yer verənlərə.
Tutuldu birdən birə,
Dəydi üz üstə yerə.
Durdu uşaq neylədi?
Bazarkoma söylədi:
“Sən nə yamansan, a tuz,
Adam yıxansan  a tuz.
Az qalıb ömrün sənin,
Tutarlar, artar qəmin.
Çox cibini güdürsən
Bir gün bada gedərsən”

***16.03.1981***

## Qorxuram

Payi-piyadə çıxıram şəhərə,

Qaranlıq dalan görürəm, qorxuram.
Küçələrdə əjdaha tək lyukları,
Ağzı qaralar görürəm, qorxuram.
Seyr edirəm parkı, xiyabanları,
Çoxunu viran görürəm, qorxuram.

Zavodlarda hisi-pası, tüstünü,
Hər gün çoxalan görürəm, qorxuram.
Bazarkomu, müfəttiş, zavmağı
Tacirdən kalan görürəm, qorxuram.
Kassada, mehmanxanada, taksidə,
Toyda soyulan görürəm, qorxuram.
Madamları yan açıq, sinə açıq,
Az qala üryan görürəm, qorxuram.
Bərpası ləng gedən teatrları,
Cana yığılan görürəm, qorxuram.
Kürsüdən: "Rüşvət haramdı", – deyəni
Daldada alan görürəm, qorxuram.
Haqq keşiyində dayanan "hakimi"
Bəzən haqq danan görürəm, qorxuram.
Durğunluqda durub əl çalanları
Yenə əl çalan görürəm, qorxuram.
Gah çıxıram dəniz gəzintisinə,
Xəzəri nalan görürəm, qorxuram.
Gəzməyə çıxsam Nizami parkına,
Bu parkı talan görürəm, qorxuram.
Bu parkdakı tamaşa salonunu
Uçub-yıxılan görürəm, qorxuram.
İdman sarayı tikirik on ildi,
Yarımçıq qalan görürəm, qorxuram.
Şikayətçini səhlənkarlar hələ də
Get-gələ salan görürəm, qorxuram.
Saxtakarlar yenə köhnə üsulla

Doldurur plan görürəm, qorxuram.
Ələbaxan rəislərimiz yenə
Vəd verir yalan görürəm, qorxuram.
Kim salıbdı kəndləri bərbad hala
Yox xəbər alan görürəm, qorxuram.
Yetər qorxduğum. Dəyişibdi zaman
Xalqı ayılan görürəm, qorxmuram.

Xalq malına, xalqın, elin, millətin
Qeydinə qalan görürəm, qorxmuram.
Alçala-alçala ucalanları
Enib-alçalan görürəm, qorxmuram.
Qorxmuram, qorxmuram, qorxmuram.

***16.03.1980***

## Eşidirəm məzəmmət

İnciməyib qananlar
Düz danışan dilimdən.
Nadürüstlər, yamanlar
Dad çəkirlər əlimdən.
Nə paxıllıq bilirəm,
Nə biclik, nə xəbislik.
Heç kim görməyib məndən
Mərdimazarlıq, pislik.
Qəlbim günəştək təmiz,
Amalım xeyirxahlıq.
Belə xəlq eləyibdir
Məni xəlq edən Xaliq
Başqasının dalınca
Danışmaram heç vədə.
Məndən qeybət etməsin
Qeybətcil, sözbaz gədə.
İnsanpərvərliyimçün
Nankor kəslərdən fəqət,

Təşəkkür əvəzinə
Eşidirəm məzəmmət
Həftələrlə qonağım
Olan nankor gədələr,
Binnətəm, məndən qeybət
Edirlər son vədələr.

***2.08.1967***

## Paz çıxarar pazı, qardaş

Təkdir, tənə eləyirsən
Hər gün utanmazı, qardaş.
"Adam ol, utan"-deyirsən
Gündə yüz yol azı, qardaş.
Nə utanır, nə usanır,
Yoldan azır, haqqı danır.
Nə anlayır nə də qanır.
Keyin anlamazı, qardaş.
Qanmır ki, eybini bilə,
Nə nəsihət, nə də tənə
Yola gətirməyib hələ,
Ağıldan dayazı, qardaş.
Öznü güdən haramzadə
Yaman gündə yetməz dada.
Bizi aldada-aldada,
Bir gün olar qazı, qardaş.
Eşitmişəm bir qarıdan:
"Hər key olmaz iş yarıdan".
Sözlə çıxmaz xər darıdan,
Paz çıxarar pazı, qardaş.
Binnətəm dönəndə təkər.
Ağıdan acı olar şəkər,
Nadan başçı başa çəkər,

Özündə qanmazı, qardaş

***16 may 1989***

## Nə ola

Nankorlar, qansoranlar,
Harın, bədhaqq olanlar,
Məzlumların haqqını,
Unudanlar, dananlar,
Özünü alim sayıb,
Ayıdan az qananlar,

Xeyrə-şərə yaramaz
Badalaq, ölü, canlar,
Özü üçün çalışıb,
Guya elə yananlar,
Fağırlara zalımlar,
Zalımlara kölələr,
Məni görəndə hirsdən,
Partlalar, ölələr!

Hiyləgərlər, saxtakarlar,
Beyni, vicdan karlar,
Quldurlar, dələduzlar,
Paxıllar, gözüdarlar,
İnsafın unudub,
Haqqı görməyən korlar,
El oduna yanmayan,
Diriykən qabaqorlar,
Biqələmun xislətli,
Yaltaqlar, riyakarlar,
Naşükürlər, küfranlar,
Şeirimi dinləyəndə,
Qəzəbdən çatlayarlar,
Əzabdan partlayarlar.

Alacatılıq edib,

Aranı qatanlara,
Mədh ilə yaltaqlıqla,
Mənsəbə çatanlara,
Elini sevənlərə
Şər, böhtan atanlara,
Elini, torpağını
Yağıya satanlara,
Hər həcvim zəhər ola,
Hər satıram onlara,

Ölümdən betər ola.
El qədri bilənlərə,
Dil qədri bilənlərə,
Hər sözüm şəkər ola!

***21.06.1964***

## Olam

İstəyirəm hər yerdə
Biclərə, naqislərə,
Harun nadürüstlərə,
Özünə mülk tikməkçün
Eli talayanlara,
Özü isinmək üçün,
El mülkünə od vurub,
Oda qalayanlara,
Çin, vəzifə xətrinə
Yanbiz yalayanlara,
Həcvim ilə od vuram,
Külnü göyə sovuram.
Dostlara bahar olam,
Düşmənlərə zimistan.
Şeirimin bombasından

Dağıla Ermənistan.
Qaçqınlar qayıdalar
Göyçəyə, Kəlbəcərə,
Hərə gəldiyi yerə.
Alinin, Ələsgərin
Aşıq ruhu şad ola.
Zakirin, Natəvanın
Diyarı azad ola,
Dağıdıcı toplarla
Yer ilə yeksan olmuş
Bütün şəhərlər, kəndlər,
Uçmuş körpülər, bəndlər,

Hamısı bərpa ola,
Təzədən abad ola.
Azğınlaşmış, qudurmuş
Düşməndən qisas alam.
Dağıdılmış hər kəndin,
Hər şəhərin yerində,
Abad kənd, şəhər salam.
Düşmənlərə işgəncə,
Əzab, gözdağı olam.
Dosta-dost olduğumtək
Yağıya-yağı olam!

***14.09.2004***

## Bilməz

Bir kəsdə ağıl olmasa,
Mərifət də ola bilməz.
Altdan-üstdən basa-basa,
Düşər əyri yola, bilməz
Atar namusu, qeyrəti;
Arvad-uşağı külfəti,
Sevməz sənəti, zəhməti,

Nədir çəkic, mala bilməz
Minnət çəkən, boyun əyən;
Harda tapsa, orda yeyən,
Tər töküb, zəhmət çəkməyən,
Qalar daldan dala bilməz
Qırxı çoxdan keçib yaşı,
Bilmir yaman, bilmir yaxşı.
Unudub bacı-qardaşı,
Ata bilməz, bala bilməz.
Az qazanan çox xərcləyən;
Az işləyən, artıq yeyən,
Çox içməkdə mənəm deyən
Düşər haldan-hala bilməz.

Binnət, eli anmayanı;
El oduna yanmayanı,
Qırxdan sonra qanmayanı,
Heç kəs başa sala bilməz.

***12.04.1966***

## Balqabaq müdir

“Müdir” işə gəlib, qoz, kişmiş yeyir,
Tort, kofe hazırdır mizinin üstə.
Qapını bağlayıb, “məşğulam,” - deyir,
Katibə nazlanır dizinin üstə.
Sabah bir nitq ilə məxmər kürsüdən,
Gur-gur gurlayacaq boş nağaratək,
Quru çıxaracaqdır yenə də sudan,
Bol vədlər verəcək o, ətək-ətək.
Trubka qaldırmaq ən ağır işi,
Özü zəng edəndə qaldırır ancaq.
Telefon söhbəti əsas vərdişi,

Hələ də tapılır belə balqabaq.
Dişini çəkirlər, sağlam dişini,
Sanki bir sənə də viza qoyanda.
Bir də görürsən ki, atır işini,
Ya restorandadı, ya toyda, şanda.
Plan tələb edir, iclas çağırır,
Üç saat uzanır "peti minutka".
Kvartala beş gün qalıb, bağırır,
Bu harda yatmışdı səksən beş sutka?
Əlini vurmayıb ağdan-qaraya,
Yerinə katibə müdirlik edib.
Beş günlük hay-haray çatmaz haraya
Kvartaldan görün neçə gün gedib?

Başı daz, ağcı az, barı, kiriyə,
Müdirlik etməyə çatmır cürəti,
Qarnı önə süzüb, boynu geriyə,
Kreslodan durmaq istəmir qəti.

***23.10.1965***

## Cəhənnəmə ki

– Mudir mənə yol göstərib, gəl, heç demə ki,
Gedirsən get, yazırsan yaz, cəhənnəmə ki,

– Qüsurum yox, kəsirim yox, borcum yox sənə
– Ərizəni yaz! Nə yolunu azırsan yenə?!
Dönmərəm öz dediyimdən lap fələk enə,
Mən gedərəm, ərz edərəm, çox da demə ki,
Gedərsən get, yazırsan yaz, cəhənnəmə ki.

Qorxmayıram, dar ayaqda arxa-dayaq var,
Mənə hədə, qorxu gəlib, demə ki,  haqq var.

Necə ki, dayım rəisdir kef var, damaq var.
Ərizənlə önməyəcəm zildən demə ki,
Gedərsən get, yazırsan yaz, cəhənnəmə ki.

Çox yalquzaq gəlib bura, dişi batmayıb,
Yazıb, pozub, heç birinin gücü çatmayıb,
Heç kəs gizli sirlərimə əl də atmayıb,
Mən arifəm, düşməyəcəm kefdən qəmə ki,
Gedərsən get, yazırsan yaz, cəhənnəmə ki.

Statyayta çıxardaram istəsəm əgər,
Altı ay işsiz gəzərsən, sən öl, boş hədər,
Bundan mənə ziyan olmaz, öz abrın gedər.
Qorxutmayır məni qanun nə məhkəmə ki,
Gedərsən get, yazırsan yaz, cəhənnəmə ki.

– Bu işə necə baxırsan, möhtərəm "Kirpi"?
Bəzi nankor müdirlərin uzanıb ipi.
Gəl, bunlara bir töhmət ver, alışsın kürkü,
Acıqlanıb deməsinlər, hər yetənə ki,
Gedərsən get, yazırsan yaz, cəhənnəmə ki.

***16 mart 1962***

## Dananları

Adammı, iblismi sayım
Dediyimi dananları?
El tanısın, damğalayım,
Etdiyimi dananları.
Yaramırlar xeyrə-şərə,
Tanıdım haqq sevənlərə.
Tülkü kimi xəlvət dərə,
Güddüyümü dananlara.
Kasıbları yola-yola.

Katdda oldu bic mahala,
Çox görmüşəm əyri yolla,
Getdiyini dananları.

Yaltaq alçaldır özünü,
Görürəm gündə yüzünü.
Ayaqaltına üzünü,
Sürtdüyünü dananları.

Başına yıxaq damını,
Gözündə qoyaq kamını.
Dələduzluqda hamını,
Ötdüyün dananları.

Binnət, satqın yurdu satmış,
Yad ölkədə dinclik tapmış.
Tanıyaq şeytana papış,
Tikdiyini dananları.

***17.10.1992***

## Molladan xahiş

Molla əmi, bir dua yaz, amandır!
Çevir məni öz başına dolandır,
Ümidim sənədir, halım yamandır,
Mən yazığa bir çarə qıl, dolandır,
İşim düz gətirmir xeyli zamandır.

Gümanım yox səndən başqa bir kəsə,
Gərizəm qorxudan mən əsə-əsə,
Gündə məni çuğul satır polisə,
Qazancımın çoxu çatır polisə,
Mən kasıbam, polis məndən kalandır.

Çalış məni bir şapkalı görməsin;
Pul olsa da, məni ələ verməsin,
Həyatımı zülmətə döndərməsin,
Yenə məni məhbəsə göndərməsin.

Məhbus olmaq ölümdən də yamandır.
Qazanc yerim kəsilibdir tərtəmiz;
Kef etməzdi mənim kimi ingilis,
Günüm-güzəranım olub indi pis,
Aman vermir təzə gələn gənc polis,
Tutduğunu yerindəcə yolandır.
Qiyafəmi dəyişirəm gündə mən;
Alverimi eləyirəm tində mən,
Polis görcək dayanıram gendə mən,
Ya da qaçıb gizlənirəm hində mən,
Bu əzabla saxlanılan nə candır?
Şərikimlə küçədə nərd atıram;
Oynamıram, əslində "şey" satıram,
Polis duyuq düşsə, ora qatıram,
Malım gedir üç-dörd ilə də yatıram,
Çıxan kimi işim  haman-hamandır
Molla əmi, bir dua yaz amandır!

***3.09.1989***

## Dəb düşkünü

*Sən nə ingilissən, nə də fransız,*
*Saxta modalara əsirsən yalnız*
*A.S.Puşkin*

Bər-bəzək fermerinin
Qızı tək bir bəzəkli,
Naşı bir rəngsaz kimi
Sirin-sifətin rəngli,
Altdan kirşan vurubsan,
Üstdən pudra un kimi.
Saçın dolaşıq düşüb,
Daranmamış yun kimi.
Gündə bir dəblə geydin,
Bir formada darandın,

Gündə bir cür geyməyi
Əsilzadəlik saydın.
Ancaq moda jurnalı,
Vərəqlədin gündə sən.
Kompliment öyrəndin,
Sən ancaq lüğətlərdən.
Şeir də yazdı bəzən,
Şəninə gədə-güdə.
Gündə bir dəbdə şəklin
Asıldı döngələrdə.
Fotoqraflar tanışın
Modelçi, bərbər dostun.
Gündə bir cür olmaqda,
Modabaz, nədi qəsdin?!

***07.09.1960***

## Dilənir nənə

Əl açır, əlini uzadır önə,
Yalvarır-yaxarır gəlib-gedənə,
Bir kasıb, taqətsiz, ağsaçlı nənə,
Soyuqda, sazaqda büzüşüb tində,
Dilənir milyonlar səltənətində.

İşləməyə gücü, halı qalmayıb,
Qaçqındır, dövləti, malı qalmayıb,
Sədəqə diləyir, yardım almayıb,
Qeydinə qalan yox darda, çətində,
Dilənir milyonlar səltənətində.

Şaxta əllərini dalayır bəzən,
Ağır xəstə kimi zarıyır bəzən,

Rəhm edən, pay verən arıyır bəzən,
Qəm-kədər çulğaşır sir-sifətində,
Dilənir milyonlar səltənətində.

Təqaüdü şora, çörəyə çatmır,
Acından, soyuqdan gecələr yatmır,
Ağzı isti çaya, xörəyə çatmır,

Həsrətdi üzünə ucuz ətin də,
Dilənir milyonlar səltənətində.

Üzülüb pencəyi, süzülüb şalı,
Baxır dərdli-qəmli, yaslı-yaralı,
Çadır şəhərindən uzaq, aralı,
Vağzalın, bazarın gur həyatində,
Dilənir milyonlar səltənətində.

Beş gün ac dolanır, bir yol tox olur,
Bir polis görəndə vardan yox olur,
Yayda gün altında yanır-yaxılır,

Qışda əsir, donur qarın içində,
Dilənir milyonlar səltənətində.

Donur yanağında gözünün yaşı,
Hər polis görəndə artır təlaşı,
Qınaq da eşidir hər addımbaşı,

Ölüb, yerə keçir xəcalətindən,
Dilənir milyonlar səltənətində.

Dərmana pul tapmır, artıb azarı,
Kalanlar, harınlar görürmü, barı?
Kimsəsiz, didərgin bir qoca qarı,
Dilənir milyonlar səltənətində.
Varı hər gün artan məmləkətində.

***13.07.1991***

## Zori Balayana

A qanmazyan, qanırsanmı
Yazdığını özün sənin?
Xətirsizsən, xətrimə
Yaman dəyib sözün sənin.
Arsız üzünə gülmərik,
Yersiz sözünə gülmərik,
Sənnən üzləşə bilmərik,
Üzdən düşüb üzün sənin.
Yedirib, əzizləmişik,
Qanmayıbsan, dizləmişik.
Çox minib, məhmizləmişik,
Yerə dəyib dizin sənin.
Sən qanmazsan, kim qandırsın,
Haqqı sənə inandırsın?!
Bütün "hay"ları yandırsın
"Ocaq"dakı közün sənin.
Verdik sənə çəmən, yaylaq.
Yedin, doydun, atdın şıllaq,
Bizdən olub, uzunqulaq,
Həm arpan, həm bizin sənin.
Binnət bilir zatını da,
Kim uzadır çatını da.
Ayağıyın altını da
Daha görmür gözün sənin.

***19.01.89***

## Bu cindimi, şeytandımı

Baş açmıram nə geymisən
Bu köynəkdimi dondumu?
Qol, qıç, yanbız, sinə açıq
Bu da təzə fasondumu?
Qaşın, gözün ala-bəzək,
Yaraşmayır çala bəzək.
Üzün tala-tala bəzək
Üzün-gözün yadındamı?
Rəngdə itib sir-sifətin

Qaş-gözünü seçmək çətin
Soruşdu dostu Binnətin,
- Bu cindimi, şeytandımı?

***21.08.1964***

## Nə çərənləyirsən?

*(M.S.Qorbaçova)*

Salma qalmaqal, nə çərənləyirsən?!
A xallı naqqal, nə çərənləyirsən?!

Əl çək şər işdən, sən o inandığın,
Yığıb təpibsən, dağılır sandığın.
Boşdur kasan yoxdur sənin yoxdur qandığın.
A mal oğlu mal, nə çərənləyirsən?!
A xallı naqqal, nə çərənləyirsən?!

A çalası, aralığı qatmısan,
Vara, ada, vəzifəyə çatmısan,
Eli dəyər-dəyməzinə satmısan.

Dağılıb mahal, nə çərənləyirsən?!
A xallı naqqal, nə çərənləyirsən?!

Dünyanı gəzmək oldu qalan sənə,
Ay qəmim olsun, əqrəb, balan sənə,
Xub yaraşır biz, noxta, palan sənə

Uzunqulaq çal, nə çərənləyirsən?!
A xallı naqqal, nə çərənləyirsən?!

Nə varıydı, vurdun, yıxdın, uçurdun,
Tarac olsun tacın-taxtın, uçurdun,
Altdan girdin, üstdən çıxdın uçurdun,
El gedinə qal, nə çərənləyirsən?!
A xallı naqqal, nə çərənləyirsən?!

Uyma şərə, tökmə nahaq qanları,
Dörd yanıma yığma "obezyan"ları.

Adam sayma Zori Balayanları,
A dazbaş çaqqal, nə çərənləyirsən?!
A xallı naqqal, nə çərənləyirsən?!

Bilməz idim heç belə qanmaz səni,
Heç belə arsız, gic, utanmaz səni,
Yox ol, a başsız, ağılı az səni,
Ya da ki, ol lal, nə çərənləyirsən?!
A xallı naqqal, nə çərənləyirsən?!

Gədə, konsert, iclas olar nə qədər?
Böyük ölkə başsız qalar nə qədər?
Hər məmurun rüşvət alar nə qədər?
Pula dadamal, nə çərənləyirsən?!
A xallı naqqal, nə çərənləyirsən?!

Kürsülərdən gözəl sözlər deyən çox,
Əkən, biçən acdır, haram yeyən çox,
Səni hər gün lənətləyib, söyən çox.
Föhş, lənət alan, nə çərənləyirsən?!
A xallı naqqal, nə çərənləyirsən?! ***7.09.1990***

## İki üzlü

A riyakar, eldə bir cür,
Evdə bir cür danışırsan.
Gah sən xalqa ağız büzür,
Gah da xalqa qarışırsan
Məsləkin çıxıb yadından,
Uzaqsan etiqadından.
Danışırsan el adından,
Öz xeyrinə çalışırsan.
Binnət, bilir sən sirsən,
Nə umursan, nə kəsirsən.
Töhmət verib küsdürürsən,
Rüşvət alıb barışırsan.

***28.08.1965***

## Hara getdi o günlər?

Durğunluq illəriydi yeddi-səkkiz il qabaq,
Dükanda hər çeşiddə satılırdı yağ, qaymaq.
Doluydu piştaxtalar mallarla qalaq-qalaq,
Kefdə idik hamımız –yeznə, qayın, bacanaq.
Səhərlər süfrəmizi bəzəyərdi araq, xaş,
Günorta kabab, bozbaş, axşam zəfəranlı aş.
Ziyafətlər verərdik yığılıb qohum-qardaş,
Gözlərdi yolumuzu göy çəmən, buzlu bulaq.
Bir anın "qazancına" üç-dörd quzu alardıq,
Şənbə-bazar günləri bulaq üstə olardıq,
Yeyib, içib, şənlənib, oxuyardıq, çalardıq,
Məskənimiz olardı ya çimərlik, ya yaylaq.
Hara getdi o günlər, o xoş saatlar, anlar?
Hara daşındı mallar, niyə boşdur dükanlar?
Beş ildir su yerinə axır günahsız qanlar,
Gözümüz görə-görə əldən gedir Qarabağ.
Hər gün yüz-yüz şəhidi tapşırırıq torpağa,
Elin varı, sərvəti daşınır sola-sağa.
İt sahibni tanımır, ara qarışıb, qağa,
Qeydimizə qalmayır nə başçılar, nə Allah.
Azalıb toyuq-cücə, çalağan, ley çoxalıb,
Sərsəri, dəli artıb, ağıldan səy çoxalıb,
Göstəriş verən artıb, qondarma bəy çoxalıb,
Kimə muzdurluq edək, çörək pulu qazanaq?
Mühəndis iş axtarır, gedib yad ölkələrdə,
Alimlər, müəllimlər iş gəzir küçələrdə.
Hər şey satılır aşkar, küçələrdə, əllərdə,
Cibimizdə pul yoxdur, gördüyümüzdən alaq.
Üç illik maaşını almayanlar var hələ,
Qəmimiz qucaq-qucaq, dərdimiz şələ-şələ.
Millətin qayğısına qalmayanlar var hələ,
Başqanlara çatmayır əriəmiz qalaq-qalaq.

***16.10.1991***

## Əl çalırıq, alçalırıq

Alçala-alçala başa çıxana,
Niyə əl çalırıq, alçalırıq biz?!
Evimizi başımıza yıxana,
Niyə əl çalırıq, alçalırıq biz?!
Daşnaklar qudurub, bizi dalayır,
Gizli, aşkar varımızı talayır.
Xankəndində tülkü, çaqqal ulayır,
Niyə əl çalırıq, alçalırıq biz?!
Gözümüzə xallı dazbaş baxmayır,
Xalq birləşib zülmün evin yıxmayır.
Arabamız bataqlıqdan çıxmayır,
Niyə əl çalırıq, alçalırıq biz?!
Gah bambılı, gah səy olur şahımız,
Ərşə tüstü kimi qalxır ahımız.
Kimə əl çalırıq bilmir çoxumuz,
Niyə əl çalırıq, alçalırıq biz?!

Düşmənlər tank alır, biz mat qalırıq,
Hər yolla ad, rütbə medal alırıq.
Basılırıq, guya zəfər çalırıq,
Niyə əl çalırıq, alçalırıq biz?!
Eldə nə var qalıb, nə də mal-davar,
Kimi çoban qoysaq, olur canavar.
Əl çalmaqdan olub əlimiz qabar,
Niyə əl çalırıq, alçalırıq biz?!
Əsgər gedir kasıb-kusub, pənahsız,
Şəhid olur çoxu suçsuz, günahsız.
Bir günümüz keçmir amansız, ahsız.
Niyə əl çalırıq, alçalırıq biz?!
Üç ildir ki, ətə, yağa, həsrətik,
Aranda yanırıq, dağa həsrətik.
Binnət, cənnət Qarabağa həsrətik,
Niyə əl çalırıq, alçalırıq biz?!

***14.09.1990***

## Hər nə alsam...

Hər nə alsam, al, böyükdən alma öyüd, nəsihət.
Kitaba, dəftərə baxma, yazma, etmə, qiraət.
Hər nə öyrənsən, get, öyrən, öyrənmə elm, sənət,
Oxumağa, öyrənməyə qəti vermə əhəmiyyət.
Hər nə etsən, et, millətə, vətənə etmə xidmət.
Fərari ol, qaç ölkədən, dara düşsə məmləkət.
Hər nə sevsən, sev, nə olar, sevmə qanun, ədalət.
Kölə ol, arzu eləmə müstəqillik, hürriyyət.
Hər nə bilsən, bil, amandı, bilmə insaf, mərhəmət,
Ölən ölsün, batan batsın, çəkmə zərrəcə xiffət.
Hər nə versən, ver, canına vermə əzab-əziyyət.
Atan-anan ölənədək çəksin yolunda zəhmət.
Hər nə çəksən, çək, utanma, nə də çəkmə xəcalət.
Nəyinə lazımdır sənin abır, həya, mərifət?
Hər nə versən, ver, yağıya vermə xətər, xəsarət.
Düşmənindən öc almağa eyləmə cəhd, cəsarət.
Hər nə olsan, ol, nəbadə olma satqın, biqeyrət.
Binnət kimi Vətəni sev, etmə elə xəyanət.

***16.09.03***

# GƏRAYLILAR

## Gəlmədi

Məcnun oldum çox gözlədim,
Leylim bulağa gəlmədi.
Fərhad oldum, qaya çapdım,
Şirinim dağa gəlmədi.
Bir gözəldin ilham aldım,
Nə sevindim, nə kam aldım.
Cəfa çəkdim bir bağ saldım,
Bülbülüm bağa gəlmədi.
Dizildim qəm darağında,
Yandım yarın fərağında,
Yurd saldım yar yaylağında,
Yarım yaylağa gəlmədi.
Yolunda can verdim fəda,

Heç məni salmadı yada,
Binnətəm döndüm səyyaha,
Ovum ovlağa gəlmədi.

***30.05.1961***

## Dözə bilmirəm

Zoru çox olanlar bizi,
Döyəndə, dözə bilmirəm.
Söyüşə layiq olanlar ,
Söyəndə, dözə bilmirəm.

Kimə deyək dərdimizi?
Yurdsuz yurddan qovur bizi.
Nankorlar çörəyimizi
Yeyəndə, dözə bilmirəm.

Xallı divan tutur bizə –
Xalqımıza, elimizə.
Xətirsizlər xətrimizə,
Dəyəndə, dözə bilmirəm.

Qan tökür ayının əli.
Bizə qənim kəsiləli,
“Durak”ovlar bizə “dəli”
Deyəndə, dözə bilmirəm.

Yaltaq qınayır Binnəti.
Deyir: - yazma həqiqəti.
Bədxahlar haqq-ədaləti
Əyəndə, dözə bilmirəm.

***26.02.1990***

## Gəzmə meyxanada məni

Hüsnün görəli məstəm,
Gəzmə meyxanada məni.
Eşqin məni Məcnun edib,
Taparsan səhrada məni.

A can alan, ürək üzən,
Oğrun baxan, kənar gəzən,
Sallanışın, nazın-qəmzən,

Salıb yanar oda məni.
Binnətə artsa rəğbətin,
Bir az xoş olsa ülfətin,
A Şirinim, məhəbbətin,
Tay edər Fərhada məni.

***28.05.1963***

## Dünyanın dərdi

Oğul, bu dünyanın dərdi
Çəkilməzdir, qurtarmazdır.
Bu həyatı dərk etməyə
İnsana bir ömür azdır.
Çoxlarının itib izi,
Udub ölümün dənizi,
Ağladır, güldürür bizi
Bir gün toydur, bir gün yasdır
Qoyur yarı yarsız dünya,
Dönük, etibarsız dünya,
Bu hoqqabaz arsız dünya
Kimə qışdır, kimə yazdır
Toy etdirir yas saxladır,
Gah ağ, gah qara bağladır
Binnəti hər gün ağladır,
Dünyanın öz, kefi sazdır.

***3.12.2001***

## Düşər

*(Hacı Xaliq Bəşər-bədnam şeirlərimi*
*Öz imzası ilə qəzetdə çap etdirib)*

Bəzən xeyrin işi şərə,
Nərin işi xərə düşər.
Mətləbini nakəslərə
Demə, sözün yerə düşər.
Çoxdur saxta ad-san alan,
Andı yalan, vədi yalan,

Onu-bunu şərə salan,
Bir gün özü şərə düşər.
Haram pulla həccə gedən,
Hacı olmaz hər gədədən.
Binnət, dələduzluq edən,
Zəlil olar, pirə düşər.

***13.02.2011***

## Dərdin alım

Əlim çatmır, əllərini
Tutammıram, dərdin alım.
Kədərimə kədərini
Qatammıram, dərdin alım.
Dərdimiz var Araz boyda,
Sən o tayda, mən bu tayda.
Harayına yasda, toyda
Çatammıram, dərdin alım.
Qaldıq yaslı, gözü yaşlı,
Huşum itdi, ağlım çaşdı.
Gözlərimdən yuxu qaçdı,
Yatammıram, dərdin alım.
İtirdi çar, şah tacını,
Qıraq sərhəd ağacını.
Ayrılığın əlacını
Tapammıram, dərdin alım.
Dərd Binnəti salıb əldən,
Sənə həsrət qalan gündən.
Həsrət yükünü çiynimdən
Atammıram, dərdin alım.

***12.04.1979***

## Məni

A ləbi qənd sözü şəkər,
Qonaq elə qəndə məni.
Demə: - Səni zəhərləyər

Zəhərləməz qənd əməni.
Canı verrəm elə cana,
İşarədən mətləb qana,
Məni qoyub yana-yana.
Yan keçmə, görəndə məni.
Binnət yolunda sadağa,
Tökmə zülfünü qabağa.
Yol tapsın dodaq-dodağa,
Danışdırma sən də məni.

***9.10.1966***

## Məni

Zülflərinin əsiriyəm,
Salıbdır kəməndə məni.
Ala gözün cəllad kimi,
Dara çəkir gündə məni.
Naz ilə can üzə-üzə
Dağ çəkmə gələndə bizə.
A dili qənd, sözü məzə,
Həsrət qoyma qəndə məni.
Çöhrən çiçək, hüsnün güldür
Binnəti sızlatma, güldür.
Güldürmürsən, barı, öldür
Sinəyin üstündə məni.

***13.08.1967***

## Ahım dönüb buludlara

*Gedin deyin Xancədana*
*Gəlməsin bu il Muğana*

Ahım dönüb buludlara,
Gündüzüm gecəmdən qara.
Dövran məni çəkir dara.
Dağıdır yadlar Laçını.
Yada qalır göy yaylaqlar,

Gen dərələr, uca dağlar.
Ağlayır çaylar, bulaqlar,
Lilparlar yolur saçımı.
Bağlanıbdır yollar, izlər,
Kömək umur kimsəsizlər.
Saralıb solub bənizlər,
Bilən yoxdur əlacını.
Dağılıb hərə bir yana,
Sığınıb dağa, arana.
Balasını tapmır ana,
Qardaş axtarır bacını.
Günbəgün dilənçi artır,
Yoxsulluq son həddə çatır.
Alim qələmini satır,
Əlil qoltuq ağacını.
Elə qatıblar aranı,
Xançoban gəzmir Saranı,
Yad tutub dağı, aranı,
Talayır bağı, bağçanı.

***23 may 1992***

## Gələr

Elin günü xoş keçəndə
Könlüm, təbim coşa gələr.
El şad olanda qəlbimə
Sevinc daşa-daşa gələr.
Eldən kəsmə köməyini,
El itirməz əməyini.
Eldən diləy diləyini
El istəsə başa gələr.
Eldi anası Binnətin.
Elə olsa sədaqətin,
Elə varsa məhəbbətin,
Hər nə desəm xoşa gələr.

***6.08.1965***

## Məni

Camalına vurulmuşam,
Əsir edib tellər məni.
Hicrindən xəstə olmuşam
Üzür sənsiz günlər məni.
Həsrətinə dözmür ürək,
Olmuşam uşaqtək kövrək.
Güləndamım, gülüzüntək
Heyran etməz güllər məni.
Binnətəm, yanağı alsan;
Dili qənd, ləbləri balsan,
Ömür gün yoldaşım olsan,
Qoca etməz illər məni.

## Məni

Dayanmır Şimalın qarı,
Dondurur şam-səhər məni.
Dağılmışım bəd rüzgarı
Eləyib birtəhər məni.
Qara gəlib elin yazı,
Həm yayı, həm də payızı,
Quzeyin sərt bəd ayazı
Qoyubdur mükəddər məni.
Zərd daz iblisdə yox kərəm,
Dərd çəkdirir edir vərəm.
Dərd çəkməkdən dərdəcərəm
Anlamaz dəngəsər məni.
Nankor çıxdı "brat", "axber"
Haqqa göz yumdu "musye" "ser"
Evimdən "tovariş" "hinger"
Salıbdı dərbədər məni.
Əldən salıb dərd Binnəti,
Quzeydə güney həsrəti.
Paralanmış yurd həsrəti.
Para-para edər məni,
Didim didim didər məni.

***29.07.1990***

# Yoxdur

Sarvanam, dərd karvanına,
Dərddən başqa yüküm yoxdur.
Dərd çəkməyən, qəm çəkməyən,
Bir əzam, bir tüküm yoxdur.
Mən təkəm, düşmən ikidi,
Zəbt olan yer mənimkidi.
Torpağım tankla əkildi,
Dağılmamış mülküm yoxdur.
Yurdum yüz yol paralanıb,
Eldən elim aralanıb,
Ahdan sinəm yaralanıb,
Qəmdən qorxum – hürküm yoxdur.
Tərsin tarac olsun taxtı!
Tərsyanlara qahmaz çıxdı.
Binnəti yandırdı yaxdı.
Canım yanır, tüstüm yoxdur.

***16.09.1989***

# Olmaz

Küt vəzirdən, əfəl şahdan
El hayına yetən olmaz.
Belə getsə ahu – naləm,
Ömrüm boyu bitən olmaz.
Əkdiyni yad biçənlərtək,
Qürbəti yurd seçənlərtək
Yad ellərə köçənlərtək,
Yeri, yurdu itən olmaz.
Binnətəm, haqq umdum haqdan,
Ədalətsiz, zalım şahdan.
Düşmənə qalan torpaqdan,
Vətən olmaz! Vətən olmaz!

***"İmpuls" qəzeti, 10.06.1990***

# Ümidim xudaya qalıb

Qışın qarı dağ başında
Əriməyib, yaya qalıb.
Millət boğulur yaşında,
Ağlaya-ağlaya qalıb.
Becərirəm yağı yeyir,
Çuxamı çıxarır, geyir.
Mərdlərimi şəhid eləyir,
Ümidim Xudaya qalıb.
Bürüyübdür məni heyrət.
Pərdə imiş dostluq, ülfət?
Bəd qonşuda yoxdur qeyrət,
Nə üzündə həya qalıb.
Çarə nədir, deyin görək?
Nəyi sataq borcu verək?
Nə evimdə qara çörək.
Nə cibimdə maya qalıb.
Binnət yığıb, yağı qapıb
Yeyib satıb, saray yapıb.
Xəzinəni əvvəl tapıb,
Dünya ağlı zaya qalıb.

***26.6.1990***

## Ola

Hər səhər yağ-bal yeyərsən,
Öz inəyin, arın ola.
Bağından özün dərəsən,
Alman, heyvan, narın ola.
Körpü sala, yol çəkəsən,
Yol boyu ağac əkəsən.
Məktəb, tibb evi tikəsən,
İxtiyarın, varın ola.
Binnəttək halal yeyəsən,
Sadə ola, sadə geyəsən.
Can eşidə, can deyəsən
Vəfalı dostların ola.

***15.02.1962***

## Dağlar

Nə oldu elin yığvalı,

Dəydi daşdan-daşa, dağlar.
Məhşər qopdu, qara geydi
Ellər başdan-başa, dağlar.

Hər nübarın şəkər kimi,
Bulaqların kövsər kimi,
Alıynan Ələsgər kimi,
Veribsiz baş-başa, dağlar.

Yaz qoynuna köç olardı,
Bir doğarın üç olardı,
Quzuların qoc olardı,
Yağlaşa-yağlaşa, dağlar.

Göyçəlilər cana doydu,
Eldən köçdü, Allah, hoydu.
Dərd sinəmi eşdi, oydu,
Dağlaşa-dağlaşa, dağlar.

Barım-bərəkətim qaldı;
Elim-obam yetim qaldı.
Quduzlara itim qaldı,
Ulaşa-ulaşa, dağlar.

Qarlı zirvə, gözəl dərə,
Yelli Gədik, Gözəldərə
Həsrət qaldı gözəllərə
Ağlaşa-ağlaşa dağlar.

Qoyun-quzu mələşməli;
Armud, fıstıq, şam meşəli,
Quzeyi tər bənövşəli,
Güneyi tamaşa, dağlar.

Tülkü, ayı, meydan açdı;
Şirlərin qoynundan qaçdı.
Qartalların qarğalaşdı,
Zağlaşa-zağlaşa dağlar.

İtkin düşdü oğulların;
Qoynunda qaldı qolların,
Binnətsiz qaldı yolların,
Bağlaşa-bağlaşa, dağlar.

***"Elektron" qəzeti, 17.06.1991***

## Nərgiz

A bəxtəvər, camalına
Həsəd çəkir lalə, nərgiz.
Gah sinənə gül taxırsan,
Gah taxırsan telə nərgiz.
Ləblərinin axır balı,
Baxanın pozulur halı.
Əri sənə vurulalı,
Düşüb qeylü – qala Nərgiz
Kim nə etsə evdən gizli,
Qalmayıbdır eldən gizli.
Sevin, şənlən, xəbərsizdir.
Əməlindən hələ Nərgiz
Binnəti də saldın oda,
Səndən gileylidir o da.
Qorx ki, bir gün qızı tuta,
Saçlarını yola Nərgiz.

***13.12.1996***

## Qızım-Şəfa yazıb

Şəfanı da saldın oda,
Səndən gileylidir o da.
Qorx ki, səni qızı tuta,
Saçlarını yola Şahbaz.

***22.12.1996***

## Anan

***(Qızım Şəfaya zarafatla)***

Qızım, bilmirəm nə edəm,
Mənlə getmir yola anan.
İstəyirəm sağa gedəm,
Məni çəkir sola anan.
Hər sözümə bir qulp qoyur,
Nə gözü, nə könlü doyur.
Məni harda tutsa soyur,

Həsrət qoyur pula anan.
Ha verirəm azdır deyir,
Nə şər bilir, nə də xeyir.
Hər gündə bir dəbdə geyir,
Gah sarı, gah ala anan.
Binnətəm, dada çatasan,
Yox, deyən, sən də xatasan.
Qorxuram məni tutasan,
Saqqalımı yola anan.

***24.12.1996***

## Qurban olum

Az məni oda yandırıb,
Yax, gözünə qurban olum!
Nə edibsən, az başıma
Qax, gözünə qurban olum.
Ya zülfünü sal sinənə.
Ya başımı al sinənə,
Ya xəncəri çal sinəmə,
Çax, gözünə qurban olum
Neçə aşiqin qəm yeyir,
“Sinəmə dağ çəkib”, - deyir
Hər görən ah çəkib deyir.
“Ax, gözünə qurban olum”.
Qoyma məni yana – yana,
Qanım töküb, düşmə qana.
Məni bir gül et, yaxana
Tax, gözünə qurban olum.
Yel əsdi, açıldı yaxan,
Yıxdın evmi, evlər yıxan,
Bax Binnətə, oğrun baxan,
Bax, gözünə qurban olum

***12.10.1964***

## Olmasa

Hər gözələ bənd olmaram,
Könlüm ona bənd olmasa.
Qulac qolu, şahmar zülfü,
Boynuma kəmənd olmasa.

Gözü ala, qaşı hilal;
Üzü gülər, yanağı al,
Sözü şəkər, dodağı bal,
Dili noğul, qənd olmasa.
Düz olmasa əhdə, anda;
Əhdi dansa çətin anda,
Mənim gözüm, könlüm onda.
Onun könlü məndə olmasa.
Könlüm sevməz hər yetəni;
Hər yandıran yaxmaz məni,
Hər işvəkar yıxmaz məni,
Nazında yüz fənd olmasa.
Gülüm, sənlə bəxtiyaram,
Sənsiz dinclik mənə-haram.
Binnətəm, qulun olaram,
Qohum, qonşu, kənd olmasa.

***20.09.1980***

## Olana

Qananlar nəsihət verər,
Ağlı başda kəm olana.
Nadanlar qulaq asalar,
Huşu başda cəm olana.
Yağı sinəmə dağ basdı –
Mərdlərimi kəsdi, asdı.
Üzüm gülməz, toy da yasdı,
Ürəyində qəm olana.
Binnətə sevinc haramdı,
Şəhid yarası yaramdır.
Matəm günü də bayramdır,
Şərəfsizə, dəm olana.

***4.2.1990***

## Qadasın aldığım

Danış, gül, a şirin sözlüm,
Susma, qadasın aldığım.

Qoyma dərd çəkim, üzülüm,
Küsmə, qadasın aldığım
A çeşmi piyaləm mənim;
A zülfü şəlaləm mənim,
Solar gülüm, laləm mənim,
Əsmə, qadasın aldığım.
Mənə çəkdirmə həsrəti,
Dərdi, qəmi, əziyyəti,
Binnətdən mehri, ülfəti
Kəsmə, qadasın aldığım.

## Aşıq

*(Qaynım Firdovsiyə)*

Dərdin alım, götür sazı,
Dindir bala-bala, aşıq.
Məclisə bir şuxluq gətir
Sazı çala-çala, aşıq.
Gah zilə çək, gah da bəmə,
Bənzə Kərəmə, Dilqəmə.
Gah oxu, gah kəlmə-kəlmə,
Sözü-sözə çala, aşıq.
Ustadları hörmətlə an,
Mərdləri məhəbbətlə an.
Namərdləri nifrətlə an
Yandır, oda qala, aşıq.
Çal sübhədək oyaq qalaq,
Sazdan, sözdən bir zövq alaq.
Huşa gedək, fikrə dalaq,
Düşək haldan-hala, aşıq.
Sevdim sazı, sənəti də,
Məna dolu hikməti də.
Bir şeiriylə Binnəti də
Hərdən yada sal, a aşıq.

***17.09.1996***

## Vətənimə, xalqıma

Vətənimə kəc baxana;
Xalqıma qara yaxana,
Qəzəbim, kinim, nifrətim,
Tomris, Babək yaşındadır.
Millətimə sədaqətim,
Elə-obaya hörmətim,
Torpağıma məhəbbətim,
Ürəyimin başındadır.
Binnətəm, yurda vuruldum,
Vətənimə aşiq oldum,
Könlüm, gözüm Ana yurdun
Torpağında, daşındadır.

***"Həqiqət" qəzeti, 01.06.1974***

## Selə düşdü Saram mənim

Yaddan min yara almışam,
Sağ qalıbdır haram mənim?
Neştər dəyib, mil yeriyib,
Sızıldayır yaram mənim.
Dövran mənlə yol getmədi,
Zülm etməyi tərgitmədi.
Əlim əlinə yetmədi,
Selə düşdü Saram mənim.
Sevdim, canım oda düşdü,
Eşq oduna o da düşdü.
Bir qəlbidaş yada düşdü,
Yazıq baxtı qaram mənim.
Binnətəm, yar təşnəsiyəm,
Yar şamdı, pərvanəsiyəm.
Hicran, həsrət xəstəsiyəm,
Bir vüsaldı çarəm mənim.

***19.09.1992***

## Səndən

Elə etmə, mehribanım,
Gileylənim yada səndən.
Əlim çatmır, ünüm yetmir,
Kimə gedim dada səndən?

Nə qədər çəkim cəfanı,
Gəlmədin, insafın hanı?
Körpədir, gözlə Vəfanı,
Uzaq olsun qada səndən.
İnsaf elə, tez gəl kənddən,
Qurtar məni əziyyətdən.
Amandır, küsmə Binnətdən,
Birdən küsər o da səndən.

***04.07.1982***

## Olanda

Üzür məni ayrılığın,
Görüşümüz gec olanda.
Düşər qiyməti ilqarın,
Yar-yarına kəc olanda.
Səni bir dost sanar könlüm,
Hər an səni anar könlüm.
Pərvanətək yanar könlüm,
Həsrətindən gecə olanda.
Camalının vurğunuyam,
Həsrətinin yorğunuyam.
Sanma ki, usanam, doyam,
Zülmün mənə güc olanda.
Rəhmin gəlsin mənə, mələk,
Bu əzablar nəyə gərək?
Demə: -“Gəncsən, əziyyət çək,”
Xata olmaz gənc olanda.
Az əzab ver mənə, həmdəm,
Qoy sevinim hərdən-hərdən.
Yar-yarına çəkdirməz qəm,
Gənclik ömrün tacı olanda.
Çıxmayırsan xəyalımdan,
Qoymamısan Binnətdə can.
Kefimi sor, halına yan
Həm indi, həm qocalanda.

***“Elektron” qəzeti, 16.05.1981***

## Bir gün

Zalımlıqla yanan yurdlar,
Ədalətlə sönər bir gün.

Didərgin düşmüş qaçqınlar,
Öz evinə dönər bir gün.
Dərdi olan sızlar, inlər
Dərdli şairi kim dinlər?
Çoxdan susmuş şirin dillər
Qismət olar gülər bir gün
Binnətəm, pozulub halım,
Dağılır dağlıq mahalım.
Xalqı ağlar qoyan zalım,
Öz taxtından enər bir gün.

***Qədirli kəndi 24.04.1991***

## Eləyib

Çoxu yazıb-oxumaqdan,
Gözlərini zay eləyib.
Dövran bəzən qananları,
Nadanlara tay eləyib.

Biri pusur, biri güdür,
Çörəyimi zəhər edir,
Evdə arvad, işdə müdir
Günümü ah-vay eləyib.
Qınadım ağlı azları -
Binnətəm, bədxah dazları.
Zamanım tərs qapazları
Göz yaşımı çay eləyib.

***9.12.1992***

## Açıla, açılmaya

Çiçəklər, güllər açıla;
Dinməyən dillər açıla,
Bütün düyünlər açıla,
Mərmi, güllə açılmaya!
Kədərli üzlər açıla;
Tutqun gündüzlər açıla,
Görməyən gözlər açıla,

Mərmi, güllə açılmaya!
Paslı qandallar açıla;
Qandallı qollar açıla,
Bağlanmış yollar açıla,
Mərmi, güllə açılmaya!
Düşmənin yolu bağlana;
Qılçası, qolu bağlana,
Sinəsi, başı dağlana,
Mərmi, güllə açılmaya!
Düşmənin gözü bağlana;
Sər deyən ağzı bağlana,
Təpəsi şişlə dağlana,
Mərmi, güllə açılmaya!

***13.08.1991***

## Cırdaxanın

Çox kənd görmüşəm, heç yerdə
Yoxdur tayı Cırdaxanın.
Bir-birindən safalıdır
Yazı, yayı Cırdaxanın.
Sığınanda qucağına,
Qəlbim dönür Ağdağına.
Çoxdur əziz qonağına
Haqqı-sayı Cırdaxanın
Dözəmmərəm fərağına,
Yıxılaram ayağına,
Üz sürtərəm torpağına
Ömür payı Cırdaxanın.
Dilimdə əzbərdi adı,
Kim ki, elimdən halıdı.
Xeyirxah ağsaqqalıdı
*Hüseyn dayı Cırdaxanım.
Binnət yana-yana qaldı,
Doqquz yaşlı ana qaldı.
Adını dastana saldı

Hər fədai Cırdaxanın.

***Hüseyn – Mətilər Hüseyni.***
***9.02.1998***

## Nolar, xanım

Bir quş kimi qoy sığınım
Budağına, nolar, xanım?!
Aç qapını, daxil olum
Otağına, nolar, xanım?!
Bir qeydimə qal, gözəlim,
Soyuqdan tutulub dilim.
İcazə ver, yaxın gəlim
Ocağına, nolar, xanım?!

Həsrətindən çıxır canım,
Qoyma Kərəm kimi yanım.
İnsaf elə, qoy uzanım
Yançağına, nolar, xanım?!
Candan çıxsın əziyyəti
Yaxşılaşsın vəziyyəti
Aç qoynunu, al Binnəti
Qucağına, nolar, xanım?!

***29.7.1960***

## Arasında

Ya meh olam, ya da daraq,
Tellərİyin arasında.
Ya şeh olam, ya da yarpaq,
Gülləriyin arasında.
Kipriklərin tökdü qanım,
Oda saldın, yandım, xanım,
Öldür məni, çıxsın canım
Qollarıyın arasında.
Dərgahına düşüb yolum,
Binnətdən nə umursan um.
Züleyxa ol, Yusif olum
Qullayın arasında.

***29.07.1960***

## Keçər

Bir kəsim yox, deyəm, barı,
Ürəyimdən nələr keçər.
Eşqin zəhərli oxları,
Ciyərimi dələr, keçər.
Məni oda salan hanı?
İnsafını danan hanı?
Kədər köçü, qəm karvanı
Sinəmi yol bilər, keçər.

Dərd almışam fələyimdən,
Dərdə dəva alım kimdən?
Şan-şan olmuş ürəyimdən
Ahlar keçər, ünlər keçər.
Binnətəm, qəm məni yıxar,
Ahu-zarım ərşə çıxar.
Eşqimi başıma qaxar,
Gülünc mənə gülər, keçər.

## Məcnun eləyibdir

Canım yanır, bələyimi
Fələk odla bələyibdir.
Sinəmə dağlar basıbdır,
Başıma gor ələyibdir.
Oxlar vurub ürəyimə;
Zəhər qatıb xörəyimə,
Qançır olmuş kürəyimə
Od şələsi şələyibdir.
Binnət, yanıb qovrulmuşam;
Külə dönüb, sovrulmuşam,
Bir Leyliyə vurulmuşam,
Məni Məcnun eləyibdir.

## Sənə mehman olum

Müntəzirəm, seyrana çıx,
Gülüm, sənə çəmən olum.
Qoynuna nərgiz, bənövşə,
Yaxana yasəmən olum.

Gül olum, dər əllərinlə;
Sinənə sər əllərinlə.
Səhər-səhər tellərinlə
Məzələnən meh mən olum.

Qoşa ötən bülbül olaq;
Süsən olaq, sünbül olaq.
Gəl ikimiz bir gül olaq,
Ətir sən ol, şeh mən olum.
Binnətə çox verмə cəfa,
Deyək-gülək, sürək şəfa.
Qurtar nazı, gəl insafa,
Bir yol sənə mehman olum.

## Kimi

Afət, gün sənə heyrandır,
Şöləsi yox şölən kimi.
Ayın halı pərişandır,
Haləsi yox, halən kimi.
Rəhmə gəlib, versən izin;
Sürünsəm də dizin-dizin,
Qapınıza gəlləm sizin,
Zəlil pirə gələn kimi.
Ya insaf elə, dadıma çat,
Ya da yandır, külümə qat.
Ya qul elə, zindana at,
A Züleyxam, kölən kimi.
Sənsiz buludtək doluram;
Binnətəm, gültək soluram.
Sevinirəm şad oluram.
Sən üzümə gülən kimi.

***26.04.1962***

## Qabağında

Qultək əmrə müntəzirəm,
Gülüm, sənin qabağında.
Qəbul elə, ömürlük qul,
Olum sənin qabağında.

Öldür məni, suçum varsa;
Al canımı, borcum varsa.
Dibindən kəs, günahkarsa
Dilim, sənin qabağında.
Məftununam, aləm bilsin,
Aşiqinə rəhmin gəlsin!
Pis yazsam, kəsdir, kəsilsin
Əlim, sənin qabağında.
Sənsiz mənim yanmaz odum,
Axmaz suyum, bitməz otum.
Yuyun, daran, güzgü tutum,
Gəlim sənin qabağında.
Güldün xumar baxa-baxa,
Qaldım canı çıxa-çıxa.
Binnəti az çək sınağa,
Ölüm sənin qabağında.

***1.9.1976***

## Gəlmədi

Bulaq üstə yar gözlədim,
Leylim bulağa gəlmədi.
Fəryadımla dağı dəldim,
Şirinim dağa gəlmədi.
Məcnun kimi düzə düşdüm,
Kərəm kimi közə düşdüm.
Ovçu kimi izə düşdüm,
Ovum ovlağa gəlmədi.
Qəm köçünə sarvan oldum,
Yar eşqiylə yollar yordum.
Bağça saldım, bağban oldum,
Bir yol yar bağa gəlmədi.
Könül verdim, sevdim, seçdim,
Yolunda canımdan keçdim.

Dərdindən yaylağa köçdüm,
Zalım yaylağa gəlmədi.

Binnətəm, baxdı naz ilə,
Az qaldı canım üzülə.
Yola gəlməyən gözələ,
Oldum sadağa, gəlmədi.

***30.05.1961***

## Kimiyəm

Yenə də yuxusuz qalıb,
Mey içmiş sərxoş kimiyəm.
Fikir məni əldən saləb,
Girdaba düşmüş kimiyəm.

Maaşı verən az verib,
Arvad-uçaq üz döndərib.
Əl gətirmir, eldə qərib,
Evdə kürəkeş kimiyəm.

Şəhid oldu tayım-tuşum,
Qohumum, dostum, tanışım.
Dağılıbdır ağlım, huşum.
Evi dağılmış kimiyəm.

Mən Binnətəm çoxdur dərdim,
Eşitmədi kimə dedim.
Şuşa gedib, Laçın gedib,
Yurd-yuvasız quş kimiyəm.

***24 may 1992***

## Qadasın aldığım

Allah kəssin ayrılığı!
Ağırdır ayrılıq dağı.
Bica yerə aralığı
Qatma, qadasın aldığım.

Sil gözümün yaşlarını,
Atma təna daşlarını.

Qəzəblənib, qaşlarını
Çatma, qadasın aldığım.

Binnət dözməz ofa, aha,

Bəsdir küsdün, barış daha.
Məni yaxıb, çox günaha
Batma, qadasın aldığım.

***15.09.1979***

## Əlim yetişmədi

Təşnə idim qar istədim,
Əlim qara yetişmədi.
Gecə-gündüz zəhmət çəkdim,
Əlim vara yetişmədi.
Dağlarımı duman aldı,
Xəzan vurdu, gülüm soldu.
Fələk bizi ayrı saldı,
Əlim yara yetişmədi.
Binnətəm, yada yer verdim,
Sevinc əkdim, kədər dərdim.
Cəfa çəkdim, bağ becərdim.
Əlim bara yetişmədi.

***21.09.1971***

## Pul

İndi dövran dəyişib,
Şah olub zamana pul.
Dərd artıb, tapmır çoxu
Həkimə, loğmana pul.
Pulun yoxdur, dilən sən,
Göz yaşına bələn sən.
Ölərsən xəstələnsən,
Tapmasan dərmana pul.
Pulsuz qəddim əyildi,
Dərdimi aləm bildi.

Verəmmirəm üç ildi,
Qaz pulu yığana, pul.
Haramıdan doğubdur;
Suyumuzu soğubdur,

Çoxlarını boğubdur,
Salıb burulğana pul.
Əl qolunu bağladar;
Sinəsini dağladar,
Binnətə qan ağladar,
Gətirər fəğana pul.

***12.03.1991***

## Səni

Seyrana çıx, salamlasın,
Gülüm, gülşən, çəmən səni,
Alsın ətirli qoynuna
Çiçəklər, yasəmən səni.
Sevək Leyli, Məcnun sayaq,
Gəl and içək, ilqar qoyaq.
Heç bir zaman unutmayaq
Nə sən məni, nə mən səni.
Eşqin ilə oxuyuram,
Sənə çələng toxuyuram.
Öpə-öpə qoxuyuram,
A gülabla çimən, səni.
Binnətlə gül, əylən görüm,
Gül-çiçəyə bələn görüm.
Hər vaxt gülər, gülən görüm
Xoş danışıb, gülən səni.

***1.09.1976***

## Kimi

Baxışın can alır, dilbər,
Hökm eləyir ağa kimi.
Fərağından qovruluram,
Tavada qovurğa kimi.

Hicrinlə az yandır məni,
Tək qoyma, amandır məni!
Başına dolandır məni,
Canına sadağa kimi.
Camalın cahanı bəzər,
Tərifin dillərdə gəzər.
Görməmişəm sənə bənzər
Heç yanda bu çağa kimi.
Mən Binnətəm, keçmə gendən,
Könlüm, gözüm doymur səndən.
Görməyəndə həsrətindən
Əyilirəm koğa kimi.

## Yaxşıdır

Tutun, gilasın dəymişi,
Alçanın kalı yaxşıdır.
Kimə üzüm, kimə armud,
Kimə albalı yaxşıdır.
Kimə Kürdəmir şərabı;
Kimə Nardaran qutabı,
Kimə aranın doşabı,
Kimə dağ balı yaxşıdır.
Müştağam gəzib, görməyə,
Şeirə zinət verməyə.
Gözələ qiymət verməyə
Aşıqın çalı yaxşıdır.

Binnət yaman danışandan;
Hərzə-hədyan danışandan,
Qeybət, böhtan danışandan,
Adamın lalı yaxşıdır.

***19.12.1963***

## Nankor qohum, dost olmaya

Nankor qohum, dost olmaya,
Nə küsə, nə qınayasan.
Sənə heç vaxt rast olmaya,
Nə görə, nə yanıyasan
    Rəhmət yaxşı söz yazana.
    Lənət çoxu az yazana.
    Nə gen gündə dost qazana,
    Nə dar gündə sınayasan.
Binnət, axtar öz tayını,
Xeyirxahla böl payını.
Dostum, qohumun zayını
Görən kimi tanıyasan!

***19.02.1962***

## İstəyirəm görəm hər an

İstəyirəm görəm hər an,
A yanağı lalə, səni.
Könlüm istər, gözüm gəzər
A gözləri ala, səni.
    Sənsiz dinclik mənə haram,
    Nə dincələr, nə yataram.
    Yatırdaram, oyadaram
    Layla çala-çala səni.
Oxşayıb əzizləyərəm,
Bir an sənsiz dözməyirəm.
Gec gələndə gözləyirəm
Çöldə qala-qala səni.

    Binnətəm, yox dözümüm də.
    Səni gəzir gözüm müdəm.
    Unutmuşam özümü də,
    Yada sala-sala səni.

***7.09.1975***

## Sənsiz

Ay qadası, həsrətindən

İlə dönür günüm, sənsiz,
Fərağından, firqətindən,
Ərşə çıxır ünüm, sənsiz.
Gözlərim yoluna baxır
Hicranın qəlbimi sıxır.
Qəm məni yandırıb yaxır
A başına dönüm, sənsiz.
Harda qaldın, gülüm harda,
Qoydun məni intizarda?
Sən gedəli qalıb darda,
Binnət çəkir zülm sənsiz.

***14.10.1976***

## Dünya

*(daxili qafiyə)*

Kiminə kefdir, bayramdır, toydur, toyxanadır dünya,
Kiminə qəmdir, matəmdir, yasdır, yasxanadır dünya.
Kimə qışdır, kimə yazdır, kimə çoxdur, kimə azdır,
Anlamaza anlamazdır, qanana mənadır dünya.
Açılmayan çox sirri var, qiyaməti - məhşəri var,
Möcüzəli işləri var, sehrkarxanadır dünya.
Nifrət duymaz, sevgi duymaz, yaxşıya, pisə fərq qoymaz,
Can almaqdan gözü doymaz, bir məzarxanadır dünya.
Yarı verib yamanlara, varı verib nadanlara,
Kasıblara, qananlara qəmdir, qəmxanadır dünya.
Binnət, sevinmə udsan da, kədərlənmə uduzsan da,
Udan da var, uduzan da, bir qumarxanadır dünya.

***12.01.2002***

# QOŞMALAR

## Sənin şad gününə

Sənin şad gününə, toy-düyününə,
Yol uzaq olsa da, gələ biləydim.
Məclisə gec gəlsəm, sənin şəninə,
Bir şeir deməklə cərmələnəydim.

Sənə layiq olan bəxşiş olaydım,
Xoşuna gələydi, məmnun olaydın.
Sən məni andıqca, çiçək olaydım,
Başına ləçəktək səpələnəydim.
Sevincə keçməyir ömrün hər anı,
Bəzən də qaralır insanın qanı,
Qəmlənsən qəlbindən ahı-amanı,
Üzündən kədəri silə biləydim.
Yar-yarı axtarır, həmdəm-həmdəmi,
Möhnətdir Binnətin sənsiz hər dəmi.
Yanımda olasan, unudam qəmi,
Səninlə şənlənib, deyib-güləydim!

***21.09.1991***

## Bəsdi

Yazmayır yazmasın məni unudan.
Hərdən mən yazanı alsa da bəsdi.
Vüsal  anlarını xatirə kimi
Arabir yadına salsa da bəsdi.
İlqarını danmaz eşqi böyükdür.
Eşq oduna yanmaz eşqi sönüklər.
Məni duymaz, qanmaz eşqi dönüklər
Tək sevdiyim məni qansa da bəsdi.
Yetər! Qınamasın məni nadanlar,
Əhdini dananlar , söz unudanlar.
Əminəm öndədir hələ şad anlar
Bir ümid çırağı yansa da bəsdi.

Bir vüsal qəmidir ürəyimdəki,
Qəlbim də böyükdür istəyim təki.
Yar mənə gərəkdir ürəyim təki,
Yar məni dilucu ansa da bəsdi.
Demişdik: “Ayırar bizi tək ölüm”
Yad deyənə baxdı, yar etdi zülm,
Daşdan-daşa dəyib bu şüşə könlüm

Vəfalı yolunda sınsa da bəsdi.

## Döndü

Sənsiz  günüm keçdi  həftələr kimi,
Aylar fəsillərə, illərə döndü.
Hər an vüsalıyın həsrət anları,
Gözümə tuşlanan millərə döndü.
De nə qədər sənsiz gəzim dolaşım,
Qəm həmdəmim olsun, möhnət yoldaşım?
Sənin həsrətindən axan göz yaşım
Məni boğmaq üçün sellərə döndü.
Çəkdim hər qəmini ilk məhəbbətin,
Ayrılıq, sənsizlik oldu qismətim.
Mənim ar namusum, sənin ismətin ...
Vaxtsız xəzan görmüş güllərə döndü.
Yazdım: “Olarsanmı anama gəlin?!”
O saat, –  “Hə” yazdı, önündə əlin
Əvvəlcə sevirəm söyləyən dilin
Sonra söz tutmayan dillərə döndü.

***16.10.1979***

## Ola

Məclisə gələnlər əhli-hal ola,
Firdovsi ecazkar sazınnan ola!
Nadanlar, naqqalar susa lal ola,
Aşıq söhbətinnən, sözünnən ola.

Başı qalda ola qovğa gəzənin,
Yava danışanın, yava gəzənin.
Ara qarışdırıb, dava gəzənin
Davası-dalaşı özünnən ola.
Binnət, sözün dönə zəbi-məsələ,
Hər həcvin bədxahın gözünü dələ.
El üçün ağlayan gözə nur  gələ,
Elə xor baxanı gözündən ola!

***01.03.1962***

## Nə var?

Elin istəyi çox imkanı azdır
Dərdi Savalandır, yaşı Arazdır.
Həsrətli qaldığım Xoydur, Salmasdır
Vüsal olsa, ləzzət almağa nə var?
Orda gözəllərin yanağı aldı,
Dili qənd parçası, dodağı baldı.
Burda bir şux məni sevdaya saldı,
Cavanı sevdaya salmağa nə var?
Orda da burda da birdi xoş dilək –
Müstəqil el olaq, sevinək-gülək.
Çataq xoş arzuya, xoş ömür sürək,
Azad eldə xoşbəxt olmağa nə var?
Orda bülbülləri mat edir dillər,
Burda gül üzlərdən rəng alır güllər,
Orda da burda da coşsa könüllər,
Hərdən oxumağa-çalmağa nə var?
Millət xoşbəxt olsa, el abad olsa,
Xalqımıza kədər, qüssə yad olsa
Binnət, Vətən bütöv, azad, şad olsa,
Gah Qaxda, gah Qumda qalmağa nə var?

***01.06.1964***

## Allah olsaydım

Mən Allah olsaydım, nur ələyərdim.
Gündüzü işıqlı gündüz edərdim.
Saray bağışlardım  mərdə, namərdin
Yurdunu dağıdıb, dümdüz edərdim.
İşığa zülmətdən çəkməzdim pərdə,
Möhtac eləməzdim mərdi namərdə.
Əyrini mübtəla edərdim dərdə,
Düzün hər işini mən düz edərdim.

Nə Kərəm ağlardı, nə də məhəbbət,
Keşişə verərdim əzab-əziyyət.
Nə min dil verərdim, nə də min sifət,
Riyakarı dilsiz, üzsüz edərdim.
Xəbisin əlindən alardım varı,
Xəbisin çıxardı ərşə ah-zarı.
Paxılı, bədxahı, mərdimazarı,
Xar, zəlil edərdim, gücsüz edərdim.
Əlini kəsərdim talançıların
Yolunu kəsərdim ulamçıların.
Şayiyə, böhtan yayan yalançıların,
Nitqini alardım, sözsüz edərdim.
Rüşvətə tulatək tez cumanları,
Məzlumun malından pay umanları,
Haqqa-ədalətə göz yumanları,
İnsafı unudub, gözsüz edərdim.
Yamanı edərdim yaxşıya möhtac,
Ağıllı başlara qoyardım zər tac.
Kim-kimin haqqını kəsib, qoysa ac,
Yavan çörəyini duzsuz edərdim.
Ziya bağışlardım gözünə korun,
Zalımı atardım qoynuna qorun.
Paxılın, xainin, bicin, nankorun
Evini çörəksiz susuz edərdim.

Həddini aşmazdı yerallahları,
Zəlil eləyərdim quduz şahları.
Sülhsevər, haqsevər xeyirxahları
Hər kənddə, şəhərdə yüz-yüz edərdim.
Dil bir, əlifba bir, el bir olardı,
Hamı həmrəy olub, dilbir olardı,
Dar gündə birləşib əlbir olardı
İnsanı naləsiz, ünsüz edərdim.
Dağıt, qır, vur, öldür, kəs deyənləri –
Bəşəriyyətə kin bəsləyənləri,

Ulduz müharibəsi istəyənləri,
Mən ulduzsuz, aysız, günsüz edərdim.
Binnətəm, atardım hər şəri oda,
Düşərdi nanəcib, nəşəri oda.
Kim istəsə sala bəşəri oda,
Evini ocaqsız, odsuz edərdim.

***12.05.1965***

## Mənim

Gülüm, gül üzünü qəmli görəndə,
Kədər məskən salır üzümdə mənim.
Ala gözlərini nəmli görəndə,
Dünya heçə dönür gözümdə mənim.
Qəm çəksən, qəlbimi çəkərsən dara,
Ah çəksən, yas tutub, geyərəm qara.
Sənsiz cığırlara, sənsiz yollara
Düşməsin kölgəm də, izim də mənim.
Binnətin olmasın, bir anı sənsiz
Həmişə can deyək, can eşidək biz,
Xətrinə dəyəndə, a xətri əziz,
Xəcalət çəkirəm özüm də mənim.

***23.08.1980***

## Aparmayır

Zərxara, zərnişan, ipək geyənin,
Çoxu heç bir arşın bez aparmayır.
Şairlər, müdriklər əli boş gedir,
Heç biri bir kəlmə söz aparmayır.
Dünyada qalacaq dünyanın varı,
Bağçaların barı, dağların qarı,
Nə deyingənliyini deyingən qarı,
Nə də ki, nazını qız aparmayır.
Binnət qulaq as, a qafil, ayıl,
Xərclə yığdığını, a ağlı zayıl,

Arvadın, uşağın deyir: "Əzrayıl
Niyə bu xəsisi tez aparmayır?"

***18.06.1963***

## Salamat qalın

Gəlin vidalaşaq, salamatlaşaq,
A vüqarlı dağlar, salamat qalın.
Çiçəkli güneylər, qarlı quzeylər,
Nəğməli bulaqlar, salamat qalın.
Uşaqlıq oylağım, a Yelli gədik,
Beşikkeçməz, bəlkə heç vaxt gəlmədik.
Bəlkə bir-birimizi bir də görmədik.
Səfalı yaylaqlar, salamat qalın.
Binnət unutmadı əhdi, ilqarı,
Sizə qonaq gəldi yanında yarı.
Kaş bir də görüşək sizinlə barı,
A doğma oylaqlar, salamat qalın.

***Ermənistan Çaykənd,***
***16 iyul 1978***

## Şəmsi-Qəmərim

Niyə pərişansan, şəmsi-qəmərim –
Hurilər hüsnünə küsənin pərim,
A cahi-calalım, gövhərim, zərim.
Gül, sevin, hüsnündən cahan nur alsın.
Zülfünə sığal çək, tellər sevinsin,
Hüsnünə bəzək ver, əllər sevinsin,
Gülsənə seyrə çıx, güllər sevinsin,
Öpüb qədəmimi, bəxtiyar olsun.
Səni salamlasın zümrüd meşələr,
Süsənli, sünbüllü  gülşad guşələr.
Qoyma yasəmənlər, tər bənövşələr,

Səni görməyəndə saçını yolsun.
Binnətin dilindən gör çıxdı nələr,
Hicranın güllərin bağrını dələr.
Gülzara seyrə çıx, güllər, lalələr
Qoyma həsrətindən saralıb, solsun.

***5 may 1978***

## Beş ildi

Yaslı dağlarımın üstə gün düşmür,
Yel dağıtmır buludları beş ildi.
Güneyimdə çiyələklər yetişmir,
Quzeymin açılmır tarı beş ildi.
Bulaqlar hüznlə axmağındadır.
Yaylaqlar kədərlə baxmağındadır.
Dərd məni yandırıb-yaxmağındadır.
Dözəmmirəm dağdan ayrı beş ildi.
Dərdli dərələrdə çən məskən salıb,
Çiçəklər soluxub, güllər saralıb.
Marallar, ceyranlar mükəddər qalıb,
Həsrət baxır düzə sarı beş ildi.

Hərə öz kefində, çal-çağırında,
Qılınclar korşalıb, pas atmağında.
Dərə çəhlimində, dağ cığırında.
Ərimin həsrətin qarı beş ildi.
Yol bağlanıb, gediş-gəliş kəsilib,
Ülfət azalıbdı, görüş əksilib.
Binnətəm, fəğanım ərşə yüksəlib,
Dilim seçib ahu-zarı beş ildi.

***15.06.1992***

## Layiq

Dastanlar, şeirlər çox yazılıbdı,
Çox azdı Vətənə, torpağa layiq.
Çox mahnı qoşulub gülə-çiçəyə,

Deyil bircə ota, yarpağa layiq.
Yurduma qara yel quzeydən əsir,
Güclü haqlı olur, gücsüz müqəssir.
Yoldaş-yoldaşının haqqını kəsir,
Bir cəza verilmir alçağa layiq.
Haqq danan dələduz, bədxah çoxalıb,
Nadürüst, naisaf, bədhaqq çoxalıb
Tərif yarışında məddah çoxalıb,
Həcv yoxdu məddaha, yaltağa layiq.
Binnət, düz yazana qınaq çoxalıb,
Fağırın malına ortaq çoxalıb.
Dükanda, layiqli papaq çoxalıb,
Fərli baş tapılmır papağa layiq.

***06.14.1963***

## Şəhərin nəyinə uyduq?

Kəndin bəyənmədik toz-torpağını,
"Çox ağgünə çıxdıq", gəldik şəhərə.
Tərk eləyib kəndin bağça-bağını,
Sığındıq hay-küylü dar küçələrə.

Daha köç etmirik yayda yaylağa,
Əlimiz çatmayır arana, dağa,
Tamarzıyıq təzə yağa, qaymağa,
Ayrana həsrətik, çalxanmır nəhrə.
Qohum axtarılıb, dost aranmayır,
Qohum-qohumunu ilnən anmayır.
Dəmir daraqlarda yun daranmayır,
Əyilib iyimiz, əyirmir cəhrə.
Bilmirəm şəhərin nəynə uymuşuq,
Binnətəm, səs küydən cana doymuşuq.
Evə üç qıfıllı qapı qoymuşuq,
Salmışıq özmüzü daş qəfəslərə.

***17.09.1974***

## Amandır

Üzmə ürəyimi işvə-naz ilə,
Çəkmə məni imtahana, amandır.
Gülüm, bir də düşməz bu fürsət ələ,
Çevirmə üzünü yana, amandır.
Aşiqini  həsrət qoyma özünə
Baxsın gül üzünə, ala gözünə.
Pərişan zülfünü tökmə üzünə
Dara tellərini yana, amandır.
Binnətəm, səhvimi yayma aləmə,
Halıma gülməsin səmədən səmə.
Dərdə-qəmə salıb, Kərəm eləmə
Qoyma məni yana-yana, amandı..

## Bu dağların qoynunda

Ömür vəfa edə hələ qırx il də
Dövran sürəm bu dağların qoynunda.
Elimlə, obamla, istəklilərlə
Ağ gün görəm bu dağların qoynunda.

Cuşa gələm gül-çiçəyə batanda,
Qəm-qüssəm bir daş edəm sapanda.
Sevinc tapam, şadlıq tapam tapanda,
Dərd itirəm bu dağların qoynunda.
Çəkinməyəm tutqun çəndən, çisəkdən,
Qaralan buluddan, çaxan şimşəkdən.
Binnətəm, yarıma güldən, çiçəkdən
Çələng hörəm bu dağların qoynunda.

***19.08.1987***

## Gələr

A həsrət oduna yanıb-alışan,
Kədəri, möhnəti həddini aşan,
Dövrandan inciyib olma pərişan,
Sənə də xoş gələn zamana gələr.
Əzizlə qəlbində eşqi, həvəsi,

Çağlasın könlündə sevgi nəğməsi.
Səndən şəfa uman illər xəstəsi,
Hər gün dərgahına dərmana gələr.
Aç qəlbini, bilsin dərdini yazan,
Mərhəmət göstərib, bir savab qazan.
Haqdan üz döndərib, yolunu azan,
Qucağında dinə, imana gələr.
Küsmə taleyindən, a boyu bəstə,
Çoxu müntəzirdir, yolunun üstə.
Dərdin Binnəti də eləyib xəstə,
Nə ölüb qurtarar, nə cana gələr.

***11.07.1962***

## Tez gəl

Demədimmi kənddə çox qalma? Tez gəl,
Həsrətindən saralaram-solaram.
Demədim ki, kənddə aylarla dincəl,
Sənsiz burda necə rahat olaram?!

Çıxıb getdin yalnız qoydun kişiyi,
Gəl, bəzənsin qızımızın beşiyi.
Demirsənmi sənsiz evi-eşiyi
Yandıraram, dağıdaram, talaram.
Aşıq kimi oymaq-oymaq gəzənim,
Məni hicran pəncəsində əzənim.
Gəl sevinim, bayram edim, bəzənim,
Sənsiz bu həyatdan nə zövq alaram?
Sənsiz ruhsuz bir sümüyəm, bir dəri,
Könlüm sənə vurulmamış ötəri.
Min zövq ilə becərdiyin gülləri,
Sən gec gəlsən, göz yaşımla sularam.
Gəl, evimin nuru, çırağı, şamı,
Binnətin həyatı, sevinci, kamı.
Bil ki, bir an görməyəndə Vəfanı,
Bulud kimi boşalaram, dolaram.

***03.05.1979***

## Səadətidir

İnsanın-insana eşqi, sevgisi
Bir-birinə olan məhəbbətidir.
Aşiqin-aşiqə könül verməsi
Bir qəlbin bir qəlbə əmanətidir.
Sevgini ölçməzlər ad-sanla, yaşla,
Sevənlər sevərlər bircə baxışla,
Bir-birni duyarlar himlə, göz-qaşla,
Hər baxış bir mətləb əlamətidir.
Məftun olanların cəfası çoxdur,
Nakam aşiqlərin səfası yoxdur.
Eşqin xəstəsinin şəfası yoxdur,
Bu da loğmanların qəbahətidir.
Məhəbbət satılmaz, alınmaz zərlə,
Nə də tapmaq olmaz onu hünərlə,

Olmaz hər yetəndə, düşməz hər ələ.
Tanrının ən şirin bir nemətidir.
Sevgi müqəddəsdir, məbədgah deyil,
Onun qarşısında səcdə qıl, əyil.
Sevən sevdiyinə çatsa, elə bil,
Nəbinin Allahı ziyarətidir.
Aşiqin sevgidir ləli, almazı,
Dərddir yarın-yara həsrət qalması.
Aşiqin-aşiqə fəda olması,
Onun mərdliyidir, səxavətidir.
Binnət məhəbbətin ülvüdür sənin,
Üzü gülsün səni aşiq edənin.
Sevib qovuşması iki sevənin
Əsil xoşbəxtliyi, səadətidir.

***14.02.2011***

## Var

Bəzi sözbazların ilan dilində

Qara böhtan da var, ağ yalan da var.
Çaşmışıq rənglərin qarışığında,
Qara alan da var, ağ alan da var.
Əyrilər getməyir doğru yol ilə,
Qozbel qəbirdə də çətin düzələ.
Haram qazanc ilə, çirkli pul ilə
Saray alan da var, bağ alan da var.
Kədər məni biçir orağı ilə,
Qəm tökür qanımı yarağı ilə.
Bəzən bir həkimin bıçağı ilə
Yara alan da var, sağalan da var.
Dövran çoxlarını yandırdı-yaxdı,
Ay Binnət, qınama həyatı, vaxtı.
Bil, saçı-saqqalı, taleyi-baxtı
Qara olan da var, ağ olan da var.

***12.07.1981***

## Yoxdur

İndi Kürqırağı başqa təhərdir,
Tayı-bərabəri cahanda yoxdur.
Hər yanı abad kənd, abad şəhərdir,
Belə gözəl məkan heç yanda yoxdur.
Kür də xeyir verir bizim dövrdə,
Kəsilmiş qabağı Mingəçevirdə.
Vaqif, gəzməyə çıx, indi bu yerdə
Bəzəksiz, libassız canan da yoxdur.
İndi zəhməti ilə ucalır Pəri,
Qan ağlamır dövrün Vidadiləri.
Sən görən bədxahlar köçəndən bəri,
Haqqı, ədaləti danan da yoxdur.
Məftunam yurdumun gözəl hüsnünə,
Dollannam başına mən dönə-dönə.
Nə ola, daha da çıxaq xoş günə,
Deyək: - Bundan gözəl zaman da yoxdur.
Binnətəm, vurğunam bu diyara bax.

Toy libası geyə Qazax, Qarabağ!
Görəm ki, xoşhaldır Təbriz, Qaradağ,
Özünü dərd əhli sanan da yoxdur.

***21.05.1963***

## Yoxdur

Şəhid məzarları sıralanıbdır,
Zor ilə el-eldən aralanıbdır.
Dərddən ürəyimiz paralanıbdır,
Şəfa verən yoxdur, sarıyan yoxdur.
Bakı özü boyda bazardır, bazar,
Ehtiyac artdıqca çoxalır azar.
Çörəyə pul tapmır, mühəndis, yazar.
Təhsildən, sənətdən yarıyan yoxdur.
Kənddə nə odun var, nə qaz, nə kömür,
Başçılar Bakıdan uzağı görmür.

Əlliyə çatmamış tükənir ömür,
Qocalıb, qartalıb, qarıyan yoxdur.
Çadırda körpələr xəstə doğulur,
Ac ananın südü vaxtsız soğulur.
Çoxları özünü asır-boğulur,
Xalqı intihardan qoruyan yoxdur.
Məmur pul sanayır, əl çalır hər gün,
Müəllim təhqir olur, alçalır hər gün.
Yeni şadlıq evi açılır hər gün,
Bir yetim saçını darıyan yoxdur.
Əl işdən soyuyub, iş işdən keçib,
Binnət el dərdini yazmağı seçib.
Göyçə yada qalıb, Kəlbəcər köçüb,
Şuşanı axtarıb, arayan yoxdur.

***16.09.1992***

## Pozma ilqarını

Deyirsən: - "qardaşıq", - yalansa daş ol.
Qardaş da qardaşa zülm eyləyərmi?!

Pozma ilqarını, əsl qardaş ol.
Qardaş da qardaşı zəhərləyərmi?!
Zərbə mənə dəydi döyüləndə sən,
Günahsız da mənəm, söyülən də mən.
Düşmənə "vur", - dedin döyülən də mən,
Qardaş da qardaşa ölüm dilərmi?!
İllərlə qanımı sordun, qudurdun,
Binnəti qul kimi işlədib yordun.
Üzümə irişib, arxadan vurdun.
Qardaş da qardaşı güllələyərmi?!

***"İmpuls" qəzeti, 29.02.1990***

## Xəbərin yoxdur

Dilbər, fərağının oduna düşüb,
Yanıb tökülmüşəm, xəbərin yoxdur.
Sənsiz nə bircə yol könlüm şad olub,
Nə bir yol gülmüşəm, xəbərin yoxdur.
Dalınca düşəli dərbədər kimi,
Düşmüşəm oduna Səməndər kimi,
Elə əyibsən ki, əlif qəddimi,
Nuntək əyilmişəm, xəbərim yoxdur.
O sənli günlərim əlimdən gedib;
Həsrətin işimi ahu-zar edib, –
Ömür sarayımı tarımar edib.
Uçub tökülmüşəm, xəbərin yoxdur.
Səni axtarmaqdan dizim yorulmaz,
Yoluna baxmaqdan gözüm yorulmaz,
Sənə Binnət kimi heç kim vurulmaz
Ölüb üzülmüşəm, xəbərin yoxdur.

## İstəklərim

Yaya radio, efir istəklərimi,

Bilə bəşəriyyət diləklərimi!
Yerdə ayaq açıb gəzdiyim kimi
Nə ola Göydə də uça biləydim!
Sülh ola, olmaya dava dünyada,
Hər kəs öz elində yetə murada!
Səhrada su olam, dənizdə ada
Qaranlıqda işıq saça biləydim.
Qəm-kədər çəkilə elin üzündən,
Ehtiyac dünyadan köçə bu gündən!
Keçmişəm, Volqanın, Kürün üstündən,
Arazın da üstdən keçə biləydim.!

Xalqlar bir-birinə ola dost, qardaş,
Hər eldən özümə tapam dost, sirdaş.
Sülhün ən müqəddəs badəsini kaş
Bütün millətlərlə içə biləydim!
Gəzəm yer üzünü bir xeyirhaqtək,
Aca çörək verəm, gücsüzə kömək.
Gözümdə qalmaya bu ülvi istək:
Bağlı qapıları, bağlı yolları,
Görməyən gözləri, bağlı qolları,
Lal olan dilləri aça bilərdim!

***22.03.1966***

## Olaydım

Dünyada olmaya nə ah, nə aman.
Nə əsir, nə məhbus, nə qul, nə zindan.
Bir gün də ehtiyac çəkməyə insan,
Evsizlərin evi, yurdu olaydım.
Mənim ilk arzumdur, dostlar, hər zaman,
Nə güllə atıla, nə tökülə qan.
Silahlar pas ata, çıxmaya qından,
Sülhü təmin edən ordu olaydım.
Binnətəm, yetişəm bu həvəsimə,

Hər yandan səs verə ellər səsimə.
Səadət gətirəm yer kürəsinə,
Arzular, ümidlər odu olaydım.

***12.06.1964***

## Hesabına

Kimi ağ gün görür, kimi qara gün
Bəzən bircə kəlmə söz hesabına.
Döşünə döyməsin nadana deyin,
Əyri də dolanır düz hesabına.
Kimi qazanc üçün suya tor atır,
Kimi muzdur olur, qan-tərə batır.

Kimi hünəriylə mənsəbə çatır,
Kimi bir bordanmış qaz hesabına.
Əyri yola çatan mənsəbə, ada
Bir gün geci-tezi gedəcək bada.
Binnətəm, alçalmaz, enməz dünyada
Hər kim ki, ucalır öz hesabına.

***9.06.1958***

## Ola

Qışda Bakıda olam, yazda Tovuzda,
Yayda seyrangahım Qarabağ ola.
Qubada, Xaçmazda gəzəm payızda,
Canım sağlam ola, kefim çağ ola.
Olam vətənimin hər qarışında,
Gah piyada, gah da atla, maşınla.
Məclis quram bulaqların başında,
Atım yüyrək ola, maşın cağ ola.
Bu dünyada xeyir şərlə əkizdir;
Sevinc qəmlə, kəsək zərlə əkizdir,
Qohum-qonşu, ana, bacı əzizdir,
Qardaş arxa ola, ata sağ ola.
Binnətəm, elimlə çatam murada,
Kömək edə biləm qohuma yada.

Elə xeyir verəm, eldə-obada
Başım uca ola, üzüm ağ ola.

***26.07.1989***

## Burda... nə var

*(Anaforalı şeir)*

Burda - azad eldə xalqım azaddır,
Burda şair, rəssam olmağa nə var.
Burda saf su, hava, abi-həyatdır,
Burda görüb, ilham almağa nə var.
Burda gözəllərin yanağı aldı,
Burda dilbərlərin dodağı baldı.

Burda hər nazənin şux mahcamaldı,
Bir afətə meyl salmağa nə var.
Burda gül üzlərdən rəng alır güllər,
Burda bülbülləri mat qoyur dillər,
Burda bir-birindən xoş keçir illər,
Burda “Qal”, - desələr, qalmağa nə var.
Burda hər fəsildə açır gül-çiçək;
Burda könüllərə sığmayır istək,
Burda fərəhindən dil açır ürək,
Burda xəyallara dalmağa nə var.
Burda bağlar geniş, bağçalar geniş;
Burda güllər açır bahar gəlməmiş,
Burda hər tərəfdə uğur, yüksəliş.
Binnət, burda yaşa dolmağa nə var.

***29 iyun 2014***

## Bilirəm

Əgər məktub çatsa mehribanıma, –
Həsrətinə dözmədiyim xanıma,
Tərlan kimi pərvazlanar yanıma,
İlqarını, vəfasını bilirəm.
Odur ruhum, odur eşqim, həyatım;
Odur şeirim, odur mahnım, bayatım,
Odur varım, mülküm, bağım-bağatım,

Odur ömrüm səfasını bilirəm.
Odur mənim ümid yerim, pənahım,
Onsuz ərşə çıxar fəğanım, ahım.
Bəlkə də yanında olub günahım,
Bağışlayıb cəfasını bilirəm.
Binnətəm, tez gələ mənə yananım,
Onsuz heç bir şeyə gəlmir gümanım,
Şahbazdır, Vəfadır, dostlar, dərmanım.
Öz dərdimin şəfasını bilirəm.

***1.05.1979***

## Deyə-deyə

Sənə tamaşadan doya bilmədim
Qəlbimdən keçəni göz deyə-deyə.
Heyif ki, sən məni duya bilmədin
Bir az məndən kənar gəz, deyə-deyə.
Dedim: - Bir az dayan, dedin: - yox vaxtım
Getdin, arxan ilə həsrətlə baxdım.
A mənim həyatım, taleyim-baxtım,
Məni dara çəkmə, "döz", deyə-deyə.
Kərəmtək yanıram, yetmirsən haya,
Binnətə dağ çəkib, çatmırsan hoya.
Qorxuram Məcnuntək düşəm səhraya
Şəninə gündə yüz söz deyə-deyə.

***6.06.1958***

## Mən yoxam yanında

Yanındadır qızın, bacın, qardaşın,
Qohumların, tanışların, anan da.
A ömür yoldaşım, könül sirdaşım,
Hər kəsin var, bir mən yoxam yanında.
Gülüm, hərdən düşürəmmi yadına?
Barı, orda çatan varmı dadına?
Alovuna, ocağına, oduna
Yoxsa mənəm alışan da, yanan da.
Ayrılığın məni yüz yol sınadı,

Sənsiz sındı ilhamımın qanadı.
Səni andım, mənə güldü, qınadı
Məhəbbəti qanmayan da qanan da.
Sənsiz keçən ömür mənə yad gəlir,
Sinəm üstə od üstünə od gəlir.
Mən Binnətəm, damağıma dad gəlir
Öz Vəfamı, Şahbazımı ananda.

***26.07.1980***

## Bir çiçək olam

Çəməndə ətirli bir çiçək olam,
Gözəllər görələr, dərələr məni.
Bəh-bəhlə qoxuyub, öpüb, oxşayıb,
İsti ağ sinəyə sərələr məni.
Görüb ağ əndamı mat qalam, çaşam;
Sinədən baş alam, yaxadan aşam,
Yanağa toxunam, telə dolaşam,
Ətirli zülflərə hörələr məni.
Qoşa hörüklərlə gərdənə enəm,
Boyuna dolanam, buxağa dönəm.
Yaxa açılanda sinəyə sinəm,
Nə duyalar, nə də görələr məni.
Gah qucaq saxlaya, gah dodaq məni,
Arada belə qoy, ay Allah, məni!
Binnətəm, gözəllər hər sabah məni
Girovla bir-birinə verələr məni.

***23.05.1963***

## Nədir?

Zalım, aşiqinə zülmünü azalt,
Saymırsan bəndəni, Allahı nədir?
Yarığa dünyanı dar eləyibsən,
Bilməyir axşamı, sabahı nədir.
Bir yol halına yan halı fənanın,
Bir yol üzü gülsün səni ananın.

Oduna pərvanə olub yananın,
Demirsən çarəsi, pənahı nədir.
Elə ki, bəzənib, güntək çıxırsan,
Binnəti yandırıb, oda yaxırsan.
Nə üzünə, nə sözünə baxırsan,
Barı, de yazığın günahı nədir.

## A xumargözlü

Qoy səndən marallar baxmaq öyrənsin,
Nə yaman baxırsan, a xumargözlü.
Əslilər yandırıb-yaxmaq öyrənsin,
Baxanı yaxırsan, a xumargözlü.
Rəssamlar rəsmini çəkə bilməzlər;
Kəkliklər sənintək sənə bilməzlər,
Məcnunlar nazını çəkə bilməzlər,
Çəkərəm çağırsan, a xumargözlü.
Alırsan canımı oğrun baxanda,
Demirsən suçumu, oda yaxanda,
Hər dəfə bəzənib, evdən çıxanda,
Gün kimi çıxırsan, a xumargözlü.
Bir gün səni ahım tutacaq, vallah,
Aşiqə zülm etmək günahdır günah.
Kasıb olduğumu niyə, sən Allah?
Başıma qaxırsan, a xumargözlü.
Eşitsə səsini susar bülbüllər,
Görsə camalın utanar güllər,
Binnətə baxmasan, ax çəkər, inlər,
Evini yıxarsan, a xumargözlü.

***15.06.1958***

## Toyda

Məclisdə mey içən həddini bilə,
İçib, lovğalanıb , qürrələnməyə.

"Dur oyna", - deyəndə yıxılıb, durub,
Səkkiz yaza-yaza sərələnməyə.
Saqi qədəhlərə şirin mey süzə,
Müğənni nağməni nağməyə düzə.
Gözəllər məclisdə kəkliktək süzə,
Üzündən xəcalət təri ələnməyə.

Binnət, bəy otura şahtək vüqarlı,
Gəlin üzündə - nur, ismətli, arlı.
Toyda seçilməyə kasıbla, varlı,
Məclis bölünməyə, tirələnməyə!

***23.03.1962***

## Kimi

Gözümün işığı, evimin şamı,
Dolannam başına pərvanə kimi.
Kölgəntək dalınca sürünnəm, yollar
Yorub, məni əldən salana kimi.
Amandır, yanımdan uzağa getmə;
Dözmərəm hicrana-fərağa, getmə,
Verərəm canımı sadağa, getmə.
Əsrinəm qurbanın olana kimi.
Sənsiz qəmxanadır mənə bu aləm,
Bir gün həsrətinə dözmərəm, ölləm.
Binnətəm, mən səndən dönən deyiləm,
Canımda son nəfəs qalana kimi.

***21.03.1977***

## Sığmaz

Sənsiz bir saatda çəkdiyim dərdi
Qələm yaza bilməz, dəftərə sığmaz.
Bircə gün yanımda olmasan əgər,
Fəğanım göylərə, yerlərə sığmaz.
Yalvarıram sənə, a minagərdən,
Sən Allah, tez qayıt getdiyin yerdən.
Məni Məcnun kimi etmə sərgərdan,

Sənə aşiq olan çöllərə sığmaz.
Gedəndə canımı dərd, azar alar,
Gələnədək gözüm yollarda qalar.
Həsrətin Binnəti çöllərə salar,
Bakı böyüklükdə şəhərə sığmaz.

***22.07.1976***

## Kimi

Ay Vətən, başına dolannam, zəvvar
Kəbənin başına dolanan kimi.
Hüsnünü görəntək sənə vuruldum,
Məcnun Leylisinə vurulan kimi.

Bütöv ol, qalib ol, şən ol, öyünüm,
Sənsiz üzüm gülməz, açılmaz eynim.
Harda oluramsa sənədir yönüm,
Günəbaxan günə boylanan kimi.

Əsirlər üstünə qara yel olub,
Yolunda çoxları şəhid, şil olub.
Yaşım Arazlaşır, axır, sel olub.
Ağır dərdlərim var Savalan kimi.

Yada gözdağıdır varın, sərvətin,
Gözəllik yurdusan sən təbiətin.
Yoluna işıq sal oğlun Binnətin,
Günəş yer üzünə nur salan kimi.

***19.12.1991***

## Məni

Saqi, uzaq elə meyi-məzəni,
Nə mey ovundurmaz, nə məzə məni.
Halı pərişanam qəm otağında,
Nə cam düşündürmür, nə kuzə məni.

Deyənimi diri-diri soyublar,
Görənimin gözlərini oyublar.
Necə məzələnim, həsrət qoyublar
Gorusa, Dərbəndə, Təbrizə məni?

Binnətəm, dardadır yenə Vətənim,

Yoxdur bu günümdə dada yetənim.
Çoxalır şəhidim, ölüb-itənim,
Gündə min dərd alır təp-təzə məni

***11.12.1991***

## Mən

Mənə daş atmasın hər yoldan ötən,
Əlçatmaz, əyilməz bir budağam mən.
İçində vulkanlar cövlan eləyən,
Başında tufanlar qopan dağam mən.
Dəryayam, fırtınam başımı qatıb,
Dalğalar dəfnəmi sahilə atıb.
Dövran sinəm üstə tonqallar çatıb,
Alovu sönməyən bir ocağam mən.
Nə var düşkünüyəm, nə taxt, nə də tac.
Sınağa çox çəkib məni ehtiyac.
Bu gün bədhaqlara olsam da möhtac,
Sabah öz haqqımı alacağam mən.
Yaradan yar olsun özü Binnətə,
Vurğundur bu elə, bu məmləkətə.
Adım düşməsə də əbədiyyətə,
Yüz il yaddaşlarda qalacağam mən.

***24.02.1964***

## Həyat sənə xoşsa

Həsrətiyin zindanında dustağam,
Döşəyim torpaqdır, yastığım daşdı.
Təşnəyəm, məzədən, meydən uzağam,
İçdiyim gözümdən car olan yaşdı.
Sənsizliyin oxu sinəmi dəldi,
Fəğanım, fəryadım ərşə yüksəldi.
Mənə pərvanələr, aşiqlər güldü,
Adım Məcnun kimi dillərə düşdü.
Ayrılıqdan candan cəzanə gəldim,
Hicranından koğa kimi əyildim.

Sənli günlərimi andım, kövrəldim,
Yenə qəmim, qüssəm həddini aşdı.
Könlüm səndən başqa sevməz heç kimi,
Salmaz ayaqalta təmiz eşqini.

Könülsüz verdiyin son öpüş kimi,
Həyat sənə xoşsa, mənə də xoşdu.
Yoxmuş sədaqətin, yalanmış əhdin,
Məndən dövlətliyə getməkmiş qəsdin.
Binnətəm, qəlbimə elə dağ çəkdin,
Elə bil məhəbbət məbədim uçdu.

***19.10.1973***

## Sən canın

Həsrətin sındırıb qol-qanadımı,
Bir çarə et bu şikəstə, sən canın.
Bu sinəsi dağlı, qəlbi ahlını,
Eləmə illərlə xəstə, sən canın.
Məhəbbət nə sehr-sirdir bilmirəm,
Qeysi Məcnun etdi, Mahmudu Kərəm.
Ağlasan ağlaram, gülsən güləram,
Danış, gül, dəhanı püstə, sən canın.
Qoy sənin eşqinlə ucalsın adım,
Gözümdə qalmasın arzum-muradım.
Eşqinlə çağlayım, yazım, yaradım,
Hər gün məndə şeir istə, sən canın.
Nədir arzum, əhdim, dərdim bilmədin;
Bircə yol mənimlə deyib-gülmədin,
Çox yalvardım, bir yol bizə gəlmədin,
Barı, gəl qəbrimin üstə sən canın..
Sənsiz çiçək açmaz ömrümün yazı,
Qurtar bu sınağı, azalt bu nazı.
Zülm etmə Binnətə, a zalım qızı,
Dərd qoyma dərdinin üstə sən canın.

***3.12.1962***

## Yalvarıb barışdım

Həsrətindən qovurğatək qovruldum,
Səməndərtək oda düşdüm, alışdım.
Yandım-yandım, külə döndüm, sovruldum,
Səpələndim, toz-torpağa qarışdım.
Fərhad kimi külüng vurdum qayada,
Məcnun kimi susuz qaldım səhrada,
Kərəm kimi düşdüm alova, oda,
Hər gün nakam bir aşiqlə yarışdım.
Çox çəkmişəm dərdi, qəmi, həsrəti,
Gənclik gedir, əldən vermə fürsəti.
A insafsız, naz eləyib Binnəti,
Sən küsdürdün, mən yalvarıb barışdım.

***02.06.1968***

## Deyiləm

Sanma odum sönüb, külüm sovrulub,
Elə yandırmısan, sönən deyiləm.
Sən məni satsan da hərraca qoyub,
Ölənədək səndən dönən deyiləm.
Yandırıb cismimi kül eləsən də,
Qırıb qol-qıçımı şil eləsən də,
Dərgahında qara qul eləsən də,
Mən əhdi, ilqarı danan deyiləm.
Çoxlarının sınağından çıxmışam;
Tənəsindən, qınağından çıxmışam.
Məhəbbətin zirvəsinə qalxmışam,
Aləm yığılsa da, enən deyiləm.
Aşiqlər seçilər dəyanətilə,
Hər əzaba dözər yar həsrətilə.
Binnətəm, başımı məhəbbət ilə
Kəssən də, inciyib, dinən deyiləm.

***14.06.1958***

## Səndən

Necə nanə yazdım sənə, xəndanım,
Gəlmədi yüzünə bir cavab səndən.
Halımı sormursan, deyən dərdim var,
Sənə gileyim var, afitab, səndən.
A xumar baxışlı, ləbi qənd, şəkər,
Qucağı gülüstan, qoynu musk-ənbər,
Sən Muskunaz olsan, mən də Ələsgər
Nə xələt dilərəm, nə corab səndən.
Nazın bir dərdimi yüzə yetirib.
Binnət səni görüb, ağlın itirib.
Hər gün dərgahına pənah gətirib,
Boyun büküb, umur bir savab səndən.

***16.06.1964***

## Qıymadı

Əğyarla danışıb, gülən güləndam,
Mənə bir salamı barı, qıymadı.
Yazda  gül istədim, bağda vermədi,
Qışda qar istədim, qarı qıymadı.
Əhvalımı soruşmağı tərgitdi,
Nə məktub göndərdi, nə gəldi-getdi.
Qarğaya bir kisə qoz bəxşiş etdi,
Bülbülə bir ovuc darı qıymadı.
Güldür, bir duyğusuz qoxudu, atdı,
Ləldir, naşı sərraf çox ucuz satdı.
Gözəldir, bir dəllal aldı, aldatdı,
Yara həsrət qoydu yarı, qıymadı.
Günəş camallıdır, hilal qaşlıdı.
Yorğun maral kimi xoş baxışlıdı.
Əğyara bu afət bağ bağışladı,
Binnətə bircə cüt narı qıymadı.

***24.08.1962***

## Sənsiz

Yenə bir şəhərim sənsiz açıldı,
Doğmadı göyümün ülkəri sənsiz.
Ahım dağ başında dumana döndü,
Yas tutdu günümün səhəri sənsiz.
Ahımdan alışdı daş külə döndü,
Yenə səni görmək müşkülə döndü.
Axdı gözlərimdən yaş, selə döndü,
Dağıldı könlümün şəhəri sənsiz.
Hicranın oxları sinəmi dəldi,
Fəryadım, fəğanım göyə yüksəldi,
Həsrətindən canım cəzana gəldi,
Az qalıb ki, olam sərsəri sənsiz.
Zalım fələk karvanımı əylədi,
Məni səndən, səni məndən eylədi.
Başıma köz, gözümə qor ələdi,
Gördüm cəhənnəmi, məhşəri sənsiz.
Ağzımın ləzzəti: şərbətim, balım,
Bütün varım-yoxum – cahım-calalım,
Xəzinəm, dəfinəm, dövlətim, malım
Hamısı yox oldu, a pəri, sənsiz.
Üstümə od tökdü hicranın əli,
Dərdindən olmuşam divanə-dəli.
Məni məftun edən, ay el gözəli,
Heç nədir Binnətin əsəri sənsiz.

***7 iyul 1962***

## Amandır

Həsrətini çəkdiyimə çatdırın,
Xalqı bizə güldürməsin, amandır.
Sirrimizi car çəkməsin aləmə,
Sözbazlara bildirməsin, amandır.
Dərdi-məni heyva kimi saralıb,
Həsrəti-dünyanı mənə daraldıb.

Öz əlilə ocağmızı qaraldıb,
Çırağmızı söndürməsin, amandır.
Ayrılığı üzüb məni, qocaldıb,
Hicranı ömrümü kəsib, qısaldıb.
Sevib, məni-yerdən göyə ucaldıb,
Göydən yerə endirməsin, amandır.
Ağır olur yarın-yara həsrəti,
Çəkək boğazından dara həsrəti.
Yığmasın sinəmə dərdi, möhnəti,
Məni cavan öldürməsin, amandır.
Qohuma, qonşuya getsin, haqqı var,
Desin, gülsün, şadlıq etsin, haqqı var –
Kefi nə istəyir etsin, haqqı var,
Binnətdən üz döndərməsin, amandır.

***06.09.1976***

## Ola

*(M.P. Vaqifə nəzirə)*

Nə ola yar ilə qol-boyun olam,
Gəzəm seyrangahım bağça-bağ ola.
Hər bulaqdan içəm, hər yurddan keçəm
Hər həftə məskənim bir yaylaq ola.
Yanından tay-tuşun çoxu köçsə də;
Ölüm şərbətini vaxtsız  içsə də.
Yaşın lap səksəni, yüzü keçsə də
Sevib-seviləsən, canın sağ ola.
Sevəndə sevəsən elə göyçəyi,
Hüsnü mat eləyə gülü-çiçəyi.
Həsəd çəkə ona gülün ləçəyi,
Çiçəkdən ətirli, güldən ağ ola!
Çöhrəsini kəlağayla örtməyə,
O dinəndə bülbül susa, ötməyə.
Ləzzət ilə dişləməyə, öpməyə
Baldan yoğurulmuş dil-dodaq ola!

Bir gün də olmaya yar-yardan ayrı,
Hər dərddən ağırdır yar intizarı.
Yaxşı kişilərin, nə ola, yarı
Gülərüz, güləndam, gülyanaq ola!
Binnət vurulasan elə canana,
Görməyəndə canın od tuta-yana,
Alim görsə, ola dəli-divanə,
İşi "yar-yar"- deyib, ağlamaq ola!

***14.06.1962***

## Can alan yağı

Çalıb-oynamağa, deyib-gülməyə,
Sevib-sevilməyə yaranmısan sən.
Ətirli gülabla çimib, duxlanıb,
Səhərin mehiylə daranmısan sən.
Bağçada, çəməndə edəndə seyr
Süsənlər, sünbüllər sənə baş əyir,
Çiçəklər önündə təzim eləyir
Bağa, çəmənzara sultanmısan sən?
Qızılgül hüsnünü görüb utanıb,
Lalənin bağrına od düşüb, yanıb,
Həsəddən Yasəmən, lilpar oddanıb,
Gül-çiçəyə yağı olanmısan sən?
Nazından dincliyim əlimdən gedib,
Həsrətin qəlbimi qarayıb, didib.
Suçsuz ola-ola müqəssir edib,
Yusifi zindana salanmısan sən?
Heç kim çəkə bilməz çəkdiyin dağı.
Binnətə zülm etmə Şəddad sayağı.
Mələk görkəmində, can alan yağı,
Canımı naz ilə alanmısan sən?

***15 avqust 1965***

## Qəlbin buz imiş

Nəfəsin ayazmış, qəlbin buz imiş
Səni bu günədək tanımamışam.
Məhəbbət səninçün quru söz imiş,
Heyf, gec duymuşam, gec anlamışam.
Bilmirsən qılıq nə, nəzakət nədir;
Xoş ixtilat nədir, xoş ülfət nədir,
Dosta hörmət nədir, sədaqət nədir,
Məzəmmət eləyib, qınamamışam.
Məhəbbət satılmır, alınmır zərlə
Qəlbdən-qəlbə qonur xoş bir nəzərlə.
Şeirlər yazmışam sənə yüzlərlə,
Sayını bilmirəm, sanamamışam.
Vermirsən şairə, şeirə qiymət,
Nə şirin söhbətə, sözə əhəmiyyət.
Onu unutsan da biryolluq, afət,
Binnət səni anır hər səhər-axşam.

## Bəsdi

Naşükürə şam elədim ömrümü,
Dözdüm hər verdiyi möhnətə, bəsdi.
O çəkdiyim əzabları görmürmü?
Çox gəldim yanına minnətə, bəsdi.
Demə, o nankormuş, qədir bilməzmiş;
Etibar, sədaqət nədir bilməzmiş,
Qılıq, hörmət, izzət nədir bilməzmiş,
Heç layiq deyilmiş hörmətə, bəsdi.
Məhəbbəti şaxta , eşqi ayazmış,
Cismi soyuq taxta, simsiz bir sazmış.
Nəzakəti saxta, yox imiş, azmış
Şairə, şeirə hörməti bəsdi.

Məni eşitmədi mən can dediyim –
Yolunda canımı qurban dediyim.

Sevməyir, sevməsin məni sevdiyim,
Elin məhəbbəti Binnətə bəsdi.

## Eşqim

Sənə vurulalı alıb əqlimi,
Məni haldan-hala salıbdır eşqim
Bir zaman səninlə fərəhlənərdi,
İndi sənsiz məlul qalıbdır eşqim.
A qəmdən kədərdən uzaq ərköyün,
Deyirlər ağ günə çıxıbsan, öyün.
Məhəbbət mülkümü yıxıbsan, öyün.
Səndən yeni yara alıbdır eşqim.
Adını qəlbimdən silə bilməzsən,
Mənə tay tapmazsan dünyanı gəzsən.
Binnətəm, eşqimə gülə bilməzsən,
Böyükdür, ucadır, qalibdir eşqim.

## Dərdimi

Mən dərdə dözümsüz bülbül deyiləm,
Fəryad edəm, deyəm gülə dərdimi.
Məcnun da deyiləm, fəğanım naləm
Car çəkə səhraya, çölə dərdimi.
Mənə nə gül, nə çöl bir çarə etməz,
Nə bağça, nə səhra dadıma yetməz.
Qəlbi karlar məni duymaz, eşitməz.
Loğmanlar da bilməz hələ dərdimi.
Olsam da hamıdan dərdli-dərdəcər,
Pozsa da halımı kədər, dərdəsər,
Qorxuram mənimtək kimsə dərd çəkər,
Faş edib, deməræm elə dərdimi.

Binnət Eloğluyam, yolu azmaram,
And içmişəm ilqarımı pozmaram.
Mən nə danışmaram, nə də yazmaram

Qoymaram dost-düşmən bilə dərdimi.

***6.06.1962***

## Nədir suçum?

Nədir suçum, a məleykə, bilmirəm?
Yıxıbsan evimi tikə bilmirəm.
Gözümü üzündən çəkə bilmirəm.
Mənə elə xumar-xumar baxırsan.
Çiçək solmaz yeri olsa yaxanda,
Gözlərim sevinir sənə baxanda.
Hər dəfə bəzənib, evdən çıxanda
Tovuztək bəzənib, güntək çıxırsan.
Üz-üzə gələndə bir qələmqaşla
Çaşıram yolumu, məni bağışla.
O füsunkar, süzgün, xumar baxışla
Canımı alırsan, evmi yıxırsan.
Günah sayılmayır gözələ baxmaq,
Sənə vurulanı qınama nahaq!
Nə saqqalım ağdır, nə də saçım ağ,
Yaşımı başıma niyə qaxırsan?
Kim səni görürsə ucalır ahı,
Görməyəndə gülmür qaşı-qabağı.
Sənə heyran olub, nədir günahı,
Binnəti yandırıb oda yaxırsan?

***7.05.1975***

## Halıma acıdı barama

*BDU-da imtahan verib 16 bal yığdım, 12 bal yığan 7 nəfər konkursdan keçdi, mən yox. Güclə rektorun qəbuluna düşdüm. Rektor dedi: - "İdi potom pridyoş"! Dedim:*

*“Potom budet pozdna!” Mənim bu sözlərim yanımaq sayıldı, məni həbs edib 10 sutka “KPZ”-də saxladılar.*

Mən konkursa düşdüm 16 balla,
On iki ballılar hansıda yolla
Tələbə oldular, ay Allahtala!
Sanki düz basdılar yarama mənim.
Üstümə haqsızlıq odu töküldü,
Rahatlığım, yuxum ərşə çəkildi.
Elə bil ki, ətim şişə çəkildi,
Halalım qarışdı harama mənim.
Bədhaxın əliylə sinəm dağlandı,
Şirin arzularım gözümdə qaldı,
Hər tərəfdən yolum-izim bağlandı,
Halıma acıdı barama mənim.
Məni saymadılar getdimsə hara,
Ərzim kar etmədi bürokratlara.
Yanımaq sayıldı sözüm rektora,
Baxmadı ərzəmə zırrama mənim.
Binnətəm, himləşdi rektorla fələk,
Baş tutdu onların qurduğu kələk,
Zindana atdılar məni canıtək,
Sevinmək yaraşır harama mənim?

***24 avqust 1969***

## Baxmaqdan

Boynum bükülübdür bənövşə kimi,
Sən çıxıb, getdiyin yola baxmaqdan.
Könlüm ilham alır xumar baxışa,
Ala gözə, şux camala baxmaqdan.

A dəhanı nabat, ləbləri püstə,
İllərlə duraram yoluyun üstə.
Görə gül üzünü, sağala xəstə,
Dərdinə bir dəva ola baxmaqdan.
Sənsizəm, ah-vaydır gecəm-gündüzüm,
Binnətəm, gülməyir pərişan üzüm.

Həsrətəm, yollardan yığılmaz gözüm
Donsam, yolda qala-qala baxmaqdan.

***1.09.2001***

## Olsa

Hələ ürək sağdı, nədi xəstəlik?
Sağalaram, nar deyəndə, nar olsa.
Anam, bacım, qardaşlarım, yoldaşım
Axşam-sabah dörd yanımda var olsa.

Çoxları yanaşar, yanlayar məni,
Deyər: "Özünə bax", - danlayar məni.
Mən kimə nə deyim? Anlayar məni
Hər kimin yediyi zəhrimar olsa.

Ömrüm boyu cəfa çəkdim, nə fayda?
Sinəmə dağ oldu əhdim, nə fayda?
Gül becərdim, çiçək əkdim, nə fayda?
Qış bərk gəlsə, boran qopsa, qar olsa.

Qalmayıb çəkməyə halım qadanı
Məni duyan, sənin alım qadanı!
Asardım nankoru, bici, nadanı,
Əlimdə bir azca ixtiyar olsa.

Binnəti anlamaz hər başsız peysər.
Qanançun yazılır yazılan əsər,
Kişiyə xəstəlik eyləməz əsər,
Övlad-övlad olsa, yar da yar olsa.

***12.07.1981***

## Üzümə gülə

Nə ola əbədi ola şadlığım,
Taleyim-qismətim üzümə gülə.
Yazıb yaratmaqla keçə hər çağım,
Şair təbiətim üzümə gülə.

Ruh verə yurdumun hər mənzəsi,
Bir də dağılmaya dağı-dərəsi.

Arta ilhamımın meyi-məzəsi,
Şeirim, şeiriyyatım üzümə gülə.
Binnətəm, çoxutək sevdim, sevildim,
Sevib-sevilməyi səadət bildim.
Hər dəfə xoş üzlə üzünə güldüm,
Ki, hərdən afətim üzümə gülə.

***11.02.1993***

## Olub

Əzizim, mən sənə həsrət qalalı,
Gecəm ah-vay, günüm ahu-zar olub.
Təlx olub süfrəmin şərbəti, balı.
Yediyim, içdiyim zəhrimar olub.
Şəfasız xəstəyəm sənsiz qalalı,
Bir dəfə halımdan olmursan halı.
Şahmar zülflərinə əsir olalı,
Gözüm ağlar olub, sözüm "yar" olub.
Binnətəm, hicrindən günüm qaradır
Qınama, bilmirəm hara, haradır.
Səni görməyəli günüm qaradır,
Hardasan? Başıma dünya dar olub.

***16.07.1976***

## Güllər içində

Gülüm, xoşagələn o qədər gül var,
Ən ətirli gülsən güllər içində.
Hüsnünə heyrandır gülüstan, gülzar,
Güldən də gözəlsən güllər içində.

Döşənər yoluna hər ləçək sənin,
Öpər ayağını hər çiçək sənin.
Qorxuram üşüdər əsən meh səni,
Tüldən də zərifsən tüllər içində.
Oxu, bülbülləri mat etsin şərqin,
Şənlənək, qəlbinə dağ çəkək dərdin.
Binnətəm, səninlə olduğum hər gün.
Ən gözəl günümdür günlər içində.

***19.07.1976***

## Sənin

Bircə baxış ilə aldın canımı,
Sehrli, sirlidir yarağın sənin.
Hansı möcüzəylə tökdün qanımı?
Qana da batmadı barmağın sənin.

Həsrətindən məni divanə etmə,
Könlümün mülkünü viranə etmə.
Sən canın, gözümün önündən getmə,
Məni Məcnun edər fərağın sənin.

Xəstə şəfa tapar xoşüz göstərsən,
Binnətə də bir yol xoşüz göstər sən.
Bilmirəm pərişan, yoxsa bəşərsən,
Yayılıb aləmə sorağın sənin.

***28.03.1961***

## Gəzirəm

Eşqindən Məcnuntək çöllərə düşüb,
Kərəm kimi yana-yana gəzirəm.
Nakam məhəbbətim dillərə düşüb,
Adım düşüb min dastana gəzirəm.

Qoymadın başına dolanım-dönüm,
Sənsiz gecəm gecə, gün deyil günüm.
Bir sənə çatmayır fəğanım, ünüm.
Xalq gəlib ahımdan cana, gəzirəm.

Cəfakeş quluyam saf məhəbbətin,
Düz sözün, düz əhdin, düz sədaqətin.
Binnətəm, göynədir məni həsrətin,
Bağrım olub sana-sana, gəzirəm.

***7.12.1962***

## Mən

Sənsiz ahu-zarım fələyə çatır,
İnləyən, sızlayan bir kamanam mən.
Qəlbim qan ağlayır, könlüm yas tutur,

Naləyən, fəryadam, ah-amanam mən.
Nə olar, dərdimə çarə eləsən,
Alırsan canımı gülə-gülə sən.
Elə dağ basıbsan mənə, elə sən,
Az qalıb ki, Kərəm kimi yanam mən.
Qəlbində zərrəcə varsa məhəbbət,
Aşiqin Binnətə elə mərhəmət.
Məni sevməsən də, sevsən də, afət,
Qapında qul olan bir Sənanam mən.

***9.08.1961***

## A Züleyxam, Yusifinəm

A Züleyxam, Yusifinəm, ömürlük
Qul et, qulluğunda dayandır məni.
Ya rəhm elə, ya canımı al qurtar,
Ya hicran odunda az yandır məni.
Hüsnünü görəli olmuşam sənə,
Batmışam kədərə, düşmüşəm qəmə.
Qoy qalım yanında, Məcnun eləmə –
Salma səhralara, amandır məni.
Binnətəm, az məni mütəssir et
Qış, yaz qucağında saxla, əsir et
Gecələr qoynunda əsir-yesir et,
Gündüzlər başına dolandır məni.

***9.08.1961***

## Göydən nur tökülə

Göydən nur tökülə, şəfəq tökülə,
Tökülən dərd, həsrət yaşı olmaya!
İnsanlar sevinə, oynaya, gülə,
Heç kimin kədəri, yası olmaya!
Dadına çatıla dada çatanın,
Başına atıla başı qatanın,
Mənliyi satıla eli satanın,
Günü-güzəranı yaxşı olmaya!
Binnətəm, yerinə yetə bu əhdim –

Tarixçi, bələdçi, əczaçı, həkim,
Müəllim, mühəndis, sərkərdə, hakim
Heç biri işində naşı olmaya!

***24.04.1970***

## Mənim

Qapına gəlmişəm, gözəllər şahı,
Düzəlt mətləbimi, sən Allah, mənim.
Qovma həyətindən, qibləgahımdır,
Ocağım-pirimdir bu dərgah mənim.
Nə sözündən, nə əmrindən çıxaram,
Yolunda canımı oda yaxaram.
Ölənəcən hər sözünə baxaram,
Sən də bir sözümə, nolar, bax mənim.
Təvəqqe edirəm mən dönə-dönə,
Qoyma ümidimin işığı sönə,
Elə bil mərhəmət edirsən mənə,
Qarşıma çıxanda hər sabah mənim.
Sinəmə çox basıb fələk dağını,
Mənə çox çəkdirib, yar, fərağını.
Yaşın çoxluğunu, saçın ağını
Binnətəm, başıma azca qax mənim.

***04.08.1982***

## Məni

Hər seyrə çıxanda ana Vətəni,
Qarşıladı güllər, lalələr məni.
Aldı qucağına basdı bağrına,
Çoban bayatılı dərələr məni.
Enişdə yüyürdüm, yoxuşda durdum,
Yamacda dincəldim, düzdə oturdum.
Hər bulaq başında bir süfrə qurdum,
Şeirsiz görmədi süfrələr məni.
Ruhuma doğmadır bu yurd, bu diyar,
Mən eli duyaram, el məni duyar.

Binnətəm, arzum da, sevincimdə var,
Qoy heç kəs saymasın dərdəcər məni.

***22.06.1960***

# RÜBAİLƏR
## Məhsəti Gəncəviyə nəzirələr, parodiyalar

**1.** Tanrının izniylə cahana gəldim.
Fələyin cəbrindən cəzana gəldim.
Taleyin verdiyi əzaba dözdüm.
Yarın həsrətindən fəğana gəldim.

**2.** Bu dünya bir yaxşı kuzəyə bənzər,
Kuzədə mey olsa məclisdə gəzər,
İstəməsə səni lüt-üryan edər,
İstəsə ən gözəl, libasla bəzər.

**3.** İndi nə Məhsəti, nə Xərabat var,
Nə də xoş məramlı xərabatlılar,
Ağalıq edirlər bəşəriyyətə
Atom silahlılar – xarab atlılar.

**4.** Şərabın əlində olsan oyuncaq,
Ömrüyün kuzəsi çox tez sınacaq,
Mey içib, sərxoşsan, məni məst edir
Bir xumar gözlünün baxışı ancaq.

**5.** Meyxana küncündə xumarlanan kəs,
Canan sev, meyə çox göstərmə həvəs,
Əqli başdan alan meydən dəm olma,
Dəm verən cananın yanına tələs.

**6.** Meyxor, mey almaqçün bazara girdin,
Bütün pullarını şəraba verdin.

İçdin, sərxoş, bədnam oldun, axırda,
Abrını, həyanı tamam itirdin.

**7.** Gülüm, gözəl olmaz gül yanağından,
Büllur buxağından, al dodağından.
Gündüz, a Züleyxam, qoy qulun olum,
Gecə nə evdən qov, nə qucağından.

**8.** Ən gözəl ətirli, tikansız gülsən,
Həm gülərüzlüsən, həm şirindilsən.
Aşiqin unudar qəmi, qüssəni,
Rəhm edib, bircə yol üzünə gülsən.

**9.** Xalın camalına bir yaraşıqdır,
Füsunkar hüsnünə nurdur , şıqdır.
Göz üstə yerin var, nə vaxt istəsən,
Buyur, gəl, üzünə qapım açıqdır.

**10.** Sevdim, aşiqliyə göstərdim həvəs,
Etdim səməndərlə, pərvanəylə bəhs.
Eşqinlə yandırdın, külüm də yoxdur,
Məndən bir nişanə axtarma əbəs.

**11.** Ağlar gözlərində yağan yağışlar,
Qəlbimin sən olan yerindən başlar,
Eşqin məni elə yandırıb-yaxıb,
Ahvalımı görsə, ağlayar daşlar.

**12.** Huridən, pəridən gözəlsən, ey mah,
Səni xoş vaxtında xəlq edib Allah.
Sənə tay olammaz, canan, mələk də
Ölüncə dönmərəm mən səndən, vallah.

**13.** İstər kişi olsun, istərsə arvad,
Etibarı yoxsa heç zaddı, heç zad.
Uyma camalına, şirin dilinə,
Vəfasız gözəli yadından çıxart.

**14.** Şam kimi yanmağa yaranır aşiq,
Gecədə, gündüz də yar anar aşıq.
Ya Kərəmtək yanar, ya da Məcnuntək
Ac-susuz çöllərdə dolanar aşiq.

**15.** Vüsal dəmlərində yatmaz sevənlər,
Yatsalar murada çatmaz sevənlər.
Yar yolunda oda atar özünü,
Heç zaman yarını atmaz sevənlər.

**16.** Sənin həsrətinlə, eşqinlə, mələk,
Gəzərəm çöllərdə divanələrtək.
Əgər şən şam olsan, başına dönüb,
Oduna yanaram pərvanələrtək.

**17.** İndi hər yan abad şəhərdi, kənddi,
Tarladı, zəmidi, mədəndi, bənddi.
Leylim, eşqin ilə Məcnun olaram,
Məcnunluq etməyə səhra qəhətdi.

**18.** Vüsal gecəsində, a dildar, yatma,
Tapsın bir-birini dodaqlar, yatma.
Vüsal dəmlərində həsrətlilərtək,
Sevənlər bir-birini qucaqlar, yatma.

**19.** Həsrətin canımı əritdi yağtək,
Saraldım heyvatək, soldum yarpaqtək.
Əzizim, hər sənə həsrət qalanda,
Qaraldım kösöytək, yandım ocaqtək.

**20.** Dalınca gedərəm sən hara getsən,
Divanəm-dəlinəm, bir çara etsən.
Səni sevdim, səndə sevgi görmədim,
Sanki mən bütpərəst, sən gözəl bütsən.

**21.** Sənin həsrətinlə sızlayıb dünən,
Başıma sovurdum toz-torpağı mən.

Bu gün hamı məni məzəmmət etdi,
Dünənki haldaydım səhər çağı mən.

**22.** Hara tələsirsən, dayan, mahcamal,
Nə olar, bu gecə gəl yanımda qal?
Gecə uzun olsun, geciksin səhər,
Sübhətək şənlənək, şən olsun əhval.

**23.** Sənin camalına olmuşam heyran,
A baxışı xumar, gözləri ceyran.
Səni gözəllikdən xəlq edib Xilqət,
Bilmirəm yaxşıdır harandan haran.

**24.** Qurtulaq həsrətdən, vüsala çataq,
Şənlənək, əylənək, ixtilaq qataq.
Vuraq meylə dolu kuzəni daşa,
Canan, ayıq olaq, kefə kef qataq.

**25.** Həsrət dağı çəkmə, amandı mənə,
Həsrətin qəfəsdi, zindandı mənə.
İllər xəstəsiyəm ayrılığından,
Vüsalın dərdimə dərmandı mənə.

**26.** Mənə qonaq gəlib bu gecə dilbər,
Bədxahlar, sözbazlar tutmaya xəbər.
Belə fürsət hər vaxt düşməyir ələ,
Gecə ilə dönə, gecikə səhər.

**27.** Məni elə məftun edib afətim,
Canımda qalmayıb tabu-taqətim?
Xumar baxışından elə məstəm ki,
Meyə, məzəyə də yoxdur rəğbətim.

**28.** A canan, naz-qəmzən səbrimi kəsdi,
Vüsal dəmi işvə etmək əbəsdi.
Sənə vurulanı sərməst etməyə
Bir süzgün baxışın, bir busən bəsdi.

**29.** Sənə həsəd çəkir çiçəklər, güllər,
Füsunkar hüsnünə heyran gözəllər.
Bağa yayılanda səsin, təranən,
Şirin nəğməsini kəsir bülbüllər.

**30.** Aşiqə ilhamsan, təbsən, hünərsən,
Güldən ətirlisən çiçəkdən tərsən.
Tovuztək bəzənib, şəhərə çıxsan,
Hamını hüsnünə heyran edərsən.

**31.** Mənə bir busə ver şəkər ləbindən,
Kədəri, qüssəni rədd et qəlbimdən.
Bu sirri bir kəsə bəyan eləsəm,
Əmr elə dilimi kəsdir dibindən.

**32.** Güllərdən gözəldi, canan, yanağın,
Ətirli buxağın, şəkər dodağın.
Keçmə günahımdan, günahım varsa,
Həbs et, həbsxanam olsun qucağın.

**33.** Hicrindən xəstəyəm, rəhm elə, a yar,
Xəstə həkimindən mərhəmət umar.
Aşiqinə bunca rəhmsiz olma,
El səni məzəmmət edər, qınayar.

**34.** Rəhm et aşiqinə, rəhmdil canan,
“Yar-yar” deyə-deyə umuram aman.
Taleyə, loğmana gəlmir gümanım,
Bir xoş vüsalındır dərdimə dərman.

**35.** Yoxsa acıyırsan mənim halıma,
Arabir girirsən, canan, yuxuma.
Gecə istəyirsən yuxuma girmə,
Gündüz qapımdan gir, çatım arzuma.

**36.** Səhərin ətirli yüngül nəfəsi
Meytək məst eləyir yenə hər kəsi.

Şairə, rəssama təb, ilham verir,
Şəkər ləblilərin şirin busəsi.

**37.** Xəstəyəm, dərdimin sənsən şəfası,
Hər dərddən ağırdır hicran cəfası.
Tez gəl, bülbül ilə ahuzardayıq,
Sənsiz bağ-bağçanın yoxdu şəfası.

**38.** Xumar baxışıyla, can alan canan,
Şəkər ləblərindir dərdlərə dərman.
Mərhəmət eləyib bir busə versən,
Bütün ağrılarım çıxar canımdan.

**39.** Amandı, rəhm elə, vermə işgəncə,
Zəliltək arxanca sürünən gəncə.
Bir mərhəmət elə, a mələksima,
Ona bir busə ver, əzab verincə.

**40.** Heç insaf mərhəmət yoxdumu səndə?
Daha bir xoş əhval qoymadın məndə.
Başıma dar olur külli kainat,
Ya sən məndən, ya mən səndən küsəndə.

**41.** Sənsiz dərddi, qəmdi gecəm, gündüzüm,
Sevinməyir qəlbim, gülməyir üzüm.
Səninlə gedibdi zövqüm, ruhum da.
Sənsiz, zövqsüz, ruhsuz mən necə dözüm?

**42.** Hicrində gündüzüm gecə olacaq,
Həsrətindən canım oda yanacaq.
Məni vüsalınla sevindirməsən,
Bilmirəm axırım necə olacaq.

**43.** Məni məftun edir günəş camalın,
Gözündə xumarın, üzündə xalın.
Bir kimsə ərz etsə sənə halımı,
Mənimkitək olar sənin də halın.

**44.** Səadətdir ellə bəxtiyar plmaq,
Elinə, obana baxıb zövq almaq.
Ağır işkəncədir, böyük cəfadır,
Vətəndən, anadan, yardan ayrılmaq.

**45.** Alırsan canımı nazınla, dildar,
Bir kəsim yoxdur ki, ola havadar.
Sənə "yarım" deyib, "can" eşidənin
Canı rahat olar, ağzı bal dadar.

**46.** Cahangir də olsan, ölmün əlindən
Qurtara bilməzsən öz yaxanı sən.
Bir gün istəsən də, istəməsən də
Tərk eləyəcəksən bu cahanı sən.

**47.** Canandı aşiqə əziz, mötəbər.
Yanımda olanda, güləriz dilbər,
Saat bir həftəyə, dəqiqə günə,
Saniyə saata ola bərabər.

**48.** Füsunkar hüsnünə vurulsa hər kəs,
Səni layiqincə mədh edə bilməz.
Xəqani mədh edə bilərdi səni,
Mədhiyyə hamının əlindən gəlməz.

**49.** İlahi hüsnünü görəli məstəm,
Ləbləri şəkərim, dəhani püstəm.
Xəcalət çəkirəm, gül əndamını
Mədh edə bilmirəm, a boyu bəstəm.

**50.** El dərdi çəkilməz ağır bir yükdür.
Yurdum para-para, bölük-bölükdür.
Hər kəs öz dərdindən giley eyləyir
Hər bir dərddən elin dərdi böyükdür.

**51.** Yağı zülm eləyir əl-qolum bağlı
Qalmışıq ah-vaylı, sinəsi dağlı.
Bir an gözümüzün qurumur yaşı
Gündə şəhid olur yüz Vətən oğlu.

**52.** Bəsdir, can saxladıq, dostlar, birtəhər,
Bəsdir, ömrüm boyu çəkdim qəm-kədər.
Nə ay var, nə ulduz, uzanır gecə,
Niyə dan sökülmür, açılmır səhər?

**53.** Çoxdan nə gələn var, nə də ki, gedən,
Quşlar da bir xəbər gətirmir səndən.
Bəsdir, hicran çəkdik-həsrətli qaldıq,
Ölüb qurtarmadı bizə zülm edən.

**54.** Öldün, gözlərimin yaşı göynədi,
Yandı ürəyimin başı, göynədi.
Sən Vətən yolunda verdin canını,
Yurdumun torpağı, daşı göynədi.

**55.** Bir deyil, beş deyil şəhid olanım,
Üzün cırıb, saçlarını yolanım.
Şəhid olub, məni yalqız qoydular,
Necə tapım başlarına dolanım?

**56.** Pozdu novrağımı qəlbidaş yağı,
Çəkdi sinəmizə dağ üstə dağı.
Qardaşsız, bacısız necə seyr edim,
Qardaşla, bacıyla saldığım bağı?

**57.** A qəmi dağıdan, gülgün piyalə,
Yar gəlməmiş səni almaram ələ.
Üzü haqda, gözü yolda qalmışam,
Məni yada sala, sevgilim gələ!

**58.** Gəncliyi, dincliyi tez verdim bada,
Dua eləyirəm üzüm xudada.
Hamıya rahatlıq arzulayıram,
Rahat olmayıram bir an dünyada.

**59.** Bir dəfə halımdan olmadın halı,
Sevdin bərbəzəyi yaşılı-alı.
Uyma vara-mülkə, sərvətə, vara,

Dünyada qalacaq dünyanın malı.

**60.** Aşiqin göz yaşı dönsə də çaya,
Naləsi, fəryadı çatmaz Xudaya.
Çoxuna tor, tələ, cələ qurubdu
Fələk çoxlarını verib fənaya.

**61.** Adını eşidib sənə vuruldum,
Üzünü görməmiş məftunun oldum.
Hüsnünü görəli xəyalımdasan,
Çıxmırsan qəlbimdən, necə unudum?

**62.** Fələk bir cadugar, kaftar qarıdır,
Dünya kədər, möhnət, qəm ambarıdır.
Nəyimə gərəkdir, əzrail alsın
O can ki, can alan yardan ayrıdır.

**63.** Ya Rəbb, sevinc vermə, sən mənə dərd ver,
Çəkdiyim dərd azdır, sən yenə dərd ver
Gəl qurtar yaxamı dərdbilməzlərdən,
Sən mənə dərd bilən bircə həmdərd ver.

**64.** Qəlbimin şüşəsi daşlara dəydi,
Qəddimi fələyin möhnəti əydi.
Bilmirəm dünyadan gedəcəyəmsə,
Dünyaya gəlməkdə məqsədim nəydi.

**65.** Aman tərs fələyin əlindən aman!
İşi yamanlıqdır, əməli yaman.
Dərmansız dərd verir, sağalmaz yara,
Bir dərdə bir dava tapmır yüz Loğman.

**66.** Yandım külə döndüm həsrətdən, ey yar,
Külüm də qalmadı, nə gəz, nə axtar
Nə cənnətə varam, nə cəhənnəmdə
Elə dağıdıbdır külümü rüzgar.

**67.** Sevinər vüsala çatan sevənlər,

Dərd çəkər taleyi yatan sevənlər.
Fələyin qan tökən əlləri ilə
Çox olub qanına-qəltan sevənlər.

**68.** Həsrət çəkdim tale çatmadı dada,
Vüsal atlı oldu, mənsə piyada.
Bir vaxt mənim kimi dərd çəkə-çəkə
Fərhad dağda öldü, Məcnun səhrada.

**69.** Həyalı üzündə çiçəklənən tər,
Gülüm, gül üstündə şəbnəmə bənzər.
Alim yolu çaşar görsə hüsnünü,
Kor olsun qarşına çıxan bədnəzər!

**70.** Başına dolanıb, oduna yanan,
Mənəm, a camalı can alan canan.
Baxırsan uzaqdan, keçirsən gendən,
Alırsan canımı, edirsən candan.

**71.** Baxışın ruhumu saldı kəməndə,
Dinim-danışmağa hal yoxdur məndə.
Dərdə saldığına barı, dərman ver,
Heç insaf, mərhəmət yoxdurmu səndə?

**72.** Yaş tökür gözlərim görəli səni,
Salıbsan məhəbbət oduna məni.
Yolunda hər dərdə, əzaba dözdüm,
Nə qədər sınayar sevən-sevəni?!

**73.** Nə olar bircə yol məni yad elə,
Pərişan könlümü güldür, şad elə,
Sənsiz çıram keçib, ocağım sönüb,
Könül sarayımı gəl, abad elə.

**74.** Qələm ləl, cavahir düzə varağa,
Dönə fərəhimdən ürəyim dağa.
Hamı əhsən deyə, afərin deyə,

Sözün qüdrətiylə saldığım bağa.

**75.** Havalar soyudu, dəyişdi rüzgar,
Soyuq addımlarla gəldi sonbahar.
Bağça-bağ, gülüstan saraldı, soldu,
Bülbül nalə çəkdi, ağladı zar-zar.

**76.** Razıyam nazınla xəstə elə məni,
Nazına dözməyə usta elə məni.
Mənə gərək deyil nə mey, nə məzə,
Ləblərin meyiylə məst elə məni.

**77.** Yazdım dərdlərimi qəm dəftərinə,
Yetmədi arzumun biri yerinə.
Azdır qiymət verən, "yaxşıdır",–deyən,
Ədalət axtaran şairin şeirinə.

**78.** Bu dünya kiməsə əzab-əziyyət,
Kiməsə şadlıqdır, sevincdir, Binnət.
Sehrbaz dünyada saxtaymış demə,
Bütün uyduğumuz bərbəzək, zinət.

**79.** Nadanın elmdən xəbəri yoxdur,
Qananın qüssəsi, qəhəri çoxdur.
Dünyanın dərdini, qəmini çəkən
İnsanın sevincdən kədəri çoxdur.

**80.** Dövran-kimə kədər, kimə məzədir,
Zaman-kimə sipər, kimə nizədir.
Dünya yaşamağı bacaranındır,
Həyat yaşamaqçün mübarizədir.

**81.** Dünya möcüzəli bir sehrkardır,
Kimə zimistandır, kimə bahardır,
İnanma cahanın etibarına,
Sədaqətsiz dostdur, vəfasız yardır.

**82.** Xəyala dalmışam əlimdə qələm,

Gözümdə intizar, qəlbimdə ələm.
Cadusu sınmayan bir cadugərmış
Füsunkar, ecazkar bu sirli aləm.

**83.** İnsan bu dünyaya gələndən bəri,
İnləyib hər dövrün xanəndələri.
Həyat həm qəhqəhə, həm ahu-zardı,
Kasaddır sevinci, hədsizdir şəri.

**84.** Sirdir, müəmmadır, Yer, Göy, dörd cəhət,
Bizə vəd edilən cəhənnəm, cənnət.
Bərbəzəkli, qoca, kifir qarıdır
Heyran olduğumuz bu "gözəl afət".

**85.** "Mən Allaham", - deyən fironlar hamı?
Nəbilər, fatehlər, sultanlar hanı?
Bizi əjdahatək udan dünyanı,
Bir gün məhv edəcək seli, tufanı.

**86.** Əvvəli heçliklə, axırı fani,
Nə üçün sevirik belə dünyanı?
Yəqin bir nəfər də qalmayacaqdır
Bir dəfə də qopsa , Nuhun tufanı.

**87.** A mənə biganə mələyim mənim,
Yoxdur bir yalanım, kələyim mənim.
Səninlə yaşamaq, xoşbəxt olmaqdır
Həyatda istəyim, diləyim mənim.

**88.** Çox sirlər var bilməyən çox, bilən az,
Bu dünyada gülməyən çox, gülən az.
Dünyanın fəsli kimə zimistan,
Kimə yaydır, kimə payız, kimə yaz.

**89.** Kimə duzdur, kimə şəkər sözlərim,
Kimə baldır, kimə zəhər sözlərim.
Yaxşıları azad edər məhbəsdən,

Yamanları dara çəkər sözlərim.

**90.** Gah güllü yaz olur, gah şaxtalı qış,
Gah sərin meh əsir, gah yağır yağış.
Gah günəş yandırır, gah ayaz kəsir,
Dünya ən qüdrətli bir sehrkarmış.

**91.** Halımı yazmağa, acizdir qələm,
Gah huşa gedirəm, gah çəkirəm qəm.
Cadusu sınmayan bir cadukarmış
Heyran olduğumuz bu sirli aləm.

**92.** Bu dünya bərqərar olandan bəri,
Qeyrətlilər olub elin sipəri.
Dünyanın kefini nadanlar çəkib,
Dərdini, fikrini danəndələri

**93.** Beşikdən qəbrədək ömür bir yoldu,
İnsan taleyinin əlində quldu.
Taleyin hökmündən çıxa bilməzsən,
Bəxt nə rəva görsə qismətim odu.

**94.** Dünyada ədalət, mərhəmət hanı?
Bəzən möhtac edir qula sultanı.
Onun gözü kordur, qulağı kardır,
A Binnət, eşitmir, görmür giryanı.

**95.** Dərmansız, təbibsiz sağalmaz naçar,
Bəşərin yoluna elm nur saçar.
Tilsimli qıfılı açmaq istəyən,
Zəhmətlə, tədbirlə, zəkayla açar.

**96.** Hardasan, qəm yeyib yenə bu axşam,
Göz yaşımı içib sərxoş olmuşam.
Sənsiz dərd bəhrinə düşübdür gəmim,
Kədər girdabında lövbər salmışam.

**97.** Kim ki, öz ömrünü elmə sərf etdi,

O, nəsə yaratdı, nəsə kəşf etdi.
Vaxtın, elmin qədrin bilməyən bədbəxt,
Özü öz ömrünü bimasrəf etdi.

**98.** Zövq al düşmənindən qisas almaqdan,
Döyüş meydanında zəfər çalmaqdan.
Azadlıq uğrunda şəhidtək ölmək,
Yaxşıdır ömürlük kölə olmaqdan.

**99.** Şanlı tarixində Azərbaycanın
Durur böyük adı hər qəhrəmanın.
El yolunda şəhid, ya qalib olsan,
Min illər yaşayar şöhrətin – şanın.

**100.** Əgər sevirsənsə sən rahatlığı,
Canıntək, gözüntək sev azadlığı.
Var-dövlət sevinctək gəldi- gedərdi,
Azadlıqdır qəlbin əsas şadlığı.

**101.** Həvəslə bağçada ötən bülbüllər,
Yazın gəlişindən gətirib xəbər.
Bəsdi bu qəflətdə yatdığın, qafil,
Oyan, bir elm öyrən, bir hünər göstər.

**102.** Sənin, mərhəmətin, rəhmin, şəfqətin;
Mehrin-məhəbbətin, ilıq ülfətin,
Vəfan, etibarın, qayğın, əzizim,
Loğmanıdır, dərmanıdır Binnətin.

**103.** Yar elə gedib ki, qayıda bilmir,
Göz yaşım yanğımı soyuda bilmir.
Fələyi kar edən ahım, amanım
Yatmış taleyimi oyada bilmir.

**104.** Kimin başındasa ağılın tacı,
Xoşbəxtdir, heç şeyə yox ehtiyacı.
Kim ki bilmir, nə də bilmək istəmir

Bədbəxtdir, dərdinin yoxdur əlacı.

**105.** Müharibə, işğal istəyənlərin;
Yad elə küdürət bəsləyənlərin,
Paxıl ürəklərin, qara qəlblərin
Kini hədsiz olur, nifrəti dərin.

**106.** Səni harda görüm, gəzim hayanı,
A könül həmdəm, ömür həyanı?
“Yar-yar”, - deyə düzəmi düşüm,
Bu yaşda atımmı abrı, həyanı?

**107.** Hakim var don biçər yalana haqdan,
Suçsuzu müqəssir sayar nahaqdan.
Belə ədalətsiz, bədxah hakimin,
Hökmü fitnə olar, qərarı böhtan.

**108.** Dahi insanlara ehtiram bəslər,
Sözdə mötəbərlər, vəfalı kəslər.
Ancaq qüsur qərəz hər kamillikdə,
Bədxahlar, qəddahlar, pislər, xəbislər.

**109.** Dad etmə vəfasız yarından əbəs,
Qaç ondan, özünə vəfalı yar gəz,
Səni sevəni sev, kefindən qalma,
Dünyanın yüz qəmi, bir kefə dəyməz.

**110.** Yoxdur etibarı fani dünyanın,
Əqli kamil deyil ona uyanın.
Ondan aman umma, mərhəmətsizdir,
Halına yanmayır halı fənanın.

**111.** Beşikdən qəbirədək yol gedirik biz,
Bu yolda ömrü məhv edirik biz
Böhtan danışanda, qeybət edəndə
Günah eləyirik, səhv edirik biz.

**112.** Hər dəryadan çıxan inci-dürr olmaz,

Hamının zəkası, zövqü bir olmaz.
Hər yetən nə Cəlil, nə Üzeyir bəy,
Nə Cavid, nə Vurğun, nə Sabir olmaz.

**113.** Yaltaq, tülkü olub quyruq bulama,
Çaqqal kimi yerli-yersiz ulama,
Yüz il məddah olma, beş gün Sabir ol,
Yaltaq olub yad yalağı yalama.

**114.** Öyməsin özünü hər sısqa bulaq,
Meşəyə bəy olmaz hər uzunqulaq,
Çaqqal nərə çəkib, deməsin şirəm,
Şirdən şir törəyər, ulaqdan ulaq.

**115.** Aşiqə sevdiyi canan yaxşıdır,
Elə el oduna yanan yaxşıdır,
Eşşəyə Sədinin "Gülüstan"ından
Bircə torba arpa, saman yaxşıdır.

**116.** Əyilmərəm tikə-tikə edələr,
Mərd əyilməz, doğru deyib dədələr,
Alçala-alçala ömür sürürlər,
Yaltaqlana-yaltaqlana gədələr.

**117.** Qulaq asdım qananların sözünə,
Nadan nədir, söhbəti nə, sözü nə?
Nankorun üzünə bağlıdır qapım,
Taybataydır şükranların üzünə.

**118.** Hamının bir deyil bəxti-iqbalı,
Kimin sevinci var, kimin məlalı.
Gözüm ağlar olub, sözüm "yar" olub.
A Leylim, hüsnünə məftun olalı.

**119.** Tülküdən bəy olmaz, canavardan şah,
Sardan qartal, kərtənkələdən timsah,
Xaraba olardı kəndlər, şəhərlər

Bayquşlara fürsət versəydi Allah.

**120.** Dəyişməz bu ölçü, bu dürüst mizan,
Adildi bu hökmü, qanunu yazan.
El qeyrəti çəkər mərdin mərd oğlu,
Gor qazanın oğlu olar, gor qazan.

**121.** Səbrim qalmayıbdır, yoxdur tavanım,
Lütfündür, rəhmindir, dava-dərmanım.
Yüz loğman dərdimə bir əlac etməz,
Səndən başqasına yoxdur gümanım.

**122.** Sənsizəm, gecəmin yoxdur səhəri,
Həsrətin canımı alır, ey pəri.
Üzümə xoşbəxtlik qapısını aç,
Qapım taybataydır səndən ötəri.

**123.** Gəl, sənin lütfünlə, kəramətinlə;
Səfalı, şəfalı mərhəmətinlə,
Ya rəhm elə, yetir məni vüsala,
Ya da öləcəyəm, yar, həsrətinlə.

**124.** Ləblərin noğuldur, dilin şəkərdir,
Əndamın güllərdən təzədir-tərdir.
Sənlə bu dünyanın cənnətindəyəm,
Sənsiz günüm cəhənnəmdən betərdir.

**125.** Ellə şad olmaqdır əsil səadət,
Eldən ayrılmaqdır ən ağır möhnət.
“Gəzməyə qərib el”, - deyənə uyma,
Eldə öl, qürbətdə yaşama, Binnət.

**126.** Dilimdə ah, gözündə mən gəzirəm,
Sinəmdə dərd, qəlbimdə qəm gəzirəm.
O deyə, mən deyəm, dərdləşək bir az
Özüm kimi bir bəxti kəm gəzirəm.

**127.** Tabım-təvanım yox, bir səsəm sənsiz,

Kölgəyəm, bir quru nəfəsəm sənsiz.
Səninlə dünyanın ən xoşbəxtiyəm,
Heç kəsəm, heç kəsəm, heç kəsəm sənsiz.

**128.** Həsrətin yandırır qovurur məni,
Kül edir, göylərə sovurur məni.
Taqətim qalmayıb, hardasan, sənsiz
İntizar teyləyir, qəm soyur məni.

**129.** Yandırırsan yandır, yanıb tökülüm,
Külüm üstə lap qaytağı get, gülüm.
Gecə qucağında əsirin olum,
Gündüz mənə nə edirsən et, gülüm.

**130.** Mizanı pozulub alıb satanım,
Sözünə baxmayır oğul atanın.
Açıqdır üzünə hər qapı indi,
Çuğulun, paxılın, ara qatanın.

**131.** Necə bəd fəsildi, necə nəs ildi,
Ağlamaqdan səsim-ünüm kəsildi.
Yayda qonağımız olan namərdlər,
Qışda xalqımıza qəmim kəsildi.

**132.** Vurub bir-birinə eli-elatı,
Qatıb aralığı bir alaçatı.
Bu nifaq salanın, ara qatanın
Elə çalasıdır bilinmir zatı.

**133.** Zamanın kələfi dolaşıb yenə,
Məhəl qoyan yoxdu qanuna, dinə.
Qurda tapşırırlar qoyun-quzunu,
Tülkünü gözətçi qoyurlar hinə.

**134.** Dərd gül-çiçək deyil sarala-sola,
Qar deyil əriyə, su deyil dona.
Yapışsa, yaxandan əl çəkən deyil,

Amandır, yaxanı tanıtma ona.

**135.** Açılmaz tilsimdir dünyanın sirri,
Onu aça bilməz Tanrıdan qeyri.
Vurulma hüsnünə, bu füsunkarın,
Batini iblisdir, zahiri pəri.

**136.** Kim ki, zövq almayır mübarizədən,
O, zövq ala bilməz heç vaxt heç nədən.
Ölüb, cəhənnəmdə yanıb, kül olmaq,
Min dəfə üstündür hər köləlikdən.

**137.** Bəsdi, neçə ildir şəhidlər üçün,
Ağladıq, sızladıq hey için-için.
Öc alaq, ya şəhid olaq. Şərəfdir
Öc almaq, şəhidlik igidlər üçün.

**138.** Əlimdən çıxıbdır dəmim, dəmxanam,
Yapışıb yaxamdan qəmim, qəmxanam.
Gəl, gör nə haldayam. Hardasan-harda?
Yetiş imdadıma, hamim, həmxanım.

**139.** Ürəkdir sevginin ülvi məbədi,
Sevməyənlər bilməz eşq, sevgi nədi.
Çoxunun sevgisi toya qədərdi,
Sevənlər bir-birini sevər əbədi..

**140.** Sevgilim, ayırmaz ölüm mələyi,
Bir sevgiylə vuran iki ürəyi.
Məhəbbət, mərhəmət, sədaqət, ümid
Heç vaxt tərk etməyir təmiz ürəyi.

**141.** Çoxları deyirlər: - kefimiz çağdır,
Bizim evimizdən söz-sov uzaqdır.
Xudbinlə, bədxahla ailə qurub,
Candərdi dolanmaq yaşamamaqdır.

**142.** Elə etmə səndən çəksinlər haşa,

Elə ol məclisdə çəksinlər başa.
Zalımlar içində kölə, qul olma,
Get bir cəzirədə tək, azad yaşa.

**143.** Hər səni görəndə lal olur dilim,
Görməyəndə elə ün salır dilim.
Görüşün də dərddi, ayrılığın da,
Məni bu dərdlərdən qurtar, sevgilim.

**144.** Dərd udub, qəm yeyib, yenə bu axşam,
Göz yaşımı içib, sərxoş olmuşam.
Halım pərişandı, sənsiz qalalı
Kədərlə, möhnətlə yoldaş olmuşam.

**145.** Canımdan keçərəm mən səndən ötrü,
Fəda eləyərəm yolunda ömrü.
Məcnun mat qalardı məhəbbətimə,
Əgər Leyli olsan sən məndən ötrü.

**146.** Sevənlər vəfalı olar hər zaman,
Qorxmaz məhəbbətin imtahanından.
Əhdə sədaqətli əsil aşiqlər
Sevgilisi üçün keçər canından.

**147.** Nə qızıl bilərzik, yaqut sinəbənd;
Nə almaz həmail, zümrüd bazubənd,
Nə ləl-cavahirdən düzəlmiş taxt, tac
Hamısı bir busənə dəyməz, ləbi qənd.

**148.** Düz danış, əl götür yalançılıqdan,
Dələduzçuluqdan, böhtançılıqdan.
Comərd ol, kamil ol, yaxşı ad qazan,
Ölüm şərəflidir bədnamçılıqdan.

**149.** Sona öz tayına xəyanət etməz,
Bir an da tayından uzağa getməz.
Göyərçin də tayı öləndən sonra

Başqa tay sevməyə heç vaxt cəhd etməz.

**150.** Eşqindən məcnundan da betər bir divanəyəm,
Həsrətindən pətəktək qəlbi şanə-şanəyəm.
Hələ sənin hüsnünə çoxu heyran olacaq,
Mən sənin atəşinə yanan ilk pərvanəyəm,

**151.** Eşqindən üzülmüşəm, tabım-təvanım yoxdur,
Sənsiz ruham, kölgəyəm, canımda canım yoxdur.
Məcnun Leyliyə yaxın bir səhrada gəzirdi,
Gündə bir səhradayam, yerim-ünvanım yoxdur.

**152.** Bu dünyanın cəlalına aludə oldu çoxları,
Enişindən, yuxusundan bezdi, yoruldu çoxları.
Fələkdən sədaqət umma, yoxdu onun etibarı,
Mala, mülkə, şan-şöhrətə əbəs vuruldu çoxları.

**153.** Yaltaqlıqla, hiyləylə, xəyanətlə, zər ilə
Vəzifə, rütbə alır alçaqlar, biclər, hələ,
Mənsəb, rüşvət xar edir ədaləti, qananı,
Dünyada məzlumların haqqı tapdanır hələ.

**154.** A bədxah, qara qəlbin qeybət dağarcığıdır,
Danışdığın hər kəlmə zəhrimardan acıdır.
Üz gözündən tökülür fitnə-fəsad, hiylə, şər,
Böhtan, iftira yayan dilin sənə yağıdır.

**155.** Könlümün dərdləriylə yalqızam qəm mülkündə,

Nadürüstlər dərdimin üstə dərd qoyur gündə.
Bu gün mənə dərd verən qədirbilməzlər sabah
Ölsəm, ağlamasınlar məzarımın üstündə.

**156.** Fələk zülmkarları bəzəyir, əzizləyir,
Məzlumlara zülm edir, yamaq altda gizləyir.
Varlıların varımın üstə, hər gün var gəlir.
Kasıbları ehtiyac, azar, xata izləyir.

**157.** Qəlbimdəki dərdləri diyə bilməz dil, ağız

Çəkdiyim qəmi-qüssəni yazsam, alışar kağız.
Azadlıq uğrunda şəhid oldu dostlarım,
Bu yasxana dünyada məni qoydular yalqız.

**158.** Çərx yazanı pozmağa cəhd eləməyə dəyməz,
Yatan bəxdən inciyib, gileylənməyə dəyməz.
Ya yağıdan qisas al, ya da sındır boynunu,
Düşmənin qabağında boyun əyməyə dəyməz.

**159.** Bu dünya pəncərəsiz soyuq zindana bənzər,
Çölündə zorlu zalım, içində məzlim qərəz
Necə ki, canın sağdır olma heç kimə möhtac,
Möhtaclıq ovcunda səni mum kimi əzər.

**160.** Pərdəymiş bu dünyanın bəzəyi, təmtərağı,
Bir qəpiyə dəyməzmiş nə içi, nə qırağı.
Əvvəl min-min baş kəsir cəlladtək qanlı əli,
Sonra qətl olanlara məzar qazır ayağı.

**161.** Ömrün payızındayam, az qalıbdır qışıma,
Qırov düşüb üzümə, qar yağıbdır başıma.
Azadlıq uğrunda şəhid oldu dostlarım,
Mərsiyə deyə-deyə qərq olmuşam yasıma.

**162.** Dodağına qıfıl vur, sözünü dustaq elə,
Qeybəti, böhtan sözü heç vaxt gətirmə dilə.
Çalış yaxşı insanlar səndən inciməsinlər,
Pisliyi, bədxahlığı özünə yasaq elə.

**163.** Haqq ədalət görmədim ədalətsiz dünyada,
Məhrumiyyətlə dolu mərhəmətsiz dünyada.
Dilimizlə sözümüz ağzımızda dustaqdır,
Candərdi yaşayırıq hürriyyətsiz dünyada.

**164.** Müşküldür camalını sözlə vəsf etmək, afət,
Baxışın aldı canım, məndə qalmadı taqət.
Hüsnünü mədh etməyə çatmaz mənim qüdrətim,

Səni ilahi nurdan xəlq eləyibdir xilqət.

**165.** Gücə-gündüz ahımla fələyi kar etmişəm,
Leysanla bəhsə girib, yaşımı car etmişəm.
Həsrətindən, əzizim, yatmamışam sübhədək,
Ağlayıb, nalə çəkib, mən ahu-zar etmişəm.

**166.** Mədhiyyə yazanların artır şanı-şöhrəti,
Düzü-düz yazanların yoxdu qədir-qiyməti.
Yaxşısını da, pisi də şişirtməyin həddi var,
Nə məddah, nə qəddah ol, Binnət, yar həqiqəti.

# BAYATILAR

***Əhməd Cavadın Bayatılarına nəzirə***

Qalxdım yarın səsinə,
Gül düzdüm sinəsinə,
Canımı qurban verrəm,
Yarın xoş kəlməsinə.

Yar qalasa ocağı,
İsidər hər bucağı.
Yara cənnətdən xoşdur
Sevimli yar qucağı.

Saz aldım ki, aşiq ol,
Mənə sadiq aşiq ol.
Mənə ömür yoldaşı,
Evimə yaraşıq ol.

Yandım eşq ocağında
Ömrümün hər çağında.
Can alana can verrəm
Cananın qucağında.
Qoşulub tay-tuşuna,
Vəsmə yaxıb qaşına,
Nə halıma acıyır,
Nə baxır göz yaşıma.

Bağban "bar",-deyib ağlar,
Xəsis "var", - deyib ağlar.
Nə bar istər, nə də var,
Aşiq "yar", - deyib, ağlar.

Dilbər, qaşın kamandır,
Süzgün baxma, amandır,
Həsrətinə dözmərəm,
Getmə, halım yamandır.

Gedəm yarı görməyə,
Zülfünə gül hörməyə,
Sevgilimlə görüşəm,
Qardaşları görməyə!
Hasardan aşdım bağa,
Yar yanında olmağa,
Yarım bir büsə versə,
Canı verrəm sadağa.

Mən şeir yaza-yaza,

Vuruldum sözə, saza.
Yazıq deyilmi qanan,
Həmdəm ola qanmaza?

Bir qızıl beşlik olam,
Yara peşkəslik olam,
Sinəsinə sinəbənd,
Döşünə döşlük olam.

A gözü, qaşı qara,
Zülfünü yana dara.
Aramızı vuranı
Əcəl aparsın gora!

Şənlənərəm şən olsan,
Sən mənə həmdəm olsan,
Hər dərdi unudaram,
Yar, yanımda sən olsan.

Üz tutum hara deyin?
Dərdimə çara deyin.
Anam, bacını uzadır,
Dərdimi yara deyin.

Bir çıx el arasına,
Get toyuna, yasına,
Bir baxışın məlhəmdir
Yüz aşiq yarasına.

Bağça səndə, bar səndə,
Alma, heyva, nar səndə.
Qoynun cənnət bağıdır
Nə istəsəm var səndə.

Belə bəzənib çıxma,
Məni yandırıb yaxma!
Hər baxışın can alır,
Can alan, elə baxma.

Yar məndən elə döndü,
Göz yaşım selə döndü.
Hicranın zindanında
Hər anım ilə döndü.

Toyda-toya gəlmədin,
Vayda-vaya gəlmədin.
Yandım, el hoya gəldi,
Barı, hoya gəlmədin.

Əzizim, yadda saxla,
Bir olmaz gəda şahla.
Aşiqin, heyranınam,
Ya öldür, yada saxla.

Fitnəyə-felə düşdüm,
Şərə, əngələ düşdüm.
Sözbaz, dilin qurusun!
Ağıza-dilə düşdüm.

Sınsın əl, gül yolansa,
Gülü hər gün yolansa,
Mən yara qurban ollam,
Yar məni bir yol ansa.

Bəzənib gəzəsə də,
Bağda gül üzəsən də.
Aşiqə canansan da,
Meysən də, məzəsən də.

Gəl, a qaşı hilalım,

Hüsnündən ilham alım.
Nazın çoxdur, rəhmin az,
Qəlbin daşdırmı, zalım?

A söhbəti məzəli,
Elimizin gözəli.
Binnət candan əl üzər,
Heç səndən üzməz əli.

Dərdim aşıb-daşdı, gəl,
Qəm başımdan aşdı, gəl.
Mən dərd-qəm əlindəyəm,
Qoyma gözüyaşdı, gəl.

Hər baxışı qan edir,
Məni yolumdan edir,
Mən ona "Can" deyirəm
O məni candan edir.

Bülbül uçdu uzağa,
Gül dözmədi bu dağa.
Fərhad olub, dağ dəlləm,
Yarım gəlsə bu dağa.

Yar qara bağlamasın,
Nə də yas saxlamasın.
Toyumda oynamayan,
Yasımda ağlamasın.

Yarın zülfü qaradı,
Daraq aldı, daradı.
Yar həsrəti çəkməkdən
Ciyərim sədparadı.

Yarın dili şəkərdi,
Hüsnü aydı, ülkərdi.
Belə yarı olanın
Nə kədəri, nə dərdi?

Dünyanın qəmi gəldi,
Dərdli, sinəmi dəldi.
Dözün ayrılığıma,
Ayrılıq dəmi gəldi.

Çox düşdüm yar dalınca,
Canımda can qalınca.
Candan cəzana gəldim
Yardan bir "hə" alınca.

Sənsiz otağım ağlar,
Bostanım, bağım ağlar.
Hardasan? Əhvalıma
Görəndə yağım ağlar.

Dondum qarın içində,
Yandım gorun içində.
Yazıq canım çürüdü
Nadanların içində.

Yarın gözü aladı,
Qaşları ayparadı.
Odlanıram, həsrəti
Məni oda qaladı.

Yarın yanağı aldı,
Hüsnü ağlımı aldı.
Dəhəni şəkər, sərvət
Ləbləri qəndi, baldı.

Min dərdim var çarəsiz,

Yar yanına varasız.
Yanıma gəlsin deyə,
Yarıma yalvarasız.

Yara nurlu ay olam,
Yoluna işıq salam.
Sinəsinə sinəbənd,
Bağban barsız qalmaya,
Tarzən tarsız qalmaya.
Hamı sevə, sevilə,
Heç kim yarsız qalmaya!

Nazın səbrimi kəsdi,
Azalt nazını bəsdi.
Xoş gəlibsən, şam sönüb
Hüsnüyün şoxu bəsdi.

Telini dara hələ,
Geyin al xara hələ
Hələ ki, ölməmişəm,
Geyinmə qara hələ.

Keyi qanan qandırar,
Səyi el dolandırar.
Vəfalı aşiqini
Vəfasız yar yandırar.

Qış yeli bağa düşdü,
Güllər sazağa düşdü.
Fərhad öldü, Şirinin
Naləsi dağa düşdü.

Gün düşdü qar qalmadı,
Əridi tar qalmadı.
Yar yolunda can qoydum,
Belinə kəmər olam.

Bizim elin qızısan,
Taleyimin yazısan,
Binnətin günəşisən,
Ayısan, ulduzusan.

Qeydimə yar qalmadı.

Xoşbəxtsən, günün ağdı,
Dərdin yox, canın sağdı
Sinəmdə sağalmayan
Sənin çəkdiyin dağdı.

Su axar düzə sarı,
Göz baxar gözə sarı.
Yola xalı döşərəm,
Yar gəlsə bizə sarı.

Nadan qınar aşiqi
Eləyər xar aşiqi.
Yandırar, kül eləyər
Vəfasız yar aşiqi.

Yalqızam, yerim-ada,
Salan yox məni yada.
Həsrətindən yanıram,
Zalım yar çatmır dada.

Quzey günə həsrətdi,
Güney çənə həsrətdi,
Könlüm söz-söhbətinə,
Gözüm sənə həsrətdi.

Ləbi bal, dili şəkər,

Qənd sənə həsəd çəkər.
Dərdsizə dərdi demə
Dərdi dərdmənd çəkər.

Canıma oldun yağı,
Nəmrud, Şəddad sayağı,
Heç bir zalım çəkməzdi
Sən mənə çəkən dağı.

Nolar, küçəyə çıxma,
Məni yandırıb-yaxma,
Bir yol baxdın od tutdum,
Yazığam, bir də baxma.

Ruhsuz, hissiz taxtasan,
Buzsan, qarsan, şaxtasan,
Yanımda olanda da
Sən məndən uzaqdasan.

Sındırar daş çanağı,
Yandırar yaş yanağı.
Yardan yarımayanın
Açılmaz qaş-qabağı.

Ruhum da, qəlbimdə sən,
Zövqüm də, təbim də sən.
Harada olursan ol,
Həmişə qəlbimdəsən.

## Vətən  Bayatıları

Canım qurban canana,
Söz deməmiş qanana.
Mən burda, sən o tayda,
Qalmışıq yana-yana.

Fələk qəsdimə girir,
Yağıya imkan verir,
Təbrizə həsrət canım
Ölmür, hər gün can verir.

Karvanda nər qalmadı,
Tərlanda pər qalmadı.
Namərdlər eli tutdu,
Mərdlərə yer qalmadı.
Bəd yel əsdi quzeydən,
Çıxammadıq bir öydən,
Yanvarda başımıza
Qurğuşun yağdı göydən.

Yaylağımı qar aldı,
Gülüm soldu, saraldı.
Qaçqın, didərgin oldum,
Yurdumu yadlar aldı.

Kənd köçüb, adı qalıb,
Ev yanıb, odu qalıb.
Belə də zülm olarmı
El köçüb, yurdu qalıb.
Dost-dosta tən yaxşıdır
Hoya yetən yaxşıdır.
Məcnuna öz Leylisi,
Mənə Vətən yaxşıdır.

Ulularım uludur,
Binnət ulu quludur,
Göz yaşım – yaz yağışı,

Sinəm möhnət yoludur.

Yaxam keçib cəllada,
Yetənim yoxdur dada,
İnsafını unudub,
Yağı baxmır fəryada

Əlik səhrada qaldı,
Kəklik qayada qaldı.
El köçdü, gül çiçəkli
Çəmənlik yada qaldı.

Zülm həddini aşdı,
Dərd-dərd ilə calaşdı.
Hər dərdi gizli çəkdim,
Dedilər: - Qəlbi daşdı.

Top dağıtmış qalayam,
Hər dərdə mübtəlayam.
Dərbənd, Təbriz həsrətli
Bağı yanmış laləyəm.

Səhrayam Nil həsrəti,
Bülbüləm gül həsrəti.
Od məni yandırmazdı
Yandırdı el həsrəti.

Var ol, a qarlı dağlar,
Dövlətli, varlı dağlar.
Yurd yağıya qalanda,
Kasıb da, varlı da ağlar.

Quzeydən bəd yel əsdi,
Sazağı bizi kəsdi.
Bakıda qanlar tökdü.
Lənkərana tələsdi.

Dilimdədir yar adı,
Hər şeirimdə var adı.
Vətən dərdi sinəmdə
Qövr eləyən yaradı.

Obam yaylaqdan köçüb,
Ovum ovlaqdan köçüb,
Göyçədə gülüm solub,
Bülbülüm bağdan köçüb.

Dərd ağlımı alıbdır,
Məni çölə salıbdır.
Yurdun başına dönüm,
Yar köçüb, yurd qalıbdır.

Mey səndə, məzə səndə,
Tərsən də, təzəsən də.
Yurduma tay tapılmaz.
Aləmi gəzəsən də.

Kəklik, gəz dağda-daşda.
Sənindir dağ da, daş da.
Mən gördüyüm dərdləri
Görməsin dağ da, daş da.

Sonalar göldə qaldı,
Turaclar çöldə qaldı.
Satqın yurdunu satdı,
Getdi, yad eldə qaldı.

An var gündən gözəldir,
Gün var ildən gözəldir.
Yurduma qurban olum,

Daşı ləldən gözəldir.

Yol yoxuş, yüküm ağır,
Düşmən zalım, mən fağır.
Üstümə od tökülür,
Gözündən yağış yağır.

Bağımda şahtut qaldı,
Dağımda qurut qaldı.
Öl, ay oba yiyəsi,
Oba köçdü, yurd qaldı.

Dərd çəkirəm yüz ildi,
Gözümdən yaş süzüldü.
Elim eldən ayrıldı,
Əlim əldən üzüldü.

Yanvarım qara gəldi,
Yurdum tankla əkildi.
Mərdlərim şəhid oldu,
Sinəmə dağ çəkildi.

Yel əsdi, yarpaq düşdü,
Qar yağdı, sazaq düşdü.
Yağı yolları kəsdi,
Yar-yardan uzaq düşdü.

Barlı bağda bara bax,
Qarlı dağda qara bağ.
Mən salamat qalmayım,
Yada qalsa Qarabağ.

Ordubad, Şahbuz mənim,
Ərdəbil, Təbriz mənim.
Turan, Türküstan elim,
Yurdumdur Tovuz mənim.

Zəhər qatır aşıma,
Qərq edir göz yaşıma,
Qor ələyir, köz tökür
Zalım düşmən başıma.

Bu külək bəd küləkdi,
Əsməsi uzun çəkdi.
Zəmimi toplar biçdi,
Yerimi tanklar əkdi.

Məşəqqətdir həyatım,
Dərd məni qoymur yatım,
Qaçqının naləsidir
Hər ağım, hər bayatım.

Yada bel bağlamazlar,
Ölsə yas saxlamazlar.
Elə xain çıxanın,
Üstündə ağlamazlar.

Sinəmi dağlayan çox,
Yaramı bağlayan yox.
Yağı mərmi yağdırır,
Ölən çox, ağlayan çox.

Yad bizi qırıb-çatıb,
Xalqımın haqqı batıb
Bu elin, bu millətin
Sahibi harda yatıb.

## Cinaslı bayatılar

Binnət Eloğlu

Elin səadəti, ümidi

Bayram düşməz hər aya,
Gülüm, getdin haraya?
Dar günümdə səslədim,
Yetişmədin haraya.

Yemiş tağda saraldı
Soldu tağ da saraldı
Laçın didərgin düşdü
Yuvasını sar aldı.

Dur, bəzən, çıx eləsən,
Haqqın var nə eləsən.
Mən aşiqəm, sən ruhsuz.
Mən belə, sən eləsən.

Qan töküldü qara, bax,
Anam geydi qara, bax.
Ölüm, yar qara geysin
Yada qalsa Qarabağ.

Od düşdü, oda yandı,
Canım hər ada yandı.
Həsrətin ocağında
Mən yandım, o da yandı.

Bülbüləm, gülsən, Bəsdi!
Saçı sünbülsən, Bəsdi!
Dərdimə dəva gəzmə,
Üzümə gülsən bəsdi.

Mən aşiq bir də dəri,
Biz əkən, bir də dəri
Yar həsrəti yarı edər
Bir sümük, bir də dəri.

Könül verdi yar yara,
Bir gül verdi yar yara.
Yarama naşı həkim
Toxunmaya, yar yara.

Namə yardı yar yara,
Vermədi əğyar yara.
Yağı atdı oxunu,
Oxdan aldı yar yara.

Talandı göy çəmənim,
Göy çölüm, göy çəmənim.
Göyçə gölü yaşımdır,
Gözümdür Göyçə mənim.

Yad aldı göy çəməni,
Göy çölü, göy çəməni.
Mən onunam, o mənim,
Tərk etməz Göyçə məni.

Mərd öldü göy çəməndə,
Yas tutdu göy, çəməndə,
Ürəyimdə yurd salıb,
Yaşayır Göyçə məndə.

Ağlar keçir hər ayım,
Hər fəslim, hər ayım.
Aranı Araz kəsib,
Dosta çatmır harayım.

Mey səndə, məzə səndə
Meysən də məzəsən də
Mən səni sevdiyimtək
Sev məni, Məzə, sən də.

Araz dərdli, Kür dəli,
Dərddən olub kurd dəli.
Çoxdan həmdərd olublar
Binnət ilə Kürd Əli.

Yar könlünü yar alar,
Yar bəxşişi yara alar.
Həsrətindən sızlayar
Sinəmdəki yaralar.

Salmısan dərdə məni,
Qoymusan dərdə məni,
Kim görüb, harda görüb
Mənimtək dərd əməni?

Dura, dayana Araz,
Axır ha yana Araz?
Qorxuram ki, ah çəksəm,
Dona Kür, yana Araz.

Zindanım sərt daşdandı,
Gözümdən yaş daşdandı.
Yarı qəlbidaş gördü,
Daşlığını daş dandı.

Hər düşəndə sazaqlar
Titrəyər nasaz, ağlar
Dərdimi sazla desəm,
Sim sızıldar, saz ağlar.

Sadiq ola yar anda,
Olmaya bir yaran da
Yarım yanımda ola
Təbib məni yaranda.

Gülü vaxtsız üzmə, yar.
Qəm bəhrində üzmə, yar.
Gedirəm, qayıdacam,
Ümidini üzmə, yar.

Həsrətin od oyandı,
Sənsiz ev, oda yandı.
Soruşma ürəyimi,
Hicrindən o dayandı.

Ya leysan ol, ya da dam.
Ya eyvan ol, ya da dam.
Sənə arxa mən ollam,
Ola bilməz yad adam.

Sus, demə, keçi, “nərəm”,
Sənsiz də keçinərəm.
Yurdum yağıya qalsa,
Çatlaram, keçinərəm.

Dağda yamac var, yal var
Atda bircək var, yal var
Yarın səndən küsübsə,
Sən küsmə, barış, yalvar.

Deyiləm sənə yad adam,
Ver ya dəyə, ya da dam.
Evimizi uçurub,
Yarım, tikmə yada dam.

Belə kəmər dolanar,
Kasıb güclə dolanar.
Vəfalı yar yarının
Başına da dolanar.

Elə ağgün dilə sən,
Düşmə yaman dilə sən.
Üzünü Tanrıya tut,
Allahdan nə diləsən.

Kömək elə, ya Tanrı
Bizim elə, ya Tanrı
Sevirsənsə, yat bəri,
Sevmirsənsə, yat anrı

Gəlsin varlı on adam,
Tikək buna, ona dam.
Öyünmərəm, olsa da
Hər dənizdə on adam.

Bu dağın qarı azdı,
Şahin-şunqarı azdı.
Vara, şöhrətə uyan,
Qız çoxdu, qarı azdı.

Ver varı, al dodağı,
Yaquttək al dodağı,
Qucasan güləndamı,
Öpəsən bal dodağı.

Geyibsən qara çəkmə,
Qaşına qara çəkmə,
Adımı qəlbinə yaz,
Üstündən qara çəkmə.

Çox şükür bəng, nas azdı,
Bəng atanlar yolu azdı.
Bəngilər, nas atanlar
Xəstəhaldı, nasazdı.

A qəlbi qara düşmən,
Öl, yıxıl qara, düşmən.
Məni həsrət qoyubsan
Şəlvə, Qarqara düşmən.

Süd göləndə üz, yarım,
Ətirli gül üz, yarım.
Mənim ilham pərimsən
Gözəl, güləruz yarım.

Güc verdikcə qara yel
Artar ayaz, qar, ay el,
Yurdumuza quzeydən
Çox əsib bəd, qara yel.

A teli, qara yaram,
Düz ol ilqara, yarım.
Niyə məndən soyuyub,
Dönmüsən qara, yarım.

Qövr etdi, yara yandı
Yar xəstə yara yandı
Bir güləruz, şirinsöz
Dərdimə yarayandı.

Yox ol, a qarı düşmən,
İtir vüqarı, düşmən.
Evmi yıxıb, üstümə
Qaladın qarı, düşmən.

Tərs yatsın oyanmasın,
Ayaqaltı oyammasın,
Mən yandım, barı, yarım
Yaşasın, o yanmasın.

Mənə yaydı, yara yaz,
Dost, halımı yara yaz,
Yayda yaram sağalmaz,
Təbib məni yara yaz.

Arxaydı elə atam,
Nə evəm, nə elatam.
Düşmən gözünə dəyə
Gülləni elə atam.

Nə qış, nə qara yazdı
Qış girib, qar, ayazdı.
Yar ürəyindən silib,
Adımı qara yazdı.

Zəhmət çəkən tər salar
Tərs yolunu tərs salar
“Dost”-deyib, düşmən olub
Daim bəzə tərsalar.

Bu əlifdi, o daldı,
Bu ağacdı, o daldı.
Yandım, odsuz qalanlar
Odluğumdan od aldı.

Müqəddəsdir el, atam,
Xəznəm ola, elə atam
Mən Binnət Eloğluyam
Yurd anamdı, el atam.

Bir azca naçağam mən,
Şər işdən qaçağam mən.
Elə xain baxanın
Gözünə bıçağam mən.

Qurbanlığa tap dana
Onu kəsdir tapda, ana,
Torpağım tapdanmaya,
Düşmən yurdu tapdana.

Alov çatmaz o dala,
Ziyan vurar od dala
Yandım ki, od gəzənlər
Atəşimdən od ala

Çox təpə var, çox yalvar,
Çox yaltağa, çox yol var.
Yar küsüb, barışmırsa,
Çox minnət et çox yalvar.

Saça gül düzə-düzə,
Telni az dağıt üzə.
Həsrətindən ah çəksəm,
Döndərrəm dağı düzə

Ya Rəbb, varmı az dərdli?
Qış dığ olduq, yar dərdli,
Nə vaxtacan olacaq
Kür dəli, Araz dərdli?

İgid gəzdim şam ilə,
Sərv eynidi şam ilə.
Nola ya Babək olam,
Ya tay olam Şamilə.

Alov yanar, od ağlar,
Yarsız ev, oda ağlar.
Qəlbidaş sözə baxmır,
Mənə çəkir o dağlar.

İgid, bir yol aç elə.
Xalqa bir əlac elə.
Öz elinə şam olma,
Günəş ol, nur saç elə.

Sındırar daş çanağı,
Yandırar yaş yanağı.
Yardan yarımıyanın
Açılmaz qaş-qabağı.

At dəryazı, tapdağı,
Axtar, ara, tap dağı.
Qalib ol, qoyma elin
Ola yağı, tapdağı.

Bürünübsən qara, bağ.
Rədd olacaq qar, bağ
Mən ölüm, yar yas tutsun
Yada qalsa Qarabağ

Qar əvvəl dağa düşər,
Sonra otlağa düşər.
Köç geri qayıdanda,
Axsaq qabağa düşər.

Mən bülbüləm, sən gülsən,
Ətirli süsən gülsən.
Mən hamıdan şən ollam
Sən danışsan, sən gülsən.

# AZADƏLƏR

*Azadə - Bitkin fikir ifadə edən və müstəqil işlənə bilən misra, Məzmunca başqa, bir misra ilə birləşməyə möhtac olmadığı üçün Azadə adı almışdır.*

İgid eli satmaz, nə bağışlanmaz.

***

Nadanın eybini, libası örtməz.

***

Kəskin ağıl qılıncdan, ülgücdən də itidir.

***

Xəyallar bağlayıb dünyaya bizi.

***

Naçara yüz dərman çarə eyləməz.

***

Ömrün düşməni qəmdir, kədərdir.

***

Məhəbbət olmayan evdə səadət olmaz.

***

Hökmdən güclüdür sərrast bir eyham.

***

Eşqin mənasını bilməz hər naşı.

***

Vətən əziz tutur qəhrəmanları.

***

Şahları məhv edər hirs, kin-küdurət.

***

Ailənin düşməni qısqanclıq, xəyanətdir.

***

Qorxaqda cürət, zalımda mürvət olmaz.

***

Ən şərafətli vəzifə – elə xidmət etməkdir.

***

Bir xəstə sağaltmaz yüz naşı həkim.

***

Ailənin ilk dostu, xoş ülfət, sədaqətdir.

***

Qənaət olmayan evdə bərəkət olmaz.

***

Əyilmədim, sındırdılar zor ilə.

***

Çeynəyib kədəri uda bilmirəm.

***

Sınmaq əyilməkdən asandı mənə.

***

Ən şərafətli ölüm – el uğrunda ölməkdir.

***

Həsrət can yandıran alovdu, oddu.

***

Yüz pislikdən bir yaxşılıq yaxşıdır.

***

Kasıbda sərvət, varlıda rəhmət olmaz.

## Yetim beytlər - tək beytlər

*Yetim beyt – yalnız bir beytdən ibarət olan kiçik şeir. Belə beytlərə fərd də deyilir.*

Tökülsün dərdlərim dərdin başına,
Dərd özü qərq olsun öz göz yaşına.

***

Müəmmalı dünya, hoqqabaz fələk
Aldadıb başımı, yozdu uşaq tək.

***

Halal ruzusuna qənaət edən,
Bir parça çörək də ummaz  heç kimdən.

***

Kim uysa, tamahın fitnələrinə,
Girdaba qərq olub, batar dərinə.

***

Əlinə düşəndə fürsət namərdin,
İşgəncəylə alar canını mərdin.

***

Nadanlar yanında istedad, ağıl
Pulla, vəzifəylə ölçülür, oğul.

***

Bu gün üzə varı deyilən tərif.
Sabah danılacaq öyünmə, hərif.

***

Həsrətin əlacı vüsaldır ancaq,
Ölsün yarı-yardan ayıran alçaq!

Kasıbın daxmasında heç şey yoxdursa, ancaq
O evə girən oğru əli boş qayıdacaq.

***

Ehtiyac, səfalət, kasıblıq, zülm,
İçində yaşamaq ölümdür, ölüm.

***

Rütbəyə, sərvətə həris olanlar,
Olmuşdur, olacaq, bu gün yenə var.

***

Sabunla yusan da il zəncini,
Dəyişə bilməzsən onun zəngini,

***

Aşiqə bəxşişdir sevgi, məhəbbət
Eşqin bəzəyidir ümid, səadət.

***

Alqışa layiqdir sona, göyərçin
Yarlarına sadiq olduqlarıyçün.

***

Eşqin günəşindən yayılan işıq,
Bizi bu dünyaya eləyib aşıq.

***

Şanlı tarixində Azərbaycanın
Yaşar şanlı adı hər qəhrəmanın.

***

Yuxusuz gecələr sabaha kimi
Qorxu, həsrət, əzab üzür qəlbimi.

***

Ayrılıq həsrəti, kədəri, qəmi
Sübhədək yatmağa qoymayır məni.

***

Kimin ki, həsrəti başımdan aşır,
Fikri alt-üst olur, xəyalı çaşır.

***

Şadlığma, şənliymə sədd çəkib kədər,
Hər gecəm, gündüzüm keçir mükəddər.

***

Qorxulu, zəhmli nəzərlər hər gün,
Dincliyimi əlimdən alır büsbütün.

***

Hamıya rahatlıq arzulasam da,
Rahat olmamışam bir an dünyada.

***

Qorxulu çəngində qəzəbin, kimin
Bircə an da üzü gülməz heç kimin.

***

Elmlə poladı əyə bilərsən,
Səndən güclünüdə döyə bilərsən.

***

Bu acı qəmlər şirin xatirəyə dönəcək
Haçan peşiman olub yar geriyə dönəcək.

***

İçib göz yaşımı sərxoş olmuşam,
Mən sənsiz olanda hər səhər-axşam.

***

Ölüm, sevgi, həsrət, xof olmasaydı həyatda,
Gərəksiz və mənasız görünərdi həyat da.

***

Qəlblərin buzunu əritmək üçün,
Günəş ol, qəlblərə nur çilə hər gün.

***

İnsana vicdanı nəzarətçidir,
Vicdansızlar bilməz ədalət nədir.

***

Nadana saralmış bir yarpağam mən,
Qanana bəhrəli bağça-bağam mən.

***

Allah təbsizlərin üzünə baxıb,
Hərəsinin 5-10 kitabı çıxıb.

***

Ağıllı ağlını itirə bilməz,
Dəli-divanədir ağlı itən kəs.

***

Susuram qəlbim yanır,
Dinirəm dilim yanır.

***

Sözlərim misraya düzülmüş ləldir,
Misralarım bir-birindən gözəldir.

***

Fərəhlə keçməyir bir anım sənsiz
Gülüb, sevinərmi sevən sevənsiz?

***

A şeir yazmağa göstərən maraq,

Şeir ziyafəttək sevir təmtəraq.

***

Parakəndə qoşun qazanmaz zəfər,
Əsgərlər birləşib, olar müzəffər.

***

Tövbə et, bir daha eyləmə günah,
Tövbə edənləri əhv edər Allah.

***

Səfehdən şah olmaz, axmaqdan darğa,
Odunçunu bağban qoymazlar bağa.

***

Dünən köhnə paltarımı geyənlər,
Bu gün təzə paltarımı bəyənmir.

***

Öz qarnını güdənin, qarnı toxdu, gözü ac,
Xəsis-simic gədənin varı çoxdu, özü ac.

***

Qılıncdan itidir ağlın kəsəri,
Döyüşdə ağıllı çalar zəfəri,

***

Kim sənə birinin sirrini desə,
Sənin də sirrini deyər hər kəsə.

***

Hansı evdə arvad əri, övlad saymır atanı,
O evdən əskik eləməz Tanrı dərdi, xatanı.

***

Yorulmaz heç zaman təbimin atı,
Yorulub, yatıbdır bəxtimin atı.

***

Nə olar, çıxanda hərdən qarşıma,
Rəhm elə gözümdən axan yaşıma!

***

Sanma ki, səadət mülküdür cahan,
Hamı gözüyaşlı ayrılır ondan.

***

Tikə olub, boğazımda qalıbdır,
Udammıram ayrılığın dərdimi.

***

Yandı canım korun-korun,
Yolunda bədxah nankorun.

***

Ocaqda yan od, alov ol,
Küllük külü olma, könül.

***

Sorma qəflətdə olandan: - Xeyir nədir, şər nədir?
Qulağı kar nə bilər ki, səs nədir, səmir nədir.

***

Vətən, düşməninə qəbir qazaydım
Mən sənə ən yaxşı şeir yazınca

***

Sevsə, eşq oduna yanar naşı da,
Məhəbbət dindirər dilsiz daşı da.

***

Bizi xar elədi ayrı-seçkilik
Sındıq, paralandıq biz çilik-çilik

***

Ayıra bilməyən namərddən mərdi,
Çəkər hər əzabı, ağrını, dərdi.

***

Üzü qara oldu, ömrü puç oldu,
Zamanın üzünə ağ olanların

***

Dağdan da ağırdı həsrətin daşı,
Həsrətdən axmaya gözlərin yaşı!

***

Yallanıb, qudurub arxalı yağı,
Silahlanıb, kəsib yolu-yolağı.

***

Yaltaq yeyər yaltaqlanar,
Axmaq səni axmaq sanar.

***

Kor özündən ağıllını görməyən,
Kar da ağıllını eşitməyəndir.

***

Qısqanclıq olan ailədə,
Xoşbəxtlik ola bilməz.

***

Ailənin düşməni qısqanclıqdır, xəyanətdir,
Yaxın dostu inamdır, məhəbbətdir, sədaqətdir.

# MONOSTROFALAR

*Monostrofa - Bir bənddən ibarət kiçik şeir forması. İki (yetim beyt), üç və dörd misralıq müstəqil şeirlərdə MONOSTROFA adlana bilər.*

Paxıllıq, xəbislik bir ürəkdəsə,
O ürək əməliyyat olunmalıdır.
Fərq qoya bilmirsə yaxşıya, pisə,
O ürək sahibi malın-malıdır.

***

Fitnəkar paxıllar, sözbaz xəbislər,
Hər sözü böyüdüb, dastan edirlər.

Arxa-qahmar olub pislərə-pislər,
Yarı-yardan, dostu-dostdan edirlər.

***

Nankorun, namərdin, etibarsızın
Niyyəti bəd olar, fikri-xəyanət.
Riyakarın, fitnəkarın, arsızın
Amandır, şərindən uzaq ol, Binnət.

***

Ata məzəmməti acı olsa da,
Sizə faydalıdır, ay üç övladım.
Nə vaxtsa hansınız xəstə olanda,
Elə bil qırılır qolum-qanadım.

***

Mal alim olardı oxuya bilsə,
Bilmək istəməyən xərdən də xərdi.
Bir şey öyrənməyi sevməyən kəsə,
Gündə yüz yol "öyrən", -demək hədərdi.

***

Bir söz məhrumdursa duyğudan, hisdən,
Nə dilə gətirmə, nə də ki, yaz sən.

Ürəkdən gəlməyən bir misra, bir söz,
Heç vaxt ürəklərə yol tapa bilməz.

***

Deyirdim: - Poladam, əyilmərəm mən,
Kürədə qızdırıb, döyürlər məni.
Zindanın üstündə ağır gürz ilə,
Əyri olmaq üçün əydilər məni.

***

Zəhləmi aparır böhtan, iftira,
Ara söhbətləri, hay-küy, qalmaqal.
Çox xoşuma gəlir, yumor, satira
Məntiqli, mənalı atmaca, sual.

***

Qalib ordusuyla, sərkərdəsiylə
Qorunar, öyünər müstəqil dövlət.
Ali qanunlara, adil şahıyla,
Abad olar ölkə, şad olar millət.

***

İnsan sevinər də, kədərlənər də,
Dünən yasda olan bu gün toydadır.
Duyğulu insanın dərd çəksə dərdi,
Sevinsə, sevinci, dünya boydadır.

## Səməd Vurğuna

Böyük şair, şagirdinəm, əsərlərindən
Dərs öyrənib, özünlə də yarışacağam.
Əgər bir gün yaxşı şair sayılsam da mən,
Heykəlinə baş əyəcəm, necə ki, sağam.

***

Məni yaratmağa çağırır həyat,
Arzular ruhuma verir qol-qanad.
Gözümdə qalmaya, ya Rəbb, bu murad.
Bayronu keçməyə bir niyyətim var.

## Qoçaq Ümid, gəl

*(poema)*

*Xalqınmızın arzuladığı xilaskara*
*və əziz nəvəm Ümidə ithaf*

Salam,qoçaq Ümid, hər vaxtın xeyir,
Hamı sənə uzun ömür diləyir.
Millət: - “Oğul köməyimə gəl,” - deyir,
Gül-çiçəklə pişvazına çıxaq, gəl,
Əllərini məhəbbətlə sıxaq, gəl.

***

Gəl, millətin səndən kömək istəyir,
Yoluna gül, xalı sərmək istəyir,

Müxaliflər yurdu bölmək istəyir,
Dərdimizdən, halımızdan agah ol,
Vətəninə, millətinə pənah ol.
***
Yetiş dada, üzü dönmüş zamana,
Yaxşıları möhtac edir yamana,
Yurd dağılır, salan yoxdur sahmana,
Hərə öz başının hayına qalır,
Aclıq, azar xalqı taqətdən salır.
***
Sənsiz köçkün, qaçqın, didərgin olduq,
Harda qaldın, "Gəl"- deməkdən yorulduq,
Gəl, yolunu yolunu gözləməkdən yorulduq,
Gəl görüşək, salamlaşaq yenə biz
İnanırıq, güvənirik sənə biz.
***
Eli saxla, Allah səni saxlasın!
Düşmənlərin anası qan qan ağlasın,
Bacıları qara örpək bağlasın,
Qardaşları boyansınlar al qana,
Qaçqın düşsün hər uşağı bir yana!

Gəl, gədələr öz həddini aşmasın,
Nadürüst məmurlar harınlaşmasın,
Karvan azar, sərvan yolu çaşmasın,
Hər kəs öz yerini, işini bilsin
Rüşvət, təmənnalı bəxşiş kəsilsin.
***
Səndən xata-bala, qəm uzaq olsun,
Üzün gülsün, daim kefin çağ olsun,
Çox şəhidlər verdik, başın sağ olsun!
Sayı bilinməyir ölüb-itənin,
Tez gəl, qeydinə qal xalqın, Vətənin.
***

Sapı özümüzdən olan baltalar,
Qoyma bizi kəsib, qırıb-çatalar,
Eli kənd-kənd, kəndi ev-ev satalar,
Məmləkəti yaman günə salalar,
Antalyada, İsveçdə mülk alalar.

***

Bədnam, paxıl qonşu biznən kəc oldu,
Namərd oldu, nankor oldu, bic oldu,
Sənsiz gördük elin günü necə oldu,
Tez gəl, Vətən bir də parçalanmasın,
Amandı, el-eldən aralanmasın!

***

Beteerlə, tankla gəzir şəhərdə
Bir azca imkanı olan hər gədə.
Bir səy bəylik edir hər bir bölgədə,
Bəylər də çoxalıb indi, bəylikdə,
Bəylər yaratdığı dərəbəylikdə.

***

Düşmən tankla, topla atəş açanda,
Evlərimiz başımıza uçanda,
İmkan tapan öz evindən qaçanda,

Qarşılaşdı çoxu gülləbaranla,
Gədiklərdə güclü qarla, boranla.

***

Xalqı eşitmədi başdakı karlar –
Xalqın əhvalını görməyən korlar,
Dada çat, diriykən bu gorbagorlar,
Nə dükçədir, nə dükçəyə yumaqdır,
Nə sümbədir, nə sümbəyə toxmaqdır.

***

Odlar yurdu aşıq-ozan yurdudur,
Qoç Koroğlu, Halaypozan yurdudur,

Hər əsgəri müzəffər bir ordudur,
Bunu dostlar bilir, bilsin yağı da,
Sən ki, varsan, qisas qalmaz yağıda.
***
Keşiş azğınlaşıb, xalqı azdırıb,
Balayana qara "Ocaq" yazdırıb,
Çoxlarına öz qəbrini qazdırıb,
Eçməzdində qulluq edir canına ,
Əli batıb Silvanın el qanına.
***
Xallı dazbaş iblis, Larisa şeytan,
Staravoytova quduz Şarlaton,
Bu üç aravuran, bu üç başqatan,
Kafirlərə verib gücü, fürsəti,
Düşmən elədilər iki milləti.
***
Quzey yeli yarpaqları tökür, gəl,
Yurdumuza qara duman çökür, gəl,
Şeyxül İslam hıçqırıb, ah çəkir, gəl,
Cihad etsin, millət qalxsın ayağa,
Ya qalıb, ya şəhid olaq torpağa.
***

Ümidimiz, zülm ərşə çıxır, gəl,
Başımıza bomba, mərmi yağır gəl,
Millət sənə ümid kimi baxır, gəl,
Məktub yazır, tel göndərir adına,
Hoyuna gəl, yetiş elin dadına.
***
Top mərmisi evimizi yıxır, gəl,
Yadlar bizi hər tərəfdən sıxır gəl,
Anaların ahı ərşə çıxır, gəl,
Yada dağ bas, sinəsi dağ-dağ olsun,

El yanında, gülər üzün ağ olsun!
***
Paqonlular gəzir əlində silah,
Aşkara qoçululuq edirlər, vallah,
Çəkilmir qaranlıq, açılmır sabah,
Hamı günah edir, həyanı atıb,
Mömin libasında babilər artıb.
***
İsti suyun zümzüməsi susur, gəl,
Kəlbəcərə qara yellər əsir, gəl,
Körpələri yağı boğur, kəsir, gəl,
Gəlinləri ahı ərşə çıxır, gəl,
Millətliyin qanı nahaq axır, gəl.
***
Məmləkətdə nə qanun var, nə qayda,
Nə qanun-qaydanı salan var, yada,
Torpağı satanlar yağıya, yada,
“Starşı brat”dan “malades” alır,
Bakıda bağ, villa, mersedes alır.
***
Yaş axıdır xarı bülbül gözündən,
Azalır şənliklər Cıdır düzündən,
Vaqif içən bulaqların gözündən,

Dişi qanlı quldurlar su içir, gəl,
Şuşa, laçın əldən-ələ keçir, gəl.
***
Göz çıxarır, qan tökür yad cidası,
Ərşə çıxır ah-nalənin sədası,
Ağlar qalan anaların qadası
Düşsün “hay”ın anasının canına,
“Xozyan”ların qolu düşsün yanına!
***

Dağ titrədir Nəbilərin nərəsi,
Bir Həcərdi qızlarıyın hərəsi,
Qurda qalmaz şirin dağı-dərəsi
Aranı, yaylağı, dağı, düzü, gəl,
Bala, qurtar zəlalətdən bizi, gəl.

***

Xalqı qırılır, millət yasa batır, gəl,
Körpələr ac-susuz, şamsız yatır, gəl,
Satqınlar əl altdan yurdu satır, gəl,
Bərələrdə ayıq-sayıq duraq, gəl,
Xainləri gözlərindən vuraq gəl.

***

Uşaq sayıb, bizə nağıl deyirlər,
Cəbhə üçün yığılanı yeyirlər,
Xocavəndi vuruşmasız verirlər,
Bilinməyir verən kimdi, alan kim,
Qaçan kimdi, ölən kimdi, qalan kim.

***

Düz deyənin qolu daldan çatılır,
Una kəpək, yağa "sana" qatılır,
Yardımmalar bazarlarda satılır,
Bəlli olmur satdıran kim, satan kim,
Qulumuzu burub, daldan çatan kim.

***

Gədələr bəy olur, azır yolunu
Hələ haqsızlığın görünmür sonu,
Canini, qulduru, bici, oğrunu,
Bazara, mahala başçı qoyurlar,
Onların əliylə xalqı soyurlar.

***

Qırıb, qurtarırlar üzümlükləri,
Bahalaşır üzüm, üzüm tinkləri.

Xalqa məmurların elədikləri
Zülmü, haqsızlığı saymaqla bitməz,
Burda olsan, onlar fironluq etməz.
***
İşləmir fabriklər, zavodlar daha,
Sexləri sökürlər göz baxa-baxa,
İşsizlər çörəkçün tapmır beş şaha,
Pul tapmır dərmana, həkimə çoxu
Qovur gözümüzdən yuxunu qorxu.
***
Möhtəkirlər bahalaşma gözləyir;
Düyünü, taxılı, unu gizləyir,
Verməşili, makaronu gizləyir,
Nə balıq tapılır dükanda, nə ət,
Nə süd məhsulları, nə şəkər, nə qənd.
***
Uralanıb elin bağı-bağçası,
Boş qalıbdı geyim-keçim boğçası,
Ərzaqsızdı dükanların taxçası,
Ümidimiz çöldə pəncərə qalıb,
Dərilib, çöllərdə pencər azalıb.
***
Su vermirlər kirimizi yumağa,
Bir iynəlik sap tapılmır yamağa,
Qıtlıq bizi döndəribdi yumağa,

Xaricə daşınır misdən hər nə var, -
Aşsüzən, test, səhəng, sərnic, samovar.
***
Oxunmur ərzəsi daha heç kəsin,
Hamı çaşıb-qalıb, bilmir neyləsin,
Belə yaşamağı Haqtala kəssin,
Xəstələnən ölür, getmir həkimə.

İndi borc da vermir heç kim, heç kimə,
***

İvan, Vartan Qarabağı alır, gəl,
Xalqımızı yaman günə salır, gəl,
Qoçaq Ümid, ümid sənə qalır, gəl,
Hoyuna çat, qurtar xalqı bəladan,
Sənə kömək olsun xalqın,  Yaradan!
***

Hərbidən yayınır hərə bir yolla,
Çavuşlar əsgərlə getməyir yola,
Deyirlər:-cəbhədə satırlar, pulla,
Əsgərə-əsgərin yarağını da,
Yorğan-döşəyini, ərzağını da.
***

Rüşvətsiz, bəxşişsiz düzəlmir bir iş,
Rüşvətlə, bəxşişlə qurtarır təftiş,
Pozur qanunları hakim, müfəttiş,
Rüşvət qanunlar eləyib xəstə,
Ədalət can verir qalıb üzüstə.
***

Qışın artan kimi qarı, ayazı,
Azalır kəndlərin işığı, qazı,
Hamı məmurlardan olur narazı,
Hər kəsdə nöqsan var, hər işdə əngəl,
Qanuna-qaydaya olunmur əməl.
***

Elin oğlu, el qeydinə qalaq, gəl,
Şəhidlərin qisasını alaq, gəl,
Əsirləri yadımıza salaq, gəl,
Əsirlərimiz əsarətdə qalmasın,
Qisasımız qiyamətə qalmasın!
***

Bulanır saf sulu bulaqlarımız,
Tapdanır safalı yaylaqlarımız,
Yağılara qalır oymaqlarımız,
Yersizlər kef çəkir Cıdır düzündə,
Yerlilər dərd çəkir çadır düzündə.

***

Yolunu gözləyir yurdsuz qalan, gəl,
Malını, mülkünü yadlar alan, gəl,
Yataqxanalarda məskən salan, gəl,
Yurdsuzlar-yurd, evsizlər ev istəyir,
Ümid, sənə millət ümid bəsləyir.

***

Kimdə silah vardı, hökumət aldı,
Dava vaxtı millət silahsız qaldı,
Başsız başçılara inam azaldı,
Artdı tətillərin sayı meydanda,
Mitinqlər çoxaldı Azərbaycanda.

***

Onda Nemət meydanda hay salardı,
“Azadlıq”, “Qarabağ” harayımız vardı.
Tələbimiz: “TASS, bizdən yaz”, olardı,
Müstəqillik, hürriyyət diləyirik,
“Ya Qarabağ, ya ölüm”, - deyərdik.

***

Tanklar ilə, meydana tay tutdular,
Çoxlarını öz qanına qatdılar,
Döyə-döyə qazamata atdılar,

Küçələrdə gediş-gəliş azaldı,
Karxanada, zavodda iş azaldı.

***

Bakıya hər yanda yağı soxuldu,
Fədailər öz qanında boğuldu,

Yas tutanlar, yasxanalar çoxaldı,
Xiyabanda saysız qəbir qazıldı,
Tariximizə "Qara Yanvar" yazıldı.
***
Qırx gün yaslı ağı dedik, ağladıq,
Şəhidlərə bir qırx gün yas saxladıq,
Eyvanlara qara bayraq bağladıq,
Analarımız saçın yolub, ağladı,
Qız-gəlinlər qapqara şal bağladı.
***
Xilaskarımız, ağlamaqla kar aşmaz,
Bizim xalqa göz yaşları yaraşmaz,
Şir yurdunda çaqqal, tülkü ulaşmaz,
Qov bu sümsükləri cavan şir kimi,
Koroğlu, Xətai, Cavanşir kimi.
***
Meydanlarda çoxu çox söz deyərdi,
Boş vəd verib, sinəsinə döyərdi,
Yardımları beş-on acgöz yeyərdi,
Biz yenə də yardıma pul yığardıq,
Elçibəyə xilaskartək baxardıq.
***
Kimi cəbhə, kimi dəstə yaradır,
Vədəbazlar hələ xalqı aldadır,
Arabanı hərə bir yana dartır,
Birləşə bilmirik turpu çıxaraq,
Hamı səni gəzir əlində çıraq.
***

Etibarla, Xəlil Rza tutulub,
Mitinq, tətil etmək qadağan olub,
Bakının üst yanı qəbiristan olub,
Şəhid məzarları günbəgün artır,

Ünümüz nə Rəbbə, nə şaha çatır.

***

Yad daş atdı, sularımız bulandı,
Sərvətimiz yağmalandı, talandı,
Xocalımız yandı, oda qalandı,
Sinəmizə dağ-dağ üstən çəkildi.
Torpağımız yad tankıyla əkildi.

***

Çay tapmırıq, dəmləyirik yarpızı,
Ehtiyac kəsdirir hey qapımızı,
Dükanlara dolub rusun saqqızı,
Nə doydurur, nə damağa dad verir,
Neftimi alan mənə saqqız göndərir.

***

Oğru, quldur Həccə gedir,hacı olur,
Bicin hökmü, möhrü, taxtı, tacı olur,
Toxlar yeyir, aclar yenə ac olur,
Mülkü olan təzə, baha mülk alır,
Qaçqın köçkün dar daxmada ac qalır.

***

Komandan ol, yaddan qisas alaq, gəl,
Yağıları pərən-pərən salaq, gəl,
Baş meydanda zəfər marşı çalaq, gəl,
Uşaq kimi baş meydana qaçım, gəl,
Quşdan qanaq alıb, yeltək uçum, gəl.

***

Artır şadlıq evi, oxuyan, çalan,
Çoxalır meylini alverə salan,
Azalır millətin qeydinə qalan,

Artmır müəllimin, həkimin maaşı,
Artır, müfəttişin, hakimin maaşı.

***

Cin toxunub, kələf yaman dolaşıb,
Karvan yolu azıb, bələdçi çaşıb,
Olan olub, zülm həddini aşıb,
Gəl, qurtar xalqını alovdan, oddan,
Xilas et Vətəni, yağıdan, yaddan.

***

Yağı torpağında bostan əkir, gəl,
Məscidini minarəni sökür, gəl,
Quzey yeli gözümüzü tökür, gəl,
Gözlərimiz yolda qalır, hardasan?
Düşmən Qarabağı alır, hardasan?

***

Bədxah, bədhaq, nankor, mənfur Arşaqlar –
Ayılara arxanan sarsaqlar,
Bilməyirlər sənin kimi qoçaq var,
Qoymaz Vətənini, xalqını darda,
Gözləyirik, tez gəl, hardasan, harda?

***

Ələbaxan bəzi acgöz məmurlar,
Qanuna-qaydaya məhəl qoymurlar,
Qorxmurlar, hamıdan rüşvət umurlar,
Rüşvət verməyənin düzəlmir işi,
Gəl, kəs bu bazarı, alış-verişi,

***

Yadlara qalmasın yurdun, yaylağın,
Gəl, yağıdan azad olsun torpağın,
Xankəndində dalğalansın bayrağın,
Sayəsində şadlıq edək, dincələk,
Şuşa yaylağına gedək, dincələk!

***4.11 mart, 1992***

## Hələ tökülür qanlar

*Dünyanın və Azərbaycanlıların*
*azadlıq sevənlərinə ithaf*

***Ya şəhid, ya qalib, ya da azad ol!***
***Köləlikdən ölüm yaxşıdır, oğul.***
*Binnət Eloğlu*

Atsaq da müstəmləkə yükünü çiynimizdən,
Cahangirlər sailtək yenə pay umur bizdən.
Sırtıq dilənçi kimi acgöz fatehlər yenə,
Qapımıza gəlirlər pay üçün dönə-dönə.
Bu həyasız saillər div tək doymaq bilməyir,
Axşam sədəqə alan, sabah da paya gəlir.
Bir deyil, iki deyil bizdən hər gün pay uman,
Quduz kimi cumurlar üstümüzə hər yandan.
Düz deyiblər: - Pis olur dadanan qudurandan,
Yer verib, yallamışıq, qudurub nankor Vartan...
İki əsrdi çoşkalar dadanıb darımıza,
Axmaq ayılar qənim kəsilib malımıza.
Çoxdandır əlbir olub bic tülkü, axmaq ayı,
Çoxdandır nəsib olur tülküyə şirin payı.
Yaltaq, bic tülkülərə ayı olub havadar,
Cəsur şirin başına oylağını edib dar...
Dünyanın çox yerində zalimlər at oynadır,
Gücsüzlərin hər yerdə hələ halı fənadır.
İğtişaşlar törədir yenə müsyölər, serlər,
Rusiyada şovinistlər, Almaniyada nasistlər.
Yerevanda daşnaklar, Təlavivdə sionistlər,
Demokratiya maskalı bəd xislətli ilbislər.
Hələ təlaşla vurur dünyanın hürkək qəlbi,
Körpəsi oda düşmüş ananın qəlbi kimi,
Ümid də fürsət tapıb, qaçıb insan əlindən,

Bəşəriyyət dad çəkir beş-on tiran əlindən,
Hələ günbəgün artır insanların dərdləri,
Təxribatlar törədir müharibə ilbisləri.

Yenə ağ-ağ divarlar dolur qara fərmanla,
Cahandarlar oynayır yenə ölümlə, qanla...

***

Xox gəlməkçün hamıya,
Üç gündə Yaponiyaya
iki bomba atanlar,
İki abad şəhərdə xaraba yaradanlar,
Min-min yaponiyalını yandırıb, kül edənlər,
Min-min yaponiyalını şikəst, əlil edənlər,
Utanıb ölməyirlər, çəkməyirlər xəcalət,
Minlərlə yaponyalı hələ çəkir əziyyət.
Hələ Xirosimoda,
Bir də Naqasakidə
Şikəst, xəstə doğulur uşaqlar analardan,
Hələ on il yaşamır mayıf doğulanlardan...
Fələstin torpağında İsrail yaradanlar,
Əlli ildi Fələstində hələ də tökür qanlar.
Əlli ildi Fələstinlinin qanı nahaq tökülür,
Fələstin torpağı yad tanklarıyla əkilir.
Fələstin qaziləri şəhid olur hələ də,
Fələstin məhbusları saxlanır Təlavivdə.
Topla, tankla, raketlə Fələstin dağıdılır,
İki qonşu o vaxtdan bir-birinə yağıdılar...
Bir vaxtlar Vyetnamı poliqon eləyənlər;
Vyetnamlının çörəyini, suynu qan eləyənlər;
Çəltik tarlalarını toplar ilə biçənlər,
Vyetnam şəhidlərinin üstdən tanka keçənlər,
Vyetnamda sınadılar təzə silahlarını,
Etiraf etmədilər barı, günahlarını...

Sonra Əfqanıstanı qanına bulayanlar;
Əfqanıstanı əfqan qanıyla sulayanlar,
Əfqanlıları ağır tanklarla tapdayanlar,

Əfqanimi günahkar, özünü haqlı sayanlar,
Bezib, əl çəkməyirlər, çirkin əməllərindən,
Neft, qaz, sərvət umurlar islam ölkələrindən...
Fitnə-fəsad yuvası İsrayılın, Pentaqonunu,
Berlinin, Yerevanın –
İşğalçılıq, imperiya, müharibəpərəstləri -
Rusiyanın Pyotra, inqilabçı Leninə,
Daşnakların qudurğan tayqulaq Andronikə,
Faşistlərin Hitlerə sədaqətli itləri,
Yenə silahlandırır quduz küçüklərini,
Yayırlar yer üzünə yolxucu yüklərini...
Yerdə, suda, havada artır atom sınağı,
Atomlu hegemonlar olur xalqlara yağı.
Aralıq dənizində aralığı qatırlar,
Çoxlu bazalar qurur, armada yaradırlar.
Fitnə tumu səpirlər Misirdə, həm İraqda,
Təxribatlar törədib, dayanırlar dayanırlar qıraqda.
Yenə sionistlərin,
Serlərin, müsyölərin
Fitnəsi, feli ilə
Hələ qanını tökür müsəlman-müsəlmanın,
Sinəsinə dağ çəkir müsəlman-müsəlmanın.
Müsəlman-müsəlmanı edir qaçqın, didərgin,
Yadlar at oynadırlar qoynunda Yaxın Şərqin.
Murdar əlləri ilə yazdıqları fərmanla,
Muzdlurlar oynayırlar yenə ölümlə, qanla.
Təyyarələr, gəmilər balaca dövlətlərə,
Hər gün silahlı əsgər, zabit daşıyır yenə.
Fitnəkar dövlətlərə-Xatakar dövlətlərə
İçində meyit olan tabut daşıyır yenə.

Çox ölkədə müharibə hərislərinin əliylə,
Antiislam niyyətli iblislərin əliylə,
hələ tökülür qanlar

Ot yeyir, yarpaq yeyir,
Həsirdən paltar geyir,
Öz yurdundan qovulmuş didərgin, lüt insanlar.
Qan hərisləri atır arını, ismətini,
Dişi canavar kimi sevir insan ətini.
Sürək görmüş bu acgöz quduzlaşmış qurdların
İtiləyir dişini.
İşğalçılıq, imperiya, müstəmləkə düşkünü
İnsanlığın düşməni -
Leninçi üsyançılar,
Hitlerçi novfaşistlər,
Ac, dilənçi daşnaklar,
Harın müsyolar, serlər.
Bu azğın quduzların nə vaxt coşanda kini,
Xarabaya çevirir ehramlar ölkəsini.
Dünyanın dincliyini pozur topların səsi,
Aydan-aya dəyişir dünyanın xəritəsi.
Müqəddəs yerlərinə divan tutulur şərqin,
İslam məbədlərinə uzanır əli hərbin...

***

Eşidin, a dünyanın quduz cahangirləri,
Atın gic başınızdan çürümüş fikirləri.
Siz, a silah gücünə xalqı qırıb-çatanlar;
Təxribat törətməklə niyyətinə çatanlar,
Məzlumların qanını zəli kimi soranlar,
Hər yanda baza adlı cəhənnəmlər quranlar;
Hər yerdə insanların dincliyini pozanlar,
Az saylı millətlərə ölüm hökmü yazanlar,
Eybəcər kölgənizdən tanıyırıq biz sizi,

Maskada da bədheybət, sırtıq, bəd üzünüzü.
Bəşəriyyətə çirkin niyyətiniz bəllidir,

Qudurursunuz, quduza gəbərmək təsəllidir.
Bəsdir, bəsdir dünyanı qoztək alıb-satdınız,
Bəsdir, pak insanlara qara böhtan atdınız.
Bəsdir, haqqı tapdayıb, həqiqəti boğdunuz,
Azadlıq ümmanları, bəsdir, ağlar qoydunuz.
Atdınız abrınızı, vicdanı unutdunuz.
Əyri əməllər üçün əyri yollar tutdunuz...
Sizə göz dağı idi böyük Türk imperiyası,
Bədxahlar, törətdiniz Türk-Antanta davası.
Sizinlə həmrəy oldu ermənilər, yunanlar -
Türkdən torpaq umanlar.
